

Tbilisi
GÜRCÜSTAN
RUSİYA
Ağstafa
Qazax
Tovuz
İcevan
Şəmkir
Gəncə
Dilican
Gədəbəy
Xanlar
Yevlax
Tərtər
Bərdə
ERMƏNİSTAN
Vardenis
Kəlbəcər
Ağdərə
Ağdam
Xankəndi
Şuşa
Laçın
Beyləqan
Füzuli
Gorus
Sisyan
Qubadlı
Cəbrayıl
Naxçıvan
Qafan
Zəngilan
Mehri
İRAN
Sumqayıt
BAKI
XƏZƏR DƏNİZİ
BMT-nin 822 və 853 saylı qətnamələrindən əvvəl işğal olunmuş Azərbaycan ərazisi
BMT-nin 853 saylı qətnaməsindən sonra işğal olunmuş Azərbaycan ərazisi
Azərbaycanın Qarabağla heç bir sərhəddi olmayan və BMT-nin 874 saylı qətnaməsindən sonra işğal olunmuş ərazisi
Erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş Kəlbəcər və Laçın rayonlarının ərazisi
Erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş Qarabağ ərazisi
Erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş Ağdam ərazisi
Erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının ərazisi
Erməni silahlı qüvvələrinin işğaletmə istiqamətləri
Qeyd: Bu qətnamələr suveren Azərbaycan ərazisinin azad olunmasını tələb edir. Ermənistanın hərbi təcavüzü nəticəsində 1 milyondan çox azərbaycanlı Ermənistandan və Qarabağdan qovulub qaçqın vəziyyətinə düşüb.

ŞÖHRƏT SƏLİMBƏYLİ
NİZAMİ ZAMANOV RAUF ƏLİYEV

# ERMƏNİ TERRORU

## QARABAĞDA MÜHARİBƏNİN BAŞLAMASI HADİSƏLƏR... FAKTLAR...

## I KİTAB

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

«AVROPA» NƏŞRİYYATI BAKI. 2008.

Az-2
S-42 REDAKTORU: **NÜSRƏT ABDULOV,**
*Əməkdar ixtiraçı, Texnika elmləri namizədi, «Qızıl qələm» mükafatı laureatı*

RƏYÇİLƏR: **BABƏK QURBANOV,**
*Fəlsəfə elmləri doktoru, professor*

**FÜZULİ RZAQULİYEV,**
*Qarabağ müharibəsinin iştirakçısı, ehtiyatda olan polkovnik*

**ŞAHİD HƏBİBULLAYEV,**
*Qarabağ müharibəsinin iştirakçısı, «Azərbaycan Bayrağı» ordenli*

S-42. «**ERMƏNİ TERRORU. QARABAĞDA MÜHARİBƏNİN BAŞLAMASI. HADİSƏLƏR... FAKTLAR...**» «AVROPA» NƏŞRİYYATI. BAKI. 2008. 400 səh.

Bu kitabda XIX-XX əsrdə Azərbaycan torpaqlarının erməni və rus hərbi birləşmələri tərəfindən işğalı, parçalanması, xalqımızın öz yurd-yuvalarından didərgin salınması təsvir edilmişdir. Həmçinin 1988-ci ildən başlayaraq Ermənistanın Azərbaycana qarşı olan soyqırım və deportasiya aktları, əsassız torpaq iddiaları, Rusiyanın terrorçulara göstərdiyi hərbi yardımlar da kitabda dəqiq faktlarla öz əksini tapmışdır.
Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

S $\frac{4702060104}{8032\text{-}2008}$ **qrifli nəşr**

**«AVROPA» NƏŞRİYYATI. 2008.**

# ÖN SÖZ ƏVƏZİ

## AVROPA DÖVLƏTLƏRİNİN YARATDIĞI «ERMƏNİ MƏSƏLƏSİ»

İki yüz ildən artıq bir müddətdir ki, tarixin baş ağrısına çevrilmiş, «erməni məsələsi» vaxtaşırı müəyyən siyasi dairələr tərəfindən gündəmə gətirilir. İstifadə olunur, problem öz aktuallığını itirdikdən sonra isə yenidən işlədilmək üçün dincə qoyulur.

### ERMƏNİ MƏSƏLƏSİ NƏDİR VƏ NƏ VAXT YARANMIŞDIR!

**Türk tədqiqatçısı və tarixçisi İsmət Binark yazır:** «Erməni məsələsi» «Şərq məsələsi»nin tərkib hissəsi olaraq XIX əsrin ikinci yarısında Avropa dövlətləri tərəfindən ortaya atılmış və 13 iyun 1878-ci il tarixli Berlin Konfransında rəsmiləşdirilmişdir. Bu Konfransın guya ki, Türkiyə ərazisində yaşayan ermənilərin hüquqi təminatlarının yaradılması məqsədi daşıyan qətnaməsi, əslində, Osmanlı Türkiyəsini içəridən dağıtmaq məqsədi güdürdü».

Təəssüflər olsun ki, Osmanlı imperatorluğu dağıdıldıqdan sonra da «erməni məsələsi» tarixin arxivinə göndərilmədi, vaxtaşırı Müasir Türkiyə dövlətinə və Azərbaycana qarşı istifadə olunmağa başladı.

«Erməni məsələsi» Birinci Dünya müharibəsi zamanı Türkiyə vətəndaşları olan ermənilərin öz dövlətlərinə xəyanət edərək törətdikləri separatçılığa, terrora və milli qırğına haqq qazandırmaq üçün bəzi Qərb dövlətlərinə lazım olduğu kimi, ikinci Dünya müharibəsindən sonra (1948-ci il) Ermənistan SSR-də yaşayan 100 mindən artıq azərbaycanlının tarixi-etnik torpaqlarından deportasiyası zamanı, həmçinin 1988-ci ildə Dağlıq Qarabağın Azərbay-

canın tərkibindən çıxarılıb Ermənistana birləşdirilməsi ideyasını «əsaslandırmaq» üçün ermənilərə və SSRİ-nin ermənipərəst rəhbərliyinə lazım olmuşdur.

«Erməni məsələsi»ndən son illərdə Avropa Birliyinin qapılarını daha inadla döyməkdə olan Türkiyəyə qarşı bir siyasi təzyiq vasitəsi kimi istifadə olunması da göz qabağındadır. Bir sıra Qərb dövlətlərinin guya ki, 1915-ci ildə Türkiyədə törədilən, əslində isə, olmayan «erməni genosidi»ni tanımaq cəhdləri də Avropaya çox sürətlə inteqrasiya edən Türkiyəyə göstərilən siyasi basqıdan başqa bir şey deyildir.

## TÜRKLƏR VƏ ERMƏNİLƏR

Tarixi həqiqət isə bundan ibarətdir ki, nə Türkiyədə, nə də onun hüdudlarından kənarda heç bir zaman «erməni soyqırımı» deyilən bir hadisə baş verməmişdir. «Erməni məsələsi»ndən qaynaqlanan milli zəmində münaqişələr olmuşdur ki, bu qırğınlardan da ən çox zərər çəkən türklər və azərbaycanlılar olmuşlar.

## TARİXİ HADİSƏ

**Amerika şərqşünasları, professor Castin və Karolin Makkartilər «Türklər və ermənilər» kitabında yazırlar:** «Tarixi həqiqət budur ki, Rusiya imperiyasının sərhədlərinin genişləndirilməsi Qafqazda və Şərqi Anadoluda yaşayan xalqların ənənəvi nisbətini alt-üst etmişdir. Biz dəqiq bilirik ki, 1828-ci ildən 1920-ci ilədək 600 min erməni Rusiya ərazisinə köçürülmüş, 2 milyon müsəlman isə Rusiyadan getmişdir. Sizi əmin edirik ki, dediklərimizin hamısı həqiqətdir, qısa da olsa bu insan əzabları haqqında tarixdir, belə əhvalatların çoxunda olduğu kimi, burada da nə qəhrəman var, nə cəllad, yalnız qurbanlar vardır, insan qurbanları, onların türk və ya erməni olduqlarının məsələnin mahiyyətinə dəxli yoxdur».





Ermənilər Osmanlı imperatorluğunun tabeliyində yaşadıqları 500 il ərzində onların dinlərinə, dillərinə, adət-ənənələrinə hörmətlə yanaşılmışdır. Bu dövlətin içərisində ermənilər türklərdən daha yaxşı yaşamışlar. Bu da bir paradoksdur ki, ilk erməni terrorçu təşkilatı olan inqilabçı-separatist təmayüllü «Armenakan» partiyası 1885-ci ildə İstanbulda, Osmanlı dövlətinin ən sərt hökmdarlarından biri sayılan sultan Əbdülhəmidin dövründə yaranmışdır. Sultan Əbdülhəmidin baş məsləhətçisi erməni, həkimi isə yəhudi olmuşdur.

Tarixi həqiqət bundan ibarətdir ki, erməni siyasətçilərinin 90 ildən bəri dil-boğaza qoymadan çığırdıqları, 1915-ci il «genosid»indən 10 il əvvəl, ermənilərin tərəfindən Azərbaycan türklərinə qarşı soyqırım və etnik təmizləmə əməliyyatı aparılmışdır. Sovet Alman müharibəsi zamanı Türkiyə ilə sərhəddə yaşayan axıska türkləri, krım tatarları, çeçenlər, şimali qafqaz xalqları Orta Asiyaya və Qazaxıstana sürgün edildi. **1905-1906-cı illərdə** ermənilər təkcə İrəvan və Yelizavetpol quberniyalarında 20 mindən çox azərbaycanlını qətlə yetirmiş, 250-dən çox kəndi dağıdıb yerlə-yeksan etmişdir. **Cəmi bir ay ərzində Zəngəzur qəzasının** Şəki, Qarakilsə, Ağdü, Vağadi, Urud, Qatar, Xələc, İncəvar, Karxana, Yeməzli, Daşnov, Çullu, Lök, Saldaşlı, Mollalar, Oxçu-Şabadin, Atqız, Pirdovdan, Zürül, Fərcan, Sənanlı, Çullan və s. kəndləri erməni silahlıları tərəfindən yandırılıb dağıdılmış, əhali soyqırıma məruz qalmışdır.

1905-1906-cı illərdə ermənilərin İrəvanda, Gəncədə, Zəngəzurda, Qarabağda azərbaycanlı əhaliyə qarşı törətdikləri qanlı cinayətlər və deportasiya aktları görkəmli Azərbaycan yazıçısı

Məmməd Səid Ordubadinin «Qanlı sənələr» və Mir Möhsün Nəvvabın «1905-1906-cı il erməni-müsəlman davaları» kitablarında şahid ifadələrinə və faktlara əsaslanaraq olduqca əyani şəkildə təsvir olunmuşdur.

Birinci Dünya müharibəsinə qatılmış Osmanlı Türkiyəsi 1915-ci ilin aprelində ağır bir hərbi durumda idi. İngiltərənin və Fransanın birləşmiş donanması Çanaqqalaya 250 min nəfərlik desant çıxarmış, rus qoşunları isə Van və Ərzurum tərəfdən yerli ermənilərin açıq və fəal dəstəyi ilə Türkiyənin içərilərinə doğru irəliləyirdi. Silahlı erməni əsgər və zabitləri kütləvi şəkildə ordudan fərarilik edərək Türkiyənin Şərq əyalətlərinə toplanaraq bu ərazilərdə xüsusilə Ərzurum, Van, Bitlis, Xarput, Diyarbəkir, Sivas vilayətlərində «Qərbi Ermənistan» dövləti yaratmaq məqsədi ilə bu ərazilərdə milli-dini zəmində *(türklərə və kürdlərə qarşı)* qırğınlar törətməyə başladılar. Getdikcə artan erməni separatizmini və milli qırğını dayandırmaq üçün Türkiyə hökuməti 1915-ci ilin 24 aprelində İstanbulda bir qrup erməni siyasi və hərbi liderlərini həbs etdirdi. Bir nəfər erməninin də burnu qanamayan bu günü sonralar ermənilər «genosid» günü kimi qeyd etməyə başladılar.

Əsl genosid isə ermənilər tərəfindən türklər və azərbaycanlılara qarşı törədilmişdir.

Türkiyə ərazisində erməni dövləti yaratmaq planı puça çıxandan sonra daşnaklar eyni planı Azərbaycanda həyata keçirmək üçün fəaliyyətə başladılar.

**1918-ci ilin mart-aprel aylarında** bolşeviklərin güclü dəstəyindən istifadə edən ermənilər Bakıda azərbaycanlılara qarşı əsl





soyqırım əməliyyatı apardılar. Qocalar və qadınlar qılıncdan keçirildi, uşaqlar nizələrə sancıldı, əsir götürülmüş kişilərin gözləri qarşısında onların qadınlarının namusu tapdalandı, körpələrin ətləri diri-diri kəsilərək ata-analarına yedizdirildi, müsəlman şəhəri olan Bakıda minlərlə Qurandan qalanmış tonqalın alovu və həmin tonqallarda diri-diri yandırılan din xadimlərinin ah-fəğanı göyə bülənd oldu.

Daşnak-bolşevik hərbi birləşmələri tərəfindən 1918-ci ilin yazında Quba, Lənkəran, Şamaxı, Gəncə bölgələrində 300-dən artıq Azərbaycan kəndi dağıdıldı, yandırıldı, talan edildi. Bütün bu qırğın və talanlara bolşevik daşnaklar Stepan Şaumyan, Avetisyan, Avakyan, Lalayev rəhbərlik edirdilər.

Azərbaycanın qərbində isə 10 min nəfərlik qoşunla Türkiyə ordusundan fərarilik etmiş tayqulaq Andronik Ozanyan misli görünməmiş qəddarlıqlar törətmişdir. Andronikin quldur dəstəsi tərəfindən Göyçə, İrəvan, Naxçıvan, Dərələyəz və Zəngəzurun bütün Azərbaycan kəndləri (500-dən çox) dağıdılıb yandırıldı, burada yaşayan 600 min nəfərdən çox azərbaycanlının böyük bir hissəsi qətlə yetirildi, qalanları isə öz doğma yurd-yuvalarından didərgin salındı.

Andronik Ozanyanın Zəngəzurdakı qanlı əməlləri 1922-ci ilə qədər daşnak quldurları Dro və Nijde tərəfindən davam etdirildi.

Bax, budur soyqırım, bax budur deportasiya, bax budur bir millətə qarşı genosid siyasəti!

Təəssüflər olsun ki, ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən etnik təmizləmə əməliyyatları Sovet hakimiyyəti gələndə də davam etdirilmişdir.

**SSRİ Nazirlər Sovetinin qərarı ilə 1947-1953-cü illərdə** Ermənistan SSRİ-də yaşayan 100 mindən çox azərbaycanlı tarixi-etnik torpaqlarından deportasiya olundu, 1988-ci ildə isə 200 minə yaxın azərbaycanlı öz dədə-baba yurdlarından didərgin salındı.

Daha sonra isə Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və Qarabağ ətrafındakı 7 rayonu Ermənistan ordusu tərəfindən işğal olundu. Burada yaşayan 800 minə yaxın azərbaycanlı deportasiya edildi, 20 min nəfər öldürüldü, 50 mindən çox insan yaralandı, əlil oldu, itgin düşmüş minlərlə insanın öldüsü-qaldısı hələ də bilinmir.

**Daha sonra isə Xocalı soyqırımı törədildi.** 1992-ci ilin 26 fevralında bir gecənin içərisində 6000-ə yaxın əhali yaşayan azərbaycanlı şəhəri Xocalının altı üstünə çevrildi. 613 nəfər qoca, uşaq, qadın qətlə yetirildi, 2000-dən çox insan yaralandı, onlardan 1000 nəfəri ömürlük şikəst oldu, 1250 nəfər insan əsir edilərək işgəncəyə məruz qaldı. Onlardan 150 nəfərin taleyi bu gün də məlum deyildir. Bu insanların yalnız bir «günahı» var idi - onlar azərbaycanlı idilər.

Bax, budur soyqırım, bax budur bir millətə qarşı törədilmiş cinayət!

Bir var tarixi həqiqət, bir də var siyasi reallıq. Təəssüf ki, bu gün bütün dünyada demokratik dəyərlərin, insan haqlarının müdafiəçisi və daşıyıcısı kimi çıxış edən Qərb ölkələri bir qayda olaraq hadisələrə tarixi həqiqətin güzgüsündən deyil, özlərinə lazım olan siyasi reallıqların gözü ilə baxmağa üstünlük verirlər. Əgər belə olmasa idi, 90 il bundan öncə çox qarışıq tarixi, siyasi, hərbi şəraitdə Türkiyədə milli zəmində baş vermiş qarışıq qırğını «erməni soyqırımı» kimi tanımağa Türkiyədən təkidlə tələb edən Avropa Birliyi ölkələri, gözlərinin qabağında Azərbaycanın torpaqlarını işğal edən Ermənistanı işğalçı dövlət kimi tanıyardılar, ona dəstək verməzdilər, yardım göstərməzdilər.





Təəssüflər olsun ki, terrorla mübarizəni bir nömrəli vəzifə elan edən qərb ölkələri son 20 ildə Azərbaycana qarşı 30-dan çox terror əməliyyatı *(avtobuslarda, qatarlarda, metropolitendə)* törədən Ermənistana gözün üstə qaşın var demirlər.

Təəssüflər olsun ki, Azərbaycanda az qala zərrəbinlə siyasi məhbus axtaran qərbli hüquq müdafiəçiləri neçə illərdir məcburi köçkün vəziyyətində yaşayan bir milyona yaxın azərbaycanlının ən fundamental insan haqqını - yaşamaq hüququnu müdafiə etmirlər.

Türkiyənin Avropa Birliyinə qəbul olunmasının «erməni genosidini» tanımaqla şərtləndirilməsini olduqca ədalətsiz mövqe, ikili standartların eybəcər təzahürü hesab edirəm.

Tarixdəki faciələrdən ibrət dərsi götürmək lazımdır, lakin faciələri siyasi alver predmetinə çevirmək sivil dünyaya üz qaralığından başqa bir şey gətirmir.

**Musa URUD,**
*millət vəkili*

## ERMƏNİ ORDUSU TƏRƏFİNDƏN İŞĞAL EDİLMİŞ AZƏRBAYCAN TORPAQLARI

QAZAX RAYONU - 6 yaşayış məntəqəsi - avqust 1990-cı il
NAXÇIVAN MR - 1 yaşayış məntəqəsi - 20 yanvar 1991-ci il

| | | |
|---|---|---|
| LAÇIN RAYONU | - 18 may | 1992-ci il |
| KƏLBƏCƏR RAYONU | - 2 aprel | 1993-cü il |
| AĞDAM RAYONU | - 23 iyul | 1993-cü il |
| CƏBRAYIL RAYONU | - 26 avqust | 1993-cü il |
| QUBADLI RAYONU | - 31 avqust | 1993-cü il |
| FÜZULİ RAYONU | - 23 avqust | 1993-cü il |
| ZƏNGİLAN RAYONU | - 30 oktyabr | 1993-cü il |

## AZƏRBAYCANDA QAÇQINLAR VƏ MƏCBURİ KÖÇKÜNLƏR

1. Ermənistandan qaçqınlar - 250.000

2. Azərbaycanın işğal olunmuş ərazilərindən məcburi köçkünlər - 760.000

**Cəmi:** - 1010.000





## İŞĞAL OLUNMUŞ AZƏRBAYCAN ƏRAZİLƏRİNDƏ ERMƏNİ QOŞUN KONTİNGENTİ

| | |
|---|---|
| 1. **KƏLBƏCƏR.** Ağdaban ərazisində | **538-ci alay** tank 10, zirehli maşın və artilleriya |
| 2. **AĞDƏRƏ** ərazisində. | **Motoatıcı diviziya** tank 60, zir. maşın71, artilleriya 67. |
| 3. **XOCALI** ərazisində. | **Hərbi təlim mərkəzi.** tank 40, zir. maşın 4, artilleriya 39. |
| 4. **AĞDAM** ərazisində. | **Motoatıcı alay.** tank 38, zir. maşın 51, artilleriya 38. |
| 5. **XANKƏNDİ** ərazisində. | **Motoatıcı alay.** tank 12, zir. maşın 24, artilleriya 22. |
| 6. **XOCAVƏND** ərazisində. | **Motoatıcı alay.** tank 38, zir. maşın 51, artilleriya 38. |
| 7. **ŞUŞA** ərazisində. | **Motoatıcı alay.** tank 5, zir. maşın 7, artilleriya 8. |
| 8. **QARAXANBƏYLİ** ərazisində. | **2-ci motoatıcı briqada.** tank 23, zir.maşın 20, artilleriya 34. |
| 9. **HADRUT** ərazisində. | **Motoatıcı alay.** tank 20, zir. maşın 25, artilleriya 18. |
| 10. **DAŞKƏSƏN** ərazisində. | **Motoatıcı briqada.** tank 18, zir.maşın 25, artilleriya 20. |

## AZƏRBAYCANIN İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİNDƏ YERLƏŞDİRİLMİŞ ERMƏNİ SİLAHLI QÜVVƏLƏRİ

| | |
|---|---|
| TANKLAR | - 316 |
| ARTİLLERİYA | - 322 |
| PDM | - 324 |
| ŞƏXSİ HEYƏT | - 50.000 |

### AZƏRBAYCANIN İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİ

| | |
|---|---|
| Cəbhə xəttinin uzunluğu | - 246 km |

### DAĞLIQ QARABAĞ ZONASI

| | |
|---|---|
| Ərazi | - 4.388 kv.km |
| Əhali (1989) | - 189.085 |
| Ermənilər | - 145.450 (76,9%) |
| Azərbaycanlılar | - 40.688 (21,5%) |
| Sair | - 2.947 (1,6%) |
| Sərhəddin uzunluğu | - 485 km |

### ŞUŞA RAYONU

| | |
|---|---|
| Ərazi | - 289 kv.km. |
| Əhali | - 20.579 |
| Azərbaycanlılar | - 19.036 (92,5%) |
| Ermənilər | - 1.377 (6,2%) |
| İşğal olunmuşdur | - 1992-ci il, 8 may |





## ERMƏNİ TERRORUNUN QURBANLARI

| | |
|---|---|
| Həlak olanlar | - 20.000 |
| Əlil olanlar | - 50.000 |

### ERMƏNİ TERRORU NƏTİCƏSİNDƏ AZƏRBAYCAN ƏRAZİSİNDƏ OLAN DAĞINTILAR

| | |
|---|---|
| Yaşayış məntəqələri | - 890 |
| Evlər | - 150.000 |
| İctimai binalar | - 7.000 |
| Məktəblər | - 693 |
| Uşaq bağçaları | - 855 |
| Tibb müəssisələri | - 695 |
| Kitabxanalar | - 927 |
| Kilsələr | - 44 |
| Məscidlər | - 9 |
| Tarixi saraylar | - 9 |
| Tarixi abidələr və muzeylər | - 464 |
| Muzey eksponatları | - 40.000 |
| Sənaye və kənd təsərrüfatı müəssisələri | - 6.000 |
| Avtomobil yolları | - 800 km |
| Körpülər | - 160 |

| | |
|---|---|
| Su kommunikasiyaları | - 2.300 km |
| Qaz kommunikasiyaları | - 2.000 km |
| Elektrik xətləri | - 15.000 km |
| Meşələr | - 280.000 ha |
| Kənd təsərrüfatı üçün yararlı torpaqlar | - 1.000.000 ha |
| İrriqasiya sistemləri | - 1.200 km |

**BÜTÜN DAĞINTILAR 70 MİLYARDDAN ÇOX ABŞ DOLLARI HƏCMİNDƏ QİYMƏTLƏNDİRİLİR.**

| | Ərazisi | Sərhəd kv. km uzunluğu | Əhalisi |
|---|---|---|---|
| Laçın rayonu | 835 | 303 | 64900 |
| Kəlbəcər rayonu | 3054 | 228 | 67500 |
| Ağdam rayonu | 1154 | 198 | 160 000 |
| Cəbrayıl rayonu | 1051 | 193 | 62 000 |
| Qubadlı rayonu | 802 | 171 | 35 000 |
| Füzuli rayonu | 1386 | 180 | 142 000 |
| Zəngilan rayonu | 707 | 188 | 38 000 |





## QAFQAZDA İLK DİNİ-ETNİK MÜHARİBƏLƏR

**Xristianlar arasında müsəlman etnik-dini kartı ilə ilk oynayanlar ruslar olmuşdur.** Osmanlı imperiyası süquta uğramağá başlayanda Rusiya, Avstriya, İtaliya və başqaları Osmanlı torpaqlarını ələ keçirməyə başladılar. Müharibə döyüşləri, arxasınca isə barışıqlar getdi. **1774-cü ildə Osmanlılar** və **ruslar belə barışıqdan birinə imza atdılar.** Həmin müqaviləyə əsasən ruslara Osmanlı İmperiyasında yaşayan xristianların maraqlarını müdafiə etmək hüququ verildi. Bu hüquq osmanlıların daxili işlərinə Avropanın birbaşa təsiri üçün bütün qapıları açdı. **Hələ 1536-cı ildə Osmanlı hökuməti Fransa** ilə bağladığı müqaviləyə əsasən fransızlara bütün Osmanlı torpaqlarında ticarət etməyə icazə vermişdi. Fransızlara əlahiddə dini azadlıq da bəxş olundu. Onlara, həm də ərazidəki bütün müqəddəs yerlərə nəzarət hüququ da verildi ki, bu da Osmanlı İmperiyasında katoliklər üzərində fransızların protektoratının fəaliyyətinə imkan yaratdı.

Xristianların zorla islamı qəbul etməsi haqqında Osmanlı İmperiyasının siyasətindən xeyli yazılmışdır. Bu, fantaziyadan başqa bir şey deyildir! Əslində Osmanlı İmperiyasında dini azadlığa təminat verilməsi həmin imperiyanın süqutunu şərtləndirmişdir. Ruslar osmanlıların bu səhvindən öyrənmiş və öz imperiyalarını yaradarkən müvafiq addımlar atmışdır.

Bu, Osmanlı İmperiyasında yaşayan xristianlarm Qərb dün-

yası ilə yaxın dostluğunun başlanğıcı oldu. Bu, həm də Osmanlı İmperiyasında yaşayan azsaylı əhalinin millətçi hərəkatlarının dayanışı oldu.

**Osmanlılar 1453-cü ildə xristian Konstantinopolunu zəbt etdilər.** Sonra bu böyük şəhər İstanbul adlandı. Osmanlı sultanı artıq ortodoks xristianlığı tanımış və 1461-ci ildə Bursanın erməni yepiskopu Hovakim Ovakimi Osmanlı İmperiyasında yaşayan bütün ermənilərin patriarxı təyin etmişdi.

Müsəlmanlar və erməni xristianları arasında yaranmış dostluq bundan sonra 300 ildən çox davam etmişdir. Bu elə bir dövr idi ki, oradakı xristian əhali arasında Avropa təbliğatı aparılmırdı.

Sultan erməni kilsəsinin yaranmasına kömək edəndən sonra 70 mindən artıq ermənini krımlılardan xilas etdi. Bu xristianlar Vizantiya hökuməti tərəfindən Krıma sürgün edilirdi. O erməni xristianlarını İstanbulun cənubundakı Mərmərə dənizi sahilləri boyunca məskunlaşdırdı.(1)

### OSMANLI İMPERİYASININ SÜQUTU

Ermənilər özlərini Osmanlı İmperiyasında elə etibarlı aparırdılar ki, sultana ən sadiq adamlar kimi tanınırdılar. Sultan onların xristian dinini tanımışdı, onlara hüquqlar və azadlıqlar vermişdi. Buna baxmayaraq, **Osmanlı İmperiyası süquta uğramağa başlayanda ermənilərin bəziləri uzun əsrlər boyu Osmanlı sultanlarının onlar üçün etdiklərini danmağa başladılar.** Həmin yeni yaranmış satqın erməni liderləri Avropa dövlətlərinin himayədarlığı altında Osmanlı torpaqlarını qeyd-şərtsiz ələ keçirmək üçün Avropalılarla danışıqlara başladılar.





Bu azsaylı erməni liderləri ilə əlaqə quran ilk güclü dövlət Rusiya oldu. Erməni liderləri Osmanlı torpaqlarını ələ keçirmək məqsədi ilə iş aparsalar da eyni zamanda özlərini sultana sədaqətli kimi göstərirdilər.

Əsrlər boyu münasibətləri əsasən qarşıdurma şəraitində cərəyan etmiş Osmanlı İmperiyası və Rusiyanın siyasi maraqları ilk dəfə olaraq XVIII əsrin əvvəllərində Qafqaz regionunda, ilk növbədə, Azərbaycanda toqquşur.

### SƏFƏVİ DÖVLƏTİNİN TƏNƏZZÜLÜ

Səfəvi dövlətinin tənəzzülü nəticəsində güclənən mərkəzdənqaçma qüvvələrinin siyasi sabitliyi pozmağa yönəlmiş fəaliyyətləri həm Osmanlı İmperiyasının, həm də Rusiyanın hökumət dairələrinin diqqət mərkəzində idi. Şamaxıda rus tacirlərinin qarət edilməsindən bəhanə kimi istifadə edən Rusiyanın və səfəvilərə qarşı Qəndəharda üsyana başlamış əfqanların qərbə doğru hərəkətini ölkənin şərq hissələri üçün təhlükə kimi yozan Osmanlı İmperiyasının məqsədləri Səfəvi dövlətindən ərazi ələ keçirmək və məsələni hərbi toqquşmaya gətirib çıxarmamaq üçün danışıqlar yolunu tutmağa məcbur olurlar. Lakin 1722-1723-cü illərdə iki ölkənin nümayəndələri arasında aparılan danışıqların nəticəsi yeni ərazi əldə etmək istəyinə cavab verdiyi üçün faydasız olmuşdur.

### PYOTRUN QAFQAZ SİYASƏTİ

**Çar Böyük Pyotr (1689-1725) Qafqazın işğalında erməni satqınlığından məharətlə və səmərəli istifadə etdi.** II Yekatirinanın dövründə də ermənilər Rusiyaya kömәkli-

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi PREZİDENT KİTABXANASI

yini davam etdirdilər. Lakin nə I Pyotr, nə də II Yekatirina ermənilərə verdikləri vədi yerinə yetirmədilər. Buna baxmayaraq, azad torpaqlar və orada quracaqları dövlətlərinin xəyalı ilə yaşayan ermənilər osmanlılara satqınlığı və ruslara köməkliyini davam etdirirdi. Ermənilərin həm dünyəvi, həm də dini liderləri Qafqazdakı müsəlman torpaqlarının ruslar tərəfindən işğalını müdafiə edirdi.

### OSMANLI VƏ RUS ORDUSUNUN SƏFƏVİ DÖVLƏTİNƏ QARŞI HƏRBİ ƏMƏLİYYATLARI

Osmanlı sultanı III Əhmədin və Rusiya çarı I Pyotrun əmrinə əsasən **1723-cü ildə osmanlı və rus orduları Səfəvi dövlətinə qarşı hərbi əməliyyatlara başlayırlar.** Az bir vaxt ərzində rus ordusu Bakı və Dərbənd qalaları daxil olmaqla Xəzərboyu ərazini, osmanlı ordusu isə Səfəvi dövləti ilə Osmanlı İmperiyasının sərhədlərində nisbətən zəif cəbhə olan Çıldır və Qars əyalətlərindən Səfəvi dövlətinin torpaqlarına girərək Tiflis və Qori qalaları da daxil olmaqla Tiflis əyalətini və Borçalı torpaqlarını ələ keçirirlər.

Qarşı-qarşıya gələn iki imperiyadan birini mühüm strateji ərazi olan Qafqaza - Avropa və Asiyanın intensiv ticarət əlaqələrini təmin edən ən qədim «ipək yolu»na nəzarətdən məhrum etmək, nəticə etibarilə də Avroasiya regionunun böyük bir hissəsində geosiyasətin həmin dövlətin maraqları üzərində qurulmasının qarşısını almaq üçün Avropa ölkələri münaqişənin siyasi yolla həllinə girişirlər. Osmanlı İmperiyası ilə Rusiya arasında 1723-1724-cü illərdə aparılan danışıqların məqsədi bu dövlətlərin Səfəvi dövləti ilə bağlı maraqlarının aydınlaşdırılması, bu məsələnin müəyyənləşdirilməsindən sonra isə bir-biri ilə hərbi münaqişəyə girmədən istəklərinə nail olmanın yollarının aranması olmuşdur. Ardıcıl aparılan danışıqlardan sonra çıxış yolu tapılmışdır. Səfəvi dövlətinin Osmanlı İmperiyası ilə Rusiya arasında bölüşdürülməsi ideyası üzərində qurulan müqavilə imzalandı. **1724-cü ildə İstanbulda imzalanan müqavilənin** bütün şərtlərini çox sərt bir şəkildə rədd edən sonuncu Səfəvi şahı II Təhmasib hər iki dövlətin orduları ilə döyüşə hazır olduğunu bildirir. Lakin şimaldan Rusiyanın, qərbdən Osmanlı İmperiyasının, şərqdən əfqanların hücumuna məruz qalan, daxildə isə siyasi sabitliyi pozulmuş bir ölkənin ordusunun müqaviməti 1725-ci ilin sonuna qədər çəkə bildi. Səfəvi dövlətinin şimal və qərb hissəsi Rusiya və Osmanlı İmperiyası arasında bölüşdürüldü. İtirilən torpaqların əksəriyyəti Osmanlı İmperiyasının idarəsinə keçdi.

**1796-cı ildə ruslar Dərkənd şəhərini mühasirəyə aldı.** Özlərini osmanlılara sadiq gösətərən erməni sakinləri şəhərin su ilə təchizi haqqında məlumatı ruslara çatdırdılar və məhz bunun nəticəsində ruslar döyüşdə qələbə çaldılar.

Erməni arxiyepiskopu Arqutinskiy-Dolqorukov 1790-cı illərdə verdiyi bəyanatda ümid etdiyini və inandığını bildirirdi ki, ruslar «erməniləri müsəlman boyunduruğundan azad edəcəkdir.» (2) Erməni kilsəsinin rusları müdafiə etməsi və erkən 1800-cü illərdə ruslarla qurduqları və bu gün də davam edən iş birliyi və əməkdaşlıq haqqında lazım olduğundan da çox faktlar mövcuddur.

### I ALİKSANDRIN DÖVRÜNDƏ ERMƏNİ KİLSƏSİNİN FƏALİYYƏTİ

**1808-ci ildə çar I Aliksandr (1801-1825)** ruslara kömək məqsədi ilə apardığı casusluq fəaliyyətinə görə erməni kilsəsinin katolikosu Danieli birinci dərəcəli Müqqədəs Anna ordeni ilə təltif etdi. Ruslar qərbə hücum edib Osmanlı torpaqlarının dərinliklərinə irəliləyəndə də erməni kilsəsi daim onlara kömək edir və ardıcıl olaraq rusların onları «müsəlman zülmündən» xilas etməyə səsləyirdi.(3)

Xristian ermənilər ilə müsəlman osmanlıları arasındakı nifrətin artmasının kökləri erməni kilsəsinin fəaliyyəti və cəhdləri ilə bağlıdır. Hər halda, ruslar Osmanlı torpaqlarını zəbt edən kimi erməni kilsəsi ilə birlikdə işləyərək oradakı müsəlman əhalini kompensasiya ödəmədən qovmuş, keçmiş müsəlman evlərinə və torpaqlarına erməniləri köçürmüşdülər.

1988-ci ildən başlayaraq qonşu Azərbaycanın bir hissəsi Qarabağa ermənilərin heç bir əsası olmayan hücumları haqqında çox yazılmışdır. Həmin hücum rusların ermənilərə bir milyard dollarlıqdan artıq hərbi silah və ləvazimatı hədiyyə etməsi nəticəsində baş tutmuşdu. Erkən 1800-cü illərdə çoxsaylı müsəlman əhali bu torpaqda məskunlaşmışdı. Lakin ruslar bu torpaqları osmanlılardan alan kimi ermənilər müsəlman evlərinə köçdülər. Bu gün isə ermənilər Qarabağın onların «qədim» vətəni olduğunu bəyan edirlər. «Qədim» sözünün erməni izahının bu baxımdan təxminən iki yüz yaşı vardır.

Ermənilər müstəqil vətən yaratmaq üçün eynilə yunanların 1821-ci ildə etdiyi hərəkətin təkrarını arzulayırdılar. Ortada məhz ermənilərlə bağlı olan praktik problem var idi. Yununlar malik olmaq istədikləri torpaqlarda əksəriyyət təşkil etdilər,







**Rus imperiyası tərəfindən işğal edilmiş Dəmir qapı Dərbənd şəhəri**

ermənilər isə həmişə azlıqda olmuşlar. Ona görə də ermənilər dərhal başa düşdülər ki, özlərinin müstəqil hökumətlərini, diktatorluğunu və sair qurmaq üçün onlara xarici müdaxilənin köməyi və dəstəyi lazımdır. (4)

### RUS-FARS, RUS-OSMANLI MÜHARİBƏSİ

**Yalnız 1827-1829-cu illərdəki rus-fars (müasir İran) və rus-Osmanlı müharibələri** vaxtı erməni liderləri və onların xristian din xadimləri hiss etdilər ki, onların müstəqil dövlət qurmaq vaxtı yetişmişdir. Bu müharibələr ərzində Rus imperiyasında yaşayan ermənilər İranda və Osmanlı İmperiyasında yaşayan ermənilərlə birləşərək öz dostlarının və qonşularının əleyhinə döyüşən ruslara kömək edirdilər.

Bu və bundan sonra olan müharibələrdə ruslar müsəlman torpaqlarını zəbt edəndə ermənilər həmişə rusların tərəfini saxlayırdı. Rusların işğal etdiyi ərazilərdəki çoxsaylı müsəlman əhalisi çoxlu adam itkisi bahasına öz ev-eşiyindən qovulur, onların arxasınca isə erməni xristianlar həmin ev-eşiklərə sahib dururdu. Bax, məhz bu üsulla indi Ermənistan Respublikası adlanan ərazidə erməni əhalisinin üstünlüyü əmələ gəlmişdir - bu üstünlük rusların hərbi gücü sayəsində yaradılmışdır.

Ruslar müsəlman torpaqlarının şimali əyalətlərini zəbt edəndə də Eçmiadzin monastrı həmin ərazinin içində idi. Bu, bütün erməni katoliklərinin arxiyepiskopluğu (və ya əyalətin ən yüksək rütbəli yepiskopu) idi. Ruslar indiyə kimi İstanbuldakı erməni patriarxı ilə əlaqələri kəsilmiş katoliklərin çürüməkdə olan nüfuzunu bərpa etməyə nail oldular. Xristianların bu qrupu bütün rus çarlarının sadiq nökərlərinə çevrildilər.

Osmanlı İmperiyasının ələ keçirdiyi ərazilərdən biri də xanları XIX əsrin əvvəllərinə qədər Qacarlardan olan Gəncə -Qarabağ bəylərbəyliyi idi. Azərbaycanın dörd *(Şirvan, Çuxursəd İrəvan, Azərbaycan Təbriz)* bəylərbəyliyindən biri olan Gəncə - Qarabağ bəylərbəyinin ərazisi, əsasən Kür və Araz arasındakı ərazini, Şah I Təhmasibin dövründə Tiflisə qədər olan torpaqları əhatə etmişdir. I Şah Abbasın dövründən başlayaraq isə Gəncə - Qarabağ bəylərbəyinə Lori və Pəmbək də tabe edilmişdir.

**GƏNCƏ-QARABAĞ ƏYALƏTİNİN İCMAL DƏFTƏRİNDƏN:**

**Gəncə - Qarabağ** əyalətinin **1593-cü il** tarixli «icmal dəftəri»nə görə Qarabağ əyaləti 36 nahiyəyə bölünən 7 sancaqdan ibarət olmuşdur.







**1991-ci il.** Laçın şəhərindən bir görünüş

Bunlar **12 nahiyəli** - «Gəncə, Gəncə Aranı, Dağlıq Gəncə, Şəmkir Aranı, Dağlıq Sunqur, Kürəkbasan Aranı, Şütur, Danqı, Zəyəm Aranı, Yevlax, Tovuz və Dəmirhəsən

**Gəncə sancağı**: İyirmidördlü tayfasının uluslarının da yaşadığı **4 nahiyəli** - Bərdə, Sir, Pətəklik və İhcərud

**Bərdə sancağı:** Otuzikili və Hacılı tayfasının uluslarının da yaşadığı **7 nahiyəli** - Xaçın, Qarağac, Ağcabədi, Dağlıq Çelaberd, Çelaberd, Qarqar və Məğaviz

**Xaçın sancağı: 5 nahiyəli** - Axıstabad - başqa adı Böyükçay, Qüzey, Güney, Dağlıq İhcə və İhcə

**Axıstabad sancağı: 3 nahiyəli** - Arasbar, Dağlıq Dizaq və Dizak

**Dizaq sancağı: 4 nahiyəli** - Keştasf, Həkəri, Zarıs və Alpaut **Həkəri sancağı: 1 nahiyəli Vərəndə sancağı** idi.

### I NİKOLAYIN ZAQAFQAZİYADA AZƏRİ-TÜRK QIRĞINLARI

**Çar I Nikolay (1825-1855) ilk dəfə Osmanlı İmperiyasının «Avropanın xəstə adamı»** olduğunu söyləmiş şəxsdir. O özünü Osmanlı İmperiyası hüdudlarında yaşayan xristianların ən ali himayədarı elan etmişdi. İrəvan şəhərini hücum və işğal edərək farslardan alan ruslar olmuşdur və indi həmin şəhərdə Ermənistanın paytaxtı yerləşir. 1827-ci ildə rusların işğalından qabaq burada, o dövrün bütün Zaqafqaziyasında olduğu kimi, əhalinin 80 faizindən çoxunu azərbaycan türkləri təşkil edirdi. Ümumən bütün ərazidə müsəlmanlar və rus əleyhinə olan millətlər məskunlaşmışdı. Məhz rusların və onların əraziyə yeritdiyi ermənilərin qəddarcasına apardığı siyasətin nəticəsində sonralar tənasüb dəyişmişdir.

**Krım müharibəsi dövründə (1853-1858)** osmanlılar öz qüvvələrini Qərb dövlətləri ilə rusların əleyhinə birləşdirdi. Anadolunun şərq əyalətlərində (indiki Türkiyə) yaşayan erməni liderləri casusluq fəaliyyəti göstərərək Rusiyaya fəal köməklik edirdi. 1854-cü ildə Qarsda bir neçə erməni həbs edildi.

Çarlara kömək lazım olanda onlar erməniləri hərəkətə gətirir, onlara vədlər verir, onları komplimentlər içində çimizdirirdilər. Çarların ermənilərə ehtiyacı olmayanda isə vədlərini heç vaxt yerinə yetirmirdilər. Buna baxmayaraq, erməni xristianlar rusları müdafiə etməkdə davam edirdi.

Osmanlıların əleyhinə göstərdiyi bütün fəaliyyəti müqabilində katolikos Nerses Asdarakes çar I Nikolaydan cəmi bir təşəkkür məktubu almışdır. Rusların Eçmiadzin katolikosuna verdiyi bütün vədlərini yerinə yetirməməsinə baxmayaraq, kilsə Rusiyaya sadiqliyini davam etdirirdi.





## XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANA QARŞI OLAN ERMƏNİ TERRORLARI

**11 may 1905-ci il.**

Beş erməni terrorçu Qafqaz xalqları arasında dostluq mövqeyindən çıxış edən knyaz M.A.Nakaşidzeni və Q.Takayşvilini qətlə yetirmişdir. Bunu şahid P.P.Şubinski öz xatirələrində təsdiqləyir. Elə həmin gün general Alixanov da öldürülmüşdür. Qətllərlə əlaqədar yayılmış intibahnamədə qeyd edilmişdir ki, bunları "Daşnaksütyun" erməni terror təşkilatı törətmişdir. Bəzi məlumatlara görə, qatillərdən biri Dro ləqəbli Drastamat Kanayan idi. Bu hadisələrdən əvvəl Dro Zəngəzur mahalında müxtəlif erməni quldur dəstələrinin tərkibində dinc əhaliyə - türklərə, kürdlərə, azərbaycanlılara qarşı qanlı əməliyyatlarda iştirak etmişdi.

Sonra, "Daşnaksütyun" terrorçuları tərəfindən qətlə yetirilənlərin siyahısında göstərilir: qəza rəisləri Pavlov, Neşşanski, Boquslavski, vitse-qubernator Andreyev, polkovnik Bıkov və başqaları.

**24 may 1905-ci il. İrəvan quberniyası.**

İrəvan quberniyasında erməni saqqallılar dinc müsəlmanlara atəş açmışlar. Adamlar arasında çaxnaşma düşməsindən istifadə edən erməni quldurlar onlara amansızcasına divan tutmuşlar. Bunun nəticəsində 11 vətəndaş - 4 qadın, 2 uşaq və 5 kişi öldürülmüşdür.

**May 1905-ci il. Naxçıvan.**

Naxçıvanda erməni quldur birləşmələri dinc əhaliyə qarşı qanlı azğınlıq törətmişlər. Öldürülənlər arasında qadınlar, qocalar, uşaqlar var.

**1905-ci il. Zəngəzur.**

Erməni quldur birləşmələri Qafan şəhərinin azərbaycanlı dinc əhalisinə qanlı divan tutmuşlar. Şahidlərin dediklərinə görə, erməni cəlladlar adamları əl-ayaqlarından nəhəng ağacların əyilmiş budaqlarına bağlayırdılar. Sonra kəndiri kəsərək budaqları buraxırdılar..

**2 iyun 1905-ci il.**

Silahlanmış çoxsaylı erməni quldur birləşmələri Mənkus müsəlman kəndinə basqın etmişlər. Silahsız kəndlilər öz ailələri ilə birlikdə qaçmağa məcbur olmuşlar. İns-cins qalmayan kənddə 80 yaşlı əlil qoca erməni quldurların əlinə keçmişdir. Həmkəndlilərinin təkidli yalvar-yaxarlarına baxmayaraq, o, evdə qalmışdı. Qoca işgəncələrlə öldürülmüşdür. Ona erməni saqallılar şişlərlə işgəncələr vermişlər.

**8 iyun 1905-ci il.**

Silahlanmış erməni quldur birləşməsi Eçmiədzin qəzasındakı Uşu azərbaycanlı kəndini mühasirəyə almışdır. Yalnız qılıncla müqavimət göstərən müsəlmanları tüfəngin qabağına qatıb güllələyirdilər. Erməni cəlladlar kəndi tutduqdan və kişiləri qırdıqdan sonra südəmər uşaqları, qocaları







**Bakı metropolitenində törədilmiş terror.**



**3 iyul 1994-cü il. «28 may» və «Gənclik» metro stansiyaları arasında erməni terrorçularının törətdiyi bu terror hadisəsində 14 nəfər həlak olmuş, 54 nəfər azərbaycanlı isə yaralanmışdır.**



**Ərzurum.** Erməni terrorçuları tərəfindən kütləvi şəkildə qətlə yetirilmiş türklərin qazıntı zamanı tapılmış sümükləri

öldürürdülər. Məscid yandırıldı. Şahidlərin dediklərinə görə, kəndin kişiləri hər ev uğrunda dəyanətlə vuruşurdular, lakin qüvvələr bərabər deyildi.

**9 iyun 1905-ci il.**

Eçmiədzin qəzasındakı Persi, Nazrevan, Kiçikkənd, Kotuklu, Qoşabulaq, İrgu müsəlman kəndləri yandırılıb külə döndərildi. Erməni quldurlar dinc əhaliyə vəhşicəsinə divan tutduqdan sonra Təkyə müsəlman kəndinə basqın etdilər.

**30 iyun 1905-ci il.**

Erməni quldur dəstəsi Gəzəcik kəndini mühasirəyə alaraq, odlu silahdan hara gəldi, atəş açdılar. Quldurlar məscidi, müsəlmanların müqəddəs kitablarını yandırdılar. Onlar qoca kəndli Novruz kişini tutaraq ona dəhşətli işgəncə verdilər. Erməni keşiş Hayrapet onun başını öz əli ilə vurdu. Gəzəcik kəndində qırğından sonra bütün bunlar barədə faciəli hadisələrin şahidi və iştirakçısı olmuş bir erməni danışmışdır.

**8 avqust 1905-ci il. Şuşa.**

Gəncə quberniyasının Şuşa qəzasında Vəng *(Ağdərənin kəndidir)* kəndinin 300-dən çox erməni qulduru yaxınlıqdan





keçən karvana basqın etmişdir: tacirlər öldürülmüş, əmlakları talanmışdır. Sonra onlar qonşu müsəlman kəndinə basqın edərək, burada kənd sakini Abbas bəyin oğlunu, qardaşını və bir neçə nökər-naibini qətlə yetirmişlər. Bundan azca sonra kəndin bütün sakinləri qəddarcasına öldürülmüş, evləri isə yandırılmışdır. Kazarmalardan qaçan və özləri silah götürən erməni əsgərlər də onlara qoşulmuşlar.

"Ermənistanın siyasi ərazisi" proqramını həyata keçirməyə başlayan erməni terrorizminin ideoloqları belə bir faktdan açıqca narazı idilər ki, demoqrafik vəziyyəti *erməni*lərin Azərbaycan ərazilərinə hətta kütləvi şəkildə



**Türkiyə. İğdır. Hakmehmet köyü.** 1999-cu ilin arxeoloji qazıntıları. Erməni terrorçuları tərəfindən kütləvi şəkildə qətlə yetirilmiş türklərin skletləri.

köçürülməsi də dəyişdirilməmişdir. Buna rus alimi M.A.Skibitskinin tədqiqatı da sübutdur. O yazır ki, XX əsrin əvvəllərində Qarabağın dağlıq hissəsində ermənilərlə azərbaycanlıların etnik nisbəti müvafiq surətdə 1:4 qismində idi. Başqa sözlə, yaylaq və otlaq istifadəçilərinin 72,6 faizini azərbaycanlılar təşkil edirdilər. Kitabda rus tədqiqatçısının tərtib etdiyi "Qarabağın dövlət yaylaqlarının xəritəsi" də verilmişdir. Bu nadir xəritə sonralar Sankt-Peterburqun, Moskvanın, Tbilisinin, Yerevanın kitabxanalarından yoxa çıxmışdır.

**21 avqust 1905-ci il. Şuşa.**

Erməni quldurlar Şuşa qəzasının kəndlərindən birində məktəbin təmiri ilə məşğul olan 17 azərbaycanlı ustaya basqın etmiş və onların başlarını kəsmişlər.

**20 avqust 1905-ci il. Bakı.**

Yaxşı silahlanmış erməni quldur birləşmələri şəhərin əhalisi sıx olan müsəlman məhəllələrinə basqın etmiş lər. Çox böyük sayda insanlar vəhşicəsinə öldürülmüşdür. Kişilərin başını kəsir, hamilə qadınların qarnını yırtır, uşaqları tonqallara atır, ya da su quyularmda boğurdular. Meyitlərin bir qismi dənizə atılmışdır.

**1905-ci il avqustun axırları. Bakı.**

Erməni quldur birləşmələri şəhərin sakinlərinə - etnik azərbaycanlılara dəhşətli divan tutmuşlar. Şahidlərin dediklərinə görə, Bakıda avqustun axırlarında baş vermiş bu ha-



ERMƏNİ TERRORU



**Erməni terrorçuları tərəfindən partladılmış Bakı-Moskva qatarı.**

disələr öz qəddarlığına və kütləviliyinə görə elə həmin ilin fevralında Bakıda törədilmiş faciəni kölgədə qoymuşdur.

Rusiya arxivlərinin materiallarına görə, 1905-1906-cı illərdə "Daşnaksütyun" erməni terror təşkilatı əslində ikili oyun oynamışdır: əvvəla, qisasın heç olmasa bir qismi müsəlmanlardan alınmış, ikincisi isə, mətbuat və təbliğatın köməyi ilə bütün bu hadisələrə baiskar Rusiya hökuməti hesab edilmişdir, beləliklə, təkcə erməniləri deyil, Qafqazın digər sakinlərini də inqilabiləşdirmək üçün yeni güclü təşviqat materialı meydana gəlmişdir... Nəticədə, ermənilərin xoşu gəlməyən çoxlu rus məmuru və mülki şəxsləri həlak olmuşlar.

**1905-ci il sentyabrın axırları. Qazax.**

"Daşnaksütyun" beynəlxalq erməni terror təşkilatının saqqalıları qədim Azərbaycan şəhəri Qazaxı tutaraq yandırmışlar. Dinc əhali arasında çoxlu tələfat olmuşdur.

**3 oktyabr 1905-ci il. Qarabağ. Ağdərə. Sırxavənd.**

Erməni terror və quldur birləşmələrinin süvari və piyada dəstələri Sırxavənd müsəlman kəndinə basqın etmişlər. Əməliyyata erməni terrorçu Hamazasp başçılıq edirdi. "Daşnaksütyun" beynəlxalq terror təşkilatının komitəsi dinc kəndliləri xüsusi vəhşiliklə qırdığına görə ona general rütbəsi vermişdir. Çox qısa bir müddətdə viran qoyulan Sırxavənd kəndi azərbaycanlıların meyitləri ilə dolmuşdur. Quldurlar hətta qocalara da rəhm etmir, körpələri isə bir yerə yığıb kütləvi surətdə öldürürdülər.

**15-18 noyabr 1905-ci il. Gəncə.**

Erməni qüldür birləşmələri "Daşnaksütyun" terror təşkilatının göstərişini yerinə yetirərək şəhərin dinc əhalisinə qanlı divan tutmuşlar. Tarixçilərin qeyd etdikləri kimi, bu, həmin illərdə erməni quldurların dinc əhaliyə qarşı ən amansız vəhşiliklərindən biri idi. Adamları dəstə-dəstə binalara (çox vaxt məscidlərə) dolduraraq diri-diri yandırırdılar.

O dövrdə erməni terror təşkilatlarının liderləri azərbaycanlıların müdafiəsinə qalxanların hamısına mətbuat vasitəsilə xəbərdarlıq etmişdilər: "M.A.Nakaşidzenin, Çarakovun aqibətini yadınıza salın..." Adları çəkilən şəxslərin hamısı "Daşnaksütyun" beynəlxalq erməni terror təşkilatı rəhbərliyinin əmri ilə öldürülmüşdür.







**Erməni terrorçuları tərəfindən partladılmış Ağdam-Tbilisi avtobusu.**

**21 noyabr 1905-ci il. Tiflis. Gürcüstan.**

"Daşnaksütyun" beynəlxalq erməni terror təşkilatımn saqqallıları Tiflis sakinlərinə Gürcüstan tarixində ən qanlı və amansız divan tutaraq, onları qırıb-çatmışlar. O hadisələrin şahidləri söyləmişlər ki, erməni quldur dəstələri gəlmə erməniləri məskunlaşdırmaq üçün "yer təmizləyərək", provoslav gürcü kəndlilərini elliklə və Tiflis şəhəri məhəllələrini bütövlüklə kəsib doğrayırdılar. Nə uşaqlara, nə qadınlara, nə qocalara, nə də əlillərə rəhm edirdilər. Yaralıların nəfəsini kəsirdilər. Həmin gün erməni quldurlar Tiflisdə çox sayda azərbaycanlıları da qətlə yetirdilər. Dini ənə-

nələrə uyğun olaraq azərbaycanlı ailələri öldürülənlərin cəsədlərini meyitxanaya aparmaqdan imtina etdiklərinə və birbaşa məscidə gətirdiklərinə görə, Tiflis meyitxanasında axşamtərəfi cəmi 10 müsəlman meyidi aşkar olunmuşdur. Qətllərin əsl müqəssirlərini beynəlxalq ictimaiyyətdən gizlətməyə can atan erməni mətbuatı öz səhifələrində bütün dünyaya "ermənilərin Tiflis faciəsi" deyə car çəkmişdir.

**1 yanvar 1906-cı il. Papravənd. Ağdam.**

Erməni quldur birləşmələri azərbaycanlıların Papravənd kəndinə basqın etmişlər. Sakinlər ciddi cəhdlə müqavimət göstərsələr də, kənd işğal olunmuşdur. Kişilərin başlarını kəsir, hamilə qadınların isə qarnını qılıncla yarır və hələ dünyaya gəlməmiş uşaqların başlarını vururdular. Qırğına erməni quldur Andranikrəhbərlik edirdi.

**12 iyul 1906-cı il. Şuşa.**

Yaxınlıqdakı erməni kəndlərindən toplanmış təxminən 10 min nəfərdən ibarət quldur birləşmələri Şuşaya geniş miqyasda hücuma keçmişlər. Döyüşlər beş gün-beş gecə davam etmişdir. Bütün müsəlman evlərinə bombalar yağdırılmışdır. Azğınlaşmış quldurlar südəmər körpələri elə beşiklə birlikdə yandırır, uşaqları anaların əllərindən alıb başlarını daşa çırpırdılar.

**29 iyul 1906-cı il. Karxana. Ağdərə.**

Erməni quldur birləşmələri azərbaycanlıların Karxana kəndinə basqın etmişlər. Onlar kəndi tezliklə tutmağa müvəffəq olmuşlar, çünki silahsız kəndlilərin müqavimət





göstərmək üçün heç nəyi yox idi. Yaxşı silahlanmış erməni quldurlar kəndin bütün kişilərini öldürmüşlər. Qaçıb təpəliklər arxasında gizlənmiş 30 qadın və uşağı gənc ana Pakizənin uşağı ağladığına görə tezliklə tapmışlar. Tarix bu körpə qızın adını da saxlamışdır - Firuzə. Qaçqınlar rəhmsizcəsinə məhv edilmişlər.

Karxana kəndinin sakinlərindən heç kim canını qurtara bilməmişdir. Bu kənd erməni quldurları tərəfindən 1991-ci ilin sentyabrında yenidən yandırıldı.

**1908-1909-cu illər.**

Tədqiqatçı İ.Bağırova yazır ki, "Daşnaksütyun" terror təşkilatından olan erməni quldurlarının Yelizavetpolun (indiki Gəncə) şərab sənayeçiləri Forer qardaşlarının həyatına qəsd etməsi, şərabçı Qurru, Tiflis mühafizə şöbəsinin xəfiyyələri Poleskonu və Ulyanovu, Tiflis qorodovoyu Valiyevi, tütün fabrikantı A.Səfərovun oğlunu, irəvanlı kənd starşinası K.Azaryanı qətlə yetirmələri də həmin dövrə düşür. Tədqiqatçı yazır: "Daşnaklar məqsədlərinə çatmaq üçün nə özgələrə, nə də özünkülərə rəhm edirdilər. "Özlərinkilər" üçün qorxutma təşkilatı fəaliyyət göstərirdi. Bu təşkilat o illərdə "Daşnaksütyun"un 5-6 üzvünü məhv etmişdir (onlardan biri - "Miqran" IV qurultayın qərarı ilə öldürülmüşdür).

**Mart-aprel 1918-ci il. Şamaxı.**

"Daşnaksütyun" erməni terror təşkilatının saqqallıları Şamaxını təkrarən ələ keçirmiş və sovet kommunist hakimiyyəti adından şəhərin dinc əhalisinə qarşı daha qəddarcasına

qətl-qarət törətmişlər. Küçələr, həyətlər, məscidlər meyitlərlə dolu idi. "Bütün məscidlər, on üç məhəllə kilsəsi, Cümə məscidi və onların yanındakı səcdəgahlar yandırılmışdır. Şamaxıdan ancaq xarabalıqlar və təxminən 800 illik tarixə malik memarlıq abidəsi olan Cümə məscidinin minarələri qalmışdır". Şamaxıya basqın zamanı yanğınlar, qətl və qarətlər "Daşnaksütyun" terror təşkilatının əvvəlcədən hazırladığı plan əsasında hərəkət edən erməni kəşfiyyat qrupunun rəhbərliyi ilə həyata keçirilirdi. İstintaq erməni qatillərin adlarını müəyyən etmişdir: Stepan Lalayev, Qavril Qaraoğlanov, Arşak Gülbəndov, Mixail Arzumanov, Sedrak Vlasov, Samvel Doliyev, "dəllək Ovanes" ləqəbli Petrosyants və başqaları.

**Mart-aprel 1918-ci il. Şamaxı.**

"Daşnaksütyun" terror təşkilatımn erməni quldurlarının Şamaxı kəndlərində törətdiyi cinayətlər xüsusi qəddarlığı ilə fərqlənirdi: kişilər ayaqlarından asılır və sallaqxanada cəmdəklər şaqqalandığı kimi qılıncla doğranırdı.bəzilərini taxtalara bağlayır, xalçaya və ya palaza bürüyərək üstlərinə kerosin töküb yandırırdılar. Çoxlarını diri-diri döşəməyə, qapıya, masaya mıxlayırdılar. Dini kitabları (əsasən Quranı) qalaq-qalaq yığaraq tonqal çatır, əl-ayaqları bərk-bərk bağlanmış din xadimlərini bu tonqallara atırdılar. Erməni quldurları adamların əl-qolunu kəsir və süngüləyərək, öz bədəninin kəsilmiş tikələrini yeməyə məcbur edirdilər... Bütün bu vəhşilikləri erməni quldurlar sovet kommunist hakimiyyəti adından törədirdilər.







**Ermənilər tərəfindən güllələboran edilmiş Şuşaya yük aparan maşın**

**Mart-aprel 1918-ci il. Şamaxı.**

"Daşnaksütyun" erməni terror təşkilatının başçılıq etdiyi yaxşı silahlanmış quldur birləşməsi Cəmcəmli Azərbaycan kəndinə basqın etmişdir. Kənd yandırılmışdır. Camaata divan tutulan yerlərdə 15 kişi, 5 qadın və 6 uşaq meyiti qalmışdır. Sovet kommunist hakimiyyəti adından erməni quldurların Cəmcəmli kəndində törətdiyi vəhşiliyin nəticələri belədir.

**Mart-aprel 1918-ci il. Şamaxı.**

17 evdən ibarət Mirikənd Azərbaycan kəndi gecə erməni quldur dəstəsinin basqınına məruz qalmışdır. 8 kişi, 9 qadın və 2 uşaq öldürülmüşdür. Quldur dəstəsi kəndlilərin əmlakını yağmalayaraq 17 evin hamısına od vurmuşdular.

**Mart-aprel 1918-ci il. Şamaxı.**

Ermәni quldurların azğıncasına basqını nәticәsindә Şәrәdil Azәrbaycan kәndindә 10 kişi, 5 qadın, 5 uşaq öldürülmüşdür. Onlardan bәzilәrinin başları kәsilmiş, bәzilәri dә şaqqa-şaqqa edilmişdir.

**Mart-aprel 1918-ci il. Şamaxı.**

Odlu silahla silahlanmış ermәni quldurlar Qaravәlli Azәrbaycan kәndinә soxulmuşlar. Onların yerli camaata qarşı törәtdiklәri qәtliam nәticәsindә 40 kişi, 50 qadın vә 30 uşaq öldürülmüşdür. Körpәlәri diri-diri tonqala atır, ya da onlara ölәnәcәn işgәncәlәr verirdilәr.

**Mart-aprel 1918-ci il. Şamaxı.**

Ermәni quldur dәstәsi 14 evdәn ibarәt Borbor Navaçı Azәrbaycan kәndinә basqın edәrәk, 15 kişini, 10 qadını, 5 uşağı qәtlә yetirmişdir. Onların meyitlәrindә vәhşilik vә zorakılıq izlәri vardı. Müsәlmanların müqәddәs sandığı yerlәr murdarlanmışdır.

Əvvәlki faciәlәrdә olduğu kimi Borbor Navaçı kәndindә dә dinc camaatın qırılmasına görә "Daşnaksütyun" beynәlxalq ermәni terror tәşkilatı mәsuliyyәt daşıyırdı.

**Mart-aprel 1918-ci il. Şamaxı.**

Şıxmәscid Azәrbaycan kәndindә ermәni quldurlar 10 kişini, 5 qadını. 3 uşağı öldürmüşlәr. 25 evdәn ibarәt kәnd tamamilә yandırılmışdır.





**Mart-aprel 1918-ci il. Şamaxı.**

Tәrus Caparlı Azәrbaycan kәndindә ermәni saqqallılar kәndlilәri bir-birinә bağlayaraq üstlәrinә kerosin töküb diri-diri yandırmışlar. Natamam hesablamalara görә hәmin gün 10 kişi, 15 qadın, 10 uşaq mәhv edilmişdir.

**Mart-aprel 1918-ci il. Şamaxı.**

260 evdәn ibarәt Tәkәli Azәrbaycan kәndindә 360 kişi, 412 qadın, 150 uşaq bir neçә ermәni quldur dәstәsi tәrәfindәn vәhşicәsinә öldürülmüşdür. Kәnd yandırılmışdır.

**Mart-aprel 1918-ci il. Şamaxı.**

"Daşnaksütyun" ermәni terror tәşkilatının göstәrişini yerinә yetirәn ermәni quldur dәstәsi 9 evdәn ibarәt Ağabәyli Azәrbaycan kәndinә basqın etmişdir. 7 kişi, 3 qadın vә 4 uşaq edam olunmuşdur. Dörd uşağın meyitlәrinin gözlәri çıxarılmışdır. Ermәni quldur dәstәsi bu qәtllәri "etnik tәmiz zonalar" yaradılmasına dair әvvәlcәdәn hazırlanmış ssenari әsasında törәtmişdir.

**Mart-aprel 1918-ci il. Şamaxı.**

Bağırlı Azәrbaycan kәndindә gecә ermәni quldurlar misli görünmәmiş, eşidilmәmiş vәhşiliklәr törәtmişlәr. Kәndlilәrdә odlu silah olmadığından onlar el-obanı xilas edә bilmәmişlәr azğınlaşmış ermәni quldurlar әl-ayaqları bağlan-

mış kişilərin (80 nəfər) gözləri qarşısında 140 uşağı və 150 qadını edam etmişlər. "Daşnaksütyun" erməni terror təşkilatından olan digər bir təbliğatçı xarabalığa çevrilmiş Bağırlı kəndində kommunist hakimiyyətinin qurulduğunu elan etmişdir.

**Mart-aprel 1918-ci il. Şamaxı.**

"Daşnaksütyun" erməni terror təşkilatının göstərişini yerinə yetirən erməni quldurlar Hacıman Azərbaycan kəndində 130 dinc sakini öldürmüşlər. Onların 30-u uşaq, 60-ı qadın, 40-ı kişi idi.

**Mart-aprel 1918-ci ili. Şamaxı.**

Erməni quldurlar azərbaycanlı kəndlilərə növbəti dəfə divan tutmuşlar. Bu dəfə Dilman kəndində. Burada silahsız 300 kişiyə, 235 qadına və 50 uşağa işgəncə və əzab-əziyyət verib onları öldürmüşlər. "Daşnaksütyun" erməni terror təşkilatının göstərişi Dilman kəndində tamamilə yerinə yetirilmişdir.

**Mart-aprel 1918-ci il. Şamaxı.**

Silahlanmış erməni quldurlar Kəlviyə Azərbaycan kəndində dəhşətli qırğın törətmişlər. 250 kişi, 150 qadın və 100 uşaq vəhşicəsinə öldürülmüşdür. Qətlə yetirilənlərin hamısının gözləri çıxarılmışdır. Kəlviyə kəndində qətllərdən sonra "Daşnaksütyun" terror təşkilatının saqqallıları kef məclisi düzəldərək Leninin sağlığına badələr qaldırmışlar.





**Erməni işğalında qalmış Şuşa şəhərindəki Molla Pənah Vaqifin dağıdılmış məqbərəsi.**



**Mart-aprel 1918-ci il. Şamaxı.**

"Daşnaksütyun" terror təşkilatının göstərişini yerinə yetirən erməni quldurlar Tərcan Azərbaycan kəndində 300 kişini, 40 qadını və 20 uşağı öldürmüşlər. Bu dinc sakinlər öldürülməzdən əvvəl onlara vəhşicəsinə işgəncələr verilmişdir.

**1918-ci il aprelin axırları. Şamaxı.**

Erməni quldur dəstəsi Şamaxı qəzasının Kacatan Azərbaycan kəndini ələ keçirmişdir. Silahsız kəndliləri «Qurban bağı» adlı yerə toplamışlar. Saqqallılar qadınları uşaqlardan ayırmış, onları tüfənglərdən açdıqları atəşlə və xəncərlə öldürmüşlər. Kişiləri isə yerə uzanmağa məcbur etmiş və başlarını kəsmişlər. Kacatan kəndində cəmi 50 kişi, 60 qadın və 21 uşaq məhv etmişlər. Erməni cəlladlar dinc əhaliyə qarşı vəhşiliklərin və qətllərin sovet kommunist hakimiyyəti adından törədildiyini bəyan etsələr də, tədqiqatlar sübut edir ki, mülki əhalinin qırılıb-çatılmasına görə "Daşnaksütyun" erməni terror təşkilatı məsuliyyət daşıyır.



**Dəfələrlə erməni-rus terrorçuları tərəfindən yandırılmış Qars şəhərindən bir görünüş**

## 1918-ci il aprelin axırları. Dəvəçibazar. Qızılburun.

Hamazaspın erməni quldur dəstəsinin hətta südəmər körpələrə də rəhm etmədiyindən xəbər tutan Dəvəçibazar və Qızılburun Azərbaycan kəndlərinin sakinləri yığmcaq keçirərək bir neçə (15 nəfər) hörmətli ağsaqqalı erməni quldur dəstəsini duz-çörəklə qarşılamağa göndərməyi qərara almışlar. Bu yerlərin sakinləri - azərbaycanlılar, tatar, ləzgilər əmin idilər ki, Qafqaz adətinə uyğun olaraq ağsaqqalların duz-çörəklə qarşıya çıxması sülhsevərlik və qan tökülməsinə yol verməməyə çalışmaq rəmzi sayılır. Amma Hamazaspın quldurlarının bu qocalara qarşı törətdikləri vəhşilik bütün mahalı sarsıtdı...





## 1918-ci il aprel.

Fövqəladə İstintaq Komissiyasının üzvü A.F.Novatskinin məruzəsinə görə, qısa bir müddətdə erməni quldur dəstəsi Dəvəçi mahalında 122 kəndi yerlə yeksan etmişdir, o cümlədən bu ən iri yaşayış məntəqələrini: Dəvəçi, Siyəzən, Sədən, Xaçmaz, Xudat, Sarvan, Böyük Moruq, Üçkənd, Həsənqala və s. Kəndlilərin bütün əmlakı yağmalanmış, evlərinə od vurularaq yandırılmışdır. Yüzlərlə azərbaycanlı, tat, ləzgi, yəhudi vəhşicəsinə öldürülmüşdür. Uşaqlara və qocalara işgəncələr verilmişdir.



**1-2 may 1918-ci il. Quba.**

Fövqəladə İstintaq Komissiyasının üzvü A.F.Novatskinin məruzəsinə görə, "Daşnaksütyun" erməni terror təşkilatının fəal üzvlərindən biri, uşaqların və qocaların qənimi Hamazaspın erməni quldur dəstələri səhər tezdən şəhəri mühasirəyə almışlar. Mülki əhalinin silahsız olduğundan xəbər tutan erməni saqqallılar Qubaya soxulmuşlar. Müsəlmanların 200 evi və 22 məscid dağıdılmış və yandırılmışdır. Təxminən 3000 adam vəhşicəsinə öldürülmüşdür. Erməni quldurlar evlərə soxulur və bütöv ailələri qırıb-çatır, südəmər körpələrə də rəhm etmir, onları güllələyir və ya "analarının qucağındaca doğrayırdılar".



**1992-ci il. Naxçıvan. Erməni terrorçuları tərəfindən dağıdılmış Sədərək kəndi.**





## QARABAĞ HADİSƏLƏRİNİN BAŞLAMASI

Dağlıq Qarabağdan həyəcanlı xəbərlər gəlirdi. Nədənsə vilayətə Ermənistanın şovinist yazıçıları, şairləri və mədəniyyət işçiləri axışırdı. Bakıdan isə hadisələrə reaksiya verilmirdi. Komsomolda işləyirdim. Azərbaycan Kommunist Partiyasına K.M.Bağırov rəhbərlik edirdi. Biz Qarabağda necə bir təhlükəli hadisənin bünövrəsinin qoyulduğunu görürdük. Ona görə də Kamran Bağırova rahatlıq vermir, hadisələrə qəti münasibət bildirməsini tələb edirdik. Bağırov da arxayın-arxayın Moskvanın tədbir görəcəyini deyirdi. Moskva isə tədbir görmək əvəzinə hadisələrə ermənilərin xeyrinə istiqamət verir, daha da qızışdırırdı. Getdikcə Dağlıq Qarabağda ictimai asayiş pozulur, sosialist qanunçuluğuna əməl olunmur, hadisələr normal axarından çıxırdı.

**1987-Cİ İLİN NOYABRI:**

1987-ci ilin sonunda Qərbdə və Azərbaycanın özündə yenidənqurmaya maraq göstərənlər əvvəlkindən fərqli olaraq ona əmin oldular ki, SSRİ-də başlamış yenidənqurma sözçülük burulğanında boğulur.

SovİKP. MK-nın oktyabr plenumunda Boris Yeltsinin şəxsi qiyamı adı altında Kreml çevrilişi başda Aleksandr



**Qaçqınlar.** Ermәni terrorunun törәtdiyi faciәlәr

Yakovlev olmaqla Siyasi Bürodakı «akademik-ateistlәr»in açıq improvizasiyası vә tәlәskәnliyi üzündәn boşa çıxdı. «Hakimiyyәt zirvәsindәki dissident» *(Vaşinqtonda Mixail Qorbaçova belә ad vermişdilәr)* Yer üzündә «Parçala vә hökmranlıq et» prinsipinin çox mahir formalarla, әsasәn qeyri-iqtisadi mәcburiyyәtlә hәyata keçirildiyi **son imperiyanın** - SSR İttifaqının sönük hәyatının bütün qollarını birdәfәlik sındıran uzunmüddәtli süjet hazırlamağa başladı. **O biri imperiya** - Amerika Birlәşmiş Ştatları isә daha çox iqtisadi zorakılıq hesabına nәzәrә çarpacaq böyük nәticәlәr әldә edirdi.

**Qeyd edәk ki, hәm dә xeyli yuvarlaq ildönümü ya-**





**xınlaşırdı:** XX әsrdә 70 il әvvәl Brest müqavilәsinә *(fevral-mart 1918-ci il)* әsasәn dünya yenidәn bölüşdürülmüş vә o dövrün **dörd imperiyası**

**- Rusiya, Osmanlı, Albaniya vә Avstriya-Macarıstan** eyni zamanda dağıdılmışdı. Hitlerin üçüncü Reyxi yenidәn dirçәltmәk cәhdi isә Almaniyanın bölünmәsi vә Avropa-Asiya әrazisindә 1922-ci ildә SSRİ adlandırılmış yeni Rusiya imperiyasının geosiyasi hökümranlığının başlanması ilә nәticәlәnmişdir.

Sovet partiya iyerarxiyasının zirvәsinә qalxmış, demokratiya vә aşkarlığı elan etmiş dissident, Ceyms Beykerin sonradan etdiyi etirafa görә ABŞ vә onun müttәfiqlәrinә son yüzillikdә bu «şәr imperiyasını» parçalamaq üçün yeganә şans verirdi.

## UDUZULMAYAN GEDİŞLƏR: MİLLİ VƏ DİNİ DÜŞMƏNÇİLİK TÖRƏTMƏK

Parçalama süjeti **1987-ci ilin ilk aylarından axtarılıb öyrәnilirdi** vә orta әsr üsulları ilә müqayisәdә yeni heç nә yox idi. Uduzulmayan gedişlәr nәzәrdә tutulmuşdu: milli vә dini düşmәnçilik törәtmәk. Prezident Karterin sabiq kömәkçisi Zbiqnev Bjezinski «Vaşinqton Tayms» qәzetinin bir qrup repartyoruna vә **redaktoruna verdiyi bәyanatda irәlicәdәn deyirdi:**

*«Gәlәcәk 20-30 ildә dünyada milli vә etnik münaqişәlәrin mәrkәzi Sovet İttifaqı olacaqdır. Burada millәtçilik canlı dinamik qüvvәyә çevrilәcәkdir. Sovetlәr öz millәtlәrinin problemini nәzarәtdә saxlaya bilmәyәcәklәr. Onların sistemi ölümcül böhran әrәfәsindәdir».*



**1992-ci il. Naxçıvan.** Erməni terrorçuları tərəfindən dağıdılmış evlər.

## QORBAÇOV, BJEZİNSKİ VƏ AĞAMBEKYANIN QARABAĞ PLANLARI

Bjezinski nə ərazi, nə də etnos adı çəkib, lakin onun irəlicədən dedikləri o qədər düz çıxdı ki, artıq il yarım sonra kitab mağazalarınm vitrinlərində onun **«Möhtəşəm iflas: XX əsrdə kommunizmin doğulması və məhvi»** bestselləri göründü. Memar öz yarımçıq əsərini tamamlandığını gördüyü kimi, o da həmişə hadisələri bir-iki addım qabaqlayırdı.

Moskva mümkün münaqişələrin ünvanlarını axtarırdı. **Hələ 1987-ci ilin əvvəlində «Literaturnaya qazeta»**





**İqor Belyayevin «İslam» məqaləsini dərc etdi.** Məqalənin məzmunu ondan ibarət idi ki, bu din ölkəmiz üçün təhlükəlidir və düşməndir, müsəlmanlar isə çox məkrli və xaindirlər. Hələ Əfqanıstanda döyüşlər gedirdi və oradan sink tabutlarda oğulları təkcə Bakıya, Aşqabada, Daşkəndə deyil, həm də Minskə, Ryazana, Riqaya gətiridilər. Yeri gəlmişkən, möhtərəm islamşünaslar rus imperiya qoşunlarının Əfqanıstana fəlakətli, faciəli soxulmasının qarşısını heç olmasa Siyasi Büroya göndərilmiş bir kiçicik yazı ilə də olsa almağa cəhd göstərmədilər.Onlar ki, Orta Asiyada basmaçıların hökumətə 20 ildən artıq davam edən gərgin müqavimətindən xəbərdar idilər.

«Literaturnaya qazeta»nın ardınca **1987-ci ilin fevralında və maymda oxşar ssenari üzrə «Pravda»** *(«Özündən bədgümanlığın nəticəsi» və «Yalnız dostluq xeyirxahlıq yaradır» məqalələri ilə)* **çıxış edir** . Sov. İKP MK-nın orqanı həmin məqalələrdə qazaxları və qırğızları «milli qapalılıq meylinə, milli lovğalıq əhval ruhiyyəsinə» və «ayrı-ayrı millətçilik təzahürlərinə» görə məzəmmət edirdi. Bu məqalələr **1986-cı ildə Gennadi Kolbinin Qazaxıstana fitnəkarcasına canişin təyin edilməsi** ilə əlaqələndirilirdi. İndi bütün Qazaxıstan prezident Nursultan Nazarbayevi tanıdıqdan *(əvvəl o, Qazaxıstan vilayətlərindən birinə başçılıq edirdi)* sonra inamla demək olar ki, Kolbinin təyinatı Bjezinskinin dediyi «milli və etnik münaqişələr» zəminində Qorbaçovun birinci fitnəkarlığı idi.

**1987-ci ilin iyununda** Avropa parlamentinin «Ermənis-

tanda genosid qurbanlarının xatirə günü» təsis etməsi SSRİ ictimaiyyətinin demək olar ki, nəzər-diqqətindən kənarda qaldı. Yerevanda isə 1915-ci ildə Osmanlı İmperiyasının şərq ucqarlarından qovulmuş və həlak olmuş həmtayfalarına əvvəlcədən abidə qoyulmuşdu. Maili, hündür, qara mərmərlə üzlənmiş daş sütunlar altında əbədi məşəl yanır, matəm musiqisi səslənirdi. Bu memoriala hər gəliş sultan hökumətinin birinci dünya müharibəsində erməni əhalisinə qarşı qanlı zorakılıq hərəkətləri barədə hekayətlərlə və bunu onlara etiraf etdirmək çağırışları ilə müşayiət olunurdu. Halbuki, həmin hakimiyyət yetmiş ildən artıq idi ki, Türkiyə Respublikasının özündə də mövcud deyildi. Erməni mətbuatı Zori Balayanın və Silva Kaputikyanın yazılarında türklərə qarşı olan hipertrofiyaya uğramış nifrət açıq-aşkar azərbaycanlılara da şamil edilirdi və onlar azərbaycanlıları başqa cür yox, elə «türk» adlandırırdılar.

Strasburqdakı Şərq Tədqiqatları İnstitutunun direktoru Pyer Dümon erməni genosidi barədə maraqlı açıqlama ilə çıxış etdi. **1989-cu ildə ABŞ senatı qarşıdan gələn 1990-cı ilin** «erməni genosidi ili» elan olunmasını təklif etdikdə **Peyr Dümon Avropa və Amerika qəzetlərində sensasiya doğuran belə bir bəyanat yaydı:** «*Osmanlı İmperiyası Hökumətinin Türkiyə ərazisini erməni əhilisindən tamamilə təmizləmək barədə qoşunlara əmr göndərdiyi və bu işdə marağı olan siyasətçilərin son 70 il ərzində tarixi dəlil kimi istinad etdiyi xüsusi teleqram həyatda ümumiyyətlə mövcud olmamışdır*».








**Bakı. 1988-ci il. Erməni separatizminə qarşı mitinqlər.**



Sonra tanınmış alim birinci dünya müharibəsində Türkiyənin şərqində erməni burjuaziyasının rus və ingilis müşavirlərinin köməyi ilə rus və ingilis tüfəngləri, pulemyotları və hətta topları ilə silahlanmış zinvor (boyevik) dəstələrinin yaradıldığı aylarla bağlı süjeti təsvir etmişdir. Qeyd edim ki, Türkiyə Üçlər İttifaqının tərkibində İngiltərə və Rusiyaya qarşı çıxış edirdi. Zinvorların fəaliyyəti nəticəsində 60 minə yaxın dinc əhali - kürdlər və türklər həlak oldu **(bu və başqa məlumatları Pyer Dümon təkcə Türkiyə arxivlərindən deyil, həm də Böyük Britaniya və Fransa Xarici İşlər Nazirliklərinin arxivlərindən götürmüşdür)**, Türkiyə hökuməti erməni zinvorlarının tələblərini qəbul etdi və şərqi Türkiyənin ruslar tərəfindən işğal edilməsinə razılıq verdi. Elə general Yudeviç də o zaman Ərzurumu alarkən məşhurlaşdı, lakin onun familiyası yanından «Erzurumski» əlavəsi itdi.

Ümidsiz vəziyyətə salınmış kürdlər işğalçı rus qoşunlarına və zinvor birləşmələrinə amansız partizan muharibəsi elan etdilər. Usyançılara nizami türk ordusunun hissələri kömək edirdilər. **Rus qoşunları və zinvor dəstələri Rusiya İmperiyası ərazisinə - Zaqafqaziyaya qaçırdılar.** Türkiyənin erməni əhalisi faktiki olaraq girov vəziyyətində qaldı. Dümon Türkiyə əleyhinə kütləvi çıxışlar törətmək məqsədilə libasım dəyişmiş zinvorların erməni kəndlərinə hücum etmələri ilə bağlı çoxlu hadisəni də qeydə almışdır. Fanatikliyin nəticələri çox acınacaqlı oldu: qisasçılığa xas olan əvəzə-əvəz prinsipinə uyğun olaraq öz əməllərinin cavabında 300 minədək erməni əhalisi amansızcasına məhv edildi.








Bundan əvvəlki yüzilliklərdə Türkiyə tarixində bir dənə də olsa ermənilərin kütləvi təqib olunması faktı olmayıb, faciəli 1915-ci ilədək onların bir çoxu yüksək dövlət vəzifələri tuturdular və türklərin ermənilərə həmişə xüsusi münasibət bəslədiyini iddia etmək - müasir siyasətbazların xülyasının məhsuludur. Türkiyədə bu gün də yaşamaqda davam edən on minlərlə erməni qalmışdır. Lakin divantutmanın miqyasından qorxuya düşən 400 mindən çox erməni Rusiyaya, Avropa ölkələrinə və Yaxın Şərqə mühacirət etmişdir. **Pyer Dümon belə bir nəticəyə gəlirdi:** *«Dinc türk, kürd və erməni əhilisi arasında tələfat, hərbi qarşıdurmanın güclənməsini kəskinləşdirən xarici işğalçı qoşunların iştirakı ilə hər iki tərəfin apardığı hərbi əməliyyatların nəticəsidir və bu genosid hesab edilə bilməz».* Bu hadisə-

lərin ətrafında möhtəkirlik nəticəsində qurbanların sayını 2 milyona çatdırmışlar. Halbuki, o zaman Osmanlı Türkiyəsinin və Rusiya İmperiyasının sərhədləri daxilində cəmi 1.4 milyon erməni yaşayırdı.

Pyer Dümon «Qoy siyasətçilər tarixə müdaxilə etməsinlər» adlandırdığı və ABŞ senatına ünvanladığı bəyanatı aşağıdakı sözlərlə tamamlayırdı: **«Onların müdaxiləsi həmişə saxtakarlıqla müşayiət olunur».**

Strasbuqdakı Şərq Tədqiqatları İnstitutu direktorunun nə dərəcədə düz olduğunu deyə bilmərəm təkcə **ABŞ-ın yəhudi icması başçısının elə həmin mövzuya həsr olunmuş çıxışını misal gətirmək istərdim:** *«Bəşəriyyət tarixi yalnız bir genosid - yəhudi xalqının genosidini tanıyır, lakin faciədən ucuz balaqan düzəltməyə bizim qürurumuz yol verməz».*

## ERMƏNİ SİYASƏTÇİLƏRİNİN KOSMOPOLİT TƏBLİĞATI

Hazırki Ermənistan siyasətçiləri və diplomatları xarici bazarda təmamilə kosmopolit (vətənpərvərlik hissindən və s. uzaq) baxışlar təbliğ edirlər, genosidə güc verməkdən isə daxildə istifadə olunur. Aydındır ki, müsəlmanlara gizli nifrət bəsləmək, elə xristianlara və ya yəhudilərə gizli nifrət bəsləmək qədər faydasızdır.

Bu mexanikanı daha qabarıq göstərmək üçün İstanbul jurnalisti Murad Arvasın söylədiklərinə müraciət etmək istərdim. Yerevanda onu və Fransadakı «Le monda» qəzetinin müxbirini mətbuatla əlaqələr üzrə məmur Aşot Nazaryan müşayiət edirmiş. Həmin səfər 1991-ci ilin yanvarında baş verdiyindən Murad bəy təzə press-attaşeyə sual verir: respublikadakı çoxminlik ordu kimə qarşı yaradılmışdır? Əgər Azərbaycana qarşıdırsa, onda axı onlar da sizin kimi Sovet Respublikasıdır... Nazaryan belə cavab vermişdir: «Ordunu biz ruslara qarşı yaratmışıq: bax onlardır bizim əsas düşmənimiz».





Aydındır: Həmin günlər Yerevana Türkiyə hökumətinin nümayəndəsi Ermənistanla iqtisadi saziş barədə danışıqlar üçün gəlmişdi. Onda Rusiya ziyalılarını niyə inandırırlar ki, Yerevan - demokratik Rusiyanın Qafqazdakı əsas istehkamı və xristianlara heç bir təhlükə yaratmaq fikri olmayan müsəlmanlardan və pantürkistlərdən müdafiəçisidir? Qoy olsun. **Belə siyasəti Murad bəy bu cür müəyyən etdi:** «Dovşana canıyananlıqla deyirlər qaç, tazıya deyirlər tut!» Hüquq təhsilini Fransada almış A.Nazaryan 1915-ci il faciəsi barədə jurnalistlərə günün konyukturasına uyğun olaraq, əsaslandırılmış cavab verdi: *«Türklər və ermənilər yüzillər ərzində mehriban yaşamışlar - erməni kəndlisinin türk kəndlisi ilə bölməli heç nəyi yoxdur. Birinci dünya müharibəsində rus fitnəsinə uyaraq Rusiyanın və Qərbin komandası ilə Türkiyəyə qarşı müharibəyə girdik, nəticədə erməni xalqı genosidə məruz qaldı və Türkiyə ərazisindən qovuldu. Biz yeni dövlət qurduq, bizi diasporumuz və qərbdəki dostlarımız müdafiə edir və bizim əsas düşmənimiz Sovetlər, Sovetlər İttifaqıdır».*

**1915-ci il hadisələrinə dair öz münasibətini türk jurnalisti də şərh etdi:** *«Ermənilər əsrlər boyu Osmanlı İmpe-*

*riyası ərazisində yaşamış, ticarətlə və sənətlə məşqul olmuşlar. Osmanlı İmperiyası çox güclü idi, lakin Birinci Dünya müharibəsi başladı: Fransa və İtaliya bizim qərb ərazilərimizə qoşun çıxardılar, Yunanıstan İzmiri, İngiltərə İstanbulu işğal etdi. Rusiya da Türkiyəyə qarşı əməliyyatlara başladı. Və bu şəraitdə 400 ildən çox Türkiyə ərazisində yaşayan ermənilər daşnakların təhriki ilə Türkiyənin kişisiz qalmış köməksiz kəndlərinə zərbə endirdilər. Həddən çox heç bir günahı olmayan qadın, uşaq və qoca həlak oldu.*

*Dinc əhalini qorumaq üçün cəbhədən hərbi hissələr geri çağırıldı. Müharibə odundan çıxmış əsgərlər, onların evlərini talamış, heç bir günahı olmayan köməksiz adamları öldürmüş daha hiyləgər və xain düşmənlə üzləşdilər. Nizami ordunun hücumları altında daşnaklar qaçırdılar. Daşnakların əsaslı surətdə hazırladıqları cinayətə görə bu dəhşətli fitnəyə uymuş bütün ermənilər cazalandırıldılar».*

Niyəsə Murad bəy Yerevanı tərk edərkən qüssə ilə söylədi ki, ermənilərin Türkiyə, İran, Azərbaycan və Gürcüstan torpaqlarının xeyli hissəsinə böyük iddiaları var. Görəsən, Avropa parlamenti 1987-ci ilin yazında «erməni məsələsini» qoyanda, bu sərsəm əhval-ruhiyyələri nəzərə alırdımı?

«Təpənin o üzündən» isə Qarabağ barədə mərkəzi hökumətə - Moskvaya ilk siqnallar daxil olurdu. **1987-ci ilin noyabrın ortalarında** akademik Abel Ağambekyan Fransanın Erməni İnstitutu və erməni veteranları Assosasiyasının onun şərəfinə düzəltdikləri qəbul zamanı «Qarabağın erməninin olduğunu eşitmək» - arzusunda olduğunu bildirdi. Akademik söylədi ki, *«bir iqtisadçı kimi belə hesab*








**Rus ordusu tərəfindən bağlanmış Ağdam-Şuşa yolu.**

*edirəm ki, o Azərbaycana nisbətən Ermənistanla daha sıx bağlıdır».* Yeri gəlmişkən, o zaman DQMV-nin xarici mal dövriyyəsində Ermənistan SSR-in payı 1.5 faizdən çox deyildi. Özümüzə təskinlik verək ki, iqtisadçı akademik bunu bilmirdi və bu, böyük təbii ehtiyatları olan nəhəng ölkənin indiki iqtisadi iflasının səbəbləri barədə suala qismən cavab verir.

Öz dövrünü və insanların arzu və istəklərini incəliklərinədək duyan Marietta Şaginyan isə tamam əks fikirdə - Qarabağın məhz Azərbaycana meyl etməsi fikrində idi. 1927-ci ildə hadisələrin izi soyumamış, bu vilayəti uzunmüddətli gəzintiyə çıxan **M.Şaginyan görürdü ki, bu torpaq** *«özünün iqtisadi və coğrafi mövqeyi baxımından üzünü daha çox Azərbaycana çevirmişdi. Əsrarəngiz meşəli yaylaqla-*

*rı buraya enir, çaylar buraya axıb gedir, yollar buraya uzanır, çay axarı və yollar boyunca kəndlər və adamlar da öz iqtisadi maraqları ilə birlikdə yerini buraya dəyişir: ticarətlə məşğul olur, mal alır, mal dəyişir, uyğunlaşır, tələbata cavab verir, məişət cizgilərini mənimsəyir, ümumi məqsədlərlə bir-birilə bağlanırlar».*

**Bu da Zaqafqaziyanın partiya bosslarından biri olan Levon Mirzoyanın daha əvvələ - 1923-cü ilə aid olan fikirləri:** *«Xalis Qarabağ məsələsi yoxdur. Erməni kəndlisi Bakı və Ağdamla sıx əlaqəsi olmadan yaşaya bilməz, yalnız onun ovalıq hissəyə yolunu təhlükəsiz etmək və mədəni inkişafına imkan vermək lazımdır».*

Bu əcaib akademikə ibrət üçün daha bir sitat gətirək. Hələ Azərbaycanda və Ermənistanda Sovet Hakimiyyəti qurulmazdan əvvəl-**1919-cu il mayın 22-də Anastas Mikoyan V.İ.Leninə məlumat verirdi:** *«Erməni hökumətinin daşnak agentləri Qarabağı Ermənistana birləşdirməyə çalışırlar. Bu, Qarabağ əhalisi üçün Bakıdakı həyat mənbəyindən məhrum olmaq və heç zaman və heç nə ilə əlaqəsi olmadığı Yerevanla bağlamaq deməkdir. Erməni kəndliləri beşinci qurultayda Azərbaycanı tanımağı və ona birləşməyi qərara aldılar».*

Necə deyərlər, hər şey axır, hər şey dəyişir: elə həmin Anastas Mikoyan SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri olandan sonra 10 il əvvəl Krımın müvəffəqiyyətlə Ukraynaya verildiyini nəzərə alaraq **1964-cü ilin əvvəlində**





**N.S.Xruşşova DQMV-ni Ermənistana birləşdirməyi təklif etdi. O zaman Xruşşov əsəbiliklə demişdir:** «Bir sutka ərzində DQMV ermənilərini Ermənistana köçürmək üçün 12 min hərbi yük maşınını onların ixtiyarına verməyə hazıram».

Qorbaçov belə suala cavab verməyə hazır deyildi və güman etmək olar ki, insanın çox zəif yeri olan millətçiliklə manipulyasiya etmək tək Zbiqnev Bjezinskinin planına daxil deyildi. Və uzun illər eyni ərazidə yaşamış hansı xalqlar bir-birinin xatirinə dəyməmişlər? İnsanlarda milli qəzəbi söndürən qüvvələr həmişə tapılırdı, çünki, millətlərdə ayrı-seçkilik yaranması yalnız qanla və qarmaqarışıqlaqla nəticələnə bilir.

**Tarix belə deyir.** Yalnız ağlını itirmiş şöhrətpərəstlər və cinayətkarlar düşmənçilik hərəkətində olurlar. Birincilər şöhrətlənmək istəyirlər, ikincilər isə ümid edirlər ki, ümumi qarmaqarışıqlıqda onların cinayətlərini unudacaqlar.

**Parisin «İnterkontinental» otelində yerli erməni elitası qarşısında səslənmiş və «Humanite» səhifələrində 1987-ci il noyabrın 18-də dərc olunmuş DQMV-nin Azərbaycandan alınıb, Ermənistana verilməsinin «iqtisadi məqsədəuyğunluğu» barəsindəki yalan qanunsuzluq üçün geniş meydan açdı.** Halbuki həqiqəti birbaşa düzgün demək lazım idi: ümumi uğursuzluğun səbəbi nor-

mal dövlətçiliyin olmamasındadır; yalnız bu, bizləri qəzəbləndirir və alçaldır, qəzəbli adamlar isə, fərqi yoxdur moldavan olsun, özbək və ya yakut, çox asanlıqla milli düşmən obrazı yaradır. «Nifrət üçün obyektləri seçin» - deyə, Gebbels öyrədirdi.

## NİŞANLANMIŞ QARABAĞ KARTI

**Nişanlanmış Qarabağ kartı oyuna belə girdi. SSRİ Kostitusiyasına və Azərbaycan SSR Konstitusiyasına ilk sui-qəsd bütöv bir xalqın mənliyinə vurulmuş sillə kimi səsləndi.**

Azərbaycan milli xarakterinin özəyi türk hərbi-feodal namus kodeksinin müəyyənedici təsiri altında formalaşmışdır: **mərdlik** qazancdan irəlidir, **namussuzluq** - ölümdən pisdir, **kömək almaq** adamı alçaldandır, **ailə və uşaq** müvəffəqiyyətdən və vəzifədən üstündür. **Varlanmağa çalışmaq** əxlaqa zidd deyil, kişi pulu dünyanı gözəlləşdirir, - deyilir Quranda.

Gəlmə adama münasibətdə azərbaycanlıda etibar və qonaqpərvərlik həmişə var. Bu zaman ev yiyəsi tez-tez səhv edir. və elə bilir ki, onun evinin qayda-qanunu qonağa məlumdur. Qədim bir hekayət bu qaydaları belə izah edir. Gələn qonağı qəbul etdilər, yedizdirdilər, içirtdilər, gecələməyə yer verdilər. Həyasız qonaq bir ucdan hər şeyi tərifləməyə başlayır, bilir ki, yerli qanuna görə qonağın nədən xoşu gəlsə, onunkudur. Qonağa çoxlu hədiyyələr verdilər, getmək istədikdə, xahiş etdilər ki, çəkməsini çı-








Xocalı şəhərinin müdafiəçiləri.

xarsın və altındakı torpağı çırpıb tökdülər. «Torpağımız bircədir, - deyirlər Azərbaycanda, onu biz hədiyə vermirik».

Torpağına istənilən iddia hər bir xalqın qeyrətinə və mənliyinə ağır zərbədir, hətta insanlar uzaq Parisdə səslənən qanunsuzluğa çağırışın onların dinc həyatlarında tüstülənən ocaqlarının sonu olduğunu dərk etməsələr belə.

Abel Aqanbekyan Qarabağ haqqında bəyanatı ani olaraq bir çox xarici erməni qəzet və jurnallarının, Parisdəki «Ayb» radio stansiyasının, «Azadlıq» və «Amerikanın səsi» radiolarının erməni redaksiyalarının mərkəzi mövzusuna çevildi.

Var-dövlətinə görə ikinci diasporun çoxsaylı siyasi təşkilatları həyata gəldi:

**«İnqilabçı daşnaklar»,**

**«İnqilabçı ermənilər ittifaqı»,**

**«Kəndli azadlığı»,**

**«Birləşmiş Ştatların Şərq erməniləri»,**

**«Kilikiya»,**

**«Jirair»,**

**«Ermənistanın müdafiəçisi»**

**və «Gənc erməni daşnakları» partiyaları.**

ABŞ o zaman növbəti prezident seçkilərinə hazırlaşırdı. Erməni lobbisi prezidentliyə əsas nəmizədlərdən uzaqda dura bilməzdi. Murad Topalyan Maykl Dukakisin milli məsələlər üzrə müşaviri oldu, ABŞ-dakı erməni icmasının



**Zəngilan.** Erməni terrorçuları tərəfindən partlladılmış körpü





başçısı Paruyr Zorçyan isə Corc Buşun namizədliyini müdafiə ilə çıxış etdi.

1987-ci ilin sonlarından televizoru qoşub «Novosti» və ya «Vesti»yə baxdıqda görürdüm ki, reportaj müəlliflərinin, jurnalistlərin və operatorların tən yarısı erməni familiyasından olan adamlardır, başa düşürəm ki, xarici lobbistlərin göstərdiyi pis nümunə Rusiya televiziyasının rəhbərlərindən biri, «müstəqil» jurnalist, telekompaniyaya «Den» qəzetinin məlumatına görə öz «şəxsi» 17 milyon vəsaitini qoymuş Eduard Saqalayevə və «Vesti»nin Baş redaktoru, c-b Saqalayevdən az məhşur olan işbaz c-b Minasyana da yoluxmuşdur.

### KREMLİN SARAY İQTİSADÇISI - ABEL AĞANBEKYAN

**1987-ci il dekabr.** Respublikaçılar partiyasının Nyu-Orleandakı qurultayında erməni icmasından olan nümayəndələr təkid edirdilər ki, partiyanın proqramına «Sovet İttifaqında öz müqəddəratını təyin etmək hüququnu əldə etməyə çalışan xalqların müdafiəsi» barədə maddə daxil edilsin. SSRİ-də hakimiyyətin zirvəsində olan erməni lobbisinə gəldikdə isə Abel Ağanbekyan heç cür yanıla bilməzdi, onları adbaad tanıyırdı: **Baş katibin köməkçiləri** Şahnazarov və Brutensdən tutmuş, yeni Baş nazir Rıjkovun yaxın adamları olan Sitaryana və Xaçaturovadək.

**Bir də ki,** yüksək vəzifəli partiya və dövlət nökərlərinin və hətta mədəniyyət xadimləri - ermənilərin açıq siyasi fəallığına ümid bəsləmək olmazdı. Əsas o idi ki, onlar-



**Bakı. 1989-cu il.** Erməni separatizminə qarşı mitinqlər.

dan heç biri elan edilmiş konstitusiya özbaşnalığına qarşı çıxış etməyəcəkdir.

**SSR xalq artisti leninqradlı Ruben Ağamirzyanın dedikləri:**

*«Əlbəttə, bir erməni kimi istəyirəm ki, Dağlıq Qarabağ Ermənistana keçsin, - mən bunu ədalətli sayardım. Digər tərəfdən isə mən başa düşürəm ki, aksiya nəticəsi bilinməyən xarakterli zəncirvari reaksiya yarada bilər».*

Lakin, elə Qarabağ süjetinin müəlliflərinin bütün ümidi də məhz nəticəsi əvvəlcədən bilinən xarakterli bu zəncirvari reaksiya idi: Zbiqnev Bjezinskinin proqnozunu yada salaq.





Əgər akademik Ağanbekyan da rejissor Ağamirzyan kimi özünün Parisdəki çıxışını ondan başlasaydı ki, o bir erməni kimi Dağlıq Qarabağın Ermənistana keçməsini istəyir, bu zaman onun milli mənliyini millətçiliklə səhv salmaq olardı. Ona görə də Kremlin saray iqtisadçısı, L.İ.Brejnevin BAM üzrə baş məsləhətçisi Abel Ağanbekyan Ruben Sergeyeviç Ağamirzyandan daha hiyləgər rejissor çıxdı. Görəsən, millətçilik çıl-çırpısına odu birinci tullayan **Abel Ağanbekyanın Ermənistanın özündəki Qarabağ hərəkatından xəbəri vardımı?** Şübhəyə yer qalmır. Yerevanın elçiləri bütün 1987-ci il ərzində Qarabağa gedərək müəssisələrdə və erməni kəndlərində yığıncaqlar təşkil edir, muxtar vilayətin statusunu dəyişmək qətnamələrinin altına imzalar toplayırdılar. Sadəlövh millətçilik ideya millətçiliyi ilə, iki «yad» millətin bir ərazidə yaşamasının qeyri-mümkün olması fikri ilə çulğalaşırdı. Yerli kitabxanalardan Azərbaycan klassiklərinin rus dilində nəşr edilmiş kitabları götürülürdü, hətta, erməni xalqının əməksevərliyini, işguzarlığını öz həmtayfalarına səmimi simpatiya ilə misal gətirən Cəlil Məmmədquluzadənin uşaq hekayələri də. İdeoloji artilleriya hazırlığında əsas yeri Zori Balayanın bir çox erməni kəndlərində stolüstü kitaba çevrilmiş «Ocaq» yol oçerkləri tutdu. **«Millətin çiçəklənməsi hüququnu mən insanın bütün hüquqlarından uca tuturam - özünə çoxmənalı Qayk Qarabaxçi təxəllüsü götürmüş publisistin əqidəsi və leytmotivi belədir. Yalnız bu hüququ həyata keçirən əsl vətəndaş və vətənpərvərdir. Bütün yerdəqalanlar- satqınlardır. Əxlaqa ziddir...»**

Özünü və öz xalqını həmişə haqlı sayan **Zori Balayan şəxsi qəzəbinə beynəlxalq miqyas verirdi:** *«Biz barbarların doğrayıb-tökdükləri həmvətənlərimizi heç vaxt yaddan çıxarmırıq. Şəxsən mən başa düşmürəm ki, bu gün yaponlar amerikanlarla necə dostluq edirlər. Xirosima və Naqasakidən sonra yapon adalarında amerika təyyarəçilərini necə qəbul etmək olardı? On beş saniyə ərzində yüz qırx min yaponiyalı ömrünü tapşırdı. Yüz milyonlarla başqaları sonradan əziyyət çəkəcəklər. Minlərlə və minlərlə adam indiyədək əziyyət çəkir. Və bu vaxt təyyarəçi forması geymiş amerikalılar yapon adalarında sakitcə gəzişirlər.»*

Amerika təyyarəçilərinə arxadan hücum etməyi və Amerika konsulluğuna partladıcı qurğu qoymağı Qayk Qarabaxçi yaponlara əmr etmədi, əvəzində «türk diplomatını öldürməyi qarşılarına məqsəd qoymuş erməni millətindən olan gənc oğlanlar» barədə hərarətli fikir söylədi.

*«Tarixi Arsaxı» tərənnüm edərkən, müəllif azərbaycanlıları «gəlmələr», «türk köçəriləri» adlandıraraq millətlərarası münasibətlər etikasını pozmuşdur: «bizim yerimiz necə də dardır? Rayon mərkəzləri arasında yol əvəzinə şəhər keçir. Bizim yerimiz heç kimdə və heç yerdə olmadığı qədər dardır».*

Təsvir olunan süjetin personajlarma bir şey lazım idi: Tarixi vətəndəki darısqallıqlar barədə təntənəli nəğmələrlə milli hissələri qızışdırmaqdan kütlənin despotiyasına keçmək.

**Ağanbekyanın Parisə uçuşundan təxminən bir ay əvvəl - 1987-ci ilin oktyabrında Yerevandakı Puşkin adına parkda «Qarabağ» komitəsinin ilk mitinqi keçirildi.**





Onun liderləri İqor Muradyan və Levon Ter-Petrosyan o zaman ən çoxu 250 adam yığa bilirdilər. Lakin elə ondaca kifayət qədər davakar «Qarabağımızı xilas etmək üçün ölümdən və həbsxanadan qorxmamağı bacarırıq» sonluğu ilə bitən «Axı bu gün Qarabağa canlı bütlər gərəkdir» mübarizə himni səsləndi.

Şairə Silva Kaputikyan bu hərəkatı «yenidənqurmanın, kütlələrin sosial aktivliyinin övladı» adlandırmışdı.

Dinc qarabağlılar öz məmləkətlərinin gələcək «xilası» barədə düşünmürdülər, lakin azərbaycanlı qonşulara əyri baxmaq halları artırdı və bu narahatçılığı ilk hiss edənlər qarışıq nigahlardan yaranan ailələr oldu.

## 1988-Cİ İL 20 FEVRAL. QARABAĞIN «LİDERLƏRİ»

Bu gün həmin səhvlər o qədər əhəmiyyətsiz görünür ki, onları heç yada salan da yoxdur. Gah 1963-cü il üçün **«Kalendar vraça»**da, gah N.V.Voronovun **«Monumentalnaya skulptura»** (1984 -cü il) kitabında və ya hətta **«Osnovı sovetskoqo qosudarstvennoqo prava»** (1987-ci il) dərsliyində Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistan SSR-ə aid edilmişdi. Naşirlər və müəlliflər bu saxtakarlıqları korrektorların günahı kimi izah edirdilər: gözdən qaçıb. Vəssalam. Azərbaycanın hökumət dairələri və xüsusən oxucular elə bir ciddi etiraz məsələsi qaldırmırdılar.

**Zori Balayanın «Ocaq» kitabının** tənqidi təhlilinə və iki xalqın qarşılıqlı münasibətlərinin əsl tarixinə həsr etdiyi əsaslı məqaləsi ilə bağlı Azərbaycanın xalq yazıçısı Mirzə İbrahimovun payına «Literaturnaya qazeta»dan edi-



**Türkiyə. Sarıqamış.** Ermənі terrorçuları tərəfindən qətlə yetirilmiş mehmetciklərə ucaldılmış abidə.

lən təkcə bir telefon zəngi düşdü. Burada daha korrektorlara istinad etmirdilər, lakin Aleksandr Çakovskinin tapşırığına əsasən yazıçıya məlumat verirdilər: kitab Yerevanda nəşr edildiyindən, redaksşiyanın ümumittifaq və dünya miqyasına çıxarmağı lazım bilmədiyi məsələyə aid olduğundan sizin məqalənin çapı qeyri-mümkündür.

Amma «Bakinski raboçi» qəzetində Ermənistan haqqında, qonşu respublikaya və onun sakinlərinə dərin hörmət ruhunda yazılmış silsilə oçerklər verilərkən başlığın yanında yerləşdirilən Ermənistan gerbində Araratın kontur təsviri düşməyəndə Yerevanın reaksiyası texniki mətbəə brakına adekvat olmadı. Artıq növbəti nömrədə (oçerklərin verilməsi davam edirdi) mətbəə bu brakı aradan götürə





bilsə də Yerevandan təkcə Moskvaya və Azərbaycanın ali hakimiyyət orqanlarına protestlər göndərilmədi, həm də Ermənistanın özündə haylı-küylü narazılıq-təbliğat kompaniyası başlandı. Bir qrup mətbəə və redaksiya işçisi yuxarılarda çox sərt şəkildə söyülüb, danlandıqdan sonra təqiblərə və işdən çıxarılmaya məruz qaldılar.

Zaqafqaziya Azərbaycanın və Dağıstan xalqlarının əcdadlarından biri, Zaqafqaziyanın az məlum olan və az öyrənilmiş üç qədim xalqlarından biri olan albanların siyasi və mədəni həyatının mənzərəsini yaratmaqla məşğul olan tarixçilərin əsərləri xüsusi müşayiət və nəzarət altına alındı. Qədim Albaniyanı öyrənən mərkəz SSRİ Elmlər Akademiyası Rəyasət Heyətinin göstərişi ilə Bakıdan Yerevana köçürüldü.

**Fəridə Məmmədovanın 1985-ci ildə nəşr olunan** və doktorluq dissertasiyası kimi 1987-ci ildə müdafiə etdiyi «Qafqaz Albaniyasının siyasi tarixi coğrafiyası (b.e.ə. III əsr - b.e-nın VIII əsri)» (rus dilində) Yerevanın «Qrakan tert» («Ədəbiyyat qəzeti») qəzetində dəhşətli tənqidə məruz qaldı. Ədib Albert Muşeqyan yuxarı partiya orqanlarının və AAK-ın diqqətini F.Məmmədovanın erməni tarixinə aid çoxsaylı faktlara qeyri-elmi şərh verdiyinə və onları qərəzli şəkildə təhrif etdiyinə yönəldir, müəllifi əsassız iddialarına görə və orta əsrlər erməni ədəbiyyatı, memarlığı və mədəniyyətini mənimsəməyə çalışmaqda günahlandırırdı.



**1991-ci il. Qarabağ.** Azəri türkləri doğma yurdun keşiyində

Akademik Ziya Bünyadov «Qrakan tert»dən olan həmkarına xəbərdarlıq edirdi ki, albanistikanı elm sahəsindən çıxarıb siyasət meydanına çevirmək, üstəlik «yuxarı orqanlara» xəbərçilik etmək yaramaz; axı qədim Albaniya bir çox xalqların, ilk növbədə Azərbaycının irsidir. Ziya Bünyadov bu zaman albanistikanın və Ermənistan Elmlər Akademiyasının banilərindən biri, vaxtilə haqlı olaraq «erməni millətçilərinin zahirən elmi görünən uydurmalarını» pisləyən akademik İosif Abqaroviç Orbeliyə istinad edirdi.

Başqa dövr - akademiklərin yox, «Qarabağ» komitəsindən olan və «qazışdırıcı mövzuya həqiqi mənada dişləri ilə yapışmış» ortabab filoloqların dövrü gəlmişdi.

Erməni kilsəsi də öz intellektuallarından geri qalmırdı. Hətta zəif müşahidəçi də görə bilirdi ki, Eçmiədzin təm-





kinlə, artıq emosialara yol vermədən antiazərbaycan əhval-rühiyyəsini hazır vəziyyətdə saxlayırdı. **O dövr üçün yalnız iki vəsaitin adını çəkmək istərdim:**

«Erməni xalqının inqilaba qədərki və inqilabdan sonrakı düşmənləri» (1978-ci il) və «Ermənistanın taleyinin həll olunmasında doqquz məsələ» (1983) Təbii ki, Ermənistanın taleyinin həllində Qarabağdan başqa səkkiz məsələdə üstünlük təşkil edirdi.

«Qarabağ ətrafında» 1987-ci il hadisələrinin çox az hissəsini təhlil edə bilsəm də, adı çəkilən və məcburən oynanılan bu dramın süjeti bizi 1987-ci ilə, Dağlıq Qarabağın özünə və bu muxtar vilayətin mərkəzinə, vaxtılə Xankəndi olmuş Stepanakert şəhərinə aparır.

**1988-ci il fevralın 20-də** DQMV vilayət sovetinin əksər deputatları vilayətin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-nə verilməsi qərarına səs verdi. Bakıya, Yerevana və Moskvaya Ali Sovetlərin ünvanına müvafiq müraciətlər göndərildi. Hələ bu ali orqanlardan cavab alınmamış bayraqlar və Ermənistan SSR-in yurisdiksiyasına keçirilmiş müəssisələrin adlarını bildirilən lövhələr dəyişdirildi.

**1988-ci il fevralın 22-də** Dağlıq Qarabağda Moskvanın iştirakı ilə partiya fəallarının yığıncağı keçirildi. Yığıncaqda Dağlıq Qarabağ Muxtar Vilayətində baş vermiş mənfi halların aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər müzakirə edildi.



1992-ci il. Naxçıvan. Ermənilər tərəfindən dağıdılmış evlər.

**Fəallar yığıncağında** SovİKP MK Siyasi Bürosu üzvlüyünə nəmizəd, Sov. İKP MK katibi **G.P.Razumovski,** SSR Ali Sveti Rəyasət heyəti sədrinin birinci müavini **P.N.Demiçev** iştirak edirdilər.

Yığıncaqda G.Razumovski çıxış etmişdi. **O demişdi:** *«Son vaxtlar Sov. İKP MK-nın, SSRİ Ali Sovetinin Rəyasət Heyətinin və digər mərkəzi orqanların ünvanına DQMV-nin erməni əhalisinin göndəridiyi məktublarda və ərizələrdə vilayəti Ermənistan SSR ilə birləşdirmək xahiş edilir. Dağlıq Qarabağda baş verən çıxışların gedişində də bu cür tələblər irəli sürülür. Deməliyəm ki, Sov. İKP MK mövcud milli-ərazi quruluşun dəyişdirmək məqsədini güdən hərəkətləri və tələbləri Azərbaycan SSR və Ermənistan SSR zəhmətkeşlərinin mənafelərinə zidd hərəkətlər və tələblər kimi qiymətləndirir. Belə hərəkətlər və tələblər onların millətlərarası münaksibətlərinə ziyan vurur, əgər indi məsul tədbirlər görülməsə, ciddi nəticələrə gətirib çıxara bilər.*

*Vəziyyətin normal hala salınması üçün məsuliyyət bütünlüklə bu respublikaların KP MK bürolarının üzərinə şəxsən MK-ların birinci katibləri K.M.Bağırov və K.S.Dəmirçiyan yoldaşların üzərinə düşür.*

*Dağlıq Qarabağ Muxtar Vilayəti dinamik surətdə inkişaf edir. Dəmir yolu, elektrik xətləri, qaz kəmərləri - bütün bunlar DQMV-ni Azərbaycan SSR ilə ən sıx surətdə bağlayır. Vilayətdə çoxlu sənaye müəssisəsi işləyir: Xankəndi isə iri sənaye və mədəniyyət mərkəzinə çevrilmişdir. Faktlar göstərir ki, çox mühüm iqtisadi və sosial göstəricilər üzrə Dağlıq Qarabağ Muxtar Vilayəti bir çox hallarda orta respublika səviyyəsini qabaqlayır».*





**22 fevral 1988-ci il** Stepanakertdə keçirilən partiya fəallar yığıncağına Ermənistan KP MK-nın birinci katibi K.S.Dəmirçyan da gəlmişdi. Bizimkilər, yəni, Azərbaycan hökuməti Ermənistandan Dağlıq Qarabağa «təşrif buyurmuş» ayrı-ayrı adamların məsuliyyətsiz, cinayətkar çağırışlarına, hərəkətlərinə görə Ermənistan KP MK bürosu qarşısında məsələ qaldıra bilmədilər. Həmin yığıncaqda Azərbaycan sovet orqanlarının işçiləri passiv və gözləmə mövqeyi tutdu. Yığıncaq ərəfəsində Stepanakert şəhər partiya komitəsinin birinci katibi **Z.M.Movsesyan** və Qarabağ

ipək kombinatı partiya komitəsinin katibi **R.S.Koçaryan** (red. Ş.S.- Koçaryan indi Ermənistanın prezidetidir) Azərbaycan Kommunist Partiyasının birinci katibi K.Bağırovu iclas zalına buraxmaq belə istəmirdilər. Poqosyan vilayət sovetinin girəcəyində Kamran Bağırovun qabağında dayandı ki, içəri keçməsin. Kamran Bağırov da əl atıb onun boğazından tutdu və kənara tulladı. N.Paqosyan arxası üstə yerə dəydi. Ermənilər qapının ağzından qaçıb hərəsi bir tərəfə dağılışdılar.

**Dağlıq Qarabağ Vilayət Partiya təşkilatının fəallar yığıncağı 1988-ci il 22 fevral tarixli qətnamə qəbul etdi. Qətnamədə deyilirdi:** *«DQMV-nin mövcud milli-ərazi quruluşunu dəyişdirmək məqsədini güdən hərəkətlər və tələblər Azərbaycan SSR və Ermənistan SSR zəhmətkeşlərinin mənafelərinə ziddir, millətlərarası münasibətlərə zərər vurur və indi məsul tədbirlər görülməsə, bəlli olmayan və hətta çətin düzəldilə bilən nəticələr verə bilər. Bütün bunlar məsuliyyətsiz şəxslərin çağırışları, habelə muxtar vilayətin partiya və sovet orqanlarının passiv mövqe tutması nəticəsində mümkün olmuşdur. Bu orqanların rəhbərliyi yayılmış əhval-ruhiyyələrə lazımınca əhəmiyyət vermir, yaranmış vəziyyətə qiymət verilməsinə səthi yanaşır».*

**Səhəri günü - fevralın 23-də** Dağlıq Qarabağ Vilayət Partiya komitəsinin plenumu keçirildi. Plenumda təşkilat məsələsinə baxıldı.

**Plenum B.S.Gevorkovu işdə yol verdiyi nöqsanlara görə** vilayət partiya komitəsinin birinci katibi vəzifəsindən





və büro üzvlüyündən azad etdi. Əslində Baris Gevorkovun nöqsanlarını göstərə bilmədilər. Ermənilər plenumun gedişatında səs-küy salırdılar.

Maraqlı bir hadisə isə sonra baş verdi. Bundan əvvəl vilayət icraiyyə komitəsi sədrinin birinci müavini - Dağlıq Qarabağ Muxtar Vilayəti Aqrosənaye Komitəsinin sədri vəzifəsində işləmiş H.A.Paqosyan Moskvadan gələnlərin təzyiqi ilə Dağlıq Qarabağ Vilayət Portiya Komitəsinin birinci katibi «seçildi».

**Plenumda Azərbaycan KP MK-nın birinci katibi K.M.Bağırov çıxış etdi.** Plenumun işində V.N.Konovalov, T.X.Orucov, R.V.Axundov, Sov.KP MK-nın bölmə müdiri V.A.Kondratyev, Sov. İKP MK-nın məsul işçisi V.M.Yaşin iştirak edirdi.

**Düz bir ay sonra «Pravda» bu, «ölkəmiz üçün görünməmiş hidisə» ilə bağlı sual verirdi:**

*«Elə görünür ki, burada pis və qorxulu nə var? Axı, istənilən məsələ ilə bağlı yalnız bir fikir mövcud olan dövrlər keçdi. Əgər başqa fikir yaranıbsa o, niyə müzakirə edilməsin, açıq söhbətlə yoxlanılmasın? İnsanlara dəlillərlə izah etmək lazımdır ki, baxılan halda yerliçilik marağı dövlət marağından üstün olubdur».*

Özbaşnalığın hökumranlığından qanunun hökumranlığına keçidin *(xatırlayırsınızsa, biz SSRİ-də hüquqi dövlət qurmaq istəyirdik)* heyrətə gəlmiş bütün SSRİ tamaşaçılarının gözü qarşısında millətçilik azarına tutulmuş, başqa, deməli, daha qanlı özbaşnalıqla əvəz edildiyini deməyə «Pravda» cürət etmədi. O dövrdə hələ də partiya senzurusının

zülmü altında olan digər kütləvi informasiya vasitələri haqqında danışmaq isə yersiz olardı.

**Jurnalistlərə xəbərdarlıq edirdilər:** Ölçülüb-biçilmiş fikir söyləmək lazımdır, vəziyyət mürəkkəbdir, hər sözə qarşı reaksiya kəskindir; Moskvada «qarşılıqlı güzəştli sülh konsepsiyası» işlənib hazırlanırdı, sanki, Azərbaycanın da Ermənistan ərazisinin bir hissəsinə iddiası vardı.

**Konfliktin ilk günlərindən yazanların çaşqınlığı barədə «İzvestiya»nın müxbiri A.Qazıxanov bildirirdi:**

*«Mən təxminən belə düşünürdüm. Hadisələrin əsasında nə durur? Anlaşılmazlıq. Böyük, möhtəşəm, faciəli, dəhşətli nəticələr verə biləcək anlaşılmazlıq. Amma, anlaşılmazlıq. Mənə daim belə gəlirdi ki, əgər bir nəfər ağıllı, dərrakəli, tamamilə qərəzsiz, həm azərbaycanlılara, həm də ermənilərə hörməti olan və onları sevən adam tapılsa, birtəhər işləri yoluna qoymaq olar. Hərgah bu adam yaranmış narazılıqları, qarşılıqlı karlığı və korluğu müdriklik və incəliklə aradan götürə bilsə, hər şey öz yerini tutacaqdır».*

Doğrudur, Stepanakert İpək fabrikinin klubunda fabrikin direktoru R.Atayan çıxış edərkən orada yaranmış vəziyyət A.Qazıxanovu bir qədər şübhələndirdi və bu barədə o, ermənicə danışırdı. Mən gənclərə müraciət edərək direktorun danışığını tərcümə etməyi xahiş etdim, lakin kəskin rədd cavabı aldım. Onda mən yanımda dayanmış və güman ki, bu fabrikin fəhləsi olan orta yaşlı adamdan xahiş etdim ki, direktorun nə danışdığını heç olmasa qısaca







**Erməni işğalında qalmış Laçın.**



**Ağdam. 1992-ci il. Dağıdılmış ticarət mərkəzi.**

tərcümə etsin. Fəhlə lütfükarlıqla dedi ki, «o, bizim tariximizdən danışır. O, deyir ki, ...»sonrasını eşidə bilmədim. Üzü qırxılmamış bir neçə adam qəzəblə ona nəsə dedilər. Fəhlə pərt halda özünə bəraət qazandırmağa çalışırdı».

Qərəzsiz fikrə malik istənilən adama aydın idi ki, Qarabağın hakim dairələri muxtariyyat çərçivəsində, muxtariyyatın mahiyyətini daha da dolğunlaşdırmaq, mehribançılıq yaratmaq üçün çevik və güclü iradə göstərmək hesabına praktiki müstəqilliyə nail olmağı bacarmır və istəmir. Onlar «üzü tüklü cavanların» təzyiqi altında idilər. Qorxuya düşən Vilayət Sovetinin sədri, fevralın 20-də axşam möhürü itirdiyini elan etmiş, lakin axırda onu tapmış sənədləri təsdiq etmiş və bununla da deputat səsverməsinin nəticələrini qanuniləşdirmişdir.

«İzvestiya» və «Pravda»nın jurnalistləri Qarabağ ermənilərindən öyrənməyə çalışırdılar ki, **DQMV tutaq ki, ermənilərə keçdi, bunun hansı konkret müsbət cəhətləri var?** Onu kim və necə hesablamışdır? Ağanbekyanın «iqtisadi məqsədəuyğunluğun» yaddan çıxararaq onlar cavab verirdilər: «Söhbət müqəddəs bir işdən gedərkən, hər şeyi hansısa haqq-hesaba necə bağlamaq olar?»

«Qarabağ verilməsə, bizə heç bir yenidənqurma lazım deyil», - «deyə Sosialist Əməyi Qəhrəmanı Sero Xanzadyan Yerevandan hədəliyirdi.

Növbəti dəfə petisiyalar tərtib edilir, imzalar toplanır, Moskvaya nümayəndə heyəti göndərilirdi ki, orada DQMV-ni Ermənistana birləşdirmək ideyasının müdafiə





edilməsinə nail olsunlar. Şaiyələr yayılırdı ki, guya Moskva demək olar ki, «hə» deyir, amma bir az da qətiyyətlə tələb etmək lazımdır.

**Stepanakertdə mitinqlər başlandı.** Burada «Lenin, partiya, Qorbaçov» triadasını qışqırırdılar. Yenidənqurmanın cəbbəxanasında bu yenilik idi: aşağıdan təzyiq, kütlə despotiyası.

**Sadəlövh jurnalistlər sual verirdilər:** «Axı DQMV-də əhalinin dörddə birini azərbaycanlılar təşkil edir. Onlardan heç olmasa bir nəfəri mitinqdə varmı? Bəlkə onlar üçün torpaqları, evləri və mal-qarası ilə birgə qonşu respublikaya veriləcəklər, yaxud burada qalacaqlar əhəmiyyəti yoxdur.

**Cavabında eşidirdilər:** *«Bütün bunların işə nə dəxli var? Onlara sadəcə olaraq izah etmək lazımdır ki, DQMV-nin Ermənistana verilməsi onlar üçün pis olmayacaqdır».*

Məhz belə - soruşmaq yox, izah etmək - sanki dilsiz-ağızsız məxluqlardır.

**Vilayət sovetinin azərbaycanlı deputatları 20 fevraldakı səsvermədə iştirak etməkdən imtina etdilər.**

Stepanakertdə bütün dünyada məşhur olan sessiyanın çağırılmasına nail olan və şadyanalıq edən piketçilər hirslə deyirdilər: nə olsun səs vermədilər, çoxluq onsuz da «hə» deyib.

İlk dövrlərdə obyektiv və qərəzsiz yazmağa çalışan jurnalistləri stepanakertli ermənilər inandırmağa çalışırdılar ki, «Bizim barəmizdə yaxşı yazmaq, ya da heç nə yazma-



Ermənilər tərəfindən əsir alınmış azərbaycanlı qadına verilmiş işgəncələrin izləri. Vəhşilər bu qadının kürəyində siqaret söndürmüşlər.

maq lazımdır». - «Bəs pis barədə necə məlumat verək? - «Pisi yalnız azərbaycanlılar barədə yazın».

Bu sadə məsləhət tezliklə Rusiyanın bütün demokratik mətbuatı tərəfindən qəbul edildi. «Pravda» və «İzvestiya»da Stepanakertdəki millətçilik fəlakətinin heç olmasa əks-sədasını çatdıran o ilk məqalələrin müəllifləri isə tezliklə qəzet səhifələrindən yox oldu. Bir ay sonra «Emosiya və ağıl» məqaləsinin müəlliflərindən biri, pravdaçı A.Arakelyan özünün Yerevandakı müxbir postundan məhrum edildi. Həmin jurnalistlər öz erməni həmsöhbətlərinin tələblərini («yalnız onları dinləmək, yalnız onlara inan-





maq») məyusluqla qarşılayırdılar; bütün bu tələblər qonşularla dostluq etmək vədləri, demokratiya və ədalət normaları ilə çətin uyuşurdu. Jurnalistlər etiraf edirdilər ki, iki qonşu Zaqafqaziya respublikasının ümumi problemləri elə bil həmişəlik yox olmuş və yalnız bir problemə - ərazi probleminə gətirib çıxarılmışdır. Mübahisəli və çıxış yolu görünməyən bir problemə.

«İzvestiya»nın o dövrdəki müxbirləri S.Dardıkin və R.Lınev, A.Qazıxanov, elə «Pravda»dan olan həmin A.Arakelyan haqlı idilər. Qarabağdakılarla eyni vaxtda Yerevanın Teatr meydanında daha izdihamlı və müəssisələrdə tətillərə çağıran mitinqlər işə düşdü. Bu, süjetdəki ikinci yenilik idi. Dağılma poliqonu tam gücü ilə işə başlamışdı. SSRİ dağılmağa doğru gedirdi. Bunu ağıllı adamlar yaxşı dərk edirdi. Azərbaycan isə özünün savadsız və qorxaq rəhbərlərinin əsirinə çevrilmişdi.

«Bəli, biz görürük və oxuyuruq ki, bizim kimi çalışqan, sadə cavanlar soruşurlar: «Niyə biz ermənilərə görə əzab çəkməliyik»- deyən rele zavodunun tokarı, tətil komitəsinin lideri Ovanes «Komsomolskaya pravda»nın müxbirinə öz mülahizəsini bildirirdi.

**- Soruşmaq istəyirəm: bəs bu cavanlar bizim üçün nə ediblər? Onlar bizim problemimiz barədə nə bilirlər?**

İlk günlərində Yerevanın Baqramyan prospektində yaşayan şairə Silva Kaputikyan xüsusilə məşhurlaşdı. Halbuki, dörd il keçməyinə baxmayaraq onun xidmətləri nə «Krunk» intellektualları, nə də Ermənistanın indiki haki-

miyyəti tərəfindən layiqincə qiymətləndirilmədi. Ona məxsus olan sözü çılğınlıqla Balayandan da parlaq üzə deyirdi. **Məsələn, deyək ki, türk müəlliflərindən sitat gətirir, sonra əlavə edirdi:** «Türk özü lənətlənməlidir, amma doğrudur» və bunu erməni hikmətli kəlamı kimi təqdim edirdi. Teatr meydanındakı tribunadan «birdən tabe olmamağa cürətlənmiş xalqı *(1988-ci ildə onu kim tabe etmək fikrindəydi?)* salamlayan şairə onları inandırırdı ki, mərkəzi hakimiyyət bizi başa düşəcək və kömək edəcək. Yoxsa biz... Türkiyəyə müraciət edəcək və deyəcəyik ki, Rusiyaya meyl etdiyimizə görə günahımızı boynumuza alırıq.

**Sonra əlavə edirdi:** «Amma bu satqınlıq heç vaxt baş verməyəcək, onda biz Araratın üzünə necə baxa bilərik?! Qarabağı türk-azərilərin *(Silva Kaputikyan Viktor Hüqonun «Yunan oğlan» əsərindən «Burdan türk keçibdir - hər yerdə ölüm və xarabalıqdır» sətrini sitat gətirməklə azərbaycanlıları belə adlandırırdı)* hakimiyyəti altından çıxarmaq, milləti yeni, daha etibarlı qoruyub saxlamaq yolları aramaq da bizim axtarışımızdır. Cuşa gələndə isə, - Allah xatirinə lazım deyil bizə bu «dadlı tikə»,- deyə özü öz sözünü kəsirdi, - biz otuz min kvadrat kilometrdən az olan qayalıq torpaqda yaşamağa öyrənmişik, onun üstünə Qarabağın dörd min beş yüz kvadrat kilometrini gəlməklə onsuz da Çin ola bilməyəcəyik... O rabitəsiz şəkildə özünün hökumətin gözündən düşmüş göygöz, kürən Nazim Hikmətlə görüşünü, bağrına basmaq istədikdə əllərini «Əvvəlcə torpaqlarımızı qaytarın,





bizim torpaqları sonra qucaqlaşarıq» - qışqırdığını yadına salırdı. Və bütün bunları ciddi şəkildə, acıqla, kütlə qarşısında deyirdi. Qonşuların ermənilər və azərbaycanlıları «çoxəsrlik qardaşlar» adlandırmasını nifrətlə rədd edirdi. Bu sözləri heç dırnaqsız demək olarmı? Hətta müsəlmanların, «Novruz bayramı» - yeni il günlərində gördüyü almalar və sitrus meyvələri də yerli ermənilərin mənliyini alçaldır, qıcıqlandırır. «Dördüncü əsrdən biz bu ermənilərə dözürük, daha nə qədər dözmək olar?»

Milli ədavəti qızışdıran bu cür yazılı və şifahi çıxışları üçün Silva Kaputikyan nə Rusiyada, nə də Azərbaycanda məzəmmət olunmadı. Halbuki, o, xüsusilə Xocalıda «Türk-azərilər» üzərindəki vəhşiliklərdən sonra daha aydın göründüyü kimi, lap döyüş ordeni almağa layiqdir. Yaxud da xalqın lənətini?

Şairə ağzı köpüklənə-köpüklənə erməni millətinin xüsusiyyətləri və müstəsnalığı barədə yazmaqda, öz həmtayfalarında davakarlıq, barışmazlıq hissləri oyatmaqda davam edirdi və bunu yerevanlı jurnalist **Mura Arvas yaxşı başa düşürdü:** *«Qoy doğma ölkəmiz ərazisində toplanaq, torpaqlarımızın onda doqquzu respublikamızın sərhədlərinin kənarında qalmasın, qoy hər səhər gözümüz önündə sərhədlərimizdən kənara düşmüş, Hamletin atasının gölgəsi kimi təkcə gecələr deyil, gündüzlər də lal tənə ilə bizə baxan və ədalətin təntənəsini gözləyən Ararat durmasın».*

**«Qarabağ» komitəsinin lideri Levon Ter-Petrosyan isə lap əvvəldən başqa taktika götürdü.** O, «berdanka və



İşğal edilmiş Şuşa qalası

kəfəni» inkar etmədən Ermənistanın özündə hakimiyyət uğrunda mübarizəyə girərək daha uzağa baxırdı. Komitəçilərin tam ixtiyarına verilmiş Yerevandakı yazıçılar evində 1988-ci ilin həmin fevral günlərində fəaliyyət proqramı elan edildi. **Proqramda aşağıdakılar nəzərdə tutulurdu:** müəssisələrin partiya təşkilatlarının rəhbərlərini işdən çıxarmaq, yenilərini seçmək, xalq deputatlarını geri çağırmaq, «Qarabağ» komitəsinin ilk təşkilatlarının yaradılmasına mane olarsa, hamısını partiyadan xaric etmək. Az sonra «Tayms» qəzetinə verdiyi müsahibədə Levon Ter-Petrosyan bildirirdi ki, hətta ermənilərin DQMV-nin Ermənistana verilməsi tələbi ödənildiyi halda belə etiraz hərəkatı saxlanılmamalıdır. **Suveren Ermənistanın gələcək prezidenti deyirdi:** *«Əgər biz öz məqsədimizə çatarıqsa, onda hərəkat xalqın iradəsinin ifadəsi kimi mövcud olacaqdır».*

Demokratik lideri Stepanakertdə və Yerevandakı mitinqlərdə olan total həmrəylik narahat etmirdi, onda kiçicik





də olsa şübhə yaranmırdı ki, görəsən rüşvətxor direktorla çox çətinliklə dolanan fəhləni, möhtəkir-alverçi ilə vicdanlı ziyalını nədir birləşdirən!

İnsanlar qanunsuzluq vakumunu hiss etdilər və oraya liderləri öz aparatı və idarəetmə üsulları olan özünəməxsus paralel hakimiyyət mexanizmi yaradırdılar.

«Qarabağ» fəalları öz filiallarını «Krunk» («Durna») adı ilə Stepanakertin özündə yaratdılar. Buradakı ehtiyatda olan podpolkovniklər və pedinstitutun dossentləri özlərinin aşağıdakı hərəkat planını müəyyən etdilər: əvvəlcə partbiletləri yerə qoyacağıq, sonra partizan müharibəsi başlayacağıq.

Kimə qarşı?

«Biz - ölümə gedənlərik. Bizi ayırmasalar *(Azərbaycan SSR-dən - red.)* onda biz hər şeyə gedəcəyik!» - deyə «Krunk»dan zinvorlar olan üzütüklü cavanlar «İzvestiya»nın xüsusi müxbiri A.Qazıxanovun sifətinə əsəbi halda qışqırırdılar.

Hər şeyə gedəcəyik - kimə qarşı?

## AZƏBAYCANA MÜHARİBƏ ELAN EDİLDİ

**1988-ci il fevralın 20-də, məhz Brest müqaviləsinin 70 illiyi günlərində əslində Azərbaycana müharibə elan edildi.** Brest müqaviləsindən sonra Rusiya imperiyasının bir ucqarları, o cümlədən Azərbaycan və Ermənistan dövlət statusu əldə etdilər. O zaman qardaş qırğınına səbəb

olan vətəndaş müharibəsi nəticəsində Qarabağ əhalisinin deməк olar ki, beşdə biri məhv edilmişdi.

Rəsmi şəkildə heç yerdə qeyd olunmayan bu yubileyin təfsilatına və siyasi nəticələrinə toxunmaq istəmirəm, hərçənd ki, mən bizim müasir tariximizdə bu yubileyə mühüm əhəmiyyət verirəm. Yalnız iki respublikanın başlanmış qarşıdurması ilə bağlı bir mühüm faktı qeyd etmək istərdim *(Azərbaycan indi 70 il əvvəl olduğu kimi şikayət etməyən, küy salmağı və «yaxşı mətbuat» yaratmağı bacarmayan ağır tərpənən nataraz adam rolunu oynayırdı; ona hər tərəfdən edilən təqiblərə mütiliklə qulaq asmaq rolu hazırlanmışdı):* Nə Yerevanda, nə də Stepanakertdə bir dəfə də olsa millətin öz müqəddəratını təyin etmək hüququ barədə tələb səslənməmişdi *(siyasi ehtirasların bu mərhələsini Moskvada Q.Starovoytova hazırlayırdı),* ilk dövrdə açıq və aqressiv şəkildə qonşuya ərazi iddiaları edilmişdi.

«Qarabağ» Komitəsinin Yerevandakı iclaslarından birində DQMV-nin inkişafının sosial-iqtisadi proqramının bəndləri oxunduğu zaman çıxış edənin sözünü qətiyyətlə kəsdilər: *«Əgər bu tələbləri Azərbaycan rəhbərliyi yerinə yetirsə, Ermənistan Dağlıq Qarabağın üzünü görməyəcəkdir».*

Əvəzində isə «Qarabağ» komitəsinin intellektualları tam ciddiyyətlə Ermənistanı öz atom bombasını yaratmağa, onun vasitəsilə Türkiyə və Azərbaycandan müdafiə olunmağa çağırırdılar *(bu iki həmsərhəd respublika dörd il keçdikdən sonra da Ermənistana etiraz etməyə vaxt tapmadılar, etiraza əsas isə nə qədər desəniz var idi).*







Erməni vəhşiləri tərəfindən işgəncələrə məruz qalaraq ayaqlarına xaç nişanı çəkilmiş azərbaycanlı.

Bəs onda məsələ nədədir? Əgər Moskva bizimlə o dəqiqə həmrəy olduğunu elan etmirsə, onda xristian Ermənistanla xristian Rusiyanın srateji İttifaqı dağılmağa başlayır. Qarabağ ermənininin olana qədər biz total aclıq elan edəcəyik.

Komitə mövcud Konstitusiya qaydalarını aşmaq üçün sərsəm də olsa, xəyanətkar tövsiyələr düşünüb tapırdı.

**Birinci ideya:** Qarabağ erməniləri SSRİ-nin tərkibindən çıxmağa nail olsunlar və yenidən Sovet İttifaqına daxil olmaq *(amma Ermənistan SSR-in tərkibində)* xahişilə müraciət etsinlər.

**İkinci variant:** bir halda ki, SSRİ Konstitusiyasına əsasən DQMV-nin müqəddəratını təyinetmə hüququ yoxdur, Ermənistan SSR-in isə bu hüququ var, qoy onda Ermənistan özü Dağlıq Qarabağın tərkibinə daxil olmağı elan etsin və paytaxtı Stepanakert olan yeni Arsax Respublikası yaratsın.

Bəlkə də bir şey çıxdı. Dörd il keçəndən sonra Xocalı, Cənubi Osetiya və Pridnestrovye qan girdabında çimdikdən sonra əvvəllər cəfəngiyyat kimi qəbul edilən, millətçiliyin xarab etdiyi təxəyyülün yaratdığı mənzərə kifayət qədər real cizgilər ala bilər: marionet Arsax-DQR yaradıldı ki, üstəlik referendum da keçirildi.Doğrudur, Qarabağ azərbaycanlıları bu referendumda iştirak etmədilər. Onlar artıq öz torpaqlarından qovulmuşdular, torpaqlarını da ermənilər işğal etmişdi.

**Bəs Eçmiədzin?** Din xadimləri 20 fevralda başlanan konfliktlə bağlı öz mövqelərini rəsmi şərh etməsələr də bəyan edirdilər:

Arxayın ola bilərsiniz ki, qardaşlarımızdan ötrü ürəklərimiz qanla dolur. Avstriya jurnalisti Meyzelin «yerində saymadan Qarabağda olan ermənilərin hüququnu necə müdafiə etmək olar» - sualına erməni kilsəsinin yüksək vəzifəli xadimlərindən biri qeyri-müəyyən bir cavab verdi:

*«Biz tək deyilik. Diaspordakı qardaşlarımıza heç bir siyasi məhdudiyyət qoyulmamışdır. Onlar öz hökumətləri qarşısında bizim haqq işimizi müdafiə etmək tələbi qoya bilər. Və bu təzyiq şübhəsiz ki, tezliklə öz nəticəsini göstərəcəkdir».*





## AMERİKANIN ERMƏNİSTANA DƏSTƏYİ

**Tezliklə Kaliforniya ştatının qubernatoru Corc Dukmaçyan «milyonlarla ermənilərin arzusunun» müdafiəsinə qalxdı.** Amerika konqresmeni Paşayan və Qərbin bir sıra başqa siyasi xadimləri də uyğun bəyanatlar verdi. Onların mövqelərindən aşkarcasına belə bir ümid sezilirdi ki, Dağlıq Qarabağ və onun ətrafındakı hadisələr zəncirvari reaksiya kimi ölkənin başqa regionlarına da keçəcəkdir. Başlanmış konflikt sönməməlidir. «Amerikanın səsi» radiosunun məlumatına görə erməni kilsəsi «aşkarlıq şüarı» altında erməni hərəkatının xalqının başında durdu və DQMV-nin Ermənistan SSR-in tərkibinə verilməsini tələb etməyə başladı.

**Ruhanilər isə elan etdilər ki,** «Mixail Qorbaçov bu məsələni ermənilər üçün müsbət həll etməsə, onlar daha qəti tədbirlər görəcəklər».

### RUSLARIN NÖVBƏTİ SATQINLIĞI

**Ermənilərin Nyu-Yorkdakı mitinqində arxiyepiskop Mesrop elan etdi:** *«Biz dünya ictimaiyyətinə göstərməliyik ki, erməni xalqı yekdildir və öz tələblərinin həyata keçməsinə nail olacaqdır».*

**Çıxış birdir:** Moskvaya təzyiq etmək, yenə də təzyiq etmək lazımdır; orada nəhayət başa düşəcəklər ki, bütün dünyaya istibdad üsuli-idarəli bir dövlət kimi tanınmaqdansa, güzəştə getmək yaxşıdır.



**1992-ci il. Naxçıvan.**
Öz ev-eşiyindən didərgin düşmüş qaçqınlar.

Moskvaya ilk nümayəndə heyəti yola düşərkən «elçilər» qorxu hissi keçirirdilər. Aleksandr Proxanovun dediyinə görə, «nümayəndələr düşünürdülər ki, qayıtmayacaqlar, onları həbs edəcəklər. Onları əzabkeşlər, öz başını erməni ideyası qurbangahına qoyan quzular kimi yola salırdılar.

Qorxu təbii idi, amma əbəs idi. Proxanovun dediyinə görə, Moskva «onları dinlədi, başa düşməyə cəhd etdi». Aydın oldu ki, Hüquqi özbaşnalığın qarşısında Kostitusiya hasarı olsa da, o çürükdür, tüfəngin qundağı ilə vur, dağılacaqdır. Partiya taxt-tacına yaxın olan təsir agentlərinin təkidi ilə Moskva yalandan tərəf çıxmaq, oyunbazlıq etmək siyasətini başlamaqla öz hökmran barmağını müvəffəqiyyətlə Qarabağ separatizminin qıcanmış dişləri görünən ağzına soxdu.





## AZƏRBAYCAN SSR-in DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNDƏ XÜSUSİ İDARƏ FORMASININ TƏTBİQİ HAQQINDA

SSRİ Ali Soveti Rəyasət Heyətinin
**FƏRMANI**

Dağlıq Qarabağ Muxtar Vilayətində və onun ətrafında millətlərarası münasibətlərin gərginliyinin davam etməsi ilə əlaqədar olaraq onların kəskinləşməsinin qarşısını almaq və bu regionda vəziyyəti sabitləşdirmək məqsədilə, Azərbaycan SSR və Ermənistan SSR partiya və dövlət orqanlarının, habelə Millətlər Soveti komissiyasının təkliflərini nəzərə almaqla SSRİ Ali Sovetinin Rəyasət Heyəti bu məsələni Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti ilə müzakirə edib SSR Kostitusiyasının 119-cu maddəsinin 14-cü bəndinə müvafiq surətdə qərara alır:

**1. Dağlıq Qavrabağın Azərbaycan SSR tərkibində muxtar vilayət statusunu saxlamaqla Dağlıq Qarabağ Muxtar Vilayətində müvəqqəti olaraq xüsusi idarə forması tətbiq edilsin.**

A.İ.Volski yoldaşın sədirliyi ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin xüsusi idarə komitəsi yaradılsın.

İyirminci çağırış Dağlıq Qarabağ Muxtar Vilayəti xalq deputatları Sovetinin və onun icraiyyə komitəsinin səlahiyyətləri Sovetin yeni tərkibinin seçkiləri keçirilənədək dayandırılsın.

**2. Müəyyən edilsin ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin xüsusi idarə komitəsi bilavasitə SSR İttifaqının ali dövlət hakimiyyəti və idarə orqanlarına tabedir, muxtar vilayətin**

**xalq deputatları Sovetinin və onun icraiyyə komitəsinin bütün səlahiyyətlərinə, komitənin sədri isə vilayət xalq deputatları Soveti icraiyyə komitəsi sədrinin hüquqlarına və vəzifələrinə malikdir.**

Dağlıq Qarabağ Muxtar Vilayətinin yerli dövlət hakimiyyəti və idarə orqanlarına rəhbərlik etmək göstərilən komitəyə tapşırılsın, Habelə vilayət xalq deputatları Soveti icraiyyə komitəsinin aparatı əməli orqan kimi ona verilsin.

**3. Müəyyən edilsin ki, bu fərmanın qüvvədə olduğu dövrdə Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindəki ittifaq və respublikalar tabeli müəssələr, idarələr və təşkilatlar, habelə onların filialları, sexləri və digər struktur bölmələri Azərbaycan SSR Nazirlər Sovetinin müəyyən etdiyi məsələlər dairəsi üzrə komitəyə tabedirlər.**

Mətbuat, radio, televiziya orqanları digər kütləvi informasiya vasitələri, nəşriyyatlar, poliqrafiya müəssisələri, daxili işlər orqanları, Habelə mədəniyyət, xalq təhsili, səhiyyə müəssisələri və qeyri-istehsal sahəsinin digər təşkilatları tabeliyindən və idarə mənsubiyyətindən asılı olmayaraq komitənin və ya onun vəkil etdiyi şəxslərin bilavasitə rəhbərliyi altında fəaliyyət göstərirlər.

**4. Dağlıq Qarabağ Muxtar Vilayətinin xüsusi idarə komitəsinə ixtiyar verilsin:**

Dağlıq Qarabağ Muxtar Vilayəti rayon, şəhər, kənd, qəsəbə xalq deputatları Sovetlərinin, onların icra və sərəncam orqanlarının səlahiyyətlərini dayandırsın, Habelə göstərilən yerli Sovetlərə seçkilər təyin etsin və onların keçirilməsini təşkil etsin;





ictimai təşkilatların və özfəaliyyət birliklərinin SSR Kostitusiyasına və qanunvericiliyinə zidd olan fəaliyyətlərini dayandırsın, yaxud lazım gəldikdə onları buraxsın. Respublika və ya Ümumittifaq orqanları olan həmin təşkilatlar və birlikdə bu orqanların razılığı ilə qeydə alınır və ya buraxılır;

lazım olduqca dövlət, təsərrüfat quruculuğu və sosial-mədəni quruculuq məsələləri barəsində SSRİ Ali Sovetinin Rəyasət Heyətinə, SSRİ Nazirlər Sovetinə, SSRİ nazirliklərinə, dövlət komitələrinə və baş idarələrinə təkliflər verilsin.

**5. «Dövlət müəssisəsi (birliyi) haqqında SSRİ qanunun 6-cı maddəsinin 2-ci, 3-cü bəndlərinin və 5-ci bəndin üçüncü abzasının və 7-ci maddəsinin qüvvəsi Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində müvəqqəti dayandırılsın.**

**6. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti bu fərmandan irəli gələn müvafiq qərarlar qəbul etsin.**

**7. Bu fərman 1989-cu il yanvarın 20-dən qüvvəyə minsin.**

**M.QORBAÇOV**
*SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri*

**T.MENTEŞAŞVİLİ**
*SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi*

**Moskva, Kreml, 12 yanvar 1989-cu il**

# QARABAĞ ERMƏNİLƏRİNİN QORBAÇOVLA İLK GÖRÜŞÜ

Həmin günlərdə Siyasi büroda başqa mülahizə var idimi? Gəlin üç il sonra «La Stampa» qəzetinə verdiyi müsahibədə Yeqor Liqaçovun dediyi fikrə nəzər yetirək.

**Sual: - Sizinlə Qorbaçov arasında, xüsusən millətçilik təzahürləri məsələsində ayrılıq var idimi?**

**Liqaçov:** - Bəli, bu bizim aramızdakı ixtilafın üçüncü və bəlkə də ən ciddi bəndi idi. 1988-ci ildə Dağlıq Qarabağda konflikt başlayanda biz çox tez-tez görüşər və çoxlu mübahisə edərdik. O, əlbəttə olduqca narahat idi. Lakin, həmişə olduğu kimi *(bir az da ağlı çatmayan adamlar kimi)* ekstremist qüvvələrdən danışır və həmişəki kimi qayda-qanunun bərpa olunması üçün zəruri tədbirləri görmək istəmirdi. Nəticəsi məlumdur: minlərlə həlak olanlar, yüz minlərlə qaçqın, bütün İttifaq üçün təhlükəli gərginlik.

**Sual: Siz hesab edirsinizmi ki, bu Qorbaçovun təqsiri üzündəndir?**

**Liqaçov:** Mən indi də o vaxt təkrar etdiyimi deyirəm. Yenidənqurma üçün əsl təhlükə konservatizm yox, ölkəni parçalayan separatçı antisosialist millətçilikdir. Mən bilirəm ki, indi Qorbaçov da bu fikirlə razıdır. Lakin bir neçə il ərzində bu nəticəyə əhəmiyyət verməmək facie ilə nəticələndi.





***

Mən belə hesab etmirəm ki, o zaman Liqaçov sağlam düşüncə sahibi idi, Qorbaçov isə yox. Sadəcə onlar öz təsir dairələrini bölmüşdülər və hər birinin öz xəbərçiləri vardı. Bir də xatırladım ki, Qorbaçovun şəxsi məsləhətçisi onunla Qarabağ nümayəndə heyətinin görüşünü təşkil edən Georgi Şahnazarov olmuşdu və bu gün də qalır. Nümayəndə heyətinin həmin vaxtadək dəfələrlə özlərinin «türklərə» - azərbaycanlılara zooloji nifrətini açıq söyləmiş Yerevan ədibləri Zori Balayan və Silva Kaputikyan təşkil edirdi. Qorbaçovun siyasi ikiüzlülüyü müsəlmanlara olan pataloji nifrəti və onun millətlərarası ehtiraslar girdabının yaradılması sahəsində fəaliyyəti və fəaliyyətsizliyində abırsızlığı heyrət doğururdu. Yalnız kiçik bir xronikaya diqqət verin:

**Dekabr, 1986-cı il ilk sınaq şarı** - Alma-ata; milli zəmində toqquşma? Belə olsa nə var ki? Yalana və dezinformasiyaya vərdiş edin. Müsəlmanlar üzərində ilk sınaq.

**Fevral, 1988-ci il fevral Dağlıq Qarabağ və Əsgəran-Sumqayıt dupleti.** Məhz bu ardıcıllıqla. Talanın ilk qurbanları. Şəhərdə ordu. Komendant saatı.

## RUS İMPERİYASININ MÜSƏLMAN ÖLKƏLƏRİNƏ QARŞI YENİ HƏMLƏLƏRİ

**Sentyabr 1988-ci il.** Regiona Saxarov, Bonner və Starovoytovanın gəlişindən sonra iki yüz minədək azərbaycanlının Ermənistandan qovulması. Bakı və Yerevanda

çoxgünlük xüsusi vəziyyət və komendant saatı. Ordu şəhərin küçələrində.

**5 dekabr, 1988-ci il.** Xüsusi təyinatlı qüvvələrin Bakıda Lenin adına meydanı boşaltması. Silahsız adamların döyülməsi.

**9 aprel, 1989-cu il Tbilisi.** Ordu 4 ay əvvəl olduğu kimi yenə də polis rolunu oynayır. Bakıda olduğu kimi yenə də xalqın milli mənliyi ağılasığmaz dərəcədə alçaldılır.

**May 1989-cu il.** Fərqanədə vəhşilik.

Rus şovinistlərinin yeni oyunları başlayır. Ordu artıq fəaliyyətsizlik göstərir. Milis gücsüzdür. Qırx minə yaxın məshəti türkü kainatınənginliklərinə atılmış olur. Onlar nə Rusiyada, nə də Gürcüstanda heç kimə gərək deyil. Qaçqınlarm bir çoxu kasıb qeyri-qaratorpaq Rusiyasında və tapdalanmış Azərbaycanda özünə sığınacaq tapır.

**1989-cu ilin yayı, yeni zərbələr:** Uzen, yenidən Dağlıq Qarabağ, Abxaziya.

**Bəs Qorbaçov?** Bu ikiüzlü alçaq 1989-cu ilin sentyabrında MK plenumunda o, milli məsələyə dair platforma ilə çıxış edir. **Yeni sözbazlıq və yeni gücsüzlük**: *«Ümumiyyətlə, kim bizim bir-birinə çulğalanmış, bütün iqtisadi, siyasi, sosial, mənəvi, insani və ailəvi tellərlə bağlı cəmiyyəti biçib-doğramağı öz üzərinə götürə bilər».*

**Bir ay sonra İtaliya şəhəri Assizidə o, Qərbdən özünün ilk mükafatını - «Sülh zəvvarı 1989»** mükafatını alır.







**İşğal edilmiş Şuşa qalası.**

Sülh uğrunda Nobel mükafatına layiq görülmək üçün Bakıda bir dərya müsəlman qanı tökmək ordunu tam biabır etmək lazım idi.

**1988-ci ilin əvvəlinin erməni qəzetləri isə başqa çağırışlarla dolu idi:** *«Biz tələb edirik, siz razılaşın! Qoy bütün dünya odda yansın, təki Qarabağ bizim olsun!»*

**Diasporun millətçi xadimlərinin layihələri dərc olunurdu:** Ermənistan SSR-in İttifaqın tərkibindən çıxması, Qərb ölkələrində «vahid, müstəqil erməni dövlətinin» konsulluqlarının açılması, əsgərləri respublika ərazisində qulluq etməli olan milli hərbi hissələrin yaradılması.

Bu artıq uzunmüddətli realist proqram idi. Və həm də təkcə Ermənistan üçün üox. Lakin ilk növbədə onun üçün.



**İşğal edilmiş Qarabağ.** Ağa körpüsü.

Məqsəd müəyyənləşdirildi, vəsait ayrıldı, əvvəllər deyildiyi kimi, iş başına, yoldaşlar!

«Bütün dünya ermənilərі bizə baxır» - Yerevandakı «Kommunist» qəzeti bu başlıqla çıxdı.

## ...XRİSTİAN DÜNYASININ SƏLİB YÜRÜŞÜ

Təsəvvür edin ki, Sumqayıt hadisəsi günlərində mən Dağlıq Qarabağda - Stepanakert şəhərində idim. Hadisələrlə maraqlanırdım. Bu vaxt camaat toplandı. Onlara dedim ki, Sumqayıt hadisələrini sizin öz ermənіləriniz törətdilər. Hadisədən əvvəl həmin cinayətkarlar əmanət banklarından pullarını çıxartmış, ailələrini köçürmüşlər. Ermənilərə bildirdim ki, siz bura köçüb gəlmisiniz. Ermənilər heç nə





başa düşmək istəmirdilər. Onlar mənim - komsomol işçisinin gəlişinə belə ciddi etirazlarını bildirirdilər. Özü də mən Qarabağa könüllü getmişdim. Axı Qarabağ mənim doğma yurdumdur.

**1988-ci ilin mart ayından** etibarən Dağlıq Qarabağda yaşayan soydaşlarımız öz yerlərindən qovulmağa başladılar. Gözlənilməz hadisələrdən biri Stepanakertdəki Qarabağ İpək Kombinatında törədilmişdi. Ermənilər azərbaycanlıları öz iş yerlərinə buraxmırdılar. İpək Kombinatı Partiya Komitəsinin katibi Robert Koçaryan *(indiki Ermənistan prezidenti)* hadisələrin önündə gedirdi. Mən onunla da görüşdüm. Azərbaycanlıların iş yerlərinə qaytarılmasını tələb etdim. Dedim ki, Robert, bu camaatı niyə işə buraxmırsınız? O iki əlini açaraq, ara, mən nə edirəm, gəlib işləsinlər, dedi...

Səhəri gün azərbaycanlılar öz iş yerlərinə qayıtdılar. Onu da deyim ki, heç qayıdıb işləmək də mümkün deyildi. Ermənilər azərbaycanlılara imkan vermirdilər. Söyüş, təhqir ermənilərin iç üzünü açmışdı.

**1988-ci ilin may-iyun aylarında** Qazax bölgəsinə yollandım. Bölgə Ermənistandan qovulan qaçqınlarla dolu idi. Onları öz yurd-yuvalarına qaytarmaq çətinləşmişdi. Bizə şifahi tapşırıq verilmişdi ki, qaçqınlar Azərbaycanda yerləşməlidir.

**1988-ci ilin avqust-sentyabr aylarında** SSRİ komsomolu nümayəndə heyətinin tərkibində Ermənistana getdim. Ermənistanda zəlzələ olan günü biz yenicə yola çıxmışdıq. Dedilər ki, Türkiyə ilə sərhəddə olan Amasya rayonunda xeyli azərbaycanlı qalıbdır. Gedirdik onları Azərbaycana göndərək. Bu da Moskvanın tapşırığı idi. SSRİ komsomolunun nümayəndələri mənə dedilər ki, köçürülmə şəxsən Qorboçovun tapşırığıdır.

Ermənistanda tək-tək qalan soydaşlarımızla görüşdük. Həqiqətən onların vəziyyəti ağırlaşmışdı. Yaşamağa imkan yox idi. Biz vəziyyəti ətraflı öyrənmək üçün Ermənistanın dükan-bazarlarında da olduq. Azərbaycanlıların üzünə baxmaq belə istəmirdilər. Azərbaycanlılara mənəvi təzyiqlər göstərirdilər. Ermənilər insan hüquqlarına zidd hər qeyri-insani vəhşiliklər törədirdilər. Amasya rayonunun kəndlərində tək-tək qocalar qalmışdılar. Hətta bir kənddə 70-75 yaşlarında olan ağıl bir kişini biz kənddən çıxara bilmədik. Mən onu nə qədər dilə tutdumsa, o, yola gəlmədi. Dedi ki, mən heç hara gedən deyiləm. Azərbaycanda mənim kimim var ki, onun yanına gedim. Aradan uzun illər keçməsinə baxmayaraq, o qocanın dediyi sözlər hələ də qulaqlarımdan getmir.

Amasyanın bu kəndində qalan azəri türkü idi. Bu məğrur türk oğlu öz torpağını, yurdunu tərk etmədi. Biz kənddən çıxanda dönüb arxaya baxırdım. O qoca əlindəki ağaca söykənib o biri əli ilə bizə əl edirdi. Görüşüb ayrılanda hiss elədim ki, onun gözləri yaşarıbdır...





## AZƏRBAYCAN SSR ALİ SOVETİNİN RƏYASƏT HEYƏTİNDƏ

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti millətlərarası münasibətlərin daha da kəskinləşməsinin qarşısını almaq və Dağlıq Qarabağda vəziyyəti sabitləşdirmək, sosialist qanunçuluğuna əməl etmək və vətəndaşların konstitusiya hüquqlarını qorumaq üçün SSRİ Ali Soveti Rəyasət Heyətinin hazırladığı əməli tədbirləri müzakirə edərək SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndinə müvafiq surətdə SSRİ Ali Soveti Rəyasət Heyətinin nəzərdə tutduğu kimi Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində muxtar vilayət statusunu saxlamaqla Dağlıq Qarabağ Muxtar Vilayətində müvəqqəti olaraq xüsusi idarə forması tətbiq edilməsini və Azərbaycan SSR-in DQMV xalq deputatları Sovetinin səlahiyyətinin dayandırılmasını bəyənməyi və buna tərəfdar olmağı qərara almışdır.

## DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNDƏ VƏZİYYƏT HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİNİN

## QƏRARI

Azərbaycan SSR Ali Soveti Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyət haqqında məruzəni müzakirə edərək respublikanın bu regionundakı vəziyyətdən çox narahat olduğunu bildirdi.

İl yarımdır ki, tətillər, icazəsiz mitinqlər və nümayişlər, DQMV-ni Azərbaycandan qoparıb ayırmaq məqsədinə yönəldilmiş başqa tədbirlər ara vermir. İnsan tələfatı vardır, qaçqınların sayı artır. Xalqlar arasında dostluq, beynəlmiləlçilik kimi əsas dəyərlər alt-

üst olur, qanunçuluq, sosial ədalət, insan hüquqları pozulur. Bütün bunlar gözlənilməyən nəticələr verə bilər.

DQMV-də millətlərarası münaqişə Azərbaycan və erməni xalqları arasında münasibətləri xeyli pisləşdirilmişdir. Sovet dövləti üçün qeyri-adi olan qaçqınlar problemi millətlərarası münaqişənin ən ağır nəticələrindən biridir. 165 min azərbaycanlı Ermənistan SSR-dən daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuşdur, böhran halları Azərbaycan SSR-dən erməni köçkünləri axınına səbəb olmuşdur.

Azərbaycan SSR Ali SOveti qeyd edir ki, 1923-cü ildə Azərbaycan SSR-də regionun bütün əhalisinin razılığı ilə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılması Sovet Azərbaycanı xalqının xeyirxahlıq aktı olmuşdur ki, bundan da məqsəd azərbaycanlıların və ermənilərin, iki qonşu respublikanın xalqlarının əməkdaşlığını və dostluğunu təmin etmək idi.

Varlığının ötən illəri ərzində Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan SSR-in iqtisadi potensialından geniş istifadə edərək, digər regionlarla tarixən yaranmış iqtisadi və mədəni əlaqələri inkişaf etdirərək öz inkişafında böyük müvəffəqiyyətlər qazanmışdır.

Bununla birlikdə ölkədə, əvvəllər milli siyasətin təhrif edilməsi milli muxtariyyətlərin, o cümlədən DQMV-nin vəziyyətinə pis təsir göstərmişdir. Bundan vilayətin, ümumən respublikanın həm erməni, həm də azərbaycanlı əhalisi əziyyət çikirdi.

Yenidənqurma, sovet cəmiyyətinin inqilabi tərzdə yeniləşdirilməsi üçün Komunist Partiyasının təşəbbüsü ilə həyata keçirilən xətt yığılıb qalmış problemlərin həllindən ötrü əlverişli imkanlar yaratmışdır. Lakin DQMV-də vəziyyətin normallaşdırılması sahəsində Sov. İKP MK-nın, sədri SSR Ali Sovetinin Rəyasət Heyətinin və Sovet hökumətinin göstərdiyi səylər, Azərbaycın SSR rəhbərliyinin və ictimaiyyətinin göstərdiyi tədbirlər daim yenidənqurmaya zidd, millətçi, ekstremist qüvvələrin açıq müqavimətinə rast gəlir.





Vilayətdə xüsusi idarə formasının tətbiq edilməsi vəziyyəti yaxşılaşdırmamış, gərginliyi daha da artırmış, millətlərarası əks cəbhələşməni dərinləşdirmiş və kəskinləşdirmişdir.

**Azərbaycan SSR Ali Soveti qərara alır:**

Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə komitəsi ləğv olunsun və bu məsələ üzrə müvafiq qərar qəbul edilməsi barədə SSRİ Ali Sovetinin Rəyasət Heyəti qarşısında vəsatət qaldırılsın.

**E.QAFAROVA**
*Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri*

**R.QAZIYEVA**
*Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi*

**Bakı şəhəri, 15 sentyabr 1989-cu il**



**Qarabağdan didərgin düşmüş qaçqınlar.**

## DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİ ÜZRƏ RESPUBLİKA TƏŞKİLAT KOMİTƏSİ YARADILMASI HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN

### FƏRMANI

«Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyəti normal hala salmaq tədbirləri haqqında» SSRİ Ali Sovetinin qərarına müvafiq surətdə Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyəti qərara alır:

Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə aşağıdakı heyətdə respublika təşkilat komitəsi yaradılsın:

**Əsədov R.İ.** - Azərbaycan SSR Nazirlər Sovetinin işlər idarəsi aqrar-sənaye sahələri şöbəsinin müdiri;

**Vəliməmmədov S.M** - Azərbaycan KP MK partiya-təşkilat və kadr işi şöbəsi müdirinin müavini;

**Qolubev A.M** - Azərbaycan KP Bakı Şəhər komitəsinin ikinci katibi;

**Cəfərov V.Ə.** - Azərbaycan SSR Dövlət Mətbuat Komitəsi sədrinin müavini;

**Kərimov Ş.K.** - Azərbaycan SSR Nazirlər Sovetinin işlər idarəsi Millətlərarası münasibətlər şöbəsinin müavini;

**Orucav Z.C.** - Azərbaycan Həmkarlar İttifaqları Şurasının katibi;





**Polyaniçko V.V.** - Azərbaycan KP MK-nın ikinci katibi;

**Radayev M.İ.** - Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini;

DQMV-dən namizədliklər təqdim edildikdə onların respublika təşkilat komitəsinin heyətinə daxil edilməsi nəzərdə tutulsun.

**E.QAFAROVA**
*Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri*

**R.QAZIYEVA**
*Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi*

**Bakı şəhəri, 6 dekabr 1989-cu il.**

***

**9 yanvar 1990-cı ildə** Respublika Təşkilat Komitəsinin işə başlamağı haqqında məlumat verildi. Sov. İKP MK katibi A.N.Girenko və SSRİ millətlər sovetinin sədri R.N.Nişanov Bakıya gəlmişdilər. Onlar sonra təşkilat komitəsinin üzvləri ilə birgə Xankəndinə getdilər. Təşkilat komitəsinin azərbaycanlı üzvlərindən heç kəs cürət edib qorxusundan Stepanakertə getmədi. Mənim bildiyimə görə Xankəndinə V.Polyaniçko və M.Radayev getmişdilər.

20 yanvar faciəsindən sonra V.Polyaniçko Azərbaycanda hakimiyyəti tam ələ almışdı. Qorboçov ona Qarabağda yüksək səlahiyyətlər vermişdi. Polyaniçko özünü respublikanın yiyəsi kimi aparırdı. O zamankı respublika rəhbəri İ.A.Mütəllibov isə vaxtında Polyaniçkonun separatçı hərəkətlərinin qabağını ala bilmədi...

# RUS İMPERİYASININ AZƏRBAYCANA QARŞI MƏHVETMƏ İNSTİNKTİ

## ARKADİ VOLSKİNİN QARABAĞDAKI İDARƏ ÜSULU

Arkadi Volskinin Qarabağdakı idarə üsulu, əlbəttə, şərəfsiz qurtardı, lakin bu, millətçi qüvvələrin elan olunmamış müharibədə ilk qələbəsi oldu. Kamran Bağırovdan sonra imkanlarına və qabiliyyətinə inam hissi ilə qarşılanan Azərbaycanın yeni lideri Əbdürrəhman Vəzirovun qeyri-qanuni DQMV Xüsusi İdarə Komitəsinin yaradılmasına razılıq verməsi, faktiki olaraq Qarabağın Dağlıq hissəsinin Azərbaycandan ayrılmasına gətirib çıxaran birbaşa satqınlıq oldu.

Mərkəzin rezidenti, Andropovdan Qorbaçovadək bütün ağaların nökəri Volskinin bitərəfliyi saxta idi. Kimin haqlı, kimin təqsirkar olduğunu demədən **qarşıdurma şəraitini o belə qiymətləndirirdi:**

*«Ermənistan indi əslində monoetnik respublikaya çevrilir, bu da məlum nəticələr törədə bilər, digər tərəfdən Azərbaycanın öz prinsiplərini güc hesabına təsdiq etməsi az təhlükəli deyil».*

Moskvanın çoxusu, Yerevandan diktə edilən istənilən göstərişlərini yerinə yetirən itaətkar Azərbaycan barədə Volskinin dedikləri yalan idi.

Azərbaycan əleyhinə təbliğatda əsas arqument bütün 1988-ci il ərzində konfliktin qızışdırılmasını təmin edən Sumqayıtdakı fevral hadisələri idi və hətta 7 dekabr zəlzələsi də «genosid» ehtiraslarını dayandıra bilmədi. Qızışdırılmış intiqam hissini yalnız insanlar, onların sağlam düşüncəsi, bir-birinə olan qayğısı sakitləşdirə bilərdi.





Bu mənada Sumqayıt faciəsi öz nəticələrinə görə zəlzələ ilə müqayisə edilə bilər. Lakin Azərbaycan Xalq Cəbhəsinin bütün səylərinə baxmayaraq bu patologiyanın ağıllı təhlili aparılmadı. Yeri gəlmişkən, elə bu hadisə respublikanın demokratik qüvvələrinin çiyninə hansı ağır yükü götürdüyünü müəyyən etdi.

**Marionet DQR-in 1992-ci ilin aprelində** öldürülmüş lideri **Artur Mkrtçyan ölümündən bir az əvvəl etiraf etmişdi:** *«Bizdə müharibə deyil. Bizdə baş verən hadisələri mən qısaca belə adlandırıram; insanları ələ salmaq. Heç güman etmək olardımı ki, hər bir qarabağlıya bu qədər qarşısıalınmaz məhvetmə instikti sirayət edib. Mən özümüzü də, onları da nəzərdə tuturam.* ***(Sağlığında partiya mənsubiyyətini gizləmiş, Daşnaksütyun partiyasının üzvü Mkrtçyan onları dedikdə yəqin ki, biz azərbaycanlıları nəzərdə tutur).*** *Lakin bu var, indi üzə çıxdı, deməli, gizlədilibmiş».*

Stepanakertdəki terror aktları bir qayda olaraq o erməni xadimlərini yaxalayırdı ki, onları «qarşısıalmmaz məhvetmə instikti» narahat edirdi, kim heç olmazsa zəif də olsa «başqalarının», yəni Qarabağın azərbaycan icmasınm da hüquqları olduğunu etiraf edirdi. 1991-ci ildə aeroportun rəisi Aİşxanyan *(öz evində partladılmışdı)* və Dağlıq Qarabağın rəhbərlərindən biri, sülh danışıqlarının iştirakçısı V.Qriqoryan *(küçədə güllələnmişdi)* həlak olmuşlar.

Öldürülmüş liderin «gizlədilmiş məhvetmə instiktini» və üstəlik millətçilik qızışdırıldığına görə onun «qarşısıa-

lınmaz» olduğunu dərk etməsi, məni bir daha konfliktin başlanğıcına nəzər salmağa məcbur edir. Heydər Əliyevin 1992-ci il aprelin 17-də «Komsomolskaya pravda» qəzetinə verdiyi müsahibə buna imkan yaradır.

Sov. İKP MK Siyasi Bürosunun sabiq üzvü bəyan edir ki, 1986-cı ildə Alma-Atadakı dekabr iğtişaşlarının günahkarı Mixail Qorbaçovdur, o zaman məhz o, qazax millətçiliyi məsələsini ifadə etmişdir. Abel Ağanbekyanın Parisə səfərindən iki həftə əvvəl isə Heydər Əliyevə istefaya getmək üçün ərizə vermək təklif olundu, o da bunu etdi. Dağlıq Qarabağın Ermənistana birləşməsinin zəruri olduğunu elan edən akademik Ağanbekyan Parisin daşnak elitasına dedi ki, bu məsələ Qorbaçovla razılaşdırılmışdır. **Heydər Əliyev bu gün belə nəticəyə gəlir**: *«bundan sonra hadisələrin intensiv inkişafı başladı və onlar bizim şahidi olduğumuz faciəyə gətirib çıxardı».*

Müxtəlif respublikalardakı demokratik hərəkatlar, ilk növbədə «Den Rossiya» Ermənistanı Zaqafqaziyada demokratiyanın dayağı qəbul edib, dərhal onun tərəfini saxlamaqla millətçi «məhvetmə instiktini» qızışdıran təşviqatçıların ixtiyari və ya qeyri-ixtiyari köməkçisi oldular. Yeni dalğadan olan bir çox siyasətçilər öz karyeralarını da elə bu hüsn-rəğbətlər hesabına əldə etdilər və bu gün də antimüsəlman, antitürk hisslərini ifadə edən **ağılsız çıxışlarını davam edirlər:** biz hamımız xristianıq, biz-birimizə kömək edəcəyik. Bunlar Zori Balayanın qaladığı tonqala atılan quru odunlardır. Publisist özünün 1988-ci ildə Moskvada nəşr olunmuş **«Doroqa» («Yol») kitabının səhifələrində soruşurdu:** *«Sovet İttifaqında bu barədə bilirlərmi ki, özünə Ankarada sığınacaq tapmış islam fundamentalizmi gələcəkdə Rusiyanı qılıncın köməyilə yox, Quranın köməyi ilə məhv etməyi nəzərdə tutur. Sovet mətbuatında dərc olunurmu ki, ölkədə inqilabdan əvvəl nə qədər müsəlman var idi, indi nə qədərdir, iki mininci ildə nə qədər olacaq, iki min otuzuncu ildə nə qədər olacaq?»*



ERMƏNİ TERRORU

Ritorik suallardır, ona görə ki, heç kim Sovet mətbuatında nəinki müsəlmanlar, hətta - Balayanın və baronessa Koksun köməyi ilə antimüsəlman ittifaqı elan olunmuş xristianlar və yəhudilər barəsində də məlumat tapa bilməz.

Təhlükəli oyunlardır, cənablar! Mixail Qorbaçov 1990-cı ildə Bakıdakı qanlı qırğını təşkil etdikdən sonra elan etdi ki, Azərbaycanda islami dövləti yaratmaq ideyası mövcuddur.Ən heyrətlisi də o idi ki, həmin kədərli yanvar günlərində Azərbaycan paytaxmda keçirilmiş ictimai rəy sorğusunda cavab verənlərin cəmisi 3,6 faizi respublikada islam dövləti yaradılmasına razı idi. İslam təhlükəsinin şişirdilməsi həmişə erməni geosiyasətinin tərkib hissəsi olmuşdur.

Qorbaçov tərəfindən azərbaycanlıların islam fundamentalizmində ittiham edilməsi Bakıya qoşun yeridilməsini qabaqladı və faktiki olaraq qətllərin təşkilatçısı ölkənin ictimai rəyinin sükutla bu qanlı aksiyanı müdafiə etməsinə nail oldu. Hətta, Pribaltika demokratları tərəfindən də kəskin ittihamlar olmadı, halbuki, 1990-cı ildə onların azərbaycanlılara münasibətdə düzgün mövqe tutmaları bir il sonra Vilnüsdə və Riqadakı qanlı divantutmalardan yaxa qurtarmağa kömək edə bilərdi.

Lakin Balayanın müsəlman ofobiyası qələbə çaldı və təəssüf ki, qələbə çalmaqda davam edir.

**Yaxın fon.** DQMV-dən gələn həyəcanlı xəbərlər. Tətillər, iğtişaşlar, Vilayət deputatlar sovetinin qərarı. Stepanakertdə azərbaycanlıların sıxışdırılması. Əsgəranda 16-23 yaşlı iki cavan azərbaycanlının öldürülməsi. Yerevanda güclü nümayiş dalğaları. Moskvanın erməni nümayişçilərinin tələblərini yerinə yetirmək fikrində olduğu barədə şayiələr. Ermənistanda azərbaycanlılara qarşı psixoloji və fiziki terrorun güclənməsi haqqında məlumatlar. Məlumatlar əsassız deyildi. **Ararat rayonunun «Qələbə» kolxozunun aqronomu İslam Vəliyevin danışıqları:**

*«Fevralın 17-də mənim arvadım oğlan doğdu. Doğuş çətin və mürəkkəb keçdi. Nə arvadıma, nə də uşağa kömək edilmədi. Həkimlər və mamaçalar əllərini qoyunlarında çarpazlayıb istehza edirdilər: «iki türk az olacaq». Uşaq pnevmoniya oldu. Arvadım bu günədək tam sağalmayıb. Yalnız Azərbaycana gətirdikdən sonra onlara tibbi yardım göstərdilər».* Erməni ekstremistləri azərbaycan kəndlərində evləri yandırır, bağları doğrayır, istixanaları dağıdırdılar. Azərbaycanlıların kütləvi şəkildə işdən çıxarılması həyata keçirilirdi.

Bilavasitə təkan. Təsadüfi deyildi ki, fevralın 25-26-da Yerevandakı nümayişlər öz apogeyinə çatdığı və bütün Ermənistanın Qarabağ hərəkatının təsiri altında olduğu bir vaxtda zorakılıq və qorxunun təqib etdiyi minlərlə azərbaycanlı Azərbaycana üz tutdu. Onların çoxu fevralın 26-27-də müxtəlif illərdə Ermənistandan köçmüş həmyerlilərinin yaşadığı Sumqayıta və onun yaxınlığındakı Fatmayı,







Qarabağdan didərgin düşmüş qaçqınlar

Mehdiabad və Saray kəndlərinə gəlmişdilər. Məhz bu günlərdə DQMV-də iki azərbaycanlının öldürüldüyü barədə rəsmi məlumat elan edildi. Dairə qapandı.

O zaman hamı aşkarlığa və yenidənqurmaya inanırdı, Qorbaçova səcdə edirdi. Azərbaycanın demokratik əhval-ruhiyyəli tarixçiləri və ədəbiyyatşünaslarını bu cür görüşlərdə Sumqayıta görə kəskin məzəmmətləyir və tələb edirdilər: günahkar olduğunuzu bütün dünya qarşısında etiraf edin. Onların tələb etdiklərini heç Nürnberq tribunalı nasist-cinayətkarlardan tələb etməmişdi.

Azərbaycan demokratları yenidənqurmayla bağlı həmfikirləri arasında əvvəldən gözümçıxdıya salınmışdılar: axı, respublikalardakı bütün xalq cəbhələri, bütün qeyri-formal-

lar ermәni «Qarabağ» komitәsinin gizlәdilmiş millәtçilik instiktindәn bәhrәlәnәrәk Qorbaçov yenidәnqurmasının şüarları altında çıxış edirdilәr. Bu mәsәlәdә hamısı yekdil idi.

**1988-ci ilin yazında** Pribaltikanın cavan demokratik mәtbuatı yazıçı Sero Xanzadyanın belә bir yazısını dәrc etdi ki, guya Sumqayıtda 450 ermәni öldürülmüş vә onların qollarına birka vurulmuş cәsәdlәrini morqda öz gözlәri ilә görmüşdü. «Faşist cәlladları (oxu: azәrbaycanlılar) şәhәr xәstәxanasına vә doğum evinә soxuldular. Birkalara görә yenicә doğulmuş ermәni uşaqlarını müәyyәn edir vә pәncәrәdәn atırdılar, doğuş gözlәyәn ermәni qadınlarının qarınlarını cırırdılar». Qәzetlәr Xanzadyanın adından *(yeri gәlmişkәn o, Sumqayıtda ümumiyyәtlә olmamışdır)* bunları yayırdılar. Milis kapitanı Ç.M.Mәmmәdovun bu yazıları rәsmi tәkzibinә isә yalnız **Bakıda «Elm» qәzeti dәrc etdi vә ona görә dә mәtndәn bir parçanı çap edirik:**

*«Mәn bu deyilәnlәrin yalan olduğuna şahidlik edirәm, belә ki, Sumqayıtdakı millәtlәrarası toqquşmaların gedişindә hәlak olanların hamısı Bakı şәhәrindәki Elmi-Tәdqiqat Eksperimental Cәrrahiyә İnstitutunun morquna gәtirilmiş vә bunları mәnim tabeliyimdә olan hissәnin milislәri mühafizә etmişlәr. Cәmi 26 ermәni vә 6 azәrbaycanlı (meyidi) var idi. Cәsәdlәrә birka bağlanmamışdı, bir dәnә dә olsa uşaq meyidi vә ya hamilә qadın meyidi yox idi (yeri gәlmişkәn, bu haqda SSRİ prokurorluğunun rәsmi mәlumatı var). Bu çirkin yalan kimә vә nә üçün lazımdır?»*

Görünür, milis kapitanı Mәmmәdova Göbbels tәbliğatının prinsiplәri tanış deyildi: yalan nә qәdәr dәhşәtli ağ





yalan olsa, ona o qәdәr tez inanarlar. Yoxsa kapitan bu qәdәr apaşkar suallar vermәzdi...

Lakin başda Ermәnistanın gәlәcәk prezidenti Levon Ter-Petyosyan olmaqla «Qarabağ» komitәsini dәrhal müdafiә edәn demokratik mәtbuatın riyakarlığı yenicә özünә yol açırdı. Ona görә dә ilk addımlar daha ibrәtamizdir, belә deyilmi?

**1988-ci il mayın 22-dә** «Moskovskie novosti» V.Loşakın «Sumqayıt. Epiloq traqedii» reportajmı dәrc etdi. Burada Bakıdakı ermәni kilsәsinin baş keşişi David Dilanyanın sözlәrinә әsasәn, guya kilsәdә yanğın törәtmәk cәhdlәri olması da iddia edilirdi. D.Dilanyan özü kilsәni yandırmaq cәhdi barәdә faktı qәti tәkzib etdi.

**Baş keşiş oxuculara izah edirdi:** *«Tәxminәn mayın 15-dә ermәni kilsәsi ilә özünü «Moskovskie novosti» qәzetinin müxbiri kimi tәqdim edәn adam maraqlandı, soruşdu ki, kilsәyә Sumqayıtdan qaçqınlar gәlmişdimi...»Moskovskie novosti» müxbirinin hәrәkәtlәri mәni hiddәtlәndirdi. Mәn mәqalәdә göstәrilәn faktların rәsmi tәkzib olunmasını tәlәb edirәm».*

Düşünürsünüz ki, tәkzib olundu? Әlbәttә yox. D.Dilanyanın bәyanatı Bakıdan kәnara çıxmadı, V.Loşak isә «Surroqat» qәzetinin o vaxtkı baş redaktoru Yeqor Yakovlevlә birlikdә millәtlәrarası düşmәnçilik oduna yağ artırmaqda davam edir, minlәrlә bakı ermәnisini iki xalq arasında qızışdırılan qarşıdurma nәticәsindә Respublikadan kәnara sәpәlәnmәyә düçar edirdi.

Loşak özünün yalançılıq mәharәtlәri ilә bir yana qalsın! Natәmiz oyuna professorlar, elmlәr doktorları, Rusiya-



Füzuli. 1992-ci il. Dağıdılmış kəndlər.

nın Dövlət mükafatı laureatlarını qoşuldular. Elə ki, akademik Ziya Bünyadov «Nə üçün Sumqayıt» adlı analitik məqalə ilə *(kaş mərkəzi qəzetlərdə çap edilə biləydi)* çıxış etdi, möhtərəm akademikin, Sovet İttifaqı Qəhrəmanının üzərinə söyüş və qəzəb yağdırıldı. Hər porsiyası getdikcə daha ədəbsiz, daha kəskin.

Qarabağ girdabının ssenarisini ifşa edən Ziya Bünyadov, bu cəsur döyüşçü, başlanılmış düşmənçiliyin bütün ölkə üçün dəhşətli nəticələr verə biləcəyi barədə oxucuları xəbərdarlıq edir və özünün Böyük Vətən müharibəsində əldə etdiyi təcrübəyə istinad edirdi:

*«SSRİ xalqları arasındakı dostluq özünü müharibə illərində xüsusilə aydın göstərdi. Bizim xalqların birliyini pozmaq axıradək Hitler təbliğatına müəssər olmadı. Mən təşvişlə özümə sual verirəm, hərgah ermənilər özlərinin bu oyunlarını müharibə illərində çıxarsaydılar, necə olardı? Heç şübhəsiz ki, cəbhə bir neçə gün ərzində dağılardı».*





Elə bil ki, hər şey, xüsusilə də indi - Z.Bünyadovun məqaləsi dərc olunandan dörd il sonra aydındır. Söhbət SSRİ daxilində ərazi iddiasından, ölkənin xəritəsini yenidən dəyişməkdən gedir.

Fikirləşəndə dəhşətə gəlirsən ki, bu cür tələblər o təhlükəli günlərdə irəli sürülsəydi faşist Almaniyası qardaş xalqlar (bu həqiqətən də belə idi) arasına nifaq salmağa nail ola bilərdi və bu da SSRİ-nin məğlubiyyətinə gətirib çıxarardı.

Lakin bu belə başa düşülmədi. Bir çox qəzetlərin səhifəsindən professor **V.Petrovski şivən qopardı:** *«Erməni xalqının şərəf və ləyaqətini təhqir etməyin, ermənilər cəbhəni dağıtmamışlar!»* Lakin, Ziya Bünyadov onları bunda ittiham etmirdi. O, sadəcə olaraq vaxtilə mümkün ola biləcək facieni «millət qəhrəmanlarının» bu gün törətdikləri faciə ilə müqayisə etməyə cəhd göstərmişdi.

Mən hələ erməni mətbuatında dərc olunan çoxsaylı «Ziya dayıya məktublar»dan danışmıram: burada onu yarımçıq alim, elmdə təlxək, keçmiş köçərilərin imamı adlandırır və Arkadi Qukasyan kimilər isə hədələyirdi: biz sizi susmağa məcbur edərik.

Bir də ki, hər dəfə iki xalq arasında nifaq salan bu yazıların mövzusu və məzmunu da siam əkizləri kimi oxşar olur, sanki indiyədək eyni bir fitnəkar əllə yazılır.

Ona görə də artıq bizdən uzaq olan 1988-ci ildəki riyakarlıqlara dair sonuncu misalla kifayətlənəcəyəm. Bütün



Ağdam. 1992-ci il. Xankəndinə gedən yol.

televiziya proqramlarında elan edilmişdi ki, dekabrın 29-da Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadə barədə film göstəriləcəkdir. Film heç bir səbəb göstərilmədən proqramdan çıxarıldı. Buna səbəb Ermənistanın millətçi mətbuatında B.Vahabzadənin «erməni xalqının düşməni» elan olunmasımı sayılmalı idi? Lakin bu hadisədə ən heyrətamizi başqa şey idi: mərkəzi televiziya bir neçə gün sonra davakar baxışları barədə yuxarıda dediyim Silva Kaputikyan haqqında xüsusi veriliş təşkil etdi. Mərkəzi televiziyanın bu cür hərəkətləri Azərbaycan xalqını növbəti dəfə təhqir etməkdən başqa şey deyildi.

Həmin dövrdəki saxtakarlıqların zirvəsi ilə Nizami haqqında «mifləri» alt-üst etmək qərarına gəlmiş iki «Nizamişünasın» - fəlsəfə elmləri doktoru M.Kapustinin «Sovetskaya kultura» da və Qraçik Simonyanın «Qrakan tert»





qəzeti səhifələrində uzlaşdırılmış çıxışları oldu. Q.Simonyanın tədqiqatlarının yalnız başlıqlarını sadalamaqla kifayətlənəcəyik: «Nizami Gəncəvi doğrudanmı Azərbaycan mədəniyyətini təmsil edir?», «Dünya nizamişünaslığı şairin yaradıcılığının mənsubiyyəti haqqında», «Nizaminin valideynləri və milliyyəti». Sonra iddia edilir ki, Nizami Azərbaycan mədəniyyətinin nümayəndəsi də ola da bilməzdi, çünki, o, İran şəhəri Qumda anadan olub, erməni şəhəri Gəncədə yaşayıb, onun poemalarının məzmunu Azərbaycan gerçəkliyi ilə bağlı olmayıb, o Ermənistanı və erməniləri mədh edirdi. Nizamini Stalin və M.C.Bağırov azərbaycanlı etdilər və ona görə ki, müharibə ərəfəsində repressiya dövründə hansı yollasa xalqın mənəvi ruhunu yüksəltmək lazım idi. Və yekun olaraq çağırış: Azərbaycan şairi kimi Nizaminin yubileyi qeyd olunmasın, kitabları nəşr edilməsin.

Bu lap obıvatel cəfəngiyyatıdır, - deyəcəksiniz və yadınıza salacaqsınız ki, 1941-ci ildə blokada şəraitində olan Leninqradada Ermitajın o zamankı direktoru, bir il sonra Ermənistan Elmlər Akademiyasının ilk prezidenti olmuş İosif Abqaroviç Orbelinin təşəbbüsü ilə Nizaminin 800 illik yubileyi qeyd olunmuşdur. Akademik-şərqşünas «erməni millətçi elməbənzər uydurmalarını» nahaq pisləmirdi, lakin 1988-ci ildə nə erməni, nə də rus akademiki tapılmadı ki, Qraçik Simonyanın fitnəkar hiddətini, nadanlığını və qızışdırıcılıq niyyətini ifşa etsin.

Yalnız Nizami Gəncəvi adına Azərbaycan ədəbiyyatı muzeyinin direktoru Arif Hacıyev saxtakarlara sakitcə ca-

vab verdi: *«Nizami böyük vətənpərvər idi. Lakin o dahi idi, dahilər isə bütün insanlığa məxsusdur. Biz azərbaycanlılar bununla fəxr edirik. Devizi - biz hamımız yer üzünün övladlarıyıq olan şairlə fəxr edirik».*

1991-ci ilin noyabrında Neva sahillərindəki şəhərin yaradıcı ziyalıları Ermitaj teatrında Azərbaycan şairi Nizami Gəncəvinin 850 illiyini qeyd etdi. Şəhərdə bu gecə barədə heç bir afişa və ya elan yox idi və toplaşanlarm sayı yəqin ki, yarım əsr əvvəl blokada dövründəkindən çox deyildi. Təntənəli gecə layiqincə keçdi. Azərbaycan mədəniyyət xadimlərinin gözəl konserti də daxil olmaqla. Lakin Nizaminin «Şairin böyük kitabxanası» seriyasından hazırlanmış bir cildlik kitabı işıq üzü görmədi. Qraçik Simonyan və onun «Sovetskaya kultura»dan olan havadarları da elə buna çağırırdılar.

Güman edilir ki, Ermənistanda **1988-ci il 7 dekabr zəlzələsi** dəhşətləri, bütün planetin köməyə gəlməsi və canıyananlığı erməni millətçilərinin şüuruna aydınlıq gətirəcək, təbii fəlakət, aqressivlik və ekstremizm dalğasını söndürəcəkdir. **Lakin elə səhərisi gün dekabrın 8-də «Qarabağ» komitəsi həmvətənlərinə müraciət etdi:** *«Biz mərkəzi hökuməti erməni xalqının faciəsindən ümumittifaq tikintisi elan etmək üçün istifadə etməyə, Ermənistanın etnik tərkibini dəyişməməyə çağırırıq».*

SovİKP.MK siyasi Bürosu komissiyasının sədri **Nikolay Rıjkov növbəti səhər toplantısında qayğılı halda məlumat verdi:** *«Dünən Leninakanda kimlərsə peyda olmuş, adamları öyrədirlər ki, uşaqlarını fəlakət yerindən kənara aparmağa imkan verməsinlər, böyüklərə isə məsləhət görürlər ki, təbii fəlakətin dağıtdığı şəhərlərdən sağlamlıq ocaqlarında, mehmanxanalarında və yataqxanalarda onlar üçün yer hazırlanmış başqa respublikalara getməsinlər. Guya sonra geriyə - Ermənistana heç kimi buraxmayacaqlar».*





**Biri o birindən dəhşətli şayiələr çoxalırdı:** vulkan barədə, guya erməni xalqının diqqətini Dağlıq Qarabağ problemindən yayındırmaq məqsədilə Leninakanın altında partladılmış nüvə bombası haqqında. Guya Yerevana da yazıqları gəlməzdi, yaxınlığında atom elektrik stansiyası olmasından qorxublar. Hələ başlanğıcda ikən qarşısı alınmamış bu siyasi banditizm «Qarabağ» komitəsinin liderlərinə xalqın faciəsindən özlərini barışmaz milli qəhrəmanlar kimi göstərməkdə istifadə etmələrinə kömək etdi.

Levon Ter-Petrosyan və onun silahdaşları informasiya bülletenləri, müraciətlər, BMT-yə petisiyalar buraxmaqla zəlzələdən sonrakı ilk günlərdə EÜH-ün-Erməni Ümummilli Hərəkatının birinci növbədə respublikada hakimiyyəti ələ keçirməyə yönəldilmiş proqrammı işləyib hazırladılar. Proqramda xalqlar dostluğu barədə də sözlər var idi: «Bizim prinsipimiz bütün qonşularla sülh və dostluq şəraitində yaşamaqdır». Elə həmin vaxt «Qarabağ» fəalları Amasiya kəndində şagirdlərin nümayişini təşkil etmiş və onların tələbi azərbaycanlıların işdən çıxarılması olmuşdur.

SSRİ xalq deputatı, Spitak rayonunun ağası Muradyan azərbaycanlıların gecə ikən zəlzələdən zərər çəkmiş Qursalı kəndindən qovulmasını tələb edirdi. Ongünlük aclıqdan və əziyyətlərdən sonra azərbaycalılarm bu son ailələ-

ri Ermənistandan vertolyotla qonşu Qazağa göndərildi. Əməliyyata Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini başçılıq edirdi.

**Yerevanın qarnizon qospitalına vərəqə tulladılar:** qospitalda erməni xəstələrlə birlikdə azərbaycanlıların da müalicə olunduğuna görə həkimləri və tibb heyətini hədələyirdilər. Onlar Bakıdan olan avtomobil çilingəri, Zvartnos yaxınlığında qəzaya uğradılmış *(ermənilər tərəfindən raketlə vurulmuş - Ş.Ə.)* İL-76 təyyarəsinin sağ qalmış yeganə sərnişini, ehtiyatda olan sıravi əsgər R.Balayevi nəzərdə tuturdular. Həmin təyyarədə Azərbaycandan olan 72 könüllü həlak olmuşdu.

## RAKETLƏ VURULAN «İL-76» TƏYYARƏSİ

### HƏTTA BU TƏYYARƏDƏ BİR ERMƏNİ DƏ VAR İDİ

**11 dekabr 1988-ci il.** Xalqımın bəxtinə facíə yazılan bir gün. Neçə evin işığı söndü.

O günlər Ermənistanda zəlzələ baş vermişdir. Torpaq altında zarıyan ermənilər «Qarabağ» deyə car çəkirdilər. Azərbaycanın maymaq rəhbərliyi isə şərəfsizlik göstərərək say seçmə oğulları zorla Ermənistana göndərdilər. Ermənilər rusların köməyi ilə Azərbaycandan köməyə göndərilən «İL-76» təyyarəsini yerə enməyə imkan vermədilər. Təyyarə yerə enməyə komanda istəyərkən onu ermənilər xaincəsinə raketlə vurdular.





## FACİƏNİN QURBANLARI

### ABŞERON RAYON HƏRBİ KOMİSSARLIĞINDAN

**Dadaşov İntiqam Mikayıl oğlu.** 1954. Suçu işləyib. Məzuniyyətə çıxdığının dördüncü günü onu köməyə çağırıblar. Həlak olandan iki gün sonra qız övladı dünyaya gəlib. 4 uşağı - 2 oğlu, 2 qızı var. Güzdəkdə, dəmir yol xəttinin yanında qalırlar. İçməli su trubası partladığı üçün suyu gölməçədən götürürlər. Qoca ata-anası qalıb.

**Əzimov Nəzərxan Əzizxan oğlu.** 1963. Güzdək dəmir yol stansiyasında fəhlə işləyib. Bir uşağı olub. Gəlin uşağı da götürüb gedib. Qoca ata-anası tək qalıblar. O biri qardaşı da Əfqanıstanda həlak olub.

**Həsənov Afaq Səfər oğlu.** 1959. Subay. Bədən Tərbiyyəsi institutunu qurtarıb. Çağrılanda B.Sərdarov adına zavodda çilingər işləyirdi. Atası Səfər Həsənov 1931 təqaüdçüdür, polis işləyib. Hal-hazırda xəstədir. Anası Həsənova Şahnisə (1939), təqaüdçüdür.

**Yusifov Əyyub Şükür oğlu.** 1952. Göradildə yaşayıb. Mexaniki suvarma idarəsində suçu işləyib. 4 uşağı, qoca ata-anası var. Uşağın biri şikəstdir.

**Cəlilov Ələsgər Mirəli oğlu.** 1965. 1 saylı avtokalonda sürücü işləyib.

**Alimov Alimətdin Luffullayeviç.** 1952. Xırdalanda yaşayıb. Qaynaqçı işləyib. 1977-ci il təvəllüdlü bir oğlu var.

### SƏBAİL RAYON HƏRBİKOMİSSARLIĞINDAN

**Rəhimov Sərdar Nurəddin oğlu.** 1958, baş mühəndis.
**Salmanov Topçu Vəli oğlu.** 1958, sahə həkimi.
**Ağayev Rəfael Cəfər oğlu.** 1950, mühəndis.

### BİNƏQƏDİ RAYON HƏRBİ KOMİSSARLIĞINDAN

**Meybullayev Seyfəddin Eynulla oğlu.** 1958, mühəndis.
**Hacıyev Rza Yusif oğlu.** 1953, qaz ustası.
**Həsənov Afad Səfər oğlu.** 1959, yığıcı mexanik.
**Cəlilov Ələsgər Mirəli oğlu.** 1965, sürücü.
**Şadrikov Sergey Valentinoviç.** 1966, fəhlə.
**Mehdiyev Niyazi Abbas oğlu.** 1957, fəhlə.

### SABUNÇU RAYON KOMİSSARLIĞINDAN

**Əliyev Əli Babayeviç.** 1949, mexanik.
**Babaxanov Bəhram Bədirxan oğlu.** 1955, feldşer.
**Kərimov Kamal Daşdəmir oğlu.** 1964, fəhlə.
**Qafarov Mirəsədulla Yəhya oğlu.** 1960, fəhlə.
**Nurməmmədov Cavad Nadir oğlu.** 1964, mexanik.
**Pirverdiyev Zöhrab İsmayıl oğlu.** 1956, ticarət inspektoru.
**Rəhimov Sayad Abbasəli oğlu.** 1964, mexanik.
**Şabanov Məmməd Baba oğlu.** 1956, mexanik.

### SURAXANI RAYON HƏRBİ KOMİSSARLIĞINDAN

**Hüseynov Qiyas Mürsəl oğlu.** 1960, üzlükçü.

### SUMQAYIT ŞƏHƏR HƏRBİ KOMİSSARLIĞINDAN

**Mahmudov Sanil Hasil oğlu.** 1957, mühəndis.
**Məstanov Nəbi Mirbaba oğlu.** 1954, tokar.





**Əhmədov Əhməd Mirbala oğlu.** 1959, elektrik qaynaqçısı.
**İsmayılov Ədalət Şamil oğlu.** 1966, rəssam.
**Səbziyev Tərlan Həlim oğlu.** 1962, kranşı.

### XƏTAİ RAYON HƏRBİ KOMİSSARLIĞINDAN

**Əmirov Məmmədəli Əhmədiyyə oğlu.** 1960, baş mühəndis.
**Rzayev Rasim Rza oğlu.** 1961, istilik texniki.
**Baxışov Rasim Şıxməmməd oğlu.** 1958, fəhlə.

### QUBA RAYON HƏRBİ KOMİSSARLIĞINDAN

**Əkbərov Zöhrab Əliqədir oğlu.** 1964, ekskavatorçu.
**Bağırov Veysəlqara Şıxəli oğlu.** 1950, fəhlə.
**Bayramov Gülbaba Nəsir oğlu.** 1961, fəhlə.
**Balakişiyev Yunus Balakişi oğlu.** 1961, müvəqqəti işləmirmiş.
**Həbibov Həmid Paşa oğlu.** 1963, fəhlə.
**Davudov Sumxa Şumtunoviç.** 1962, fəhlə.
**İsayev Şakir Həbubulla oğlu.** 1961, traktorçu.
**Məmmədov Qorxmaz Məmmədşah oğlu.** 1966, fəhlə.
**Məmmədov Rüstəm Hacıbala oğlu.** 1961, şofer.
**Musayev Eynulla Ağası oğlu.** 1963, fəhlə.

### QUSAR RAYON HƏRBİ KOMİSSARLIĞINDAN

**Şıxməmmədov Ağaməmmməd Şıxməmməd oğlu.** 1966, fəhlə.
**Xudaverdiyev Nəbi Şıxhəmzə oğlu.** 1957, fəhlə.
**Qaraxanov Mirzəbəy Sarıxan oğlu.** 1968, fəhlə.
**Eyvazov Xeyirbala Qiyasəddin oğlu.** 1953, suvarçı.
**Səidov Qiyasəddin Ağamirzə oğlu.** 1957, fəhlə.
**Bəbirov Cəmil Sərdar oğlu.** 1965, fəhlə.
**Əlmuradov Əlmurad Məhyəddin oğlu.** 1961, poçtalyon.



Ermәni terrorunun izlәri.

## XAÇMAZ RAYON HƏRBİ KOMİSSARLIĞINDAN

**Əhmәdov İlik Ağamirzә oğlu.** 1961, sovxoz «Şәfәq».
**Əliyev Bahadur Əli oğlu.** 1966, sovxoz «İnqlab».
**Əlәsgәrov Nadir Mağasar oğlu.** 1964, PMK-38.
**Hüseynov Fәxrәddin İbrahim oğlu.** 1963, PMK-1.
**Davudov Füzuli Qәzәnfәr oğlu.** 1962, müәllim.
**İbrahimxәlilov Mәhәrrәm İbrahimxәlil oğlu.** 1956, qaynaqçı.
**Mәcidov Bәhram Əhliman oğlu.** 1967, fәhlә.
**Mehralıyev Oqtay Aytala oğlu.** 1960, mantyor.
**Mustafayev Əzim İmam oğlu.** 1962, sürücü.
**Mühammәdәliyev Nәriman Rahil oğlu.** 1961, fәhlә.
**Nağıyev Akif Nağı oğlu.** 1960, qaynaqçı.
**Seyidov Vaqif Hәmzә oğlu.** 1957, sürücü.





**Fәrzәliyev Hacıxәlәf Şabәddin oğlu.** 1962, sürücü.
**Yәhyabәyov Vidadi Cahangir oğlu.** 1959, sürücü.

## NƏRİMANOV RAYON HƏRBİ KOMİSSARLIĞINDAN

**Babayan Sarkis Abrikoviç.** 1960, elektrik qaz qaynaqçısı.

## EKİPAJ İL-76

**Brilev Nikolay Petroviç** -gәminin komandiri.

**Razumnıy İqor Aleksanlroviç** - komandir kömәkçisi.

**Sokolov İqor Viktoroviç** - şturman.

**Plaşkin Vladimir Pavloviç** - baş borttexnik.

**İvlev Serqey Mixayloviç** - borttexnik po aviadesantnomu oborodovaniyu.

**Serkov İvan Vladimiroviç** - starşıy vazduşnıy radist.

**Rıbalçenko Anatoliy İvanoviç** - starşıy inj. çastı.

**Altuxov Aleksandr Nikolaeviç** - naçalnik qruppa obslujivaniya.

Yerevanlılardan biri «Krasnaya zvezda»nın xüsusi müxbiri A.Orlovdan soruşurdu: *«Bilirsinizmi baş verәn hadisәlәrlә bağlı adamların gözünü nә aça bilәr? Geniş informasiya. Azәrbaycan Ermәnistana nә ilә vә necә kömәk edir? O, nә ilәsә kömәk edir, yaxud kömәk etmir?»*

Müxbir bildirdi ki, elә ilk günlәrdәcә qonşu respublika fәlakәt zonasında yüzdәn çox avtokran, buldozer, ekskovator göndәrdi. Azәrbaycan tәqribәn 70 min ton avtobenzin, aviasiya yanacağı, dizel yanacağı yola saldı. Zәrәrçәkәnlәrә iki hәftә әrzindә 12000 ton maye bitum,, 90 min ton mazut, 2800 ton yağ vә başqa yanacaq-sürtgü materialları ve-

rilib. Leninakan, Spitak və Kirovakanda 20-dən çox səyyar yanacaqdoldurma stansiyaları və benzin daşıyan maşınlar işləyir. Çoxlu miqdarda su boruları və kabel əmlakı da buraya göndərilib. Bakıdan olan on komplekt tibbi briqada öz sanitar maşınları ilə birlikdə zərərçəkənlərə ilk kömək göstərir.

**1988-ci ilin ortalarına məşhur 700412 hesabına Azərbaycan artıq 5 milyon rubl ianə toplayıb köçürmüşdür.**

Millətçi şüarların hay-küyündən yorulmuş adamlara aydın idi: Azərbaycan dar ayaqda qonşusunun köməyinə gəlib. Milyonların ürəyində canıyananlıq hissləri səslənib.

Yükqaldırma qabiliyyəti 10 tondan 50 tonadək olan 28 güclü avtokrandan ibarət ilk mexanikləşdirilmiş dəstə maşın və avtobuslarla birlikdə artıq dekabrın 8-də Bakıdan yola düşdü. Köməyə montaj və xüsusi işlər nazirinin müavini Şamil Musayevin başçılığı ilə yüksək ixtisaslı 80 mütəxəssis *(azərbaycnalılar, ruslar, yəhudilər)* gedirdi.

**Dəstənin rəhbəri bir ay sonra danışırdı:** *«İcevan postunda o tərəfdən bizə maneçilik törətdiklərindən biz praktiki olaraq təxminən bir sutkanı itirdik. Özlərini hakimiyyət orqanlarının nümayəndəsi kimi təqdim edən adamlar dəstənin milli tərkibini göstərən siyahı tələb etdilər. Onların təklifinə əsasən biz dəstədə maşınların və kranların yerini dəyişdik, güya bizim öz «təhlükəsizliyimiz» xatirinə. Bütün bunlara baxmayaraq bizim dəstəmiz birinci olaraq buraya kranları, qaldırıcı mexanizmləri çatdırdı ki, bunlarsız da nə sağları xilas etmək, nə də ölüləri çıxarmaq mümkün deyildi».*

Azərbaycandan gələnlər qatı qaranlıqda və tonqalların zəif işartılarının işığında tam gücləri ilə işləyir, oyuncaq





evlər kimi uçub dağılmış doqquz mərtəbələrin xarabalıqlarını təmizləyirdilər. Təkcə ilk günlərdə 63 adam xilas edə, 320 cəsəd çıxara bildilər. Yeddinci gün respiratorlarda, əlehqazlarda və rezin əlcəklərdə işləməyə başladılar.

**Şamil Musayev xatırlayirdı:** *«Üçüncü sutka öz mətbəximiz işə düşdü və oraya kim müraciət edirdisə hamısına isti xörək verirdik. Həmin dəqiqələrdə adamlar bir ocağın istisində qızınır, itirdikləri əzizləri barədə danışaraq ağlayırdılar, canıyananlıq və kömək üçün minnətdarlıq edirdilər, bizim iki xalq arasında yaranan problemlərin nə qədər kiçik və qondarma olduğunu deyirdilər. Bir də ki, kim Leninakan sakinlərinin düşdüyü bəlanın sınağından keçmişsə o, milli mövzular ətrafında möhtəkərliklə məşğul olmayacaqdır. Onların bizi sərhəddə ləngidənlərin ünvanına söylədiklərini isə yaxşısı budur ki, deməyək. Bir fikir verin, həmin sutkanı boş dayanmasaydıq daha nə qədər adamı xilas etmək olardı».*

**1988-ci il dekabrın 9-da yola düşmüş «Azneftin» mexanikləşdirilmiş dəstəsinin taleyi isə başqa cür oldu. Sürücülər geri qayıtdılar. Nə üçün?**

*«Sərhəddən bizi qabaqdan ZTR, yanlardan milis və arxadan DAM müşayiət edirdi, - «qayıdanlardan» biri Bakı ermənisi Mixail Areşev «Sosialistiçeskaya industriya»nın müxbirinə belə danışırdı. Bu konvoyun nədən ötrü olduğu tezliklə aşkar oldu. Bizi ötüb keçən maşınlardan açıq hədələr, söyüş eşidilir, bizə yumruq göstərilirdi. Spitakla Leninakan arasında əllərində bel sapı olan qoçular bizim maşınlara cumdular: rədd olun geriyə, Azərbaycana, bizə sizin köməyiniz lazım deyil. Səhər dəstə Leninakana çatdı. Kranları o dəqiqə götürdülər, bizə isə*

*dedilər: gözləyin. Başqa qoçular Rafiq Kuzəhmədovun üzərinə cumdular. Dedilər: sən qarayanızsan. O cavab verdi ki, tatardır. Onlarsa onun üstünə yeridilər. Dedilər fərqi yoxdu müsəlmansan, biz səni öldürəcəyik. Qərara aldıq ki, onlarla səmimi söhbət edək. Dedik: əzizlərimiz, sevimlilərimiz biz sizə saf niyyətlə gəlmişik, kuzada balonlar, kabinədə qaynaqçılar. Görün biz necə də lazımıq, dörd tərəfdə bu cür bədbəxtçilik var. Onlar heç nə eşitmək istəmirlər.Elə bil beyinləri dumanlıdır.Ağaca, daşa əl atdılar. Komendatlıqdan hərbçilər yaxınlaşdılar: uşaqlar siz burada gərginlik yaradırsınız, yaxşısı budur çıxın gedin... Biz də qayıtdıq».*

Sən demə, nəinki möhtəkirlik, həm də talançılıq da etmək olarmış. Oğurluqlar, şəxsi maşınların qaçırılması, dünyanın hər yerindən «Zvartnos» aeroportuna gətirilmiş dərmanların oğurlanması, zəlzələnin dağıtdığı şəhərlərdə mağazaların talanması, meyitlərin üstündən saatların, qızıl sırğaların, kulonların, pulların götürülüb mənimsənilməsi, - bunları yada salmaq çox ağırdır və lazım da deyil.

Ən əsası budur ki, zəlzələ faciəsi saxta millətçilik ideyasını zəiflətmədi, gözlənilən barışıq üçün ağ bayraq qaldırılmadı. *«Niyə bizə öz qanınızı göndərirsiniz? - deyə «Qarabağ» komitəsinin tərəfdarları qəzəblənirdilər. Ermənilər kifayət qədər qan veriblər, özgə qanı bizə gərək deyil. Ucuz və mənasız beynəlmiləlçilik təbliğatından əl çəkmək lazımdır».*

«Qarabağ» Komitəsi xarici köməyin təşkilini öz əlinə almaq qərarına gəldi. Aşot Manuçaryan Şarl de Aznavura və Kaliforniyanın qubernatoru Corc Tokmacyana müraciət edərək vəsait toplanması və göndərilməsi üçün uyğun ola-





raq Avropa və Amerikada Mərkəzlərin təşkilini öz üzərlərinə götürmələrini xahiş etdi. İanələr bu kanalla gəlməyə başladı. Ermənistanda həmin kanalı «Qarabağ» liderlərindən biri Xaçik Stambultyan öz nəzarəti altına aldı. Stambultyanın şəxsi hesabına böyük valyuta köçürülmələri daxil olur, həmçinin şəxsən onun adına Fransa və ABŞ-dan yüklə dolu təyyarələr gəlirdi. Əlbəttə, bunlar səxavətli maddi yardımlar idi və onların müqabilində iş görmək tələb olunurdu.

**1988-ci il dekabrın 10-da** hələ həlak olanların meyidləri soyumağa imkan tapmamışdı, qospitallarda və klinikalarda həkimlər yaralıları xilas edirdi, altında diri adamlar qalmış uçqunlar hələ təmizlənməmişdi, «Qarabağın» liderləri isə Yerevandakı yazıçılar evinin yanında qanunsuz (icazə verilməmiş) mitinq təşkil etdilər. Komitə rəhbərlərinin taleyini Vaşinqtondan Ermənistana gələn və həmin adamları natəmiz həyasızlar adlandıran Mixail Qorbaçov həll etdi: insan hüququ haqqında ucadan qışqırırlar, özləri isə bu hüquqları taptayır, onların fikrinə şərik olmayan hamını xalq düşmənləri elan edirlər. EYH liderlərindən 5-i A.Akopyan, K.Vartanyan, S.Gevorkyan, V.Manukyan və L.Ter-Petrosyan 30 sutkalıq inzibati tutulub saxlanma cəzasını aldılar.

Tutulub saxlanılanları Butırkaya göndərdilər. Tutulma Yerevan hərbi komendantı general-polkovnik Albert Makaşovun bilavasitə rəhbərliyi altında həyata keçirildi.

Tutulanların nüfuzu ağlasığmaz dərəcədə artdı; sən «Qarabağ» komitəsi ilə deyilsənsə, deməli vətənpərvər de-

yilsən. Vətənpərvər olmamaq kimi ad çıxarmağı isə heç kim istəmirdi. Respublikanın «Kommunist» qəzetinin millətçi ifadələrdən bihuş olmuş, xalqı milli faciəyə sürükləyən, azğıncasına hakimiyyətə can atan siyasi avantüristlər barədə bəyanatı artıq heç kimi, hətta Ermənistan Kommunist partiyası MK-nın birinci katibi Arutunyanı da inandırmırdı. Millətə yeganə canıyanan adamların azad edilməsi barədə ultimatum məhz ona ünvanlanmışdı:

«Qarabağ» komitəsinin liderlərini və bu günlərdə həbs olunmuş bütün siyasi dustaqların dərhal azad olunmasını tələb edirik. Götür-qoy etmək üçün 24 saat vaxt veririk. Əks halda kütləvi terrora keçirik. Vaxtı və fəaliyyət yerini göstərmirik. Dostlarımızın bizə çatdırdığı «Stinger» silahlarımız var.

## «ANDRANİK» TERRORÇULAR DƏSTƏSİ

«Ultimatuma» yazılmış müfəssəl şərhin içində təxminən əlliyə yaxın ölümsaçan mərminin şəkli verilmişdi; görünür onlar Xaçik Stambultyanın təşkil etdiyi kanalla çatdırılmışdı. Bu, «stingerlərin» olması haqqında ilk işarə idi. **Sonralar Paris qəzetlərindən biri öz xüsusi müxbiri Klod-Mari Vardonun hazırladığı materialda yazırdı:**

*«Son günlər Livandan Yerevana ağır silahlar, minomyotlar və avtomatlar yüklənmiş təyyarələr gəlməkdə davam edir. Onlar gecələr erməni kömrükxana işçilərinin mühafizəsi altında boşaldılır. Artıq bir neçə gündür ki, aeroportun kömrükxanasında bir nəfər də rus qulluq etmir. Dağlıq Qarabağda vətəndaş müharibəsinin qızışdığı bir vaxtda, Yerevanda və kəndlərdə, paytaxtla Azərbaycan sərhəddi arasındakı ərazidə daha çox silahlı adama rast gəlinir.Bu bandaların başında çox vaxt Beyrutdan və Dəməşqdən gələn erməniləri görmək olur. «Qarabağ» komitəsi Azərbaycana basqınların təşkilini öz əlində saxlayır. Ölkənin şərqinə tez çatmaq üçün yalnız o vertolyot verə bilər!»*

Bu hadisələrin bir qədər zəif əks-sədası sovet mətbuatında da eşidilirdi. 1989-cu ilin martında «Komsomolskaya Pravda» SSRİ Prokurorluğunun Baş istintaq idarəsi rəisinin birinci müavini **V.İ.İlyuxinin bəyanatını dərc etdi:** *«Ermənistanın yollarında bu gün də silahlı qruplara rast gəlinir. Onları tərksilah etmək lazımdır. Silahlara gəldikdə isə, orada gizli şəkildə böyük miqdarda silah saxlanılır».*

**Mixail Qorbaçov yalnız 1990-cı ilin iyulunda** qanunsuz hərbi birləşmələrin ləğvi və tərksilah edilməsi barədə fərman imzalamağı lazım bildi və oradaca Ermənistanın yeni prezidenti Levon Ter-Petrosyanın xahişi ilə o vaxtkı SSRİ Daxili İşlər naziri Vadim Bakatin erməni bandit birləşmələri üçün bu fərmanı faktiki olaraq ləğv etdi. Azərbaycanlılar isə öz hakimiyyət orqanlarının əmri ilə itaətkarcasına sonuncu ov tüfənglərini də təhvil verirdilər.

Zəlzələ ərəfəsində mərkəzi televiziyanın əməkdaşları Bakı - Yerevan tele-körpüsü hazırlamağa başladılar. Fəlakət bu cəhdi dayandırdı. **1988-ci il dekabrın 20-də** «İzvestiya» Ermənistandan və Azərbaycandan qayıtmış, təəssüratları və gördüklərini necə qiymətləndirdikləri barədə fikir mübadiləsi etmək qərarına gəlmiş jurnalistlərin söhbətlərini dərc etdi. Xatırladım ki, 1988-ci il dekabrın ilk günlərində hər iki respublikanın paytaxtını çoxminlik mi-

tinqlər lərzəyə gətirdi. Dekabrın 5-nə keçən gecə Bakıda xüsusi təyinatlı hissələr yarım saat ərzində Lenin meydanını təmizlədilər; bu, beş ay sonra 1989-cu il aprelin 9-da Tbilisidə baş verəçək hadisələrdən qabaq edilən məşq idi.

**«İzvestiya» jurnalistinin yazdıqları:**

**R.Lınev:** Bir az əvvəl bizə belə gəldi ki, mitinqin özözünə «nəfəsi kəsilir». Mitinq eləyənlər cəmisi min beş yüzə yaxın qalmışdı, hərbçilər onları yarım saata dağıtdılar.

**A.Stepovoy:** Ən başlıcası indi başladı. Kimsə şayiə buraxdı ki, guya meydana tanklar salınıb, qan tökülüb. Və dərhal küçələr əllərində matəm bayrağı olan kütlələrlə doldu, onlar MK binasını, DİN-i mühasirəyə aldılar, müəssisələrə girərək işi dayandırmağa çalışdılar. Küçələrdə bir neçə maşın yandırıldı, tələfat oldu... Bir sözlə, Bakıdakı şərait müəyyən müddətə nəzarətdən çıxdı. Və elə o cür də gözlənilmədən səhəri gün öz qaydasına düşdü.

**A.Prosenko**: Bakıda mitinqin dayandırılması Yerevanda sakitliyi artırdı. Həmin vaxtda artıq bir çox müəssisələr işləyirdi və hətta, ali məktəblərdə məşğələlər başlamışdı.

**A.Stepovoy:** Niyə «hətta»?

**A.Prosenko:** Ona görə ki, tələbələr ən inadcıl tətilçilər idilər.

**A.Stepovoy:** Aydındır. Bakıda da gənclər, tələbələr hərəkatın ən fəal hissəsini təşkil edirdilər.

**M.Kruşinski:** Hər halda, mənə belə gəlir ki, Bakı və Yerevanı belə bir-birinə qarşı qoymaq ədalətsizlikdir. Çünki, Ermənistanın rayonlarında da vaxt-vaxt şərait nəzarətdən çıxırdı. Silahlı dəstələr düzəldilir, atəş səsləri gəlirdi.





Ermənistandan çıxıb getmək istəyən azərbaycanlılar arasında itki çoxalırdı.

**R.Linev:** bəs bunları sizin həmsöhbətləriniz necə izah edirdi? Axı Sumqayıtdan sonra ermənilərin çoxu özünü zərərçəkən tərəf sayır və iddia edir ki, zorakılıq, üstəlik qəddarlıq onlar üçün qəbuledilməzdir.

**M.Kruşinski:** İzah edirdilər ki, bu Sumqayıtın «cavabıdır». İnsanlara güllə atmağı, əlbəttə, təqdir etmirdilər, hər halda ziyalı adamlar belə idi. Amma belə deyirdilər: mərkəzi hökumət bizi qorumaqda gücsüzdürsə, biz nə etməliyik?

**İndi məlumdur ki, azərbaycanlıların Ermənistandan qovulması nə qədər vəhşiliklə baş vermişdir:** cəmisi 216 adam, o cümlədən 57 qadın, 5 körpə və müxtəlif yaşlı 18 uşaq öldürülmüş, min beş yüz illik tarixi olan 172 azərbaycan kəndi, DQMV-dən iki dəfə böyük 8 min kvadrat kilometr ərazi ermənilərin əlinə keçmişdir.

**R.Lınev:** çox oxşar vəziyyətdir: azərbaycanlıları da eyni şey narahat edirdi. Faciə də burasındadır! Tərəflərdən hər biri kimin birinci başladığını axtarır. Amma bu gün tapmaq lazımdır ki, kim birinci qurtaracaq.

**A.Prosenko:** Həm də qovmaqda «o biri tərəfdəkiləri» günahlandırırlar, evlərində isə qovulanlara güllə atırdılar.

**R.Lınev:** Kim başlayıb, kim qurtaracaq? Biz ziyalılar barədə təsadüfən danışmadıq. Konfliktin «nəzəri təminatı» ilk növbədə məhz alimlərin - tarixçilərin, yazıçıların üzərinə düşür. O nədən ibarətdir? Dağlıq Qarabağa tarixən müstəsna hüququn olduğunu əsaslandırmaq cəhdindən. La-

kin bu mübahisə perspektivsizdir. Hər iki xalq lap qədimdən bu torpaqda yan-yana yaşayır. Dostluq etmişlər, dalaşmışlar, bir-birinin mədəniyyətindən və təcrübəsindən çox şey götürmüşlər.

**A.Prosenko:** Axı bir an elə görünürdü ki, erməni-azərbaycan münasibətləri problemi keçmişdə qalmışdır. «Sizdə» necə olduğunu bilmirəm, «bizdə» zəlzələdən sonrakı sutkadan çox müddət ərzində o barədə heç işarə də edilmirdi.

**R.Lınev:** Bizə də elə görünürdü. Bakıda çoxları sarsılmışdı. Fəlakətə düşənlərə canları yanırdı. Amma təəsüf ki, bədxahlıq edənlər də var idi...

**M.Kruşinski:** Təəssüf ki, üçüncü sutkada vəziyyət dəyişdi. Yerevanda daha tez-tez eşidilirdi ki, azərbaycanlıların köməyini qəbul etməyəcəyik. Hətta, bu şüar altında keçirilən mitinqlər də olurdu. Müxtəlif növ siyasətbazlar, açıq-aşkar kütlələr içərisində öz təsirlərini itirməkdən ehtiyat edərək, yaxın keçmişin faciəli hadisələri ətrafında möhtəkirlik etməklə obstruksionist kampaniyaya başladılar.

**A.Prosenko:** Aydındır ki, Azərbaycandan olan kömək səmimi idi. Təəssüf ki, bu kömək haqqında məlumatların təbliğatçılar tərəfindən boğulması əks nəticələrə gətirib çıxardı. Ermənistanda çoxları buna yersiz hərəkət kimi baxırdı.

**A.Stepovoy:** Hansı yersiz hərəkətdən söhbət gedir? Axı, iki respublikanın sərhədində sözlər, şüarlar deyil, konkret kömək - tibbi ləvazimat, texnika tutulub saxlanılırdı...

**M.Kruşinski:** Təəssüf ki, elədir. Mitinqləri və kordonları təşkil edənlərin əli Leninakanda, Spitakda, Kirovakanda xilas edilə bilməyənlərin qanına batıbdır.





Bu, mərkəzi mətbuatda son yazı idi ki, obyektivliyə və iki xalq arasında başlamış ayrılığın səbəblərini başa düşməyə çalışırdı. Sonra qəzetlər başlanmış mübahisənin məğzini başa düşməkdən çox-çox uzaq olan, məlumatı olmayan elm və mədəniyyət xadimlərinin müxtəlif məqalə və müraciətləri ilə doldu. Müəlliflər əsasən Azərbaycan xalqına öyüd-nəsihət verməyə çalışırdılar, - guya ənənəvi olaraq gözəl, genişqəlbli, səxavətli və s. olan Azərbaycan xalqı niyəsə indi belə...belə... olub, inad eləyir və bir qarış torpağı öz qonşularına - taleyin bədbəxt etdiyi ermənilərə güzəştə getmək istəmir.

**Hər şey görün necə sadədir:** güzəştə get, konfliktə son qoyulacaq, SSRİ-də sülh və əmin-amanlıq olacaq!

Mətbuatda gözlənilən «tərəflərin günahları balansı» *(Sov.İKP MK-da qəzet redaktorlarını istiqamətləndirirdilər: DQMV barədə yazılar - a) DQMV əhalisində, b)Azərbaycan əhalisində, v)Ermənistan əhalisində, q)Azərbaycanda yaşayan ermənilərdə mənfi hisslər yaratmamalıdır)* millətçilərin təsiri ilə get-gedə Azərbaycanın günahı ilə, «inadkar» azərbaycanlıların «qədim və əzabkeş» Ermənistan xalqına qarşı qoyulması ilə əvəz olunurdu. Bu cür təbliğatın gizlədilmiş «məhvetmə instinkini» qızışdırdığı, ona insanı ələ salmaqda çox böyük ətalət qüvvəsi verdiyi barədə isə müəlliflər düşünmürdülər. Bu mənada ölümündən əvvəl Artur Mkrtçyanın etirafı tamamilə səmimi idi. Millətçiliyin, riyakarlığın və saxtakarlığın üstündən sükutla keçilməsi, nə ayrı-ayrı adamlar, nə də bütövlükdə xalq üçün başqa nəticə verməmişdir.

Harada erməni varsa, ora Ermənistandır doktrinası ikitərəflidir...

**Respublikada 1991-ci ilin mayında olmuş İsrail jurnalisti R.David yazırdı:** Bu günkü Ermənistanda millətçilik və kapitalizm qəti qələbə çalmışdır. Bu, nəhəng Riqa bazarına, köhnə əşyalar satılan meydana çevrilmiş yeganə respublikadır... Elə təsəvvür yaranır ki, bütün enerji, ticarətə və millətçiliyə sərf edilib, istehsal üçün daha güc qalmayıb... İndi geriyə nəzər salaraq açıq demək olar ki, erməni millətçiləri kiminsə iradəsini yerinə yetirmək və Qarabağda düşmənçilik odunu alovlandırmaqla elə özləri də zərər çəkdilər».

**Yeri gəlmişkən, qeyd etdiyimiz təbliğat bir nəticə də (ümid edirəm ki, aralıq nəticədir və düzələ biləndir) əldə etmişdir:** «Azərbaycanda Qarabağ konfliktinə qədərki dövrlərdən yadda qalan o gözəl Bakı qardaşlığı aradan çıxır. Amma, bəlkə də müxtəlif xalqların bu qardaşlığı da, slavyanlarla türk səhrasının assimilyasiya və bir-birinin içində həll olmağa deyil, qarşılıqlı hörmətə əsaslanan qədim ittifaqı da qayıdacaqdır.

Rusiya hakimiyyət orqanlarının ikiüzlü davranışına baxmayaraq bu ittifaqı hələ qoruyub saxlamaq mümkündür. Axı necə?! rus şovinistlərinin iç üzü açılıbdı. Ruslar biz azəri türklərinə qarşı olmazın yamanlıqlarını törətdilər. bu gün 1992-ci il aprelin sonunda Qarabağ müharibəsinin yeni mərhələsi rus silahlılarının gücünə aparılır. Bu isə Qafqazda ruslara qarşı nifrəti artırır. Rusiyanın **dağılacağı** gün isə heç də uzaqda deyil...





# ERMƏNİLƏRİN TERRORÇU TƏMAYÜLLÜ SİYASİ PARTİYALARI

**«Armenakan»**
**«Hnçak»,**
**«Daşnaksütyun»,**
**«Erməni inqilabı komitəsi»,**
**«Erməni döyüşçüləri cəmiyyəti»,**
**«Gənc ermənilərin cəmiyyəti»,**
**«Qara xaç cəmiyyəti».**

## ERMƏNİLƏRİN TÜRKİYƏDƏ TÖRƏTDİYİ SOYQIRIMLAR

**Türkiyədə 1915-ci ildə** ermənilərin soyqırımı olmuşdurmu? Xristian ölkələri bu suala «Hə» cavabı verirlər.

**Tarixçilər bu suala birmənalı olaraq «Yox» cavabı verirlər.**

Tarixi həqiqət ondan ibarətdir ki, 1880-1915-ci illər arasında Osmanlı dövlətinin təbəələri olan erməni və türk xalqlarının münasibətləri olduqca kəskinləşmiş, milli ədavətə və düşmənçiliyə çevrilmişdir. Bu dövrdə Rusiyanın və Avropa dövlətlərinin fəal dəstəyi ilə Türkiyədə və onun hüdudlarından kənarda bir sıra inqilabçı, terrorçu təmayüllü siyasi partiyalar və hərəkatlar yaranmışdı (*«Armenakan», «Hnçak», «Daşnaksütyun», «Erməni inqilabı komitəsi», «Erməni döyüşçüləri cəmiyyə-*

*ti», «Gənc ermənilərin cəmiyyəti», «Qara xaç cəmiyyəti» və s.)* Bu partiya və cəmiyyətlərin demək olar ki, hamısının nizamnamə və proqram sənədlərində ali məqsəd olaraq «Böyük Ermənistan» dövlətinin yaradılması qarşıya qoyulmuş və bu məqsədə çatmaq üçün bütün üsullardan, o cümlədən inqilab, silahlı üsyan və terrordan istifadə olunması məqbul sayılmışdır. Təbii ki, heç bir dövlət, o cümlədən Osmanlı dövləti öz ərazisində terrora, silahlı üsyana, başqa bir dövlətin yaranmasına yol verə bilməzdi.

Xarici dövlətlər tərəfindən qızışdırılan, maddi və ideoloji dəstək verilən erməni liderləri ölkədaxili separatçılıq meyillərini artırır, prosesləri günbəgün güclənən zor və silah müstəvisinə keçirirdilər.

O dövrdə Türkiyədə milli zəmində silahlı münaqişələrin təxmini xronologiyası belədir:

**1818-92-ci illər ərzində** Şərqi Anadoluda «Hnçak» Təşkilatı tərəfindən 65 min türk və kürd qətlə yetirilir. 1993-cü il Ankarada, Muşda və Sasunda ermənilərin silahlı üsyanı baş verir.

**Sentyabr 1894** - İstambulda və Ağ hisarda milli zəmində toqquşmalar baş verir.

**Oktyabr 1894** - Trabzonda, Ərzurumda və Bitlisdə qanlı olaylar yaşanır.

**Noyabr 1894** - Hələb, Harput, Urfa, Şivas, Diyarbəkir, Kayseri, Adana və Maraşda silahlı toqquşmalar baş verir. «Hnçak» terrorçu təşkilatı qətliamlar törədir.







**Ərzurum.** Erməni terrorçuları tərəfindən kütləvi şəkildə XX əsrin əvvəllərində qətlə yetirilmiş türklərin skletləri

**1895-ci il** - İstambulda və Trabzonda iğtişaşlar baş verir.

**26 avqust 1896** - Osmanlı bankı erməni terrorçuları tərəfindən tutulur və bank işçiləri girov götürülür. Sədr Əzəm Xəlil Rifət Paşaya sui qəsd edilir.

**2-9 sentyabr 1903** - Qarsda güclü iğtişaşlar və kütləvi qətllər törədilir.

**21 iyul 1905 -** «Daşnaksütyun» partiyasının tapşırığı ilə daşnak Xristofor Melikyan qızı Rubina ilə birlikdə İstambulda Həmdiyer məscidinin qarşısında Cümə namazından çıxan Sultan Əbdülhəmidə sui qəsd edirlər. Bomba partlayışı nəticəsində namazdan çıxan 26 müsəlman ölür, 58 müsəlman isə yaralanır.

**1904-1905-ci illər** - Osmanlı ordusunun generalı Andronik Ozanyanın rəhbərliyi ilə daşnaklar Sasunda silahlı üsyan qaldırır, şəhəri ələ keçirirlər. Üsyan yatırdıhr, Andronik öz dəstəsi ilə Bolqarıstana qaçır.

**14-17 aprel 1909** - Adanada türklər və ermənilər arasında kütləvi silahlı qırğın baş vermiş, minlərlə türk və erməni öldürülmüşdür.

**21 fevral 1914-cü il** - «Hnçak» partiyası Qarsda və Ərdahanda silahlı üsyan qaldırmış, 30 000 etnik türk öldürülmüşdür.

**24 aprel 1915-ci il** - Ölkədaxili sabitliyin pozulması və orduda təxribatlar törətməkdə ittiham edilən 300 nəfər erməni siyasi və hərbi lideri həbs edilir.

**27 may 1915-ci il** - Osmanlı hökuməti Şərqi Anadoluda yaşayan ermənilərin cəbhə xəttindən 25 km uzağa (Suriya və İraq ərazisinə) köçürülməsi barədə qərar qəbul edir.

**1905-ci ildən** etibarən erməni məsələsinin yeni bir müstəviyə - «erməni soyqırımı» müstəvisinə keçirilməsi dövrü başlayır.

Türk dövlətinin tarixində dövlət səviyyəsində planlaşdırılan və həyata keçirilən erməni soyqırımı məsələsi olmamışdır. Vətəndaş müharibəsi, qarşılıqlı qırğınlar olmuşdur, Anadoluda milli zəmində çoxlu sayda türklər, ermənilər və kürdlər öldürülmüşdür, Şərqi Anadolunun erməni əhalisi Osmanlı dövlətinin içərilərinə deportasiya edilmişdir. Türkiyə etnik ərazisində ermənilərdən təmizlənməsi planı olmamışdır. Yalnız Rusiya





ilə müharibə bölgəsində yaşayan ermənilər köçürülmüşlər, Türkiyənin digər bölgələrində yaşayan ermənilərin köçürülmə və asayişlə bağlı heç bir siyasəti aparmayıbdı. Hətta Türkiyənin İngilis-Fransız cəbhəsində döyüşən ordusunun sıralarında erməni batalyonları müharibənin sonuna kimi öz xidmətlərini davam etdirmişlər. Türkiyə Cümhuriyyətinin yarandığı gündən də ermənilər bu dövlətin bərabərhüquqlu vətəndaşları elan edilmiş, onların normal yaşamasına, fəaliyyət göstərməsinə, o cümlədən yüksək dövlət vəzifələri tutmasına heç bir maneçilik yaradılmamışdı.

**1915-ci ildə** Anadoluda yaşayan ermənilərin Osmanlı dövlətinin içərilərinə köçürülməsi isə tarixi faktdır və o bölgədəki hərbi-siyasi vəziyyətlə əlaqədar baş vermiş faciəli hadisədir. Müharibə zamanı cəbhə bölgəsində yaşayan «etibarsız» əhalinin ölkənin başqa yerlərinə sürgün edilməsi halları bir çox ölkələrin təcrübəsində olmuşdur. Ermənilərin deportasiyasından 25 il sonra Sovet-Alman müharibəsi zamanı SSRİ-nin qərbində yaşayan almanların, Krım tatarlarının, ahıska türklərinin, çeçenlərin, çərkəzlərin və s. xalqların Orta Asiyaya və Qazaxıstana köçürülməsi dediklərimizə əyani sübutdur.

Anadolunun erməni əhalisinin deportasiyası olduqca pis təşkil edilmişdir, ilin isti dövründə, kifayət qədər nəqliyyat vasitələri və mühafizə olmadan həyata keçirilmiş, insan əzabına və tələfatına səbəb olmuşdur.

Erməni siyasi liderləri və din xadimləri Osmanlı hökuməti ilə erməni xalqının münasibətlərini dinc yolla, hüquqi müstəvidə deyil, zor, üsyan və terrorla aydınlaşdırmağa üstünlük vermişlər.

Osmanlı hökuməti isə 40 ilə yaxın bir müddətdə öz ölkəsində və onun ətrafında gedən siyasi proseslərə fəal nəzarət edə bilməmiş, qabaqlayıcı tədbirlər görməmiş, hadisələrin arxasınca sürünmüş, dövrün tələbinə uyğun hərəkət edə bilməmişdi.

Türkiyənin birinci Dünya Müharibəsinə qoşulması ölkə daxilində gedən dağıdıcı prosesləri sürətləndirmiş, ermənilərin separatçılıq hərəkatına yeni təkan vermişdir. Rusiya cəbhəsində döyüşən ordudakı erməni əsgər və zabitlər kütləvi şəkildə fərarilik edərək düşmən tərəfə keçmiş, yaxud

Ordudan qaçaraq Şərqi Anadoluda silahlı üsyanlar törətmiş, dinc türklərə qarşı misli görünməyən vəhşiliklər etmişlər.



**Ərzurum vilayəti.**
**Timar köyü** Erməni zülmü görənlərin söylədikləri.





## XANKƏNDİ FACİƏSİ

### 3 İYUL 1967-ci İL

1962-ci ilin yazından Dağlıq Qarabağ azərbaycanlıları çörəklə imtahana çəkildi. Un qıtlığı, kəndlərin bərbad vəziyyəti, işsizlik azərbaycanlıların başına gətirilən ağır müsibətlər respublika rəhbərliyinə, SSRİ-yə olan ümidləri puça çıxarırdı. 1954-cü ildə Anastasi Mikoyan SSRİ Ali Soveti Rəyasət Hey'ətinin sədri tə'yin olundu. A. Mikoyanm tə'yinatından sonra Qarabağ erməniləri görünməmiş dərəcədə fəallaşdılar. Azərbaycanlıların vilayətdə təqibi başlandı. Ağdərədə (Mardakert), Xocavənddə (Martuni), Xankəndində azərbaycanlıları döyür, təhqir edir, iş yerlərindən qovurdular. Erməni yazıçısı, Azəri türklərinin qatı düşməni Maksim Hovanesyan 1965-ci ildə Xankəndində yaşayan 13 nəfər erməni «ziyalısmın» *(bütün bunlar Azərbaycanın respublikaya və SSRİ-yə tanındığı «ziyalılar» idi)* Dağhq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-yə birləşdilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinə müraciəti göndərildi. Müraciət erməni-azərbaycanlı münasibətlərini tamam gərginləşdirdi. Vilayətdə dolanışıq səviyyəsi həddən ziyada aşağı düşmüş, əhali aclıq içərisində yaşayırdı. Yollar bərbad vəziyyətdə, kəndlər işıqsız idi. Erməni «ziyalıları»nm müraciəti Sov. İKP MK-ya, SSRİ Ali Soveti Rəyasət Hey'ətinə və SSRİ Nazirlər sovetinə çatandan xeyli sonra tədbir görülməyə

başladı. Müraciəti imzalayan «ziyalılar»ın bəzilərinə töhmət, bə'zilərini partiyadan, bir neçəsini isə respublikadan çıxardılar. Azərbaycan Kommunist Partiyasının birinci katibi Vəli Axundov və onun yerlərdəki nümayəndələri qəti tədbirlərin görülməsi üçün heç bir vasitəyə əl atmadılar. Mərkəzi hökumət (SSRİ) isə erməni «ziyalılarına» qarşı ciddi tədbirlər gördü. Ermənilər bu məğlubiyyətlə qətiyyən barışmaq istəmirdilər. Başda vilayət partiya komitəsinin birinci katibi Suren Melkunyan olmaqla azərbaycanlılara qarşı qanlı terrorlara başladılar. Terror aktlarının başlanğıcı 1967-ci il, Böyük Oktyabr sosialist İnqilabının 50 illiyi ərəfəsində Xankəndində elə «Oktyabr» kinoteatrında törədildi.

1967-ci il iyunun əvvəllərində Xocavəndin (Martuninin) Kuropatkin kəndindəki beynəlmiləl məktəbdən bir erməni uşağı yoxa çıxdı. Uşağın itməsi Dağlıq Qarabağ Muxtar Vilayətinə ildırım sürəti ilə yayıldı. İki-üç günlük axtarışdan sonra uşağın meyiti həmin kəndin əkin sahəsindən tapıldı. Məktəbin direktoru Ərşad Məmmədov, meyit tapılan əkin sahəsinin briqadiri isə azərbaycanlı Ələmşah Mustafayev idi. Bu da azərbaycanlılara divan tutmaq üçün ermənilərə yaxşı imkan verdi.

Uşağın meyidi tapıldıqdan iki gün sonra məktəbin direktoru **Ərşad Məmmədov**, briqadir **Ələmşah Mustafayev** və kənd sakini **Zöhrab Məmmədov** həbs edildi. Hər üçünə qarşı cinayət işi qaldırıldı. Vilayət Daxili İşlər İda-








İşğal edilmiş Xankəndi şəhəri.

rəsinin təcridxanasında ermənilər onlarm hər üçünü elə hala salmışdılar ki, məhkəməyə qədər yaşayacaqlarına ümid qalmamışdı.

On-on beş günün içərisində vilayətdə yaşayan azərbaycanlılara qarşı qanlı sui-qəsdlər törədildi. 1967-ci ilin iyun-iyul günlərində Xankəndində, Ağdərədə yaşayan azərbaycanlılar mənzillərindən çölə belə çıxa bilmirdilər. İyunun 29-dan 30-na (1967) keçən gecə Stepanakertdə qanlı iğtişaşlar baş verdi. Ov tüfəngləri, dəhrə-balta ilə silahlanmış erməni quldurları azərbaycanlı məhlələrinə hücuma keçdilər. Köməksiz qalan Azəri oğulları düşmənə mərdliklə sinə gərdilər. İğtişaşı Stepanakertdəki hərbi hissə, onun azərbaycanlı zabiti *(indi adını unutduğumuz)* yatırtdı. Yaralı soydaşlarımız hərbi xəstəxanaya çatdırıldı.

Onlardan iki nəfər sonralar aldığı yaralardan şəhid oldular.

**1967-ci il, iyulun 3-nə** Stepanakertdə azərbaycanlıların məhkəməsi təyin edildi. İlk əvvəl məhkəməni vilayət partiya komitəsinin yaxınlığındakı binada keçirməyi planlaşdırırdılar. Lakin sonradan məhkəmənin Vilayət Daxili İşlər İdarəsinin yaxınlığında yerləşən «Oktyabr» yay kinoklubunda keçirməyi qərara aldılar. Saat 12 radələrində hərbçilərin müşayiətilə azərbaycanlılar həmin kluba gətirildi. Vilayətdə hakimiyyətsizlik hökm sürürdü. Məhkəmənin gedişini izləmək üçün buraya vilayətin hər yerindən iki minə yaxın erməni yığışmış və hamısı dəhrə, balta və bıçaqla silahlanmışdılar. Məhkəmənin hakimi erməni Hokopyan olduğu üçün azərbaycanlılar danışmaqdan imtina etilər. Erməni hakim başqası ilə əvəz edildi. Məhkəmənin gedişində hakim uşağın ölümündə günahları sübuta yetirilmədiyi üçün Zöhrab Məmmədovu həbsdən tamamilə azad etdi. Digər iki nəfərin işinin isə yenidən istintaqa qaytarıldığını elan etdi.

Qətlə yetirilən uşağın atası Benik üzünü ermənilərə tutub onları «məhbus»lardan qisas olmağa çağırdı.

Ermənilər gizlətdikləri dəhrə, balta və bıçaqları çıxararaq hücum edib «məhbusları» əsgərlərin əllərindən aldılar. Onların hər üçünün başını kəsib futbol topu kimi ortada bir-birinə ötürdülər, sonra isə qollarını və qıçlarını kəsdilər. Bundan ürəyi soyumayan Benik Ərşad Məmmədovun ağzındakı on iki qızıl dişini çıxartdı. Və ən nəhayət tikə-





tikə doğranmış üç cəsədi bir yerə yığaraq benzin töküb od vurdular. Həmin gün Xankəndində qız-gəlinlərin, ana-bacıların ahu-naləsi ərşə qalxmışdı. Kimsəsizliyini bilib heç nəyə gücü çatmayan məzlum camaat yalnız göz yaşları tökürdü. Azərbaycan hüquq-mühafizə orqanları isə o zamanlar heç bir addım ata bilmədi.

**1967-ci il 3 iyul** faciəsindən sonra yenidən təhqiqat işləri başlandı. Hüquq-mühafizə orqanları uşağın dayısı tərəfindən öldürüldüyünü fakt və dəlillərlə sübuta yetirdi. Azərbaycanlılarm vəhşicəsinə qətlə yetirilməsinin təşkilatçısı kimi uşağın atası Benik həbs edildi. Törətdiyi cinayətin ağırlığına görə Benik güllələnməyə məhkum olundu. Lakin 1975-ci ildə əsl mö'cüzə baş verdi. Benik gəbərmiş atasının dəfnində «zühur etdi». Dirildi. Gorbagor atasmı özü basdırdı. Benikin güllələnmədən və həbsdən azad edilməsi vilayət azərbaycanlılarını tamam sarsıtmışdı. Axı, Benikə Azərbaycan Ali Məhkəməsi güllələnmə vermişdi?!

Tariximizin səhifəsinə qara xətlə yazılan 1967-ci il 3 iyul faciəsi on illərlə xalqımızdan gizlədilmiş, tarixi həqiqəti də ötən onilliklərdə də Azərbaycanın Kommunist Partiyası ört basdır etmişdir. Təəssüflər olsun ki, 1967-ci il faciəçisi 1987-88-ci il hadisələrinin başlanğıcından xəbər versə də, xalqımız ona əhəmiyyət vermədi.

**Şöhrət SƏLİMBƏYLİ,**
«Sərbəst Düşüncə» qəzeti
dekabr 1992-ci il.

## XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRİ TÜRKLRİNƏ QARŞI OLAN ERMƏNİ TERRORLARI

**Noyabr 1918-ci il**

Ermәni quldur birlәşmәlәri aşağıdakı Kürd vә Azәrbaycan kәndlәrini yerlә-yeksan etmişlәr. Leqat (70 ev), Tay (75 ev), Mülk (30 ev), Gül (10 ev), Bәnövşәpuş (5 ev), Tağәmir (25 ev).

Onlar ümumiyyәtlә 200 kәndlini kәsib doğramışlar. Yaxşı silahlanmış ermәni quldurlarına müqavimәt göstәrmәk cәhdlәri uğursuz olmuşdur.

**Dekabr 1918-ci il. Cәbrayıl qәzası.**

«Daşnaksütyun» terror tәşkilatının sәrsәm «Böyük Ermәnistan - dәnizdәn dәnizә ölkә» yaratmaq proqramını hәyata keçirәn ermәni quldur birlәşmәlәri Cәbrayıl qәzasımn Azәrbaycan kәndlәrinә yenidәn basqın etmişlәr.

**2 dekabr 1918-ci il.**

Ermәnilәrin silahlı quldur dәstәsi Aşağı Mәlikli adlı Azәrbaycan kәndinә soxulmuş, әmlakı yağmalamış vә mal-qaranı sürüb aparmışdır. Kәnd yandırılmışdır.

**14 dekabr 1918-ci il. Zәngәzur.**

Gәncә qubernatorunun 14 dekabr 1918-ci il tarixli 70 saylı teleqramında deyilir ki, cәllad Andranik başda olmaqla ermәni quldurlar «Kolanı dәrәsi» yaxınlığındakı müsәlman kәndlәrinә basqın etmiş, müsәlmanları qırmış vә vәhşiliklәr törәtmişlәr.





**18 dekabr 1918-ci il.**

Ermәni quldur dәstәlәri Cәbrayılın Sirik kәndini darmadağın etmiş vә yandırmışlar.

**26 dekabr 1918-ci il. Cәbrayıl.**

Ermәni quldur dәstәlәri Xәlәfli, Tatar, Şıxlar kәndlәrini yandırmış, sakinlәrin әmlakını yağmalamış, mal-qaranı sürüb aparmışlar.

**Dekabr 1918-ci il.**

Ermәni quldur birlәşmәlәri Eyvazlı Azәrbaycan kәndinә basqın edәrәk, sakinlәrin әmlakını yağmalamış, mal-qaranı sürüb aparmışlar. Kәnd sakini Gilan Hüseyn Allahverdi oğlu vәhşicәsinә öldürülmüşdür. Axullu kәndindә 2 kişi, 3 qadın, 1 uşaq qәtlә yetirilmiş, 1 kişi yaralanmışdır. Mәlikli kәndindә 1 kişi öldürülmüş, Tatar kәndindә bir adam yaralanmış, Evatlı kәndindә bir nәfәr öldürülmüş, Şıxlar kәndindә bir sakin yaralanmış, Mәzrә kәndindә 6 kişi qәtlә yetirilmiş, Sirik kәndindә 11 kişi, 10 qadın, 14 uşaq öldürülmüş vә 2 kişi yaralanmışdır.

**1918-ci il. Basarkeçәr.**

Ermәni quldur dәstәlәri Basarkeçәri әlә keçirәrәk, dinc yerli әhaliyә divan tutmuşlar. Quldurların qәddarlığının hәddi-hüdudu yox idi. Onlar patron sәrf etmәmәk üçün silahsız adamları - kişilәri, qadınları, uşaqları, qocaları diri-diri torpağa basdırırdılar.

### DİNİ ZƏMİNDƏ QIRĞINLAR

**«Azәrbaycan» qәzeti 1918-ci il 8 dekabr nömrәsindә yazırdı:** «Hakimiyyәtsizlik vә anarxiya dövründә Azәrbaycan

türkləri, eləcə də bütün Qafqaz müsəlmanları Qafqazda yaşayan başqa xalqlara nisbətən on və yüz dəfələrlə artıq müsibət çəkdikləri halda Qafqaz mətbuatının əksəriyyəti onlara qarşı müntəzəm surətdə böhtanlar yağdırmağı indiyədək davam etdirir, böhtanların yağdırılmasında kadetlərdən tutmuş bolşeviklərədək, daşnaklardan tutmuş sosialistlərədək bütün ünsürlər heyrətamiz və həyəcanlandırıcı yekdillik göstərirlər. Sosialistlərdə sinfi məsələlər hətta arxa sıraya keçirilmişdir və indi ayrı-ayrı siniflərlə yox, məhz Azərbaycan türkləri ilə özü də sosial zəmində deyil, milli, hətta dini zəmində mübarizə gedir».

**1918-ci il. Qəbələ qəzası.**

Erməni quldur birləşmələri kiçik avar kəndini ələ keçirərək yerli kəndlilərə divan tutmuşlar. Uşaqlara xüsusilə qəddar üsullarla işgəncələr verilirdi: quldurlar onlarla avar uşağının gözlərini çıxarıb sapa keçirmiş və onu boyunbağı kimi öldürülmüş analardan birinin boynuna bağlamışlar.

**1918-1919-cu illər. Qarabağ.**

«Daşnaksütyun» terror təşkilatından olan erməni quldurlar Qarabağın dağlıq və aran hissələrində iki il ərzində 150 Azərbaycan kəndini tamamilə məhv etmişlər. Dinc əhalinin böyük əksəriyyəti qətlə yetirilmişdir.

**1918-Cİ İL. 1919-CU İLİN AXIRLARI.**

Arxiv materiallarına, habelə tarixçilərin yazdıqlarına və şahidlərin ifadələrinin saxlandığı mətbuatın məlumatlarına görə «Daşnaksütyun» terror təşkilatının göstərişini yerinə yetirən erməni quldurları tərəfindən məhv edilmişdir:





**İğdır və Eçmiədzin qəzalarında** - 60 kənd və bütün kişi əhali;

**Göyçə** - 22 kənd və 22000 adam;

**Bayazid** - 84 kənd və 15 000 ailə;

**İrəvan quberniyası** - bütün kəndlər;

**Sürməli mahalı** - 96 kənd;

**Zəngəzur mahalı** - 115 kənd və 10 000 azərbaycanlı, o cümlədən 4472 qadın və uşaq.

**1-3 yanvar 1919-cu il. Ağdaş.**

Erməni quldur birləşmələri Ağdaş şəhəri yaxınlığındakı kəndləri mühasirəyə almış və dağıtmışlar. Sakinlərin əksəriyyəti vəhşicəsinə öldürülmüşdür. Silah-sursat olmadığından müqavimət göstərmək mümkün deyildi. Ermənilər müsəlmanların səcdəgahlarını murdarlamışlar.

**1-10 yanvar 1919-cu il. Zəngəzur qəzası.**

«Daşnaksütyun» erməni terror təşkilatının göstərişini yerinə yetirən Andranikin erməni quldur birləşmələri Qusili, Hacılı, Arkazə, Əsgərli, Qafan, Hacaquv, Oxçu kəndlərini darmadağın etmişlər. Kirədağ, Molodu, Qovnu, Qarabağlı, Qavarlı, Basmağı, Mahmudlu, Koydaşı, Kağac, Quruqot, Kaycan, Kiri, Abcəbacı kəndləri mühasirə vəziyyətində olmuşdur. Erməni quldurları kəndliləri tamamilə qıracaqları ilə hədələyərək təslim olmağa təklif etmişlər. Zəngəzur qəzasının Oxçu dərəsinin müsəlmanları da ölüm halqəsinə almışlar.

Şahidlərin dediklərinə görə qadınlar ermənilərə əsir düşməmək və zorakılığa məcbur qalmamaq üçün özlərini öldürürdülər.

**28 yanvar 1919-cu il. Gəncə quberniyası.**

Erməni quldurları Gəncə quberniyasının Zağalı kəndini yandırmışlar. 15 müsəlman öldürülmüşdür. Onların arasında qadınlar və uşaqlar da vardı. Zağalı kəndi «Daşnaksütyun» erməni terror təşkilatının faşist tezisinin - «şəraitdən asılı olmayaraq türkləri məhv etməli» tezisinin həyata keçirilməsinin növbəti qurbanına çevrilmişdir.

**5 fevral 1919-cu il.**

Abdulluq Azərbaycan kəndinin yaxşı silahlanmış erməni saqqallılar 25 uşağı, 15 qadını və 50 kişini vəhşicəsinə qətlə yetirmişlər.

**5 fevral 1919-cu il.**

Erməni quldur dəstələri Abdulyanı Azərbaycan qəsəbəsinə soxulmuşlar. 144 ev yandırılmış, 560 kişi, 15 qadın və 25 uşaq öldürülmüşdür. Erməni quldurlar südəmər körpələri diri-diri tonqala atmışlar.

**5 fevral 1919-cu il.**

Kilani-Turani Azərbaycan kəndində erməni quldurlar 10 kişini, 1 qadını, 1 uşağı öldürmüş, 170 evi yandırmışlar.

**6 fevral 1919-cu il.**

Məniman Azərbaycan kəndi erməni quldurlarının basqınına məruz qalmışdır.29 kişini, 10 qadını, 12 uşağı öldürmüşlər. Qətlə yetirilənlərin demək olar ki, hamısına işgəncə verilmişdir. Meyitlərin gözləri çıxarılır, qulaqları kəsilirdi. 37 evə od vurulub yandırılmışdı.





**6 fevral 1919-cu il.**

Erməni quldurları kiçik bir Azərbaycan qışlağında çobanlara vəhşicəsinə divan tutmuşlar.

**7 fevral 1919-cu il.**

Erməni quldur dəstəsi Kələnti kəndinə soxulmuş, 15 kişini, 3 qadını, 5 uşağı öldürmüşdür. Dinc kəndlilər qətlə yetirilməzdən əvvəl onlara işgəncə verilmişdir. Bütün meyitlər eybəcər hala salınmışdır.

**8 fevral 1919-cu il.**

Erməni quldurları kiçik bir Azərbaycan kəndinə soxulmuş kəndliləri öldürmüş, əmlaklarını yağmalamış, kənldi yandırmışlar.

**8 fevral 1919-cu il.**

«Daşnaksütyun» beynəlxalq terror təşkilatının göstərişini yerinə yetirən erməni quldurlar Qaramanlı Azərbaycan kəndində 15 uşağı, 36 qadını öldürmüş, 80 silahsız kişini bir-birinə bağlayaraq diri-diri torpağa basdırmışlar.

**Fevral 1919-cu il. Zəngəzur mahalı.**

Erməni quldur birləşmələri Zəngəzur mahalının Dovorus Azərbaycan kəndini tamamilə çapıb-talamışlar. kəndlilərə ölüncə işgəncə verilmişdir.

**Fevralın axırları - martın əvvəlləri, 1919-cu il.**

Artuç adlı birinin başçılıq etdiyi erməni quldur dəstələri Seyid Kotanlı, Xaraba Kotanlı, Şaqaib azərbaycanlı kəndlərində əhalini qırıb-çatmışlar. Şahidlərin dediklərinə görə qətlia-

mın dəhşətləri təsviredilməzdir. Meyitlər təhqir edilərək qarınları yırtılmış, gözləri çıxarılmış, qulaqları kəsilmişdir. Ermənilər həmin kəndlərdəki yüzlərlə kürd qaçqınmı da qəddarcasına qırmışlar.

**23 mart 1919-cu il. Şuşa.**

«Daşnaksütyun» terror təşkilatına mənsub erməni quldur dəstələri gəlmə ermənilərin yaşadığı Şuşa şəhərinə basqın etmişlər. Şəhərin ermənilər yaşayan hissəsi tamamilə dağıdılmışdır. Yalnız ona görə ki, Şuşada yaşayan ermənilər fəaliyyət göstərən erməni terror təşkilatına daxil olmaqdan və ya onlara maliyyə yardımı etməkdən boyun qaçırmışdılar.

«Daşnaksütyun» terror təşkilatının quldurları «tabe olmayan» erməniləri albanlar adlandıraraq qırırdılar. Həmin dövrdə Qarabağda daşnaklar 34 erməni (alban) və çoxlu müsəlman kəndini viran qoymuşlar. O ki, qaldı albanlar anlayışına söhbət ən qədim etnosların birindən gedir və onların tarixini, mədəniyyətini erməni ideoloqları özününküləşdirmək çün indiyədək dəridən-qabıqdan çıxırlar.

İndiki Dağlıq Qarabağın ermənidilli əhalisi - buraya XIX əsrdə köçürülənlər istisna olmaqla - yerli əhalinin, müxtəlif alban tayfalarının - utilərin, sodların törəmələridir. Başqa birisi deyil, məhz erməni müəllif Moisey Xorenli onları Aranın nəsilləri, albanların əcdadları adlandırır». Səciyyəvi haldır ki, hələ ötən əsrdə erməni tədqiqatçılarının özləri öz millətinin digər etnik qrupları assimilyasiya etmək kimi heyrətamiz bacarığa malik olduğunu göstərirdilər».





**24 mart 1919-cu il.**

Cermanisdən irəliləyən erməni quldur birləşmələri şeşikdağ Azərbaycan kəndinə basqın etmiş və yeni hakimiyyətin - kommunistlərin adından bütün kəndliləri qırıb-çatmışlar.

**29 mart 1919-cu il. Yeni Bayazid mahalı.**

«Daşnaksütyun» terror təşkilatmın quldur dəstələri tərəfindən azərbaycanlıların kütləvi surətdə qırılması ilə əlaqədar Yeni Bayazid mahalının Azərbaycan əhalisi dünya müsəlmanlarına çağırış qəbul etmişdir.

**Çağırışda deyilir:** «Müsəlman qardaşlar! Sizə axırıncı dəfə müraciət edirik. Çıxılmaz vəziyyətimizi nəzərə alın və əlinizdən gələn köməyi bizdən əsirgəməyin. İrəvan quberniyasındakı bədbəxt müsəlmanların qalan hissəsini məhv etmək istəyən müstəbid daşnakların 60 000 əhalini qırmasına yol verməyin. Qeyri-bərabər mübarizədə öz ailələrimizi xilas etməkdə bizə kömək edin. Vaxtında gəlib çıxmağa tələsin. Vəziyyət dəhşətlidir, məhv edilirik». Bu çağırışı Yeni Bayazid mahalının 26 kəndinin, İrəvan quberniyasının darmadağın edilmiş 270 Azərbaycan kəndindən qalan sonuncu kəndlərin sakinləri imzalamışlar.

**Mart 1919-cu il.**

Erməni quldur və terror birləşmələri İrəvan mahalının Qaraxaç, Gədilli, Qarabağlar, Ağasıbəyli, Dəhnəz, Şağanlı Azərbaycan kəndlərinə yenidən soxulmuşlar. Dinc müsəlman əhalisinə qarşı vəhşiliklər edilmişdir. Erməni quldurlar kişilərə divan tutduqdan sonra qadınları əsir götürmüşlər.



**10 dekabr 1992-ci il.** Namərd ermənilər zəngilanlı İlyas Qurbanovu işgəncə verərək bu vəziyyətə salmışlar.

**Mart 1919-cu il. Naxçıvan.**

Erməni quldur və terror birləşmələri Naxçıvana hücuma başlamışlar. Faşistlər qarşılarına çıxan bir neçə Azərbaycan kəndini yer üzündən silmişlər. Ordubad tərəflərdə Aşot Mosesyantsın quldur dəstəsi azğınlıqlar törədirdi. O, özünü qəza rəisi təyin etmişdi. Arxiv sənədlərinə görə hər gün beş-on adam erməni qaniçənlərinin qurbanı olurdu.

**6 aprel 1919-cu il.**

18 evdən ibarət Cavanşir Azərbaycan kəndində erməni quldurların basqını nəticəsində bir nəfər azərbaycanlı sağ qalmamışdı. 25 kişi, 20 qadın və 10 uşaq öldürülmüşdür.





**12 aprel 1919-cu il.**

60 evdən ibarət Mucu Azərbaycan kəndində erməni quldurlar bir gündə 150 kişi, 55 qadın, 25 uşaq öldürmüşlər. 35 ev yandırılmışdır. Uşaqların gözlərini çıxarmış, sonra da tonqala atmışlar.

**13 aprel 1919-cu il.**

**5-ci sahənin Dağlıq zolağının müvəkkili İsmayıl Sultanovun qəza rəisinin adına 21.04.1919-cu il tarixli raportundan:** «...Ararat Respublikası qoşunlarının Yeni Bayazid qəzasının Göyçə rayonunun dinc kəndlərinə basqını başlamışdır. Bundan məqsəd ərazini Göyçə gölünün şərq və şimal həndəvərində məskunlaşmış müsəlmanlardan təmizləməkdi. Bir həftədə 60 000 əhalisi olan 22 kənd darmadağın edilmişdir. Bədbəxt müsəlmanlar Göyçə müsəlmanlarını qırıb-çatmaq məqsədi güdən erməni birləşmələrinin top-tüfəng atəşləri altında tələf olurdular. Ermənilərin və Ermənistan hökumətinin öz keçmiş qonşularına bu cür insanlıqdan kənar münasibətlərini görəndə adamı dəhşət bürüyür. Erməni qoşunlarının əlinə keçən müsəlmanlara görünməmiş və eşidilməmiş əziyyətlərlə işgəncələr verirlər, çox az sayda gənc qadın və yeniyetmə qızlar istisna olmaqla qalan bütün qadınları, uşaqları, kişiləri, qocaları öldürürlər. Erməni quldurların təqib etdikləri azərbaycanlı və kürd qaçqınları sığınacaq tapmaq ümidilə üz tutduqları Gəncə mahalının 5-ci sahəsi ilə həmsərhəd qarlı dağ aşırımlarında həlak olmuşlar».

**13 aprel 1919-cu il.**

70 evdən ibarət Haşman kəndində erməni quldurlar 120 adam öldürmüşlər. Onların 40-ı qadın, 20-si uşaq, 60-ı kişi idi. Haşman kəndində ermənilərin törətdikləri soyqırımın bütün qurbanları tanınmaz dərəcədə eybəcər hala salınmışdır.

**14 aprel 1919-cu il.**

«Daşnaksütyun» terror təşkilatının göstərişini yerinə yetirən erməni saqqallılar 30 evdən ibarət Zeyvə Azərbaycan kəndində 30 kişini, 20 qadını və 32 uşağı diri-diri yandırmışlar.

**4 iyul 1919-cu il.**

Erməni quldur birləşmələri Böyük Vedi kəndinə yaxınlaşmışlar. Müsəlman ağsaqqalları ilə görüş üçün rəsmi səbəb danışıqlar aparılması idi. Gözlənilmədən ermənilər tərəfdən atəşlər açılmışdır. Böyük Vedi kəndinin iki nümayəndəsi - Zeynalabdin Şıxəli oğlu və Nəsrulla bəy Bəşirbəy oğlu öldürülmüşdür...

**19 sentyabr 1919-cu il.**

I piyada alayının çavuşu Karaşarovun raportuna görə, Cəbrayıl rayonu kəndlərindən birinin yaxınlığında erməni quldurlar üç çobanı öldürmüşlər. Onlardan birinin başını kəsmişlər.

**6 noyabr 1919-cu il.**

Keçəldədə aşırımında sığınacaq tapan kürd qaçqınlarını təqib edən erməni quldurlar onları qaubitsalardan atəşə tutmuşlar. Qaçqınlar arasında öldürülənlər və yaralananlar çox olmuşdur.





**3 dekabr 1919-cu il. Cəbrayıl qəzası.**

Erməni saqqallılar Cəbrayıl qəzasının Qoqa kəndini mühasirəyə alaraq 10 müsəlmam öldürmüşlər. Onlar ağsaqqal Əsədağa Cavanşirə və ailəsinə xüsusi qəddarlıqla divan tutmuşlar.

**20 dekabr 1919-cu il.**

Silahlı erməni dəstələri Xələfli, Aşıq Məlikli, Tatar və Şıxlar kəndlərinə basqın etmiş, 10 evi yağmalamış və yandırmış, 2 qadını, 6 kişini öldürmüş, mal-qaranı sürüb aparmışlar.

**1919-cu il. İrəvan.**

İrəvan quberniyası müsəlman əhalisinin Amerika xalqına müraciətində yerli azərbaycanlı əhalinin qəsdən məhv edildiyi göstərilir: 88 kənd viran qoyulmuş, 1920 ev yandırılmış, 131 970 kişi öldürülmüşdür.

**19 yanvar 1920-ci il. Şuşa.**

İri erməni quldur birləşmələri Şuşa istiqamətində hücuma keçərək yolları üstündəki bütün kəndləri darmadağın etmişlər. Uşaqlar, qadınlar, əlillər də öldürülmüşdür.

**22 yanvar 1920-ci il.**

Erməni quldur birləşmələri Hacı Qərib, Məkrə müsəlman kəndlərini var-yoxdan çıxarmışlar. Ölüm-dirim mübarizəsi aparan kəndlərin qəhrəmancasına vuruşmasına baxmayaraq, müasir silahları olan erməni quldurlar dinc əhaliyə divan tuta bilmişlər. Sağ qalanlar Burcanarlı kəndinə qaçmışlar.

**23 mart 1920-ci il. Əsgəran.**

Ermənistan hökumət qoşunları barışığı növbəti dəfə pozaraq, Azərbaycanın Əsgəran şəhərini qəsb etmişlər. Qırğın



Füzuli. 1992-ci il. Dağıdılmış kəndlər.

əməliyyatında əsasən «tayqulaq Andranik»in quldur dəstələri iştirak edirdilər. Bundan əvvəl onlar dinc əhaliyə xüsusilə daha çox qəddarcasına cinayətlər törətmişlər.

**23 mart 1920-ci il. Şuşa. Xankəndi.**

Ermənistan qoşunları quldur birləşmələrinin köməyilə Xankəndi və Şuşa şəhərlərinə basqın etmiş, bununla da 23 noyabr 1919-cu il tarixli barışıq sazişini pozmuşlar. Hər iki şəhərdə qadınlar, uşaqlar, qocalar qətlə yetirilmişlər.

**24 mart 1920-ci il. Tərtər.**

Erməni quldur birləşmələri «Daşnaksütyun» terror təşkilatının göstərişini yerinə yetirərək, Tərtər şəhəri yaxınlığındakı kəndlərə basqın etmiş və 1919-cu il 23 noyabr tarixli barışıq sazişini növbəti dəfə pozmuşlar.





**25 mart 1920-ci il. Cəbrayıl.**

Erməni quldur birləşmələri Cəbrayıl şəhərinə basqına başlamışlar. 1919-cu il 23 noyabr tarixli barışıq sazişinə aldanan dinc əhali döyüşə hazır deyildi və tarla işləri ilə məşğul olurdular. Mülki əhali arasında tələfat olmuşdur.

**25 mart 1920-ci il.**

Erməni quldur birləşmələri Xudərə, Dankeyrə, Davalı müsəlman kəndlərini qarət etmiş və yandırmışlar. Dinc əhali arasında çoxlu tələfat olmuşdur. Sağ qalanlar qonşu kəndlərə qaçmışlar.

**30 mart 1920-ci il.**

Erməni quldur birləşmələri qəfil basqın nəticəsində Bağırbəyli, Müsəlmanlar kəndlərini ələ keçirmişlər. Sağ qalanlar həmçinin qəsb edilmək təhlükəsi qarşısında olan Şuşa şəhərinə qaçmışlar. Arxiv sənədlərinə görə əhalinin bütün kişi qismi özünümüdafiə dəstələri yaradaraq, son nəfəsədək vuruşmağa hazır olmuşlar.

**5 aprel 1920-ci il. Qazax.**

«Daşnaksütyun» terror təşkilatının erməni quldur dəstələri Qazax rayonunun Tatlı kəndi yaxınlığındakı kiçik bir Azərbaycan kəndini ələ keçirərək, onun bütün sakinlərinə qəddarcasına divan tutmuşlar.

**5 aprel 1920-ci il.**

Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər naziri F.Xoyskinin Ermənistan Respublikasının xarici işlər nazirinə notasında deyilir ki, aprelin 5-də səhər saat 5-də



1992-ci il fevral. Xocalı faciəsinin qurbanları.

Ermənistan tərəfindən erməni silahlı quldur birləşmələri Azərbaycan ərazisindəki Yaradulla kəndinə basqın etmişlər. Əhalinin üçdə bir qismindən çoxu məhv edilmiş, əmlakları yağmalanmışdır.

**8 aprel 1920-ci il.**

Erməni quldur birləşmələri təkrarən basqın etmiş, bir dəfə Yaradulla Azərbaycan kəndini və Qazax rayonundakı Tatlı kəndinin cənub hissəsini yandırmışlar.

**9 aprel 1920-ci il. Qazax.**

Qazax rayonunun azərbaycanlı kəndlilərinin barışıq haqqında imzalanmış müqaviləyə əməl edərək ağ





bayraqlar qaldırılmasına baxmayaraq, qaniçən Dronun erməni quldur birləşmələri Əskipara, Yuxarı əskipara, Aşağı Fərəhli, Ayrım, Quşçu Ayrım, Xeyrimli, Bənası, Salahlı kəndlərinə basqın etmiş və onları tamamilə yandırmışlar. Dinc əhali arasında çoxsaylı tələfat olmuşdur. Özünün qəddarlığı ilə ad çıxaran erməni faşist Dro (sonralar Hitlerin silahdaşı olub) bir sıra qətllərə şəxsən başçılıq etmişdir. Bu qətllər zamanı qadmlar və qocalar təsviredilməz işgəncələrə məruz qalmışlar.

**19 aprel 1920-ci il. Ağdam.**

Erməni quldur birləşmələri «Daşnaksütyun» terror təşkilatının göstərişini yerinə yetirərək, Gülablı kəndinin ətraf məhəllələrini yandırmış, dinc sakinlər arasına çaxnaşma salmışlar. Bir neçə kəndli əsir götürülmüşdür. Bir həftə sonra erməni saqqallılar Abdal və Gülablı kəndlərini zəbt etmişlər. Bu zaman Gülablı kəndi od vurulub yandırılmışdır.

**23 aprel 1920-ci il.**

Erməni quldur birləşmələri Şişqaya Azərbaycan kəndinə basqın etmiş və bütün sakinləri öldürmüşlər. Qətlə yetirilənlər arasında qocalar və qadınlar da olmuşdur. Erməni quldurlar uşaqları diri-diri quyulara atmışlar.

**İyul 1920-ci il.**

Erməni quldur dəstələri Zəngilana basqın etmişlər. Terrorçular yüzlərlə dinc sakini qətlə yetirmişlər. Onlar qaçmağa çalışanları yaxalayaraq öldürmüş və meyitlərini xəndəklərə atmışlar. Həmin dövrdə «Yaqavurd» erməni



Qarabağdan didərgin düşmüş qaçqınlar.

qəzeti yazırdı ki, «Daşnaksütyun»un siyasəti nəticəsində Ağbulaq, Ərdənis, Toğulca və digər kəndlərin əhalisi doğma yurdları tərk edir, kartof, arpa, buğda əkinlərini atıb gedirdilər.

**2 sentyabr 1920-ci il. Zəngibasar.**

«Daşnaksütyun» terror təşkilatından olan erməni quldurların vəhşiliyindən can qurtarmaq üçün 1500 dinc sakin Olta çayını keçməyə çalışmışdır. istanbuldakı «Osmanlı» arxivinin sənədlərində göstərildiyi kimi, 650 müsəlman çayda batıb boğulmuşdur.





## MİLLİ FACİƏNİN PROLOQU...

Dağlıq Qarabağdakı bu günkü vəziyyəti dərk etmək üçün neçənci dəfədir ki, geriyə qayıtmaq lazım gəlir. 1989-cu ilin iyulunda SSRİ xalq deputatları qurultayının qərarı ilə DQMV problemləri üzrə komissiya yaradılması xəbəri, elə gözlənildiyi kimi, regionda gərginliyin daha da güclənməsinə səbəb oldu. Stepanakert erməniləri azərbaycanlılar yaşayan şəhərətrafı Kərkicahan kəndinə *(iki il sonra həmin kənddə «Mayak»ın radio jurnalisti Leonid Lazareviç erməni snayperinin gülləsindən həlak oldu.)* hücum etdilər, siqnal raketlərinin köməyi ilə evləri yandırdılar. Səhərə yaxın hücum dayandı. Lakin vəziyyət daha da pisləşdi və yollardakı «daş» müharibəsinə gətirib çıxardı. SİTA o vaxt məcburi obyektivliklə *(çünki, xalq deputatları o zaman döyüş bölgəsinə getməyə hazırlaşırdılar)* məlumat verirdi ki, vilayətin yollarında nəqliyyat hərəkəti blokadaya alınmışdır, Dağlıq Qarabağda yolları təmizləməyə çıxmış əsgərlərə isə ermənilər daş və əldəqayırma partlayıcı qurğular atmış, ov tüfənglərindən atəş açmışlar. Nəticədə 19 hərbçi yaralanmışdır. SİTA *(SSRİ vaxtında mərkəzi komitənin nəzarətində olan informasiya agentliyi)* bildirirdi ki, pusqudan üç azərbaycanlıya hücum edilmiş, nəticədə onlardan ikisi öldürülmüş, üçüncüsü ağır yaralanmışdır. Bu - əslində ilk obyektiv məlumata ermənilər dərhal reaksiya verdilər: Stepanakert çapçıları tətil etdilər və vilayətin «Sovetskiy Karabax» qəzetinin nəşri dayandırıldı. Rus dilində çıxan «Kommunist» qəzeti açıq elan etdi ki, iki azərbay-

canlının öldürülməsi barədə «SİTA-nın çox ehtiyatsız məlumatı» vəziyyəti daha da gərginləşdirmişdir, «halbuki, onları kimlərin və hansı şəraitdə öldürdüyü hələ aydınlaşdırılmayıb». Moskva deputatları hər şeyi bütün təfərrüatı ilə möcüzəli şəkildə ölümdən xilas olmuş, cinayətin şahidi Namiq Salahovdan öyrənə bilərdilər. Tut bağındakı bulaq başında onun iki yoldaşına - Səfərova və Nəbiyeva hücum edib onları öldürən altı qatili o üzdən tanıyırdı, biri ilə hətta eyni məktəbdə oxumuşdu. Belə ki, istəsəydilər istintaq uzanmaya bilərdi. Qatillər silahla qorxudaraq öz qurbanlarını lüt qalanadək soyunmağa məcbur etmiş, əllərini arxalarında bağlayaraq işgəncə verməyə başlamışlar. Siqareti Səfərovun yarasına basıb söndürmüş, öldürdükləri adamların kürəklərini süngü ilə kəsik-kəsik etmişdilər.

«Volqa» minik maşınları ilə Ağdama gəlib çatmış deputatlarda heç nə təşviş doğurmurdu. Ətrafdakı adamlar sakit və şən görünür, alver edir, sahələrdə işləyir, çayxanalarda oturub çay içirdilər. Kifayət qədər var-dövlətli olan Ağdamdan vaxtında Dağlıq Qarabağda yaşayan azərbaycanlılar kömək etmədilər.

Ağdamdan Stepanakertə gedən yolda isə şərait kəskin dəyişirdi. Avtobusların və şəxsi maşınların sərnişinləri təşvişlə ətrafa baxırdılar. Ağdamdan Şuşaya 37 kilometrdir, bu dağ yollarında 8 nəzarət buraxılış məntəqəsi və hər birinin yanında zirehli transportyorlar və əsgəri hissə dururdu, yolda beton bloklardan şahmat qaydasında düzülmüş maneələr qoyulmuşdu. Çox şey görmüş və çox şeyi də başa düşməyən **şuşalılar gələnlərə eyni bir sual verirdilər:**





doğrudanmı biz Azərbaycanda deyil, Ermənistanda yaşayırıq və buraya kənar adamların girməsi qadağandır? Niyə bizi silahlı bandaların hücumlarından mühafizə etmirlər? Niyə Stepanakertdə hüquq mühafizə xidmətlərini təkcə SSRİ DİN qoşunları və ordu deyil, həm də Yerevandan xüsusi gətirilmiş milis bölmələri yerinə yetirir? Əgər iş bu cürdürsə, niyə Şuşaya Bakıdan və Ağdamdan milis gətirilmir? Əslində isə ermənilər silahlananda, ordu yaradanda bizimkilər hələ yalandan mitinqlərə çıxır, sonra çayxanalara yollanırdılar.

Moskvanın rezidenti Arkadi Volskiyə tabe olan DİN və ordunun onları qorumadığını öz üzərlərində hiss edən DQMV kəndlərinin azərbaycanlıları uşaqlarını hər halda daha etibarlı olan uzaq rayonlara göndərirdilər. Azərbaycan kəndlərində bütün sutkanı sayıq olmaq lazım gəlirdi. Silahlı erməni «saqqallıları» adətən gecələr basqın edir, ya da adamları qorxu altında saxlamaq üçün atəş açırdılar. Elə Şuşanın üzərində də vaxtaşırı rusların ermənilərə verdiyi hərbi vertolyotlar baraj edirdi. **Bu aksiyaların məqsədi bir idi:** silahsız azərbaycanlıları qorxutmaq və onları öz torpaqlarından getməyə məcbur etmək. Vilayətə gəlmiş hərbçilərin yalnız erməni əhalisini müdafiə etməyə göndərildiyini görən və günün reallığından çıxış edən azərbaycanlılar belə bir nəticə çıxarmağa meyl edirdilər: odur, Ermənistandan bizimkiləri qovdular, indi də DQMV azərbaycanlılarına keçiblər. Volski komitəsi də Azərbaycan kəndlərini nə ərzaqla, nə yanacaqla, nə elektrik enerjisi ilə, nə də rabitə ilə təmin etməməklə azərbaycanlıla-



**1992-ci il fevral.** Xocalı faciəsi.

rın DQMV-dən sıxışdırılıb çıxarılmasına fəal kömək edirdi. Belə bir təsəvvür yaranırdı ki, Bakıdakı hakimiyyət də öz soydaşlarının Dağlıq Qarabağı tərk etmələrinə elə erməni rəhbərliyi kimi münasibət göstərirdi. Vilayət bu cür rusların alçaq siyasəti nəticəsində SSRİ-də daha bir monoetnik erməni regionuna çevrilirdi.

**Şuşa rayon partiya komitəsinin birinci katibi, SSRİ xalq deputatı Vaqif Cəfərov Vəzirova təklif edirdi:** gəlin DQMV-də Ermənistandan olan qaçqınları və məshəti türklərini yerləşdirək; yer kifayət qədərdir, həm də ki, köçkünlər işlə də təmin olunacaqlar. Və bir də ki, kimin bu cür addımı qadağan etməyə gücü çatacaqdır: torpaq bizim, hökumət bizim, deməli, əmr də bizim olmalıdır. Əb-





dürrəhman Vəzirov nəinki bu qərarı çıxarmağa cəsarət etmədi, onun hətta, əslən özünün vətəni olan Qarabağa getməyə cürəti də çatmadı.

Bu milli faciənin proloqu idi və mən həmin hadisələrin şahidiyəm.

...1988-ci ilin həmin dekabr günlərində nümayişin dağıdılacağı barədə ciddi şayiələr gəzirdi. 5 dekabra keçən gecə əsgərlər adətən olduğundan çox deyildi. Onlar əvvəl olduğu kimi meydanı hər tərəfdən ciddi dövrə ilə əhatə edirdilər. Onlardan üç-dörd addım aralı başqa bir dövrə - burada gecə qalanlardan ibarət dövrə düzülürdü. Dekabr gecələri soyuq keçirdi. Ərzağı və odunu buraya daha buraxmırdılar. MK-da olan ağıllı başlar mitinqə toplaşanları aclıqla təslim etmək qərarına gəldilər. Bəlkə ona görə də həmin gecə adam çox qalmamışdı. Arabir əsgərlər manevr etməyə başlayırdılar. Bir də ki, son gecələr onların bu «dəcəlliklərinə» artıq burada vərdiş etmişdilər.

«Gecəyarıya yaxın Meydana iki silahlı «adyuntantın müşayiət etdiyi general daxil olmağa cəhd etdi». Onların gəlmələrini məqsədini bilmirəm, yadımda qalan o oldu ki, onlar tezliklə geri qayıtmağa məcbur oldular. Generalın baxışı xatirimdən çıxmır: o bizə elə baxırdı ki, sanki hər birimizi gözümüzdən yadda saxlamaq istəyirdi.

Təxminən qırx dəqiqə sonra bizə bir qrup adam yaxınlaşdı, onlar əsasən mülki geyimdə idilər, yalnız bəziləri daxili qoşunların formasında idi və bizimlə çox müxtəlif şeylərdən - Balayandan, ərzaq vergilərindən, kommunizmdən sərbəst söhbətlər aparmağa başladılar. Cavanlar

dərhal onların ətrafına cəmləşdilər. Qızğın mübahisələr, müzakirələr başlandı. Birdən dövrə qırıldı... Hərdən mənə belə gəlir ki, elə bu da hesaba alınmışdı: sadə insanların səmimiliyi, inamı, sadəlövhlüyü.

Sonra hər tərəfdə işıq söndü. Elə bil, hətta yaxınlıqdakı evlərdə də işıq yanmırdı. Mənə qəribə gəldi ki, heç kim buna xüsusi əhəmiyyət verмədi: hamının başı danışığa qarışmışdı, sanki, heç nə hiss etmirdilər. Sonuncu kösöv yanıb qurtardı.

İki saat sonra qəfil yanan parlaq işıq bir anlığa hamının gözünü qamaşdırdı. Sonra mən dönüb baxanda hər tərəfdə əsgərlərin toplandığını gördüm. «Azərbaycan» mehmanxanasından «Abşerona»dək əsgər kaskalarından əks olunan işıqlar oynaşırdı. Əsgərlər tribuna tərəfdən də bizim arxamıza keçmişdilər. Yeri gəlmişkən, yüksək hərbi vəzifəlilər artıq tribunaya çıxmışdı.

Biz sıx dövrə vurub oturduq. Ortada uşaqlar və qadınlar, kənarlarda cavanlar. Biz çox deyildik, bir səkkiz yüz adam olardıq.

Ucadan danışan da tapıldı. Yaşlı qadın əsgərlərə müraciət etdi. O, hamımızı narahat edən şeylərdən - doğma torpaqdan, onu zəbt etmək istəmələrindən, torpağı qorumaq istəyən insanların namus və ləyaqətindən danışırdı. Sonra Böyük Vətən müharibəsinin və Əfqanıstan müharibəsinin veteranları əsgərlər müraciət etdilər.Mənə elə gəlir ki, bu adamların danışıqlarındakı səmimiyyət vəhşi rus əsgərlərinə təsir belə bağışlamırdı.







**Erməni terrorunun izləri.**
Doğma yurdlarından didərgin düşmüş azərbaycanlı qaçqınlar.

Tez-tez soruşurdular: bizə dincliklə dağılmağı təklif etmişdilərmi? Bəli, buna oxşar təkliflər var idi: guya, dövlət nümayişçilərin gigiyenası barədə qayğı göstərir, yaxud daha güclü səbəb - birdən xalqa soyuq dəyər. Xalqla respublika rəhbərliyi arasında dialoq aparılmasının zəruriliyi də yada düşdü. Əslində respublika rəhbərliyi qaçıb gizlənmişdi. Sonra özünü rejissor kimi təqdim edən bir nəfər ortalığa düşdü. O belə bir məzmunda təklif irəli sürdü: o, ordudan qorxmayan cəsur nümayişçiləri lentə çəkir, amma bir şərtlə ki, çəkilişdən sonra hamı evinə dağılışsm.

Vaxt dayanmadan komendant saatının qurtarmağına doğru gedirdi, generallar saata nəzər salırdılar: işıqlanırdı.



**1992-ci il fevral.** Xocalı faciəsinin qurbanları.

Gözlənilmədən qarşımızda duran əsgərlər çıxıb getdilər. Onların yerini dərhal uca boylu, əllərində hündür sipər və ağ dəyənəklər olan başqaları tutdu. Parıldayanadək silinmiş çəkmələr: elə bil hərbi parada hazırlaşmışdılar. Yandan müəmmalı bir hərbi maşın yaxınlaşdı, projektorun güclü işığı gözümüzə vurdu, bununla da eyni vaxtda nəfəs almaq çətinləşdi. İşıq şüalarında görünürdü ki, tüstü buraxılıb. Uşağı başının üzərinə qaldırmış kişinin qışqırtısı xatirimdə qalıb.

Generallar komanda verdilər ki, başlayın... Müqavimət göstərmək barədə söz də ola bilməzdi. Yalnız bir şey çək-





mələrin, dəyənəklərin və qundaqların zərbələrindən qaça-qaça «Azərbaycan», «Azərbaycan» deyə qışqırmaq mümkün olurdu.

**Həmin gecə tələfat oldumu?** Rəsmi məlumatlara görə, belə şey olmayıb. Mənə gəldikdə isə, qana batmış adamları, huşunu itirmiş bir qadını və iki qocanı gördüm. Biz onları qaldırıb özümüzlə apara bildik. Xüsusi təyinatlı qoşunlar adamları canlı dəhlizlə dəniz vağzalına tərəf qaçmağa məcbur edir və hələ öz aralarında zarafat etməyə də imkan tapırdılar. Qarşıda yolu hərbi maşınlar kəsmişdi və onların üstündə avtomatlarını bizə tuşlamış əsgərlər dayanmışdı. Biz hər tərəfdən mühasirəyə alındıq və dayandıq. Uşaqlar ağlayırdı, dostlarını adları ilə səsləyərək bir-birini axtarırdılar, qadınlar yaralıları sarıyırdılar. Əminəm ki, faciədən qaçmaq olardı, lakin demokratiya bizdə qonaq, ev sahibi isə dəyənək idi.»

## 20 YANVAR FACİƏSİ

Bir il sonra Bakıda xalq və hakimiyyət arasındakı qarşıdurma daha böyük amansızlıq və şiddətlə özünü göstərdi. İndi Vəzirova kömək üçün Azərbaycan paytaxtına Siyasi Büro üzvləri Girenko və Primakov, SSRİ DTK və DİN-in yüksək rütbəli xadimləri gəldilər. Əməliyyata şəxsən başçılıq etmiş Yazov, bu əməliyyata görə marşal rütbəsi aldı. 1990-cı il yanvarın 20-də DİN-in o vaxtkı başçısı Vadim Bakatin öz demokratizmini nümayiş etdirmək üçün iclasdan əvvəl qanun keşiyində duran respublika DİN rəhbərliyinin sırası önündən keçərək hər biri ilə əl uzadıb



**1990-cı il 20 yanvar.** Rus ordusu tərəfindən Bakıda qətlə yetirilmiş günahsız insanlar

görüşürdü. Yalnız bir polkovnik cəllada əl uzatmaqdan imtina etdi. «Siz tarixin məhkəməsindən qorxmursunuz?» - deyə o, öz nazirindən soruşdu. Tarix zad məni maraqlandırmır, - deyə Bakatin əsəbi cavab verdi, - əsas odur ki, ölkə rəhbərlərinə əmrin yerinə yetirildiyi barədə məlumat verim».

**1990-cı ilin yanvar iğtişaşları** başlayanda Ermənistan artıq aşkarca Dağlıq Qarabağ Muxtar Vilayətini idarə edirdi: 1989-cu il dekabrın 1-də Ermənistan Ali Soveti birtərəfli şəkildə bu vilayəti özünə birləşdirmək barədə qərar qəbul etdi və bununla suveren Azərbaycanm hüquqlarını tapdadı. 42 gün ərzində DQMV-nin bütün müəssisələri Ermənistan nazirlikləri və idarələrinin tərkibinə daxil edildi, bütün rayon partiya komitələri Ermənistan Kommunist





Partiyasının tərkibinə keçdi. Bu sonuncu isə Daşnaksütyun partiyası ilə əməkdaşlığı özü ilə eyni nizamnaməyə malik Azərbaycan Kommunist Partiyası ilə dostluqdan üstün tutdu. Bütün Azərbaycan bayraqları, gerbləri, yazıları, blankları məhv edildi. DQMV ərazisində Ermənistan bayrağı və gerbi qaldırıldı. DQMV-nin Ermənistana birləşməsi şərəfinə daha bir «Arsax»medalı peyda oldu.

## RUS HƏRBİ BİRLƏŞMƏLƏRİNİN QARABAĞDA TERROR AKTLARI

Hələ Volski dövründə hazırlanmış bütün ideoloji aksiyalar 1990-cı il yanvarın əvvəlində hərbi terror aktları ilə müşayiət olunurdu. Şuşaya su verən boru kəməri rus hərbçiləri tərəfindən partladıldı, azərbaycanlı kəndi Xocalıya gedən körpü partladıldı, yanvarın 7-də isə oraya gedən dəmir yolu xətti də partladıldı. Artıq DQMV-dən kənarda olan Laçın və Qubadlı rayonlarının azərbaycan kəndlərinə viranedici hücumlar, sərnişinləri azərbaycanlılar olan avtobuslara basqınlar davam edirdi. Ermənistandan DQMV-yə tikinti materialları ilə birlikdə «Yer-yer» tipli raketlər, partladıcılar və avtomatlar göndərilirdi.

## XALQLA HAKİMİYYƏT ARASINDA QARŞIDURMA

**Bakıda 1990-cı il yanvarın 8-də respublikanın partiya - təsərrüfat fəalları iclas keçirirdi,** burada AKP katibi H.Həsənov mərkəzi və şəxsən Vəzirovu kəskin tənqid atəşinə tutan çıxış etdi. Onun diktofona yazılmış çıxışı xalq cəbhəsinin qəzeti olan «Azadlıq»da dərc olundu. Həsənov



**1990-cı il 20 yanvar.** Rus ordusu tərəfindən Bakıda qətlə yetirilmiş günahsız insanlar

kifayət qədər açıqlıqla iclasda oturan Andrey Girenkonun başçılıq etdiyi Moskva rəhbərliyi qarşısında öz xalqının keçirdiyi «milli tənhalıq və milli qəriblik» hisslərini təhlil etdi. Elə onun çıxışı xalqla hakimiyyət arasında qarşıdurma olduğunu göstərdi.

**Həsənov çıxışını belə bitirdi:** *«Bizim xalq arasında deyildiyi kimi, biz ağzımızı yuma bilərik, qulaqlarımızı tıxaya bilərik, biz həqiqətə göz yuma bilərik, lakin öz Vətəninin bölünməzliyi barədə düşünməyi və fikirləşməyi Azərbaycan xalqına qadağan etməyə bizim gücümüz çatarmı?*

O vaxtkı MK katibi DQMV-də Volskinin başçılığı ilə xüsusi idarə formasınm tətbiq edilməsinə gülür və sübut edirdi ki, özünün də mənsub olduğu respublika hakimiyyəti Azərbaycanı idarə etmir. O zaman Ayaz Mütəllibovun



# QARABAĞ XIII-XIV ƏSRLƏRDƏ






**Bakı. 1988-ci il.** Erməni separatizminə qarşı mitinqlər.




Xocalı şəhərinin müdafiəçiləri. **1989**




Rus ordusu tərəfindən bağlanmış Ağdam-Şuşa yolu. **1989**



Qarabağdan didərgin düşmüş qaçqınlar. **1990**



Xocalı şəhərindən bir görünüş. **1989**



Xocalı hava limanı



**1991-ci il.** Laçın şəhərindən bir görünüş.



**Bakı. 1989-cu il.** Erməni separatizminə qarşı mitinqlər.



**1992-ci il.**Ağdərə şəhəri.



**1992-ci il sentyabr.** İşğaldan azad edilmiş Ağdərə şəhəri. Orta Güney kənd camaatı Ağdərənin Dəmirli kəndinə köç ərəfəsində.



Rus imperiyası tərəfindən işğal edilmiş Dəmir qapı Dərbənd şəhəri.



Azərbaycanın Rusiya tərəfindən işğal edilmiş Dəmir Qapı Dərbənd şəhəri



**Füzuli. 1992-ci il.** Dağıdılmış kəndlər.



**1991-ci il.** Azəri türkləri doğma yurdun keşiyində. IV tab. III bölük. Taqım komandiri leytenant Fikrət Əhmədov



**13 aprel 1994.** Erməni terrorçuları tərəfindən partladılmış Bakı-Moskva qatarı.



**"Sarı Qaya" postu.** Leytenant Hafiz Musayev və leytenant Qabil Xıdırov



**1992.** Ermənilər tərəfindən işğal edilmiş Şuşa şəhəri



**1992.** Ermənilər tərəfindən işğal edilmiş Ağdərə şəhəri



**19 mart 1994.** Bakı metropolitenində törədilmiş terror.



**Zəngilan.** Erməni terrorçuları tərəfindən partlladılmış körpü.



İşğal edilmiş Əsgəran qalası



Füzulinin işqal edilmiş kəndləri. **Horadiz**



Xocalı faciəsinin qurbanları.



Xocalı faciəsinin qurbanları.



Xocalı faciəsinin qurbanları.



Xocalı faciəsinin qurbanları.



**Ağdam.** 1992-ci il. Dağıdılmış ticarət mərkəzi.



**Füzuli. 1992-ci il.** Dağıdılmış kəndlər.



**28.01.1994 Füzuli.** Uğurlu döyüşdən sonra.
**Şəkildə:** *Azərbaycan Bayrağı ordenli qəhrəman Şahid Həbibullayev.*



**07.01.1994. "Bəytəpə".** Uğurlu döyüşdən sonra. VI alayın qəhrəman döyüşçüləri. **Şəkildə:** *(soldan ayaq üstə duranlardan birinci) Azərbaycan Bayrağı ordenli qəhrəman Şahid Həbibullayev.*



başçılıq etdiyi Nazirlər Sovetinin bu məsələyə münasibətini natiq «etinasızlıq» adlandırırdı.

**Həsənov deyirdi**: *«Mən indiyədək bilmirəm ki, DQMV-də xüsusi idarəetmə formasının tətbiq olunması və mərkəzə tabe olan Komitənin yaradılmasının təşəbbüskarı konkret olaraq kimdir? Komitənin tərkibinə mövqeləri açıq-aşkar və gizlədilmədən DQMV-ni Azərbaycanın tərkibindən çıxarmaq olan adamları kim təklif edib? Bu kimin variantıdır ki, DQMV Azərbaycanın tərkibindən çıxarılsın, amma kompromis xatirinə Ermənistana yox, mərkəzə, yaxud istənilən başqa respublikaya verilsin? Bu gülünc kompromis dünya ictimaiyyətində belə bir fikir yaradıb ki, guya bü sadəlövh Azərbaycan xalqı prinsipcə*

**1990-cı il 20 yanvar.** Rus ordusu tərəfindən Bakıda qətlə yetirilmiş günahsız insanlar





**28.01.1994 Füzuli.** Uğurlu döyüşdən sonra.
**Şəkildə:** *Azərbaycan Bayrağı ordenli qəhrəman Şahid Həbibullayev.*



**07.01.1994. "Bəytəpə".** Uğurlu döyüşdən sonra. VI alayın qəhrəman döyüşçüləri. **Şəkildə:** *(soldan ayaq üstə duranlardan birinci) Azərbaycan Bayrağı ordenli qəhrəman Şahid Həbibullayev.*



başçılıq etdiyi Nazirlər Sovetinin bu məsələyə münasibətini natiq «etinasızlıq» adlandırırdı.

**Həsənov deyirdi**: *«Mən indiyədək bilmirəm ki, DQMV-də xüsusi idarəetmə formasının tətbiq olunması və mərkəzə tabe olan Komitənin yaradılmasının təşəbbüskarı konkret olaraq kimdir? Komitənin tərkibinə mövqeləri açıq-aşkar və gizlədilmədən DQMV-ni Azərbaycanın tərkibindən çıxarmaq olan adamları kim təklif edib? Bu kimin variantıdır ki, DQMV Azərbaycanın tərkibindən çıxarılsın, amma kompromis xatirinə Ermənistana yox, mərkəzə, yaxud istənilən başqa respublikaya verilsin? Bu gülünc kompromis dünya ictimaiyyətində belə bir fikir yaradıb ki, guya bü sadəlövh Azərbaycan xalqı prinsipcə*

**1990-cı il 20 yanvar.**
Rus ordusu tərəfindən Bakıda qətlə yetirilmiş günahsız insanlar



*DQMV-ni verməyin əleyhinə deyil, amma bir şərtlə: təki Ermənistana verilməsin, başqa kimə olsa olar».*

Arkadi Volski Komitəsi Ermənistanla Azərbaycan arasındakı qarşılıqlı münasibəti kiçicik bir nifaq halından tam qırılmağa gətirib çıxardı, DQMV-də azərbaycanlıların hüquqlarının bir qədər məhdudlaşdırılmış olduğu vəziyyət onların tam diskriminasiyasına keçdi.

Bakıda keçirilən mitinqlərdə isə DQMV-də xüsusi idarəetmə forması «bizim iradəmiz əleyhinə və MK Bürosunda müzakirə olunmadan» tətbiq edilib, deyirdilər.

**«Xalq Ermənistanın bizim Vətənimizə etdiyi görünməmiş ərazi iddialarına etiraz əlaməti olaraq tətil edir və məsələni ədalətli həll etmək əvəzinə bizə güclə təlqin edirlər ki, bu, Ermənistanın iqtisadi blokadasıdır. Soruşun bizim adamlardan - tətil etməklə hansı məqsəd güdürlər? Bir onlara baxın, kimdir bu adamlar? Əksər halda onlar adambaşına ailəsinin gəliri kasıbçılıq həddindən aşağı olan adamlardı. Bizim işə başlamaq haqqında çağırışlarımıza cavab verirlər ki, namusu və ləyaqəti itirib doğma torpağı əldən verməkdənsə, onlar özlərini və balalarını acından öldürməyi üstün tuturlar».**

## FACİƏLƏR, BƏLALAR, TALANLAR, BASQINLAR...

Əsas kəlmə olan «suverenlik» sözü isə Azərbaycan partiya fəallarının yığıncağında deyilmədi, o, rəhbər xadimlərin boğazında ilişib qaldı. Qərara alındı ki, qoy Moskva respublikaya nəhayət ixtiyar versin ki, onun sakinlərinin yaratdığı milli gəlirdən özü tam istifadə etsin, neftinin və pambığının ixtiyarı özündə olsun, xalq arasında « saqqallılar»





adlandırılan və davam edən gərginliyin başlıca səbəbkarı olan, DQMV-də qanunsuz yaşayan boyevikləri oradan deportasiya etsin. MK katibinin biri məhz «davam edən gərginlik» söz birləşməsini işlətdi, halbuki, onu bir sözlə - «müharibə» sözü ilə əvəz etmək daha düzgün və daha dəqiq olardı. Faciələr və bəlalar - talanlar, basqınlar, ölümlər, güllə səsləri, mərmi partlayışları, insanın ürəyini üzür.

### LAÇIN-ŞUŞA YOLUNDA FACİƏ

**Düz bir il sonra, elə həmin gün 1991-ci il yanvarın 8-də Laçın-Şuşa yolunda** «Molodyoj Azerbaydjana» qəzetinin müxbiri Salatın Əsgərova və onunla birlikdə üç hərbçi - batalyon komandiri podpolkovnik O.Larionov, Laçın hərbi komendantlığının qərərgah rəisi mayor İ.İvanov və serjant İ.Qoyek həlak oldular. Əslən Tayşetdən olan Oleq Larionov Sibirdəndi, beş ildən çox idi ki, batalyona komandirlik edirdi. 1990-cı ilin yazında batalyon erməni boyeviklərinin Qazax rayonundakı Bağanis-Ayrım kəndində hücumlarının qarşısında dayanmışdı.Larionovun başı üçün 10 min rubl mükafat vəd edilmişdi.

Onlar xidməti işlərlə bağlı səhər tezdən Laçından Stepanakertə yola düşmüş, Salatın Əsgərovanı özlərinə yol yoldaşı götürmüş və avtomobil yolunun elə beşinci kilometrindəcə pusquya rast gəlmişlər. Avtomatlardan və snayper tüfəngindən onlara iki istiqamətdə demək olar ki, birbaşa atəş açılmışdı: hərəkət istiqamətində və arxadan, maşının sol tərəfindən. Maşında güllələrin açdığı 113 deşik saydılar: düşmən atəşinin intensivliyi belə olmuşdu. Üç nəfər o dəqiqə həlak oldu: sürücü İ.Qoyek, onunla yanaşı oturmuş

mayor İ.İvanov, həmçinin jurnalist S.Əsgərova. Yaralı kombat Larionov idarə oluna bilməyən maşından sıçrayıb düşə bilmiş və müdafiə mövqeyi tutmuşdur: həlak olmuş zabitin iki güllə darağında cəmisi on gülləsi qalmışdı.

Əgər Laçın qaytarılsa, oradakı küçələrdən biri mütləq Oleq Mixayloviç Larionovun adını daşımalıdır.

Özünün Stepanakertdən hazırladığı son reportajlardan birində Salatın Əsgərova məhz hərbi formalı adamlara çoxlu sətir həsr etmişdi, o, görürdü ki, burada demək olar ki, hər döngədə onları təhlükə gözləyir.

**Salatın yazırdı:** «Bu sətirləri yazmaq çətin olur, ona görə çətin olur ki, mən özümü onların - taleyin hökmü ilə Qarabağ torpağına atılmış cavanların qarşısında günahkar sayıram. Erməni boyevikləri hərbi formada olan hər əsgərin başına üç min rubl, zabitin başına isə on min rubl qiymət qoyub». Altı yaşlı oğlu yetim qalmış gənc jurnalist qadın öz həyatında hər şeydən çox istəyirdi ki, onun rastlaşdığı hər bir gənc sağ və salamat evinə, öz ailəsinə, öz sevgilisinin yanına qayıtsın. Calatın dua oxuyurmuş kimi təkrar edirdi: «Allah, qoy onların hamısı sağ qalsın! Qoy onlar boyeviklərin gülləsinə tuş gəlməsinlər! Qoy analar lənətə gəlmiş müharibənin qara kağızını almasınlar!» Lənətə gəlmiş və mənasız müharibənin...

«Hələ ki, əli avtomatlı rus oğlanları Qarabağın tozlu yolları ilə gəzəcək və bir xalqı o birindən mühafizə edəcək. Hələ ki, ermənilər - kirvələr, qohumlar divar dalından bizi izləyəcək və zərbəni birinci endirməyə çalışacaqlar - deyə jurnalist ölümqabağı sətirlərini yazırdı. Hələ ki, anası erməni, atası azərbaycanlı olan balaca qız gizlincə təşkilat komitəsinin üzvü azərbaycanlıya yaxınlaşacaq və pıçıltı ilə deyəcəkdir: *«Dayı sən mənim atama çox oxşayırsan. Mən səninlə bir yerdə durmaq istəyirəm, atamla durduğum kimi. amma mənim anama demə ki, atam üçün darıxıram, yoxsa o məni cəzalandırar».* Salatını qoruya bilmədilər, halbuki xəbərdar etmişdilər: diqqətli olun, atışma başlasa maşının içinə uzanın. Qatillər basqın edəcəklərini əvvəlcədən bildirmirlər: 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda belə oldu, bir il sonra Laçın-Şuşa dağ yolunun beşinci kilometrində də belə oldu. Sonra 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni ordusu rus qoşunlarının 366-cı qvardiya motoatıcı alayının köməyi ilə Azərbaycan şəhəri Xocalını məhv edəndə də belə olacaqdır. Şəhərin sakinlərini piyadaların döyüş maşınları və zirehli transportyorlarla əzirdilər: iki il əvvəl 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə onlar artıq təcrübə toplamışdılar.

Xocalıdakı qanlı qırğın Qorbaçov, Yazov və Bakatinin «tank demokratiyasının» köməyi ilə Vəzirovu əvəz etmiş Ayaz Mütəllibovun hakimiyyətdən getməsini sürətləndirdi. O vaxt elə görünürdü ki, respublika rəhbərliyi (Həsən Həsənov Azərbaycan Nazirlər sovetinin sədri vəzifəsini tutmuşdu) xalqın tökdüyü qandan ayılacaq, özünə gələcək və...

Xocalıda körpələrin, qadınların və qocaların qanlı qırğınınadək keçən iki il ərzində Dağlıq Qarabağ torpaqlarının çox hissəsinin işğalı (ümid edək ki, müvəqqəti) başa çatdı. İki il ərzində formal olaraq suveren olan respublikanın ali rəhbərliyi ondan asılı olan hər şeyi etdi ki,



ERMƏNİ TERRORU

Azərbaycan xalqını diz çökdürsün, adamları çarəsizlik və ruhi depressiya vəziyyətinə çatdırsın. Hakimiyyət Azərbaycanın, Rusiyanın və Qazaxıstanın dövlət və hərbi xadimlərinin uçduğu vertolyotun həyasızcasına məhv edilməsini də Starovoytovanın, Yeltsinin və Ter-Petrosyanın əmri ilə unutdura bildilər. Parlament müzakirələrində artıq suveren respublikanın prezidenti olmuş Mütəllibov özünün yalançı sülhsevərliyini nümayiş etdirərək parlament üzvlərini və xalqa soyuqqanlılığı itirməməyə, intiqamdan imtina etməyə çağırırdı, yoxsa bu, müharibənin başlanmasına gətirib çıxarar,, guya müharibə o vaxtadək artıq üç il idi ki, getmirdi.

Azərbaycan prezidentinin mətbuat xidmətinə başçılıq edən Rasim Ağayev artıq Mütəllibovun istefasından sonrakı müsahibələrinin birində etiraf etdi ki, respublika rəhbərliyi həmişə mərkəzin, sonra Rusiyanın, MDB-dən olan başqa partnyorların iltifatına ümid bağlayırdı. Ordunun yaradılması yalnız elan olunurdu.Azərbaycan kütləvi informasiya vasitələrinin bir neçə gün ərzində təkcə dünya ictimaiyyətindən deyil, həm də öz xalqından da gizlətməyə çalışdığı Xocalı qırğını eks prezidentin azərbaycanlıların vuruşmağı bacarmadığı haqda hamını təngə gətirmiş oxşamalarının və vəziyyətdən sülh yolu ilə necə çıxmağın ona bəlli olduğu barədə ehyamlarının nəqarəti altında baş verdi.

Rasim Ağayev etiraf edirdi ki, Mütəllibovun istefası tələbi başa düşüləndir. Prezidentin respublikanın təhlükəsizliyini təmin edə bilməməsindən xalq qəzəblənmişdi. Buna baxmayaraq dövlət çevrilişi barədə söhbətləri jurnalist





əsassız saymır: istefa parlamentin mühasirəsi və ardı-arası kəsilməyən hədə-qorxu və ultimatumlar şəraitində baş vermişdi.

Bu çirkin müharibənin hadisələrini izləyən hamı təkcə Xocalı faciəsindən deyil, həm də «Pro Armenia» agentliyinin növbəti utanmaz yalanından dəhşətə gəldi. Erməni agentliyi **fransız jurnalisti Florens Davidə istinad edərək iddia edirdi ki,** Xocalıdakı qırğını azərbaycanlılar özləri təşkil etmişlər. Erməni silahlı dəstələri isə şəhəri üç tərəfdən mühasirəyə almış və əhalidən hörmətlə xahiş etmişlər ki, əvvəlcədən saxladıqları dəhlizlə çıxıb getsinlər. İctimai rəy bu cür yalan üsulları ilə razılaşmışdır: cəmisi üç ay əvvəl güllələnmiş MI-8 vertolyotu ya ağaca, ya da dağa dəyib qəzaya uğramış, Azərbaycan hökumətinin Moskvaya verdiyi «qara qutu isə» yanmış elan edilmişdi. Lakin, bu dəfə qəzəblənmiş fransız jurnalisti ermənipərəst yalanı təkziblə çıxış etdi.

**«Komsomolskaya pravda» yazırdı:** «Çoxdan sirr deyil ki, siyasət çirkabdır. Lakin hələ torpağı qurumamış qəbirləri təhqir etməyə heç kimin - nə siyasətçilərin, nə də jurnalistlərin ixtiyarı yoxdur. Hətta bu,»vəhşilərin» qəbirləri olsa da. Hörmətli həftəliyin xocalıların öldürülməsinin azərbaycanlıların öz işi olmasına doğrudan inanması belə, onlara «Xocalı faciəsini» dırnaqda verməklə həlak olanları təhqir etmək hüququ vermir.

Deyirlər ölənlərin ayıbı olmur. Bəs dirilərin? Ayaz Mütəllibovu 1990-cı ilin yanvarında Mərkəzi televiziyaya müsahibəsindən sonra olduğu kimi ikinci dəfə öz xalqı ba-

rədə yalan danışması üstündə rüsvay edən bu sualdan sonra Boris Yeltsinin həmin yanvar günlərindəki mövqeyini yada salmaya bilmirəm. O vaxt o, Yaponiyada səfərdə idi və deyildiyinə görə Konstitusiyaya zidd olaraq qoşunların Bakıya yeridilməsi ilə əlaqədar Qorbaçova etiraz teleqramı vurmuşdu. Bakıda operativ nəşr olunmuş «Qara yanvar» kitabı ilə tanışlıqdan sonra ittifaq parlamentinin deputatı, SSRİ Ali Soveti rəyasət heyətinin üzvü Boris Yeltsin o zaman bu oçerkin müəllifinə belə dedi:

«Yaxın qurultayda biz marşal Yazovun istefasına nail olacağıq və Bakıda tökülən günahsız qan üçün onun mühakimə olunmasını tələb edəcəyik».

Lakin, bu sözlər də sonradan deyilən bir çox başqa sözlər kimi Rusiyanın demokratik qüvvələrinin mitinqlərdə Yelena Bonnerlə birgə çıxış edən liderinin küləyə sovurduğu sözlərdən oldu, iki il sonra isə yenə də tələm-tələsik MDB-nin qapılarını qeyri-slavyan dövlətlərin üzünə bağlamaq istədi.

Bir də ki, çoxmillətli Rusiyanın xalq prezidenti olsa da, yaxın məsləhətçiləri sırasında dövlət siyasətini müəyyən edən Q.Starovoytovadırsa, ondan başqa nə gözləmək olar?! Axı əgər Dağlıq Qarabağ girdabı bütün ölkədə millətlərarası qanlı konfliktlər zənciri yaradırsa, onda Ermənistanın Azərbaycana qarşı müharibəsi bizim gözümüz qarşısında mütləq başqa regionlarda da silahlı toqquşmalara gətirib çıxaracaqdır və onun ardınca Rusiya ərazisində də vətəndaş müharibəsi başlaya bilər.

Demokratiya və azadlıq doğrudanmı bu qədər qurban tələb edir?!





# «DAŞNAKSÜTYUN»UN ETNİK TƏMİZLƏMƏ PLANLARI

**«Daşnaksütyun» Komitəsinin ən mühüm şüarı, hər hansı xarici şəraitdən asılı olmayaraq, türkləri güllələməkdən və məhv etməkdən ibarətdir»**. 1892-ci ildə keçirilən I qurultayda daşnaklar «silahlı birləşmələrin təlimi və hazırlığı, inqilabi komitələr yaradılması, hökumət məmurlarına qarşı terrordan istifadə edilməsi...» strategiyasını işləyib bəyəndilər. Rusiyanın arxiv sənədlərinə görə, 1892-ci il qurultayının nümayəndələri «ermənilərin silahlandırılması və hökumət məmurlarının və idarələrinin müflisləşdirilməsi haqqında» müddəalar qəbul etmişlər. Partiyanın Nizamnaməsindəki protokol diqqəti özünə çəkir:

**Yüksək konspirasiya tətbiq edilmişdir; bəzi protokollar Qərb bürosunun arxivinə verilmişdir. Beləliklə, ən mühüm sənədələr öz təşkilatının hətta ali orqanlarından da gizlədilmişdir:**

1. Necə hərəkət etməli (taktika);
2. Quruluş;
3. İntizam;
4. Qismən terror.

Yunanlarla, makedoniyalılarla, gənc türklərlə və başqaları ilə yerli ittifaqa girmək və onları öz rəhbərliyi altına almaq vəzifəsi irəli sürülmüşdü **(özü də, onlara sezdirmədən, öz taktikasının məxfiliyi sayəsində)...**

Partiya müvəffəqiyyətlə işləyir və genişlənir, özünün bütün enerjisini Türkiyəyə qarşı yönəldirdi. Rusiyaya gəldikdə isə o,



**1992-ci il mart.** Ağdərənin Azərbaycan kəndlərində diri-diri yandırılmış azərbaycanlılar. Bu insanların qisasını kim alacaqdır?!

açıq çıxışlar etmirdi, əhalini ələ almaqla, onu təşkilatlandırmaqla kifayətlənirdi». Qurultayda tarixdə ilk «fədailər hərəkəti»nin - erməni kamikadzelərinin olduğu rəsmən açıqlandı. «Fədailər» cəfəng-patoloji bir ideyanın - dənizdən dənizə «böyük Ermənistan» ideyasının həyata keçirilməsi naminə günahsız insanları müntəzəm surətdə məhv etməyə başlayaraq xüsusi ad çıxardılar. Özü də elə bir halda ki, «Daşnaksutyun» erməni təşkilatı yarandıqdan hətta dörd il sonra Amerikanın «Boston Herald» qəzeti 1894-cü il fevralın 15-də xüsusi nəzərə çarpdırmışdı:

**«Ermənilərin böyük əksəriyyəti oxumağı və yazmağı bacarmır və əgər Ermənistan yalnız ermənilərin məskunlaşdığı hətta ayrıca bir ölkə olsa belə, onlar özünüidarəyə çətin ki**





**hazır olsunlar».** Buna baxmayaraq, «Daşnaksutyun» təşkilatının ideoloqları «etnik təmiz zonalar» ssenarisinin hazırlanması və hətta həyata keçirilməsi üzərində işi davam etdirirdilər. Elə zonalar ki, orada ermənilərdən savayı, heç bir digər millətə və etnik qrupa yer ola bilməzdi.

Erməni irqçiliyi ideyaları öz inkişafını daşnakların 1919-cu ildə Yerevanda keçirilən IX Ümumdünya konqresində tapdı. Məhz bu yığnaqda «Nemeses» terror qrupuna əvvələr öz ölkəsinin hökumətində aparıcı vəzifələrdə işləmiş bütün mühacir türkləri məhv etmək tapşırıldı. Antitürk kompaniyasına erməni mənşəli amerikan Saxan Natali başçılıq edirdi. Bununla da, sərhədlərsiz terrorun bünövrəsi qoyuldu: sonralar təkcə türklər deyil, dünyanın bütün ölkələrinin ən müxtəlif millətlərinin nümayəndələri də bu terror təşkilatının qurbanları oldular.

Beləliklə, bu üzdəniraq «partiya»nın təşəkkül tarixi və fəaliyyəti göstərir ki, terrorun, mülkiyyətdən, əmlakdan məhrumetmə, kütləvi qətlamların təşkili və həyata keçirilməsi «Daşnaksutyun»un siyasi mübarizəsinin əsas metodu olmuşdur və olaraq qalır. O öz proqram müddəalarının gerçəkləşdirilməsinə nail olmaq üçün planlı surətdə yaradılmış və bütün dünyada fəaliyyət göstərən erməni terror təşkilatları şəbəkəsindən fəal istifadə edir. Həmin təşkilatın yaradılması tarixi, onun proqramı və gələcək cinayətkar fəaliyyət praktikası «Daşnaksutyun»u beynəlxalq erməni terror təşkilatı hesab etməyə metedoloji əsaslar verir.

# ERMƏNİLƏRİN QARABAĞDA İLK MƏĞLUBİYYƏTLƏRİ

## CƏBRAYIL-QARYAGİN HADİSƏLƏRİ

**1905-ci ilin iyun.**

Mənim «İrşad» qəzeti vasitəsi ilə yazıb erməni-müsəlman hadisələrinə dair məlumat istədiyimdən sonra Mirzə Camal Yusifzadənin göndərdiyi jurnaldan və bir para məxsusi məktublardan iqtibas olunub redaktə edildikdən sonra dərc edilmişdir.

Mülahizə yaxud düşüncələrim. Oxucuların məlumatı olsun ki, hər tərəfdən mənim əlimə gəlib çatmış məlumatların bir çoxunda ermənilərin istiqlaliyyəti-idarə muxtariyyəti tələblərindən uzun-uzadıya bəhs açılır.

Bu Cəbrayıl hadisələrinə gəldikdə, bu qarışıq söhbətləri büsbütün sübuta yetirib bir çox dəqiq məlumatlar verməkdə oxucuları bir sıra şübhəli fikirlərdən azad edir.

Mənə qalırsa, ermənilərin bu hərəkətlərinə və imkan xaricində olan istəklərinə boş bir xəyal, xeyri olmayan bir fikirdən başqa bir söz deməyəcəyəm. Zira, erməni milləti bir para mövqedə var qüvvəsini islamlara vurub, çox da çalışdılar, çalışıb məğlub oldular. Bunu da nəzərə almalıyıq ki, islamlarda nə hərbi qüvvə, nə odlu silah, nə də müharibə və nizam görmüş əsgər var idi. Digər tərəfdən hökumət məmurlarının bəzi məsələlərdə onlara etdikləri köməyini bir kənarda qoyub da, özlərinin 20 ildə yığdıqları tədarüklərini nəzər-diqqətə aldıqda ermənilərdə böyük yara-





mazlıq meydana çıxır. Belə işlərə qoşulmuş ermənilərin Rusiya, Türkiyə əleyhinə baş qaldırmaları bir uşaq fikridir, zənnindəyəm.

**Məqsədin ərzi.** 1905-ci ilin iyun ayının 13-də 2 nəfər müsəlləh erməni daşnaksütyun əsgəri Qacar kəndinin sakini Əhməd **Kərbəlayi Qasım oğlunun evinə gəlib bu sözləri söyləmişlər:**

*«Biz iki nəfər Daşnaksütyun firqəsindən olub iki möhtərəm şəxsin aşağıda yazılmış» sözlərini siz müsəlman camaatına çatdırmaq üçün gəlmişik. Daşnaksütyun firqəsinin səlahiyyətli adamları sizi iyun ayının 16-da məşhur Ağ oğlan monastırına dəvət edirlər. Əlbəttə, adları aşağıda qeyd edilmiş kəndlərə xəbər verilib. Deyilən vaxtda hamınız ora gəlsəniz lazımı sözlər vardır, sizə söyləyəcəklər.* ***Həmin kəndlər:*** *Divanəli, Yağlıvənd, Dilağarda, Veysəlli kəndlərindən ibarətdir».*

İyun ayının 16-da həmin kəndlərin camaatı əksəriyyətlə monastıra yığılıb ermənilərin iştirakı ilə bir mitinq keçirdilər.

**Yığıncağın təsviri.** Erməni və müsəlmanların iştirakı ilə «Ağ oğlan» monastırında yığıncaq edilir. Yığıncaq monastırın həyətində olub, bir çox stollar, stullar düzülmüşdü. Fəqət yığıncağın mərkəzində üç bəzəkli kürsü qoyulduğundan qabaqca adları qeyd edilmiş erməni başçılarının kürsüsü olduğu meydana çıxırdı. Bir azdan sonra möhtərəm şəxslər yığıncağa daxil olub mərkəzdə qərar tutdular. Bundan iki dəqiqə sonra, yəni rəsmi tədqiqat qurtaran kimi yığıncağa Baxşı adlı bir erməni daxil olub aşağıda yazılmış sözlərini sona yetirməmiş ermənilər onun susmasına işarə etdilər: **«Camaat! Sizin mahalınıza, kəndlərinizə üç nəfər möhtərəm şəxs qonaq gəlmişdir. Mən isə Çartazlı Baxşı adlı bir nəfərəm ki, əsl adım - ismim Aşotdur. Bu möhtərəm**

**şəxslərə katibbaşı və mütərcim xidmətini ifa edirəm. Bu orta kürsü də əyləşən çox hörmətli bir vücuddur ki...» Söz bura yetişəndə ermənilər qışqırıb salıb, «sus, sus» deməklə onu susdurdular. Sonra sağ tərəfdəki kürsü də əyiəşmiş möhtərəm şəxs çox vüqarlı və əzəmətlə qalxıb bu nitqi söylədi.**

**NİTQİN MƏTNİ:** «Camaat! Biz erməni-müsəlman və bütün qafqazlılara lazımdır ki, hər bir mətləbə bir məsəl gətirib tainki bu tövrlə camaatımıza bir söz başa salaq. Zira, bizdə, xüsusən siz müsəlmanlarda əsla elm-mərifət (!) nuru yoxdur. Əlbəttə, insanda elm-mərifət nuru olsa, bu nur ilə sözün əsl mənasını, yəni nədən ibarət olacağımı anlar. Buna görə, məsələsiz mətləb bizə iş vermiyor. Mən bu sözümü istisnasız olaraq erməni və müsəlmanlara deyirəm. İndi bilirsiniz ki, biz qafqazlılar rus millətinin qapazları və zülm-sitəm boyunduruğunun altında yaşayıb, kefləri istədiyi qədər əllərindən və dillərindən gələni bizlərə edirlər. Bizlərə çox zülm və insafsızlıq etmişlər. Bizlərin insan hüququnu payimal və istibdad təpikləri altına alaraq, bizim həqiqi və məxsusi həyatımızı əlimizdən çıxarmışlar!

Biz erməni milləti neçə vaxtdan bəri milli hüququmuzu və idarə istiqlaliyyətimizi tələb etmək təmənnasındayıq. Nəhayət, bizim düşmənimiz olan Rusiya səltənəti böyük cüssəli bir fil mənziləsindədir. Bizlər və sizlər, daha doğrusu rus olmayan başqa xalqlar aciz olub həmişə zalım hökumətin, o filin qorxusundan küncə qısılıb, ac-yalavac sızıldamaqda idik. Amma, Allah-taalaya minlərcə şükr olsun ki, bizdən də aciz olan Yaponiya milçəkləri bu zalım filə o qədər zərbə vurdu ki, bizim arzumuzun sonuna yetişdi. Həmin milçək zalım fili o qədər o yan bu yana qovaladı ki, axırda arxası üstə dərin bir xəndəyə-kanala yıxıldı. İndi haydı qardaşlar, gəlin əl-ələ verək, həmin filin ətini parça-parça edib məhv eləyək.

Bəlkə bu filin ətini-qanını məhv etməklə uzun illərdən bəri qəflət və əsarət içində yaşamış millətlərin də üzünə ədalət nuru düşə və səla-







**Azəri türkləri Qarabağ kəndlərinin müdafiəsində**

mətlik görə, haydı, qardaşlar, haydı!». - deyib sözünü qurtardı. Sonra sol tərəfdə oturan möhtərəm şəxs təntənə ilə ayağa qalxıb bu nitqi söylədi:

**2-Cİ NİTQİN MƏTNİ:** «Camaat! Biz erməni milləti çoxdan bəri bu xəyalda idik ki, Qafqazda bir qazan, yəni xörək bişirək, qab asıb onun içində ədalət, müsavat xörəklərini bişirib sizi və bir neçə tayfaları da bu xörəyə şərik edək. İndi, həmin qazan hazırdır və onu qoymağa bir sepayə - üçayaqlı lazımdır ki, onun üstündə qazan dursun.

Həmin sepayenin birisi ermənilər, birisi də gürcülərdir. İndi lazımdır üçayaqlının, yəni sacayağının bir qıçı da siz müsəlmanlar olasınız. Əlbəttə, lazımdır müsəlman qardaşlarımız bizim sözümüzə baxıb sacayağının üçüncü ayağı olsunlar. Biz bu barədə müsəlmanlara ümidvarıq» - deyib sözünü tamam etdi. Sonra orta stulda təmkinlə oturan üçüncü şəxs əzəmətlə ayağa qalxdı, bu nitqi söyləyib, dəfələrlə camaatı sorğu-suala tutub fikrini öyrəndi.

**3-CÜ NİTQİN MƏTNİ:** «Ey minillərlə mehriban qonşuluq edən nəcib müsəlmanlar! Aya, eşidibsiniz neçə vaxt bundan əvvəl Üç kilsə - Eçmiədzində nə qədər hərbi sursatımız hökumət tərəfindən ələ keçirildi?!» «Müsəlmanlardan: «Bəli! Bəli!» «Aya eşidibsiniz Şuşada bizim nə qədər odlu silahımız qəbristanda və sair yerlərdə tutuldu?!» Müsəlmanlardan: «Bəli! Bəli» Bəs bu sözlərdən məlum olur ki, bizlər bu gərəkli şeyləri tədarük etmişik, nəki özümüzə, bəlkə sizlərə də kifayət verən qədərdədir. Əgər, sizlərdə hikmət və qeyrət olsa, nə qədər silah və pul lazım olsa bizdə hazırdır. Yüz əziyyətlə cəm etdiyimiz sursatı, hərbi ləvazimatı sizlə bərabər məsrəf edərik. Yoxsa ki, əksinə həmin hərbi silahlar sizə qarşı işlənib bəlaların hamısı sizə toxunacaqdır. Əlbəttə, deyilən işlərə sizdən yardım olmasa, bəla ildırımları sizi odlayıb əziz vətəninizi xarabalığa döndərəcəkdir. Doğma evləriniz də məzarlığa çevriləcəkdir. Bu məzarıstanın da qəmli guşələrin dəfn olunan siz və övladlarınız olacaqlar» - deyib əyləşdi. Bundan sonra islamlar tərəfindən etiraz edilib məclis sona yetdi.

**Ermənilərin nitqinə islamların etirazı.** Erməni millətçiləri nitqlərini qurtarandan sonra müsəlmanlara hədələyici sözlər də söylədilər. Buna görə belə rəva görülməyən fikirlər müsəlmanların könlünə yatmayıb etiraz əlaməti olaraq adları aşağıda deyilən Qacar kəndinin sakinləri ayağa qalxdılar və ən əvvəl Qasımzadə Molla Əbdürrəhim, Tapdıq Talıbxanov bu sözləri dedilər:

«Biz müsəlmanları siz ermənilər yaxşı tanımayıbsınız! Bizim heç vaxt belə hədələrdən qorxumuz yoxdur. Əlbəttə, biz müsəlman milləti sizin əsgərləriniz deyilik! Bizim sizin azuqə və silahlarınıza ehtiyacımız yoxdur. Zira bizim hərəkət xəyalımız olsa, azuqə əskik deyil. **BİZ YATMIŞIQ Kİ, BİZƏ AZUQƏ VERİB PADŞAHIMIZIN ÜZÜNƏ AĞ EDƏSİNİZ?! BİZİM TƏRİQƏTİMİZ HƏR HALDA, BU İŞLƏRİN ƏKSİNİ TÖVSİYƏ EDİR».** - deyib, sözlərini bitirdilər. Bu halda bütün müsəlmanlar qalxıb «biz bu işlərə şərik deyilik», - deməklə monastırdan çıxmaq istəyirlər...





Bu halda erməni rəislərinin birisi ayağa durub, -»Müsəlmanlar, dayanınız! Dayanınız! Bir sözüm də var, deyib qurtarım, sonra gediniz». Müsəlmanlar dayandılar.

**Erməni söylədi:** «Bilin və xəbərdar olun! Biz üç nəfər erməni rəisindən başqa yenə komitə məmurları vardır ki, bu sözləri sizə sifariş etmişlər. Hərgah yığıncaqda danışılan sözləri müsəlmanlar qəbul etməsə, daşnaksütyunun cəza qoşunu tərəfindən artıq təhlükələrə tuş olmalıdırlar. Müsəlmanlardan eyib etməz, eyb etməz!» - sədası ucalmaqla məclis dağıldı.

**İĞTİŞAŞ XƏBƏRLƏRİ.** Yuxarıda qeyd edilmiş yığıncaqdan sonra erməni millətçilərinin söylədiyi bəla ildırımları Şuşa üstünə düşdü. Məlum olduğu kimi, ermənilər bir zərbə müsəlmanlara vurduqda iki zərbə də özləri yedi. Belə ki, həmin kənddə ermənilərin darmadağın olmağına az qalmışdı. Keçici xəstəlik hər tərəfə siraət edib bir çox evləri xaraba qoydu. Bu iğtişaş axırda Cəbrayıl uyezdinə də siraət edib, var-dövlətlə məşhur olan 25 evdən ibarət Divanəli kəndi ermənilərin hücumuna qarban oldu. Ermənilər Divanəli kəndinə hücum etdikdə müsəlmanlarda mətanət olmadığından ailələrini götürüb, əşyalarını qoyub qaçdılar. Ermənilər isə tez-tələsik qarətdən sonra kəndi oda tutdular. Qiymətli dam-daşları söküb ağaclarını Süst adlı erməni kəndinə daşıdılar. İndiyə qədər həmin kəndin əhalisi çıl-çılpaq olaraq dilənçi kimi düzləri dolanmaqdadırlar. Vəhşilər müsəlman bağlarının ağacların da doğrayıb ermənilərə verdilər. Bu növ ilə



1992-ci il. İşğal edilmiş Ağdərə şəhəri.

həmin kənddə müsəlmanların sakin olması üçün bir məişət yeri qoymayıb, kəndi dağıtmaq üçün bir çox tədbirlər gördülər.

**VEYSƏLLİ KƏNDİNİN FACİƏSİ.** Divanəli kəndi dağıdılandan sonra ermənilər Veysəlli kəndini dağıtmaq üçün kəndin qonşuluğundakı Çartaz ermonilərini silahlandırıb başqa erməni kəndlərinin yardımı ilə Veysəllinin üstünə hücuma başladılar.

Ermənilər ümumi bir qüvvə ilə hər tərəfdən kəndi nişana alıb güllə yağdırmağa başlayınca müsəlmanlar da hərbi qüvvələrinin az olmasına baxmayaraq onlara qarşı çıxırlar. Bir az döyüşdən sonra ermənilər 15 nəfər tələfat verib özlərindən bir nəfər şəhid olmaqla kəndi boşaldıb çıxmağa məcbur olurlar.

Erməni qonşular kəndi dağıdıb hər tərəfini yandırırlar, kənardan durub tamaşa edən bir müsəlmanın mülahizəsinə görə iluzu-





nu bir evdə çörək yeyib çay içmiş erməni qonşu həmin evi hamıdan qabaq yandırmağa (?) səy göstərirmiş. Bu kənddə müsəlmanların ziyanı həddən çox idi.

**QACAR HADİSƏLƏRİ.** Kədərli Veysəlli hadisəsindən sonra erməni daşnaksütyunları yüz əlli evdən ibarət Qacar kəndinə hücuma başladılar.

Qacar kəndi hadisəsi həqiqətdə bütün kəndlərdən fərqli olmalıdır. Günəşin çıxmasına üç saat qalmış daşnaksütyun firqəsinin generalı Aslan bəy Məlikşahnəzərovun komandasında olan əfsərlərin başçılığı altında olan kəndləri silah altına çağırıb Qacar kəndinə hücum etdilər.

**ERMƏNİLƏRİN QACAR KƏNDİNDƏ MÜHARİBƏ EDƏN QÜVVƏLƏRİ.** Çartaz sakini Aşot öz əsgərlərilə, Çıxadüz sakini Bəylər bəy öz əsgərlərilə, Mavas kəndinin sakini Sancan bəy öz bölükləri ilə cəbrayıl uyezdinin polkovniki Çırağüz kəndinin sakini Hadrut bölükləri ilə, ümumi qərargah yerinə - Qacarın iki verst məsafəsində qərb tərəfdə yerləşən Vəbaycan adlı mövqeyə toplaşırlar. Həmin yerdə əsgəri ehtiyacları təkmil edərək Qacar kəndinin üstə hücum üçün ümumi hərbi şura çağırılıb, şuranın aşağıdakı qərarı ilə bölük komandanlarına lazımi tərtibat verilir.

**MÜHARİBƏ TƏDARÜKÜ, YAXUD HƏRB PLANI.** Qacar kəndinin şimal tərəfində yerləşən Xəzəz dağı Məlikşahnəzərov bölüyünə, cənub tərəfdən Ocaqlı dağı İşxanov bölüyünə, hər iki dağın qərb tərəfini bir-birinə birləşdirərək mühasirəyə almaq Saqo adlı Zəngəzur komandanına tapşırılır. Yuxarıda qeyd edilmiş komandanlar gecə vaxtı məlum mövqelərdə yerlərini tutub baş komandan Sokratın işarəsinə müntəzir durdular.

**MÜHARİBƏNİN BAŞLANMASI.** Sübh çağına üç saat qalmış böyük komandan müşir-marşal Sokrat tərəfındən musiqi ilə müharibə əmri verilib hər tərəfdən Qacar kəndinə beşaçılan tüfənglərdən yağmur kimi güllə yağdırıldı. Bu halda kənddə yuxunun istirahətli və şirin bir zamanında olan camaat hövlnak qalxıb kəndi səs və küy içində görürlər. Beşikdə istirahət edən cocuqlar da anasının döşünü boşlayıb ixtiyarsız ağlamağa başladılar. Həqiqətən arvad-uşağın nalələri, cocuqların ixtiyarsız iniltiləri, heyvanatın bağırtısı kənddə bir qiyamət qoparmışdı. Bununla bərabər, erməni başçılarının imansız sədaları bu səslərə üstün gəlmək istəyirdi.

Yanan çıraqlar qorxunun şiddətindən söndürülüb, çırağı axşamdan keçmiş evlərdə təzədən çıraq yandırılıb, bu gurultuların nə kimi bir şey olması haqda kənddə yaşayan min nəfər əhalinin darıxmış ürəyindən min cür fikir, min cür qorxu baş qaldırırdı. Camaat bir-birinə qarışmış kimi qonşuya qaçır, kimisi sahibini oyadır, kimisi də özünü itirib qorxunun şiddətindən divarda çəkilən nəqşlər kimi quruyub qalmışdı. Digər tərəfdən kənddə olan islam könüllüləri - qeyrət və şücaət qanı ilə yoğrulmuş islam cavanları əsla özlərini itirməyib kəndin üç tərəfində səngərlər tərtib verməklə, tək-tək hər bölüyə qarşı çıxıb onlara cavab verməyə başladılar. Arvad-uşaqlar da evdə davam gətirə bilməyib səngərlərə pənah gətirmişdilər. Altı saat qızğın müharibədən sonra kəndin müdafiə sədlərindən kənar olan 55 ev qarət edilib yandırıldı. Bu vaxt müsəlman qadınlarını əsarətə almaq fikri ilə müsəlman sədlərinə ümumi hücum başlandı. Ermənilər islam əsgərlərinin qeyrətinə qarşı dura bilməyib ağır tələfat ilə mövqelərinə çəkilməyə məcbur oldular. Müsəlmanlar bu vaxt böyük qə-





tiyyət göstərib sədlərdən çıxıb düşmən üzərinə atılırdılar. Bu halda başqa müsəlman kəndləri işdən xəbərdar olub atına minib kömək üçün Qacar hərb meydamna yürüş edirdilər. Əvvəlcə kömək üçün gələn Yağlıvənd sakini Həsənəli bəy Əsgərxanov cənabları idi. 20 müsəlləh suvari ilə Xəzəz dağına yetişib Məlikşahnəzərov bölüyünə yaxınlaşıb şiddətli atəş açar. Həsənəli bəy suvariləri düşmənin qüvvətindən çəkinməyərək hər dəqiqə yürüş etməklə erməniləri sədlərdən çıxarıb Xəzəz dağınm təpəsini işğal etdi. Dağın təpəsinə çatar-çatmaz suvarilərinə lazımi göstərişlər verib yenə müharibəyə başladı. Müsəlmanlara gəldikdə ermənilərin mühasirə xəttinə baxmayaraq sədlərdən bayıra atılıb sivirmə xəncərlə bəxtə-bəxt hücuma başlamışdılar.

Yuxarıda adı çəkilən Aşot adlı erməni əfsəri öz bölüyünün bir alayı ilə səngərdə qətl edildi. Müsəlmanların qüvvəti artmağa başladığından sədd dalmdan müharibə etmək qadağan olub hər tərəfdən yürüş edib erməni dəstələrinin içinə *qarışdılar.*

Dörd saat tamam erməni-müsəlman bir-birinə qarışıb müharibə etdi. Dörd saat davam edən süngü və xəncər müharibəsində ermənilərin mənəvi qüvvələri tükənib yavaş-yavaş geri çəkilməyə başladılar. Müsəlman cavanlarına gəldikdə ermənilərin geri gedən yollarını kəsib, bir çox tələfat verdikdən sonra ermənilərin qaçanlarım yenə müsəlman suvariləri təqibə başladılar. Müsəlmanların təqib halında ermənilər dümdar (quyruq-aryerqar) buraxıb on verst yol müharibə olundu. Müsəlmanlar geri dönərkən Əfşar adlı erməni kəndini büsbütün çapıb dağıdaraq, üç nəfər də erməni əsir aldılar. Geri çəkilmiş erməni komandaları əsgərlərinin ehtiyacını yenə təkmil edərək üç min qüvvə ilə dübarə Qacar kəndinə hücum etmək üçün aşağıda yazılmış şərtləri qoydular.

**Əvvəla**, Qacarda olan kişiləri qırıb, qadınlarını əsarətə alıb ermənilərə paylasınlar.

**2 -** Bu əsgərdən bir nəfər qalana kimi müharibədən geri durmayıb təlaş etmək.

Bərəkət versin ki, ermənilər yenə mərama nail olmayaraq, məğlub oldular. Qacar müharibəsində müsəlmanlara mal zərəri 90 minə qədər olub, can tələfatı isə 12 nəfərdir. Ermənilərdən 150 nəfər hərb meydanında qətl olunmuş 200-ə qədəri yaralansa da, hamısı xidmət yerlərində olmuşlar. Hətta bəzi ermənilərin sözünə görə ermənidən tələfat 253 nəfərə yaxın idi.

**CƏBRAYIL VƏ QARYAGİN UYEZDİNİN SON HADİSƏLƏRİ.** Kədərli Bakı faciəsindən sonra Qaryagində erməni və müsəlman arasında xalis bir məhəbbət bəsləməkdə idi. Bu ətrafda erməni ilə müsəlmanın vuruşmasına məhəbbətin gündən-günə artmağa başlamasından meydan qalmamışdı, deyilsə idi daha doğru olardı. Amma bu, müsəlmanları müdafiə xayallarından və milli hissələrdən məhrum etmək istəyi ilə zahiri bir məhəbbət imiş ki, müsəlmanlara qarşı izhar edilirdi, bu işlərə aid bir çox məlumatlar vardır ki, sübuta ehtiyacı yoxdur. Belə ki, Şuşa şəhərinin əvvəlinci faciəsindən sonra Şuşa əhli Mürsəl Hacı Qulu oğlu Qaryagində Qarabulaq bazarında bir qonaqlıq edib, məhəlli hökumət məmurlarını və bir çox əyani və tacir qismindən də dəvət etmişdi. O cümlədən İsfəndiyar bəy Vəzirov və Ağa bəy İşxanov da dəvət edilmişdi.

Ağa bəy erməni suvari olaraq İsfəndiyar bəyə rast gəlib «Mürsələ vədəli olmusan, bəs hara gedirsən?» - söylədikdə, «vaxtında gələcəyəm» - cavabını verib keçmişdir. Axşam zamanı İsfəndiyar bəy dəvət olduğu yerə - qonaqlığa gedərkən yolda Qri-







**Xudafərin körpüsü**

şa adlı erməninin dükamna girir və Qrişadan bu sualları eşidir:

- A bəy! Nə üçün pristav mirzəsi İsrail Teroqanesovdan sual etmədin ki, Ağa bəy hara gedir?!

İsfəndiyar bəy:

- Mən özüm onu gedəndə gördüm, - Qrişa.

- Yox, çox təvəqqe edirəm gedib bir sual edəsiniz - söyləyir.

İsfəndiyar bəy:

- Çox gözəl, sən ki, bilirsən, söylə, daha İsrafildən sual etmək nəyə lazım? - dedikdə, Qrişa təkrar olaraq:

- İsraildən sual ediniz -söyləyir.

Bu sorğu-sualdan sonra İsfəndiyar bəy öz-özünə düşünür: «Ey dili-qafil, olmaya Ağa bəy erməni komandanı olduğuna görə bir təşəbbüs üstünə getmişdir, - deyə düşünüb İsraildən məsələni öyrənmək üçün səbirsizlik göstərir. Onun:

- İsrail, Ağa bəy hara getmişdir! - sualına.

- Ağa bəy atından yıxılıb qolu-qıçı sınmış. Çırağüz kəndinə aparılmışdır, - cavabını almışdır. Müxtəsər, İsfəndiyar bəy bir şəkkə düşsə də tərəddüd içində Mürsəlin qonaqlığına gedir.»

**İĞTİŞAŞ XƏBƏRLƏRİ.** Mürsəlin qonaqlığından bir gün sonra bazarda alış-veriş edən ermənilər dükanlarım yığışdırıb qeyri-təbii surətdə tələm-tələsik qaçhaqaç salırdılar.

Səbəbi sual olunduqda cavab verməyib qaçmağa davam edirlər. Çox sonra məlum olur ki, Şuşada müharibə başlanmışdır. Müsəlmanlar bir xəbər öyrənmək məqsədilə şəhərə vurduqları teleqrama «müharibə-filan yoxdur» cavabını alırlar. Müsəlmanlar bir neçə gün keçmiş, ermənilər yenə bazara qayıdıb alış-verişlə məşğul olurlar. Məqsədləri isə müharibə təhlükəsi gözlədiyi üçün dükanlarını ağır-yüngül etmək imiş.

Xülasə, bir gün məlum oldu ki, bazarda üç nəfərdən başqa erməni qalmamışdır.

Bu işlərdən müsəlmanlara şəkk hasil olub teleqram kantorundan əhval tutunca Şuşada qızğın müharibə olduğu aşkar oldu. Bu xəbər yayılar-yayılmaz müsəlmanlar hər tərəfdən Şıxlı kəndinə yığılıb bu işlər üçün ümumi bir şura edildi. Şurada olan Şuşa əhli və sair camaat «gərək şəhərə gedək»,- deyə, atlarına minib yola çıxdılar. Az-çox yol getmiş ikən Cəbrayıl və Qaryagin camaatı hərbi silahlarla silahlanıb yola çıxaraq Şuşa əhli ilə Ağdam yolu getməyə başladılar. Cəbrayıl əhli 300 süvari qüvvə ilə Molla Nəsrəddin yolu ilə irəliləyib Şuşa uyezdinin Cəbrayıl Qaryaginlə qonşu Şeyxməli adlı kənddə toplaşırlar. Bir neçə mülahizə ilə həmin gecə kənddə qalıb hər tərəfə kəşf yolları çıxarırlar və məlum olur ki, Ağa bəy İşxanovun atından yıxılması yalan imiş. O,





çoxlu əsgər toplayıb Nur Məhəmməd dayı dəyirmanı adlı geniş bir düzdə hərbi təlim keçməkdədir.

Müsəlmanlar bu xəbəri alınca «bu ermənilər burada qoyub, şəhərə getməyin adı yoxdur»- deyib, Ağa bəyin hərbi qüvvəsini öyrənmək üçün ora üst-başını dəyişmiş bir neçə adam göndərirlər.

**MÜHARİBƏ MƏKTUBLARI.** Şeyxməli kəndində toplanmış islam süvariləri Ağa bəyin dəstəsinin Nur Məhəmməd dəyirmanı adlı geniş mənzərəli bir düzdə mövqe tutaraq təlim etmək xəbərini aldılar. Lakin quvvəsini öyrənmək istədilərsə də, casuslardan başqa bir məlumat əldə edə bilmədilər. Bu səbəbdən hər tərəfdən kəşf qolları çıxarıb Ağa bəyin komandası altında düşmənin min nəfərə qədər süvari və piyadası olduğu yəqin edildi.

Müsəlmanlar Şeyxməli kəndində əsgərlərinin sayını götür-qoy edib 500 süvariyə 300 piyada könüllü əsgər də daxil edib, səkkiz yüz qüvvə ilə Ağa bəylə müharibəyə girişməyə qərar verdilər. Müsəlman əsgərləri səfər halına qoyulub müharibə üçün ovçu dəstələri çıxarırdılar. Müsəlmanların ovçu əsgərləri bir güllə məsafəsinə yaxınlaşar-yaxınlaşmaz, düşmən mövqeyini atəşlə döyməyə başladılar. Bu halda müsəlman piyada könüllü əsgərləri yol açaraq düşmənin tərəfini gülləyə tutmaqla yürüşə başladılar. Sol tərəfdən isə müsəlmanlar bir piyada dəstə ilə erməniləri şiddətlə hədələyirdi.

Ermənilər isə qoşunlarını hissələrə bölməyib bir komandanın işarəsilə bir yerdə toplanmış halda müharibə etdiklərindən, müsəlman piyadaları ovçu sədləri düzəltməklə düşmənin ümumi qüvvəsini sıxışdırıb hədələyirdi. Digər tərəfdən piyadaların arxasından müsəlman süvariləri atəş açıb erməni süvarilərini çevrə-

mə halına qoyaraq piyadalarından ayırırdı. Sübhdən axşama dörd saat qalana kimi qanlı müharibə olub ermənilərin qaçmalarını görüncə piyada əsgərləri işarət ilə geri çəkib ümum süvari quvvəsi ilə düşməni təqibə başladılar. Ermənilər qaçdıqlarından əsgərlərin nizamları pozulmuş, elə buna görə də dümdar dəstələri (aryerqard) buraxa bilməyib çox tələfat verirdilər. Ermənilər geri çəkilib Düdükçü adlı ermənilərə mənsub bir kəndə tökülülüşdülər. Bunu görən müsəlman ovçu piyadaları kəndin mühüm mövqelərini tutaraq atəş açdılar. Müsəlman süvariləri dəxi müharibəyə başlayınca ermənilər 10 nəfər tələfatla buraxıb qaçmağa üz qoydular. Bu vaxt axşam yaxınlaşdığından həm də hərb meydanı son dərəcə maneəli, daşlıq və sair keçidlər olduğundan erməni qaçqın dəstələrini təqib etməyib kəndi dağıdıb, qarət etdilər. Ermənilərin böyük komandanı İşxanov özünün süvar olduğu atla və bir neçə də sair at qənimət kimi ələ keçirildi. Qaranlıq düşən kimi müsəlman əsgərləri hərb meydanında kifayət qədər mühafizə dəstəsi və kəşf qolları qoydular və qənimətlərini də götürüb ordugaha qayıtdılar.

**ÇƏMƏNLİ MÜHARİBƏSİ.** Sübh zamanı müsəlmanların gəzmə əsgərləri ermənilərin yığılıb Çəmənli adlı müsəlman kəndinə hücum etdiyini xəbər verdilər. Müsəlmanlar dünənki hərb meydanını mühafizə qoşununa tapşırıb, özləri nizami bir qüvvə ilə Çəmənli kəndinə yürüşə başlayırlar. Bu vaxtda ermənilər Haxulu adlı erməni kəndindən Çəmənli əleyhinə hərəkat başlayıb yürüş edirdilər. Müsəlmanlar vəziyyətlərini götür-qoy edib əsgərlərini üç komanda altında bölərək üç tərəfdən ermənilərin qarşısına çıxırlar. Bu müharibədə müsəlman





piyadaları nəhayət fədakarlıqla çalışıb düşmənin geri çəkilmək yolunu kəsməklə erməniləri sıxışdırırdılar. Ermənilər ağır bir hala düşərək böyük bir müharibədən sonra Haxulu kəndinə çəkilməyə məcbur oldularsa da, döyüş meydanından bir verst kənarda xüsusi nizamla dayanmış müsəlman süvariləri tərəfindən şiddətlə təqib edilirdi. Müsəlmanlar hər tərəfdən Haxulu kəndini atəşə tutub erməniləri həmin kənddən də qaçmağa məcbur etdilər. Bu müharibədə ermənilərin tələfatı çox olsa da, qaranlıq düşdüyündən layiqincə öyrənmək mümkün olmadı. Müsəlmanlardan isə bir nəfər Cəbrayıl Cəfərqulu oğlu yaralanıb orduya çatınca millət naminə şəhid oldu. Müsəlmanlar həmin mahala da mühafizə dəstəsi qoyub qayıtdılar.

**AĞBULAQ MÜHARİBƏSİ.** Çəmənli müharibəsinin ertəsi günü yenə sübh zamanı ermənilərin təzədən Ağbulaq adlı erməni kəndində toplaşıb, Çəmənli kəndinə dübarə hücum edəcəkləri xəbəri kəşfiyyat tərəfindən xəbər verilir. Müsəlmanlar bu xəbəri alınca əsgərin ehtiyaclarını təmin edərək xüsusi nizam ilə Çəmənli müharibəsinə atlanırlar. İndiyə qədər millət arasında misli görünməmiş dava varsa da, o da yalnız Ağbulaq müharibəsidir, demək olar. Bu müharibədə ermənilər çox yanıqlı müharibə etdiklərindən müsəlmanlar dəxi ümumi hücum başlayıb o gün axşama qədər qanlı vuruş oldu. Sonra ermənilər son dərəcə pərişan halda öz qərargahlarına - Ağbulaq kəndinə dolub imarətlər arxasında sipər düzəltməklə müharibəyə girişdilər. Müsəlmanlar isə dörd tərəfdən kəndi atəşə tutub, axırda ermənilərə çoxlu tələfat verməklə kəndi boşaltmağa məcbur etdilər. Ermənilər necə ki, başqa yerlərdə, yenə də tələfatlarını gizlədirdilər. Ancaq müsəlman əsgərləri qabaqlarına yıxılıb can verən erməniləri ölmüş

hesab edirdilər. Sübhdən axşama qədər baş verən müharibədə müsəlmanlar zərərsiz, dillərində «şükrani-Məhəmmədət» ordularına qayıtdılar...

**BÖYÜK ARIŞ MÜHARİBƏSİ.** Ağbulaq müharibəsinin ertəsi ermənilər iki yüz əlli evdən ibarət Xırmancıq adlı erməni kəndinə yığılıb, hər tərfdən könüllü əsgər toplayıb qüvvələrini iki min beş yüzə qədər artırmışdılar. Ermənilər əsgərlərin hərbi ehtiyaclarını düzəldərək bu dəfə müsəlmanları ağır məğlubiyyətə uğradıb yenə bir şöhrət qazanmaq arzusunda idilər. Xırmancıq kəndi dörd tərəfdən maneəli və keçilməz dağlarla əhatə olunduğundan bu kəndi almaq üçün, heç olmasa 10000 qoşun və bir-iki ay mühasirə tədarükü olmalı idi.

Ermənilərin bu kəndə yığılmaqda məqsədi qonşuluqda olan Arış adlı müsəlman kəndini dağıdıb, müsəlmanlar üstün gələrsə, Xırmancığa dolub özlərini qorumaq fikri idi. Bu kəndə heç bir tərəfdən əsgər yeritmək mümkün deyildi. Zira, hər tərəfi dağlıq idi, yalnız bir tərəfdən tək atlı keçməyə imkan vardı. Çox yerləri var ki, heç atlı keçməyə də imkan yoxdur. Müsəlmanların kəşfiyyatçıları ermənilərin əhval və hərəkətindən layiqincə məlumat əldə edib baş komandana çatdırmaqda idilər. Bu səbəbdən müsəlmanlar əvvəlki qüvvələrini bərpa edib döyüş şəkli alaraq ermənilərdən əvvəl qüvvələrini Şeyxməli və sair ümumi qərargahlardan çağırıb Arış kəndində bir yerə cəm olmağa başlayırlar ki, aşağıdakı üsulla müharibəyə başlasınlar.

**Müharibə məktubları yaxud hərb meydanından xəbərlər.**

Müsəlman əsgərlərin baş komandanları bu Xırmancıq müharibəsində düşmənin qüvvəsindən lazımınca xəbərdar olduğundan





əsgərlərinə səbat və mətinlik üçün bir çox nitqlər oxuyub hər cür təşviqatda bulunurdular. Əsgərlərin isə bədənlərindəki, qeyrət qanı cuşa gəlib şöhrətli qəhrəmanların əsgər övladları olduqlarını komandanlarına bildirirdilər. Bu vaxt müsəlmanların mühafizə dəstələri vasitəsilə ermənilərin sübhə bir saat qalmış Xırmancıqdan hərəkət etmələri böyük komandana yetişir. Bu halda müsəlman baş komandanı bölük komandanlarına lazımi göstərişlərini verib kəndin ətrafındakı səngərlərdə münasib mövqe tutmaq üçün göndərilirlər. Onlara hər dəqiqə erməni əsgərlərinin hansı mövqeə yetişməsi xəbəri də verilirdi. **Əsgərlər ümumən müharibəyə hazırlaşdıqları vaxt əsgərlərin böyük komandanı atma minərək onlara bu nitqi söyləmişdir:**

**«Övladlarım! Mən, hər halda erməni ilə müsəlmanların işi bu məqama yetişdirməsinə təəssüflər edirəm. Bununla birlikdə bu əfsusların bizə, yaxud ermənilərə heç bir faydası yoxdur. Zira, indilik biz onlarla üz-üzə gəlib vuruşmağa məcbur olmuşuq. Bu saatda bizlərə heç bir iş fayda verməz. Yalnız xəncər-patron köməyə gələr. Bəli! Sülh vaxtı sülh etmək, müharibə vaxtı mərdanəlik göstərmək lazımdır. İndi görürsünüz ermənilər bizim nə qədər kəndlərimizi dağıdıb, nə qədər gəlin-qızlarımızı əsarətə alıb, olmazın təhqirlərə düçar və mübtəla etmişlər. Ancaq heç vaxt darıxmayın! Bu əsarət, bu təhqir sizə çox acı olsa da, darıxmayın? Hamınız eşidəsiniz ki, Kərbəla meydanında Hüseyn ibn Əli Əleyhüssəlam bir ovuc yaxın adamları ilə Yezidin (lənətüllah) yüz minlərcə cani dəstələrinə qabaq-qarşı durmuşdu.**

**Hürriyyətin, o qeyrət mücəssəməsinin Kərbəla meydanında olan fədakarlığı həqiqətin gözünü pərdələyib Yezid vələdəz-zinayə taət əli uzatmaqdan ötrü deyil idi?! Bəli, itaət etməyib övlad və pak adamlarına əsarət rəva görən yalnız o həzrətdir. Amma biz ilə o həzrətin böyük bir təfavütü vardır. O isə budur: O həzrətin bacıları, hərəmləri, qızları peyğəmbər nəvəsi Əli ibn Əbu Talib gəlinləri olduqlarından Ye-**

**zid qoşununda o cürət olmazdı ki, təhqirlə onlara əl uzatsınlar. Amma bilərsiniz, qardaşlar, hərəmlərimiz erməni əlinə düşsə, nə olar?!**

Bu vaxt əsgərlərdən şiddətli ağlamaq səsləri ucalır. Yenə nitqə davam edilir:

**Bizim şəriətdə müdafiə məsələsi vacibdir. Ona görə də qorxunu, ağciyərliyi qəlbinizə qoymayasınız. Qorxu-hürkü millət və vətən fədakarlığı qarşısında qəbahətli və rəva görülməyən hərəkətlərdəndir. Ona görə qorxuya və hürküyə qəlbimizdə yer olmamalıdır. Qorxu insaniyyət və islamiyyətə ziddir. Düşmən xəncərindən qorxan gözümüz-ölümü, əziz saxladığımız dövlət və sərvətimiz - bacılarımız əsarət və təhqir görəcəklər. Ölmək və qəbrə getmək (yataqda, biyabanda, dəryada), yainki düşmən xəncərlərinin altında da olsa birdir. Orası aydındır ki, ölüm bir dəfəlikdir. Bizim bu müharibəyə müzəffər olduğumuz, bilərək qan çalalarına qərq olduğumuz, əlbət ki, tarix səhifələrinə düzülüb, millət istiqbalına və vətən övladına yadigar qalacaqdır.**

**Bizim Xırmancıq daşlarına çilənən qeyrət qanımız heç zaman silinməyəcəkdir. Bizim islamiyyət adını daimi yaşatmaq üçün şahid olduğumuzu övladlarımıza göstərəcəklər. Əlbəttə, müharibəni buraxıb istəkli hərəmlər, isti otaqlar ağuşunda doğransaq övladlarımız qiyamətə qədər bizə lənət deyəcəkdir. Qabağımızdakı Xırmancıq müharibəsini özgə davalara bənzətməyəsiniz. Hərəkətsiz durub düşmənə arxa çevirməyəsiniz. Ar olsun o əsgərə ki, düşmən xəncərini arxasından qəbul edə. Müharibədə insafınızı itirməyib silah işlətməyin körpələrə, qocalara rəhm ediniz!**

**Körpə uşaqlara, erməni hərəmlərinə heç zaman təhqirlə əl uzadıb, əzab-əziyyət rəva görməyiniz! O halda kəramətli peyğəmbərimizdən xəcalətli olarıq, - deyib, tüfənginə bir patron qoyub: - «Haydı qardaşlar! Düşmən yaxınlaşdı»** - deyib, sözünü bitirdi.

Bu vaxt ermənilər də bir güllə məsafəsini yaxınlaşınca atəşə başladılar. Müsəlman əsgərlər ən əvvəl sədlər arxasından atəş açıb düşmənin hərəkət nizamını hədələyirdilər. Müharibə başlayınca ermənilər hərb meydanım sıx bir məhəldə saxladıqlarından müsəlman bölük komandanları öz piyadalarına sədlərdən çıxmaq əmrini verdilər. Piyada alayları sağ və sol tərəfdən sədlərdən çıxıb ovçu sədləri qurmaqla düşmənin hər iki tərəfini sıxışdırdılar.

Ermənilər bu halı hiss edincə qüvvələrini üç hissəyə bölərək müsəlman piyadalarını atəşə tutdular Müsəlman bölük komandanları bu hərəkəti görüncə piyada dəstələrini ehtiyat olaraq, dörd yüz piyada ilə gücləndirirlər. Bu vaxt ermənilər müharibədən büsbütün hərb elmindən xəbərsiz olduqlarını aləmə bildirdilər. Belə ki, müsəlmanların tez-tez sədlər düzəldib arxasından düşmənə atəş açan ovçu piyadalarınm qarşısına süvari bölükləri çıxarmaq istədilər. Müsəlmanlar ermənilərin bu naşı hərəkətlərini görüb mərkəzdən açılan şiddətli atəşlə onlara böyük tələfat verirdi. Ermənilər səhvlərini anlayıb süvari bölüklərinin yerinə piyada dəstələri göndərənə kimi, islam əsgərləri hamılıqla «Ya Allah, Ya Allah» deyib sədlərdən çıxıb düşmənin qabaq mövqelərini tutdular. Ermənilər müharibə nizamını tamam itirib çaşqın bir vəziyyətə düşdülər, müsəlmanlar fürsəti fövtə verməyib düşmənin geri çəkilmə yolunu kəsmək üçün daha iki yüz piyada əsgər göndərdilər. Ermənilər bunu duyunca müharibədən əl götürüb qaçmağa başladılar. Qaçmaq vəziyyətində iyirmi-otuz süvari dəstəsi dümdar (quyruq-aryerqard) buraxılarsa da, yolun maneəli və keçilməz yerlərində atları buraxıb özləri qaçmaqla canlarını qurtarmağa məcbur olurdular. Müsəlmanlar isə yolun dağlıq olduğunu bilib piyadalarla düşməni təqib edirdilər.

Ermənilər atlarını və ordularını dar keçidlərdən keçirib kənd içində toplayınca müsəlman ovçu piyadaları ahu kimi dırmaşıb dörd tərəfdən kəndi nişan aldılar. Ermənilər qüvvələrini topla-

mağa imkan tapmadılar və son dərəcə pərişan bir halda kəndi boşlayıb getməyə məcbur oldular.

Müsəlmanlar kəndi tutduqdan sonra qarət edib yandırırlar. Ermənilərin bu müharibədə tələfatları həddən artıq olsa da, məlum edilməyibdir. Kənd tamam yandıqdan sonra müsəlmanlar qənimətlərini götürüb qayıdarkən yolda pusquda durmuş bir erməni bölüyünə rast gəlib atışmağa başladılar. Bu atışmada düşmənlər munasib mövqe tutduqlarından müsəlmanlardan 16 nəfər şəhid edildi. Bu müharibədən sonra üç-dörd gün sakit keçdi. Sonra hökumət bir az gözünü açıb uyezd rəisi tərəfindən qazı cənablarına sülh işarəsi verildi. Ağsaqqallar yığılıb sülhə razılıq verdikdən sonra rəis də teleqramla erməniləri sülh üçün Güzlək kəndinə dəvət etdi. Sabahı gün rəis müsəlman ağsaqqallarını götürüb Güzlək müsəlman kəndi ilə qonşu olan və erməni mahalı Hadrut və Xunbabat yuvası ilə üç verst məsafədə yerləşən Kürd Mahmud adlı kəndə gedir.

Bu vaxtda rəis Hadruta getdiyindən, müsəlman ağsaqqalları Kürd Mahmud kəndində müsəlman qəhrəmanları ilə ağsaqqalların qadağamna görə evlərdə əyləşmişdilər.

Sabiq Hadrut ikinci sahəsinin pristavı Davıdov o sahənin strajnikləri ilə bir bölük erməni götürüb Arış kəndinə hücum edirlər. Kəndin bir tərəfini odlayıb aradan çıxırlar. İki-üç saatdan sonra müsəlmanlar Saracıq kəndinə sülh üçün rəis hüzuruna dəvət olunurlar. Bu üsulla ermənilər, müsəlmanlar Saracığa yığılıb sülh və barışığı bərpa edib dağılırlar.

**QIŞLAQ MÜHARİBƏSİ.** Erməni kəndi Surlidən bir at qaçıb Qışlaq adlı müsəlman kəndinin mallarına qarışır. Ermənilər: - «Ey qoymayın, müsəlmanlar bizim malımızı aparırlar»,- deyib bir dəstə könüllü əsgərlə Qışlaq kəndinə hücum edirlər və bütün mallarını yığıb apardıqda islamlar xəbərdar olub ermənilərə qarşı çıxırlar. Ermənilərin qüvvələri çox olduğundan müsəlmanlar Süleyman adlı kəndə pənah aparıb birlikdə düşməni təqib edirlərsə də, yollar keçilməz olduğundan müsəlmanlar məğlub olub, Qışlaq kəndi də yandırılır. Yeddi-səkkiz min manat zərər yetirildiyi təxmin edilir. Dağılan müsəlmanlar diri-diri səfil dolanmaq istəməyib özlərini Dolanlar adlı Erməni kəndinə vurub müharibəyə başlayırlar. Başqa müsəlmanlar da köməyə gəldiyindən ermənilər məğlub olur, 10 nəfər tələfat verib qaçırlar. Kəndi tutan müsəlmanların hərbi tədarükləri qurtardığından bir neçə biqeyrət müsəlman ermənilərə: - BİR SAAT MÜHARİBƏ EDİNİZ, MÜSƏLMANLAR ÖZLƏRİ QAÇACAQLAR» - deməklə onlara mənəvi güc verirlər. Müsəlmanlar isə patronun yoxluğundan geri çəkilməli olurlar.

**SON MƏKTUBLAR.** Şuşa əhvalatından sonra Cəbrayıl və Qaryaginin Qaradağlı adlanan kəndin malları çölə çıxan vaxt ermənilər tökülüb əllərindən alırlar. Bu zaman kənd camaatı bundan xəbər tutub ermənilərlə atışır və bir neçə ermənini tələf edirlər. Bu ermənilərin qaçıb dağılmasına səbəb olur. Lakin ölənlərin arasında bir nəfər erməni millətçisi varmış. Ermənilər bundan son dərəcə qəzəblənib pristav Davıdovu göndərirlər ki, gərək qatili tutub erməni əlinə verəsiniz.

**Ermənilərin pristavı Davıdovun tədbiri.** Pristav məsləhət görür ki, «mən gedib Qaradağlı camaatını söhbətə tutaram, siz isə gəlib bostanlarda gizlənərsiniz. Mən bir bəhanə ilə həmin oğlanı sizin yanımza göndərərəm. Orada atəşə tutub öldürərsiniz». Müxtəsər, həmin üsulla cənab pristav oğlanı pusqu yerinə göndərdikdə ermənilər atəşə tutub onu yaralayırlar. Binəva bir növ

ilə özünü kəndə salır. Camaatın xəbərdar olduğunu bilib ermənilər də qaçıb aradan çıxırlar. Ertəsi gün ermənilər yığılıb Qaradağlı kəndinə hücum edirlər. Ermənilər çox olduğundan müsəlmanlar davam gətirə bilməyib kənddən qaçmaqla on beş evli Yuxarı Güzlək kəndini də dağıdıb talan edirlər.

**HADİSƏLƏRİN İCMALI.** Əvvəlcə ermənilər müharibə başlayıb Cəbrayıl və Qaryagin uyezdində Veysəlli, Divanəli kəndlərini dağıdırlar.

**Bu müharibədə ermənilərin də bir sıra kəndləri dağıdıldı: Əfşar**
**Düdükçü**
**Haxullu**
**Ağbulaq**
**Xırmancıq**
**Dolanlar**
**Xoşəndam** belə kəndlərdəndir. Ermənilər də yüzlərlə tələfat verdilər və hərb meydanından qaçdılar.

Müsəlmanlar yaylağa köçdüklərinə görə iki qışlaq dağılmışdır. Bu uyezddə məğlubiyyətinə Şuşa şəhəri ümdə səbəb olmuşdur. Zira ermənilər ümumi qüvvələrini yığıb müsəlmanları dağıtmaq üçün toplanmışdılar. Digər tərəfdən Cəbrayıl müsəlmanları müharibədə kamil ustad mərtəbəsində olduqlarından erməniləri son dərəcə sarsıtdılar. Hökumət isə göz açıb bu mahalda sülh barışığı bərpa etmədi. Zira onun da Şuşada böyük tədarükləri var idi. Qalaşçanov son faciədə hökumət qoşunlarını ermənilərə kömək üçün Şuşada saxlayır, mahalda isə sülhü bərpa etmək üçün bir nəfər də olsun hökumət qoşunu tapılmırdı.






## ƏLİSAAB ORUCOV: *«QARABAĞ MƏSƏLƏSİNİN ƏDALƏTLİ HƏLLİNDƏ TƏRƏFDARIMIZ YOXDUR»*

### AYAĞA QALXIB SİLAH GÜCÜNƏ OLSA BELƏ TORPAQLARIMIZI AZAD ETMƏLİYİK

O zamanlar Dağlıq və Aran Qarabağında Əlisaab Orucovu hamı tanıyırdı. Azərbaycan Kommunist Partiyası Qarabağa çox adamlar göndərərdi. Bu adamlar fərsizliyi, qorxaqlığı, laqeydliyi ilə yaddaşlarda iz saldılar. 1988-ci ilin payızında Orucovun Qarabağa gəlişi ildırım sürətilə vilayətə yayıldı. Qarabağlılar axın-axın onun görüşünə tələsirdilər. Ə. Orucov kimsəni naümid qaytarmazdı. Dərdlərinə şərik çıxar, kömək edərdi.

Azərbaycanı ağır fəlakətlərə düçar qoymuş Qarabağ hadisələrinə, amansız müharibənin ötən anlarına işıqlıq gətirmək üçün üz tutduq Əlisaab Orucova. İstədik ki, doğma yurdumuz Qarabağda baş vermiş olayları xalqımızın təəssübkeş oğlu Əlisaab Orucovun yaddaşı ilə bir daha təzələyək.

## MÜSTƏQİL AZƏRBAYCANIN İLK ƏDLİYYƏ NAZİRİ

**TANITMA:** Əlisaab Səftər oğlu Orucov 24 yanvar 1946-cı ildə Göyçay şəhərində anadan olub. 1971-ci ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinin əyani şöbəsini bitirib. 1971-ci ildən Azərbaycan Respublikası Ədliyyə Nazirliyi məhkəmə orqanları idarəsində məsləhətçi işləmiş, 1973-cü ilin fevralından həmin ilin iyununadək Bakı şəhərinin Nəsimi rayon Xalq məhkəməsində xalq hakimi kimi təcrübə keçmiş və 1973-cü ilin iyunundan 1977-ci ilin dekabrınadək Gəncə şəhərində xalq hakimi, 1977-ci ilin dekabrından 1980-ci ilin martınadək Azərbaycan Respublikası Ali Məhməkəsinin üzvü işləmişdir. Bundan sonra Azərbaycan Respublikası Ali Məhməkəsi sədrinin müavini və birinci müavini vəzifələrində çalışmışdır.

1985-ci ilin yanvarından 1992-ci ilin aprelinədək Azərbaycan Respublikasının Ədliyyə naziri - Müstəqil Azərbaycan dövlətinin ilk Ədliyyə naziri olmuşdur. 1992-ci ilin aprelindən həmin ilin iyulunadək Azərbaycan Respublikası Baş nazirinin müavini - Azərbaycan





Respublikası Prezidentinin Fövqəladə Səlahiyyətli nümayəndəsi işləmiş və Qarabağda gedən müharibədə ön cəbhədə olmuşdur.

Ə.Orucov gözəl ailə başçısıdır, onun dörd oğlu var.

## QARABAĞDA BAKININ AYRI-AYRI MÜƏSSİSƏLƏRİNİN FİLİALINI YARADIRDIQ

**- Əlisaab müəllim, Ermənistandan uzunmüddətli ezamiyyətdən qayıdandan sonra sizi MK-ya dəvət etdilər və siz 1988-ci il oktyabrın 10-da MK-nın göstərişi ilə «Köçkünlərlə iş aparmaq» üçün Ağdam qərargahına göndərildiniz?!...**

**Məncə söhbətə elə buradan başlasaq daha yaxşı olar.**

- O vaxt Dağlıq Qarabağdan köçkünlər Ağdama axışıb gəlirdilər. Komissiyanı da ona görə yaratdılar ki, hər bir nazir 10 gün Ağdamda olsun və köçkünlərlə iş aparsın. Öncə mən getdim. Qərargahımız Ağdamdan Əsgərana gedən yolun üstündə, 25 saylı Səyyar Mexanikləşdirilmiş tikinti idarəsində (red. Ş.S.- PMK-25) yerləşirdi.

On gün qaldım. Məni əvəz etməyə başqa nazir gəlmədi. 1989-cu ilin axırına qədər Ağdamda qaldım. Hərdən Bakıya da gəlirdim. Aləm bir-birinə qarışmışdı. Tez-tez Ə. Vəzirovla zəngləşir, vəziyyətin günü-gündən ağırlaşdığını ona deyirdim.

**- Bu müddətdə Ə. Vəzirovla görüşə bildinizmi?**

- Əlbəttə, görüşdüm. Dedi, sənin Dağlıq Qarabağla işin olmasın, birtəhər köçkünləri Ağdamda yerləşdir. Qəti eti-

razımı bildirdim. Dedim ki, köçkünləri elə Dağlıq Qarabağa qaytarmaq lazımdır. Ermənistan qaçqınlarım da Dağlıq Qarabağda yerləşdirmək vacibdir. Onları oradan çıxarmaq düz deyil.

Mən Ağdamda günortaya qədər köçkünləri qəbul edir, günortadan sonra Yuxarı Qarabağın kəndlərinə gedirdim. Camaatla söhbət aparır, xalqın onların arxasında dayandığını deyirdim. Deyirdim siz niyə qorxmalısınız? Bura bizim öz torpağımızdır. Torpaqlarınızı tərk etməyin.

Azərbaycanlılar tamam işsiz qalmışdılar. Biz kəndlərdə yeni iş yerləri açmağa çalışırdıq. Yavaş-yavaş Yuxarı Qarabağın kəndlərində Bakının ayrı-ayrı müəssisələrinin filialmı yaradırdıq ki, camaat oranı tərk etməsin.

**- Əlisaab müəllim, Dağlıq Qarabağın Azərbaycandan uzaqlaşdırılması və ələ keçirilməsi üçün ermənilər hansı vasitələrə əl atırdılar?**

- SovİKP MK və SSRİ Nazirlər Soveti 24 mart 1988-ci ildə bədnam bir qərar qəbul etdi. Qərar «1988-1995-ci illərdə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafını sürətləndirmək haqqında» idi. Siz fikir verin. **Görün qərarda nə deyilirdi:**

*«1989-1990-cı illərdə Stepanakert şəhərində 850 nəfərlik mədəniyyət sarayının, növbə ərzində 600 xəstə qəbul etmək üçün poliklinikası olan 400 çarpayılıq vilayət xəstəxanasının, pionerlər evinin, şəhər kitabxanasının, habelə 1 nömrəli əlavəyə müvafiq surətdə yaşayış evlərinin və digər sosial obyektlərin tikintisi nəzərdə tutulsun».*





**SSRİ Mədəniyyət Nazirliyi və Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR-də yaşayan erməni əhalisinin arzularını nəzərə alaraq:**

Bakı şəhərində erməni dram teatrı yaradılması məsələsini nəzərdən keçirsinlər;

*«SSRİ Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsi on ikinci beşillikdə Stepanakert şəhərində və Dağlıq Qarabağ Muxtar Vilayətinin rayon mərkəzlərində mətbəələri yenidən qursun, erməni dilində ədəbiyyata vilayət əhalisinin tələbatının ödənilməsini nəzərdə tutmaqla bu ədəbiyyatın buraxılışını genişləndirsin».*

Təkcə Əsgəran rayonu ərazisində Badara və Qarqar çayı üzərində iki böyük dəryaça tikilməsi nəzərdə tutulurdu. Dəryaçaların tikintisi üçün o zamanın pulu ilə on iki milyon manat ( *Ş.S. - 12 milyon manat - 12 milyon ABŞ dolları demək idi)* Azərbaycan büdcəsindən pul ayrılmalı idi. Xalq isə ciddi surətdə SSRİ Nazirlər Sovetinin qərarına öz etirazını bildirirdi.

Ermənilər Qarabağı Azərbaycandan ayırmaq üçün gündə bir forma fikirləşib tapırdılar. Hiss edirdim ki, Moskva istəyir Qarabağı Azərbaycanın idarəçiliyindən çıxartsın. Hətta **15 iyun 1988-ci ildə** Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə keçməsi haqqında qərar qəbul etdi. Həmin qərar bu günə qədər ləğv olunmayıbdı.

## DAĞLIQ QARABAĞDA XÜSUSİ İDARƏ FORMASI

**- Xüsusi idarə forması tətbiq ediləndən sonra Dağlıq Qarabağda bir dəyişiklik yarandımı?**

- SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə 1989-cu il yanvarın 12-də **Dağlıq Qarabağda xüsusi idarə forması** tətbiq edildi.

## ERMƏNİLƏR MƏSULİYYƏTSİZLİYİ, CƏZASIZLIĞI GÖRÜB CÜRƏTLƏNDİLƏR

Onu da deyim bu fərmandan təxminən 6 ay qabaq, **1988-ci ilin yayından** A. Volski Qarabağa göndərilmişdi. O, Yuxarı Qarabağdakı hadisələri ətraflı öyrənib, SSRİ Ali Sovetinin bu qərarı üçün zəmin hazırlamalı idi.

Fərmanın mətnindən də göründüyü kimi Vilayət tamamilə Azərbaycanın tabeçiliyindən çıxarıldı. Yəqin o vaxtkı rəhbərlik Stepanakertdəki mitinqlərin qabağını vaxtında ala bilsəydi, hadisələr heç də bu şəkil almazdı. Allah şahiddir ki, əvvəllər ermənilər Stepanakertdə mitinqə çıxanda necə qorxurdular. Onlar məsuliyyətsizliyi, cəzasızlığı görüb cürətləndilər.

Moskvanın nümayəndəsi A.Volski ermənilərin məsuliyyətə cəlb olunmasına imkan vermirdi.





## POQOSYAN DEDİ Kİ, QOY QORBAÇOVLA DANIŞIM, BİR QƏRARA GƏLƏRƏM

**- Siz yəqin Dağlıq Qarabağın yeni katibi H. A. Poqosyanla da görüşmüsünüz?**

- Mitinqlərin qızğın vaxtında girdim Poqosyanın yanına. Dedim bu iğtişaşların qabağını almaq lazımdır, yoxsa bizim camaat Ağdamdan hücum edib, özləri bu mitinqləri dağıdacaqlar. Poqosyan dedi ki, qoy Qorbaçovla danışım, bir qərara gələrəm.

Sovet Ordu hissələrinin, SSRİ Daxili İşlər Nazirliyinin və SSRİ Prokurorluğunun nümayəndələrinin neçə vaxtdır ki, Dağlıq Qarabağda olmalarına baxmayaraq, vilayətdə vəziyyətin sabitliyini pozmaqda «ad çıxarmış» heç bir erməni qulduru tutulub cəzalandırılmırdı. Əksinə ermənilər həmin orqanlar tərəfindən müdafiə olunurdular.

## ERMƏNİLƏR MOSKVANIN RAZILIĞI İLƏ MİTİNQLƏRƏ BAŞLAMIŞDILAR

**- Azərbaycan rəhbərliyindən yeganə şəxssiniz ki, Şuşanın Topxanasına getmisiniz və ermənilərin əməlli-başlı dərsini vermisiniz.**

- **18 sentyabr 1988-ci ildə** ermənilər Xocalıya hücum etmiş, orada layiqli cavablarını da almışdılar. Üç gün sonra - sentyabrın 21-də Xankəndində azərbaycanlılar yaşayan 180 dövlət sektoruna məxsus mənzillər, 60-dan çox xüsu-

si evlər yandırılmışdı. Həmin mənzillərdə yaşayan azərbaycanlılar Ağdama pənah gətirmişdilər. İlk köçkün ordusu gələndən sonra Ağdamda qərargah yaradılmışdı. Bakıda və Azərbaycanın digər bölgələrində mitinqlər keçirilirdi. Ermənistanın Topxana meşəsində apardığı tikintinin dayandırılması tələb olunurdu. Xankəndində Volskinin yanına getdim. Dedim, bu nədir, Ermənistandan gəlib Azərbaycan torpaqlarında qanunsuz tikinti aparırlar. Özü də Topxana kimi bir yerdə. Topxana bizim tarixi abidədir. Tikinti təcili dayandırılmalıdır. Dedi, ola bilməz. *(Guya heç nədən xəbəri yoxdur).* Sabah gələrsiniz adam verərəm, gedərsiniz Topxanaya. Sonra əlavə etdi ki, tək Topxanaya yox, Malıbəyliyə, Xocalıya, Kərkicahana da baxarlar; siz də o kəndlərdə tikinti aparırsınız. Belə bir şərt irəli sürdü ki, əgər Topxanada iş dayandırılacaqsa, onda sizin də kəndlərdə gedən tikinti işləri dayandırılmalıdır. Dedim ki, buna ixtiyarın yoxdur.

Mən tez Xocalıya, Malıbəyliyə gedib, camaata dedim ki, gələn olsa, deyərsiniz özünüzə ev tikirsiz. Həqiqətən də Malıbəylidə, Quşçularda Ermənistan qaçqınları, Xocalıda isə Özbəkistandan pənah gətirən türklər məskunlaşmışdı. Həm də Sumqayıtdan gələn inşaatçılar Malıbəylidə tikinti aparırdılar. Xocalıda isə fabrik quraşdırırdıq. Biz Topxanada aparılan tikintiyə baxmaq üçün Şüşü kəndinə **(Ş.S. Şüşü erməni kəndidir)** getdik. Ermənilərdən R. Babayan, Maksim Mirzoyan və Sov. İKP MK-nın məsul işçiləri də bizimlə getmişdilər. Ermənilərlə ruslar qabaqdakı






**Ağdərənin ermənilər tərəfindən məhv edilmiş Gəşxana kəndi**

avtomaşında hərəkət edirdilər. Onlar nə işarə verdilərsə, kəndin erməniləri Dadaş Asanovla mənim oturduğum maşına hücum çəkdilər. Qadınlar, uşaqlar maşını daşa basdılar. Kənardan bizə tərəf atəş açdılar. «ZİL» markalı avtomaşınla bizim avtomaşını vurmaq istədilər. Mənim Stepanakert şəhər sovetinin sədri Maksim Mirzoyanla böyük mübahisəm düşdü. Dedim bu işləri törədən sənsən. Səni məsuliyyətə aldıracağam. Sonra biz Malıbəyliyə, Xocalıya gedəndə Maksim Mirzoyan qorxdu, bizimlə getmədi. O, Xankəndi Dövlət Avtomobil Müfəttişliyi postunun yanında maşından düşüb, piyada şəhərə tərəf yollandı.

Xocalıda da camaatla görüşdük. Onlar bildirdilər ki, biz heç bir tikinti aparmırıq, işləri dayandırmışıq. Səhəri günü Asanovla mən yenidən Volskinin yanında olduq. Dedim bu nə səhnə idi, quraşdırmışdınız?!

Təzədən qayıtdıq Ağdama.

Ağdamda Topxanaya görə mitinq gedirdi. Mitinqdən iki nəfər, Dadaş müəllim, Ağdam aeroportunun rəisi Məzahir Məmmədov və mən, yəni, beşimiz vertolyotla Topxanaya uçduq. Cıdır düzü şuşalılarla dolu idi. Onlar bizim Topxanaya gəlişimizi görüb alqışlayırdılar.

## «Ə.ORUCOV QƏTİYYƏTLƏ ERMƏNİLƏRƏ BİR SAAT MÜDDƏTİNƏ TOPXANANI TƏRK ETMƏYİ ƏMR ETDİ»

**Həmin günləri Ağdam aeroportunun rəisi Məzahir Məmmədov belə xatırlayırdı:**

*«Yaxşı yadımdadır, 1988-ci ilin noyabr ayı idi. Bütün xalq ayağa qalxmışdı. Mitinqlərdə ermənilərin Topxana meşəsində tikinti aparmalarına etiraz səsləri ucalırdı. O vaxt birbaşa Bakının Azadlıq meydanından zəng edib Topxanada tikinti işlərinin gedib-getməməsini soruşurdular. Bu zaman Ə.Orucov böyük bir məsuliyyəti cəsarətlə boynuna götürüb Topxana meşəsinə getməyi qərara aldı. Həmin vaxt Şüşü kəndi yaxınlığında onun getdiyi maşın ermənilər tərəfindən atəşə tutulduğundan o, Ağdam aeroportuna qayıtmışdı.*

***24 noyabr 1988-ci il idi.*** *Nazirlər Sovetinin sədr müavini Asanov, Ə.Orucov, mən və iki nəfər ağdamlı cəbhəçi mitinq iştirakçıları ilə Topxanaya uçduq. Yerə enməmişdən əvvəl gördük ki, Şuşanın Cıdır düzündə minlərlə adam mitinq edir. Hələ yerə enməmişdik. Hər bir tərəfdən hadisə baş verəcəyindən ehtiyat edirdik. Ona görə də geri qayıdıb yerə enməmək təklif olundu.*

*Əlisaab Orucov nazir kimi bütün məsuliyyəti öz üzərinə götürdü və qətiyyətlə yerə enməyə əmr verdi.*

*Yerə endik, bir anın içində hər kolun dalından bir erməni çıxdı. Orucov əmr etdi ki, mülki şəxslər düşsün, hərbçilər isə vertolyotda qalıb mənim komandamı gözləsinlər. Əslində, vertolyotda ekipajdan başqa heç kim yox idi. Amma Əlisaab müəllimin bu sözləri erməni silahlılarına güclü təsir etdi və onlar yerlərindəcə dayandılar. Ə.Orucov sağ əlini sırıqlısının yaxalığından qoynuna soxaraq birbaşa, sürətlə tikinti meydanına tərəf irəlilədi. Artıq bir metrdən çox divar ucaldılmışdı. Üz-gözündən zəhrimar yağan bir erməni qabağa çıxıb soruşdu ki, sizi kim göndərib? Volskinin və Maksim Mirzoyanın sizin bura gəlişinizdən xəbəri varmı? Ə.Orucov şəstlə onlara «İcazəni verən mənəm, bura bizim torpaqdır», - deyə onların səsini kəsdi. Bu vaxt ağdamlı cəbhəçi dəllək Rəşid də yaman qızışmışdı. O da dişinin dibindən çıxanı ermənilərə deyirdi. Sonralar o, qəhrəmanlıqla döyüşlərdə şəhid oldu (Allah rəhmət eləsin).*

*Ədliyyə naziri qəti şəkildə ermənilərə bildirdi ki, burada heç bir tikinti olmayacaq, bu daşları da çiyninizdə daşıyacaqsınız, hər bir kəsilən ağac üçün də cavab verməli olacaqsınız. Ermənilər isə «biz buradan çıxan deyilik», - deyə inad edirdilər. Lakin Ə. Orucov qətiyyətlə onlara bir saat müddətinə Topxananı tərk etməyi əmr etdi. Ermənilər çəkilib getdilər. Bundan sonra biz Ağdama qayıtdıq.*

*Ertəsi gün artıq ermənilər Ə.Orucovdan Arkadi Volskiyə şikayət etmişdilər.* **Ona görə A. Volski ədliyyə nazirini milli ədavəti qızışdırmaqda, millətçilikdə təqsirləndirirdi və ona açıqca belə bir sualla müraciət etmişdi:** *«Məgər sizdən başqa respublikada rəhbər yoxdur?» Bu mübahisə nə qədər dramatik, ağır, gərgin olsa da, nəticədə Volski Topxanada tikinti işlərinin dayandırılması haqqında əmr verməyə məcbur oldu. Hətta sonralar rəhmətlik Alı Mustafayevlə birlikdə vertolyotla*

*Topxanaya uçduq və o yerləri videolentə aldıq. Artıq Topxanada bir nəfər də erməni yox idi. Bu gün o söhbətlər, bəlkə də çoxlarına adi görünə bilər. Ancaq o dövrdə bu işləri görmək hər kəsin işi deyildi. Topxananı o vaxt yağıların pəncəsindən Əlisaab Orucov xilas etdi»...*

***

Ə.Orucovun ermənilərin, M.S.Qorbaçovun və A.Volskinin ünvanına dediyi ittihamlar A.Volskini yaman qəzəbləndirmişdi. A.Volski Ə.Orucovu Şuşi kəndin sovet sədrinin şikayət ərizəsi ilə tanış edib, ondan izahat istədikdə, o, izahat verməkdən imtina etmişdir. A.Volskinin tələbi ilə DQMV artıq Moskvaya tabe olduğundan, orada Stepanakertdə SSRİ Prokurorluğunun Mühüm İşlər Üzrə müstəntiqi Ə.Orucovu Volskinin oturduğu qərargaha dəvət edib, sorğu-sual etmiş, Ə.Orucov isə ona heç bir izahat verməmişdir. Ə.Orucovun haqqında A.Volskinin görmək istədiyi tədbirdən Kərgicahan və Malıbəylidə yaşayan camaat xəbər tutub, qərargaha gəlib bu məsələ ilə maraqlandıqda, onlar ehtiyat edərək Orucovdan çıxıb getməsini və sonra bir də onu dəvət edəcəklərini bildirmişlər. Sonradan Ə.Orucovu bu məsələ ilə bağlı daha narahat etməmişlər.

## VOLSKİ QARABAĞDA TAM HAKİM İDİ

... Mən Ağdama qayıtdım və yenidən Xankəndinə döndüm. Volskiyə dedim ki, Topxanada oldum. Ermənilər oraları söküb dağıdırlar. Tikinti aparırlar. Elə həmin gün Topxanaya rus əsgərlərini göndərdilər və tikinti aparılan sahə nəzarətə götürüldü. On yeddi nəfər tikinti aparan erməni Yerevana yola salındı. Həmin günün səhəri rəhmətlik Alı Mustafayev gedib Topxananı lentə aldıq. Onu da deyim ki, Volski Qarabağda tam hakim idi. Xankəndindəki rus ordusu, ümumiyyətlə bütün təşkilat rəhbərləri onun əmri olmadan addım belə ata bilməzdilər.





## RUS ƏSGƏRLƏRİ KƏNDLƏRƏ DOLUŞUR, AZƏRBAYCANLILARI TƏHQİR EDİRDİLƏR

**1989-cu ilin may, iyun, iyul aylarında** Yuxarı Qarabağın Azərbaycan kəndlərində misli görünməmiş hadisələr baş verdi. Zirehli maşınlarla, avtomat, pulemyotla silahlanmış rus əsgərləri kəndlərə doluşur, azərbaycanlıları təhqir edir, əllərinə keçəni aparırdılar. Bu hadisələrdən biri Ağdərənin Sırxavənd, Baş Güney, Orta Güney kəndlərində törədilmişdi. Camaat nə edə bilərdi. Səhər saat 5 radələrində silahlanmış rus vəhşiləri kəndlərə doluşur, pasport rejimi yoxlamaq adı ilə uşaqları, qocaları döyür, təhqir edirdilər. Rus vəhşiləri Sırxavənd **(Ş.S. - Ağdərənin kəndidir)** kəndində xüsusi amansızlıq göstərmişdilər. Eyni qayda ilə iki min nəfərlik rus ordusu 1989-cu il avqustun 14-dən 15-nə keçən gecə saat 3 radələrində Sırxavənd kəndini və Stepanakertin azərbaycanlılar yaşayan «Kərpicni» **(Bu küçəyə meşə küçəsi (lesnoy) də deyirdilər)** adlanan məhəlləsini mühasirəyə almış və axtarış aparmağa

başlamışdılar. Etiraz edənlərə divan tutmuşdular. **Sırxavənddən dörd nəfər cavanın** - Fərzəliyev Nazim, Fərzəliyev Səməd, Fərzəliyev Musa və İmanov Novruzu Xankəndinə qolu qandallı gətirmişdilər. Biz özümüzü çatdırana qədər sırxavəndli Nazim və Səməd qardaşlarına həqiqi divan tutmuşdular. Çox çətinliklə onları Volskinin və ermənilərin əlindən xilas edə bildik. Hadisəyə etiraz əlaməti olaraq Yuxarı Qarabağın kəndlərindən Şuşaya mitinqə toplaşmışdılar. Açığını deyim ki, bu hadisədən yaman sarsıldım. General Safonov həmin vaxt Sırxavənddə A. Volskinin əmrini yerinə yetirmişdi. Özü də həmin azərbaycanlıları bilirsiniz necə aldıq? Ağdərə-Xankəndi yolunda Ağdərə polis şöbəsinin rəisini, baş müstəntiqi və rayon prokurorunu azərbaycanlılar girov götürdülər. Onları azərbaycanlı gənclərlə dəyişdik. O günləri mən heç zaman unuda bilmərəm. Uşaqdan-böyüyə kimi iki gün Şuşa şəhəri oyaq qaldı. Siz məktəb yaşlı uşaqların gözlərindəki intiqam hissini görsəydiniz dəhşətə gələrdiniz. Bax, vətənpərvərlik mən buna deyərdim. Elə həmin ərəfədə, 1989-cu il avqust ayının 19-da Ağdam Şəhər Partiya Komitəsinin iclas salonunda Qarabağın bütün ətraf rayonlarının hüquq-mühafizə orqanlarının əməkdaşlarının iştirakı ilə müşavirə keçirdim. Müşavirəyə DQMV-nin Stepanakert şəhərində yerləşən hərbi komendantı general Safonovu da dəvət etdim. Onun qeyri-qanuni hərəkətlərini bir-bir sadalayıb dedim ki, sizin bu hərəkətləriniz Azərbaycan əhalisini DQ-dan didərgin salmaqdan ibarətdir. O, bir günün içərisində Stepanakertin





«Kərpiçni» adlanan məhəlləsində yaşayan azərbaycanlılara qarşı ermənilərin hücumların rəvac verib, oradan bir çox insanları didərgin salmışdır. Safanov A.Volskinin əmrini bir əsgər kimi yerinə yetirdiyini söylədi. Mən də ona bildirdim ki, əgər belə getsə, siz Qarabağı tərk etməli olacaqsınız.

**- Əlisaab müəllim, 1989-cu ildə Yuxarı Qarabağın ermənilərdən ibarət «Qarabağ» komandası Ermənistan birinciliyində çıxış edirdi. Respublika rəhbərliyi ermənilərin bu qanunsuz hərəkətlərinə necə reaksiya verdi?**

- Respublika İdman Komitəsinə xəbər çatdırmışdım ki, Qarabağın futbol komandası Ermənistan birinciliyində çıxış edir. Həmin dövrdə respublika İdman Komitəsinin sədri Yura Məmmədov idi. **1989-cu il mayın 11-də** o, Ağdama gəldi. Biz ləngimədən elə həmin günü Xankəndinə getdik.

## ERMƏNİ QADINLARI DA ARA VERMƏDƏN «BİZ BAKINI BEYRUTA ÇEVİRƏCƏYİK» DEYƏ, QIŞQIRIRDILAR

**Hadisəni Yura Məmmədov belə xatırlayır:**

*«Bu məsələni aydınlaşdırıb tədbir görmək üçün həmin dövrdə ədliyyə naziri işləyən Əlisaab Orucovla Xankəndinə getdik. Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin qabağında sakitlik idi. Arkadi Volskinin qarşısında bir çox məsələlər qaldırdıq. O da bizə dedi ki, gedin müavinim Plisovun yanına, bu məsələləri o həll edəcəkdir. Mən, Əlisaab Orucov və o*

*vaxtkı respublika Nazirlər Soveti sədrinin müavini Protokovets, Volskinin müavini - o vaxtkı SSRİ rabitə nazirinin müavini Plisovun yanına gəldik. Rəhmətlik Vaqif Cəfərov da burada idi. Heç 5 dəqiqə keçməmiş bayırdan səslər eşidildi və qapı açıldı. Guya gözətçi əsgərlər heç kimi içəri buraxmaq istəmirdilər. Bir azdan bar-bar bağıran qadın və kişi dəstəsi kabinetə daxil oldu, onların əllərində qəzet və polietilen torbalar var idi. Bu zaman mən Əlisaab Orucovdan soruşdum ki, bu nədir? O da mənə dedi ki, ehtiyatlı ol, özünü o torbalar və qəzetə bükülən-dən qoru. Plisov isə özünü itirmişdi. Dərhal hara isə zəng vurdu və hərbi qüvvə göndərilməsini xahiş etdi. Lakin heç kim gəlmədi. Erməni qadınları da ara vermədən «biz Bakını Beyruta çevirərəcəyik!», «Orucov Qarabağdan rədd olsun!» deyə bağırırdılar. Plisov üzünü Orucova tutdu ki, yaxşısı budur kabinetdən çıxın, axırı pis nəticə verə bilər. Lakin Əlisaab müəllim inadından dönmədi ki, bizsiz məsələləri həll edə bilməyəcəksiniz.*

*Protokovets də vəziyyətin gərginləşdiyini görüb xahiş etdi ki, mən də Əlisaab Orucovla kabineti tərk edim. Dəhliz adamla dolu idi. Çığır-bağır bir-birinə qarışmışdı. Küçə söyüşləri ilə bizi hədələyirdilər. Ağzından süd iyi gələn bir erməni Ə. Orucovun qabağını kəsdi ki, səni bu meydanda tikə-tikə doğrayacağam. Əlisaab müəllim isə başını dik tutaraq: «Siz qorxaq millətdən elə kişi çıxmayıb ki, adam doğrasın!» - deyə kütləni yararaq aşağı endi. Meydana beş min nəfərdən çox adam yığışmışdı. Meydanda toplaşanlar əllərində armatur parçaları*





*olan beş minə yaxın erməni: «Orucov, sukin sın, von iz Karabaxa» qışqırırdılar. Hətta bu hadisəni o vaxtlar Moskvadan «Vremya» proqramı da geniş şəkildə göstərmişdi.*

*Beş-on metr qalırdı ki, Vilayət Partiya Komitəsinin binasına çataq, onlar üstümüzə cumdular. Əlisaab müəllim əlimi sıxdı ki, qamətini dik tut. Ola bilsin ki, damlarda qurulmuş kameralarla bizi çəkirlər. Biz qaça da bilərdik. Lakin qürurumuza sığışdırmadıq. SSRİ Təhlükəsizlik Nazirliyinin hərbçiləri bura gəlsələr də heç bir işi görə bilmirdilər. Artıq A. Volski və digər generallar, hərbçilər də oturduqları kabinetlərdən Vilayət Partiya Komitəsinin qabağına enmişdilər. Mən Volskiyə yaxınlaşdım ki, bu beş min nəfər hardan bilir ki, Ə. Orucov buradadır? Bunu məndən niyə soruşursunuz? Budur, mənim də köynəyimin düyməsini qırıblar. Azərbaycanlıları müdafiə etdiyimdən, məndən də Moskvaya şikayət yazırlar, - deyə Volski özündən çıxdı. Ə. Orucov isə bəsdirin, hamısı öz qurmanızdır, - dedi. A. Volski kinayə ilə çıx görüm buların caynağından, necə çıxacaqsınız, - deyə dişlərini ağartdı. Bu zaman Vaqif Cəfərov və Protokovets də gəldilər. Onlara dəyib-dolaşan yox idi. Məlum oldu ki, heç bir məsələni də həll etməyiblər. Mən Ə.Orucovla maşına oturduq və kütlənin ortası ilə maşını sürdürdük. Armatur, daş-kəsək artıq işə düşmüşdü. Kinolarda, tamaşalarda hətta, Afrikada olanda çox vəhşilər görmüşdüm, amma ömrümdə belə vəhşilik görməmişdim. Onda hiss elədim ki, Ə. Orucov Qarabağda olduğu illərdə nələr çəkib.*

*Ertəsi gün Protokovetslə Bakıya qayıtdıq. Səhər 9.30-da Ə. Vəzirovun köməkçisi zəng etdi ki, bəs Vəzirov sizi axtarır. Bir azdan Vəzirovla telefon əlaqəsinə girdim.*

**- Kim sizə icazə verib ki, Xankəndinə gedəsiz?**

- Əbdürrəhman Xəliloviç, mən məgər xaricə getmişdim ki, icazə alam?

**- Sənə, səninlə orda olanlara görə yenə də Xankəndində mitinqlər başlayıb. Kim buna cavab verəcək?**

- Əbdürrəhman Xəliloviç, bizim nazirlər oraya əgər tez-tez getsəydilər, xalqın vəziyyətiylə maraqlansaydılar, belə olmazdı. Mən oraya gəzməyə getməmişdim ki...

- Eybi yoxdur, sizin məsələnizə Mərkəzi Komitənin Bürosunda baxarıq. Görünür sizi partiyadan xaric edəcəyik.

- Siz məni büroda müzakirə edə bilərsiniz. Ancaq siz mənə bilet verməmisiniz.

**- Yaxşı, araşdırarıq. Siz Xankəndində kiminlə oldunuz?**

- Orucovla.

**- Bax, elə Orucov kimi, sənin kimi adamlar orada erməniləri qızışdırırlar. Qoyun millət yaşasın da...**

Elə həmin gündən də Vəzirov mənimlə düşdü. Bədən Tərbiyəsi İnstitutunun tələbələrinin mitinqlərdə iştirakını dəfələrlə mənə irad tutdu. Hər dəfə mənimlə söyüşlə danışardı. Bir dəfə Protokovetsə şikayətləndim. Dedi ki, işin yoxdur, fikir vermə. Bir də ki, Ə. Orucovla Xankəndində olmağım onu bərk narahat edib.

**«Xalq qəzeti», 16 mart, 1997-ci il.**





**1992-ci il sentyabr.** İşğaldan azad edilmiş Ağdərə şəhəri. Orta Güney kənd camaatı Dəmirli kəndinə köç ərəfəsində



A. Volski mənim Xankəndinə gəlməyimdən yaman narahatçılıq keçirirdi. Vəzirova zəng edib tapşırırdı ki, onu Xankəndinə göndərməyin. A.Volski tez-tez qərargaha zəng edir və soruşurdu ki, Ağdamdasan, deyirdim hə. Bəs deyirlər hazırda siz Dağlıq Qarabağın kəndlərindəsiniz. Cavab verdim ki, Ağdamdayam. Hiss olunurdu ki, mənimlə danışa-danışa yenə Ağdamda olduğuma inanmır, elə hesab edir ki, onunla danışan başqa adamdır.

**1989-cu il sentyabrın 9-da** mən «Azadlıq» meydanında A.Volskinin cinayətlərini mitinqdə çıxış edib bir milyon xalqa çatdırandan sonra hadisələr daha da kəskinləşdi. Xalq qətiyyətlə xüsusi idarə komitəsinin ləğv olunmasını tələb edirdi. Axır ki, Azərbaycan SSR Ali Soveti özündə güc tapıb yığışdı və xüsusi idarə komitəsinin ləğv olunmasını SSRİ Ali Soveti Rəyasət Heyəti qarşısında vəsatət qaldırdı.

## XALQ YAZIÇISI MƏMMƏD ARAZ DA MƏNƏ MƏKTUB GÖNDƏRMİŞDİ

**- Əlisaab müəllim, o zamanlar sizin televiziyada çıxışınız yaman səs-küyə səbəb oldu?**

Həmin vaxt Azərbaycan televiziyasının birinci proqramı ilə bizim «Aktual ekran» verilişində çıxışımız oldu. Məndən başqa ali məhkəmənin sədri Hüseyn Talıbov, bir də respublika prokurorunun birinci müavini Murad Babayev çıxış etdi. Mən öz çıxışımda qeyd etdim ki, ay Qarabağ camaatı, torpağınızda bu gün müharibə gedir. Yaxşı olar, öz mal-qaranızı satıb, silah alasınız. Bir fikirləşin, qonşuluğunuzda olan ermənilәri ruslar silahlandırır. Onlar da silahı pulnan alırlar. Mən demirəm ki, silah alıb kimisə öldürün. Mən deyirəm, silah alın, torpağınızı qoruyun. Mən orda həmçinin dedim ki, belə gərgin müharibə gedən vaxtda Dağlıq Qarabağın Azərbaycan kəndlərində hamının silahı olmalıdır. Bir məsələni də qeyd edərək dedim ki, ay imkanlı adamlar, gedin öz istirahətinizi bizim gözəl Qarabağda keçirin. Mən bütün xalqa müraciət edib dedim ki, hamılıqla Qarabağa üz tutmaq lazımdır. Bütün xalq ayağa qalxmalıdır. Bu təkcə Qarabağ camaatının problemi deyil, çox ciddi məsələdir. Ermənistanla Azərbaycan arasında gedən münaqişə deyil, müharibədir. Bu çıxışımdan üç gün sonra şair Məmməd Araz da mənə məktub göndərdi. Həmin məktubu sizə təqdim edirəm, baxın:





**Hörmətli Əlisaab müəllim!**

*İki gün bundan əvvəl Azərbaycan televiziyasının «Aktual ekran» rubrikasında Ali məhkəmənin sədri, respublika prokurorunun müavini və sizin çıxışınızı dinlədim. O yoldaşlar nə danışdı, necə danışdı, onda işim yoxdur, məqsədim ayrıdır. Məqsədim bu məsələlərə öz münasibətimi bildirməkdir. Sizin birbaşa təklifləriniz, sətiraltı və ya eyhamlı söhbətiniz mənə çox aydındır. Sizin əvvəllər də buna yaxın və ya elə bu mövqedə çıxışlarınız olub. Ekranda da, ayrı-ayrı yığıncaqlarda da. Biz nə vasitə ilə olur-olsun özümüzü qorumalıyıq.*

*Mən hər hansı zorakılığın, insana qarşı silah işlətməyin əleyhinəyəm. Belə hallar bəşəri demokratiyanın və sivilizasiyanın təbiətinə, ümumən insanlığa ziddir. Elə ki, xalqın, vətənin, torpağın tale məsələsi həll olunur, onda ən mədəni, ən humanist ziyalı da silaha sarılıb qəddarlaşa, «quduzlaşa» bilər.*

*Bu hadisələr başlananda mən «Kommunist»qəzetinə məktub yazmışdım. O məktubu çap eləmədilər. O vaxt mən yazmışdım: «Erməni ekstremistləri» deyib, xalqımızı azdırmayın. Olanı olduğu kimi də təqdim etmək lazımdır. Bütün ermənilər bizimlə davaya girişib, bizdən torpaq istəyirlər. Bunun ayrı adı yoxdur.*

**L.Tolstoyun belə bir sözü var:** *«Əgər naqis adamlar (o, paroçnıe lyudi), müəyyən məqamda birləşirsə, və bu birləşmədə müəyyən qüvvə (qorxu) təşkil edirsə, onda yaxşı adamların bir yolu qalır: Onlar kimi olmaq!» Biz ermənilərlə qonşu, müəyyən vaxtlarda dost olmuşuq. Görünür onlar daha qonşuluq şərtlərinə, (hələ dostluğu demirəm) əməl eləmək fikrindən tamam əl çəkiblər. Bir dəfə bizim Yazıçılar İttifaqında (60-cı illərin əvvəllərində) bir yığın-*

*caqda erməni yazıçısı Qaragin dedi: «Dostluq bir qırmızı almadır bir gün sizdə, bir gün bizdə». Tutaq ki, qırmızı alma indi bizdədir, bəs sonra! Sonrası!.. Sizin fikirlərinizə şərik oluram. Bu hadisələr zamanı xalqımızı ayıq-sayıq olmağa çağırır, mövqeyinizə tərəfdar oluram. Bu, ürəyimin səsi idi. Sizə yazdım. Necə qəbul edəcəksiniz, deyə bilmərəm.*

**Hörmətlə: Məmməd ARAZ,**

*17 aprel 1990-cı il*

***

Həmin gün Qarabağa qayıtmaq istəyirdim, gördüm ki, camaat axın-axın «Azadlıq» meydanına gedir. Meydana bir milyondan artıq əhali toplaşmışdı. Mən də meydanda mitinqin gedişini izləyirdim. Birdən tribunadakılardan kimsə məni gördü və mikrafonla elan etdi ki, Əlisaab Orucov da meydandadır, məni tribunaya dəvət etdilər. Mitinq iştirakçıları mənim qoluma girib tribunaya apardılar. Mən orada çıxış elədim. Qarabağda gedən hadisələrin əsl mahiyyətini xalqa çatdırdım. Dedim ki, Volski Azərbaycan xalqına qarşı görünməmiş cinayətlər törədir. Elə bu sözlərdən sonra meydan dəhşətli dərəcədə təlatümə gəldi. Xalqa çatdırdım ki, Arkadi Volski ermənilərlə cinayət əlaqəsinə girib, Qarabağ torpaqlarını işğala məruz qoydurur. Qeyd elədim ki, Volski ermənilərin xeyrinə işlədiyinə görə dərhal Qarabağdan qovulmalıdır. Sonra bir məsələni də qeyd etdim ki, SSRİ prokurorluğunun istintaq qrupu və SSRİ Daxili İşlər Nazirliyinin əməkdaşları respublikada heç bir əsas olmadan





zavod, fabrik, ticarət müəssisələrinin rəhbərlərini zindanlara salır, əziyyətlər verir, əsassız istintaqlar aparırlar. Azərbaycanda ikinci Özbəkistandakı vəziyyəti yaratmaq istəyirlər. Sonra da məsuliyyətə cəlb etdikləri adamların qohumları ilə Bakının bağlarında görüşür, onlardan külli miqdarda pul alırlar.

Özbəkistanda SSRİ Prokurorluğunun müstəntiqləri Qdılyan və İvanovun əsassız olaraq özbəklərin başlarına nə bəlalar açdıqları hamının yadındadır. Minlərlə insanı zindanlara doldurub, onların əmlaklarına yiyələniblər. Qdılyan orada əldə etdiyi pul vəsaitini Dağlıq Qarabağa göndərib, bizim torpaqlarımızın işğal edilməsinə sərf etdi. Ona görə də onlar Azərbaycanda da belə mənbə axtarırdılar. Lakin Azərbaycanda işlərini başa çatdıra bilmədilər və onların məhkəməyə verdikləri insanlar da bəraət qazandılar. Özləri də respublikanı tərk etməyə məcbur oldular. Bu məsələyə də bilavasitə Azərbaycan Respublikasının Daxili İşlər nazirinin birinci müavini Barannikov rəhbərlik edirdi. İşlərin başında isə Azərbaycan Respublikasının Mərkəzi Komitəsinin ikinci katibi V.Polyaniçko dururdu. Onlar istintaq altında olan ayrı-ayrı adamlara təzyiqlər göstərirdilər ki, vəzifəli adamların əleyhinə ifadə versinlər. Ona da nail ola bilmədilər. Mən mitinqdə elan etdim ki, SSRİ Prokurorluğunun istintaq qrupunun və SSRİ Daxili İşlər Nazirliyinin əməkdaşları Azərbaycandan rədd olsunlar.

Həm də mənim qulağıma belə bir söz çatmışdı ki, bundan əvvəl «Azadlıq» meydanında keçirilən mitinqdə şair

Qabil çıxış edərək deyib ki, Əlisaab Orucov Dağlıq Qarabağın keçmiş birinci katibi Boris Gevorkovu Ədliyyə Nazirliyində işə götürüb. Mitinqdə dedim ki, bu mənə qarşı çox ağır ittihamdır, ona görə də sizin qarşınızda bu ittihama cavab verməliyəm.

Bu mitinq 9 sentyabr 1989-cu ildə olmuşdur. Bununla bağlı mənim video kassetlərim də qalır.

### K.BAĞIROV TAPŞIRDI Kİ, GEVORKOVA BİR İŞ VERMƏK LAZIMDIR

**- Necə oldu ki, siz Boris Gevorkovu Ədliyyə Nazirliyində işə qəbul etdiniz?**

- Boris Gevorkovu Ədliyyə Nazirliyində işə qəbul etməyə məcbur edildim. O zaman respublikanın birinci katibi Kamran Bağırov mənə zəng edərək dedi ki, Boris Gevorkov Azərbaycan Respublikasının Dövlət Arbitrajmda işləyir. Oranın rəhbəri qadındır. Onu orada saxlamağa qorxur, deyir ki, bura hücumlar edirlər. Mən ona bildirdim ki, Ədliyyə Nazirliyində boş iş yeri yoxdur. Bir müddət sonra Kamran Bağırov yenə mənə zəng etdi və dedi ki, bəs səndə Çingiz Bəşirov adlı əməkdaş işləyir. Mən Çingiz Bəşirovu Azərbaycan Kommunist Partiyası İnzibati Şöbəsinə təlimatçı götürürəm və sizdə ştat boşaldıram. Həmin ştata Gevorkovu qəbul edərsiniz. Beləliklə, mən də Baris Gevorkovu Ədliyyə Nazirliyində işə qəbul etdim. Dəfələrlə Gevorkova deyirdim ki, siz bura nahaq gəlmisiniz, yaxşı olar ki, öz xoşunuzla çıxıb gedəsiniz. O mənim bu sözlərimdən nəticə çıxarmaq əvəzinə daha da azğınlaşırdı. Hətta o elə arxayınlaşmışdı ki, yaşadığı evə piyada gedib-gəlirdi. Lap arxayın... Metro ilə gedib-gəlirdi. Onun evi köhnə Mərkəzi Komitənin o biri üzündə, «Lermontov» küçəsində idi. Həmin bina da hasara alınaraq qorunurdu. Hələ bundan əvvəl mən öz işçilərimə demişdim ki, siz buna göz qoyun görək, o evə necə gedib-gəlir.

İşçilərim mənə dedilər ki, Əlisaab müəllim, o, əmin-arxayın metro ilə gedib-gəlir. «Baksovet»dən evinə qədər olan məsafəni piyada gedir. Gördüm ki, Gevorkovun nə işdən, nə də Bakıdan getmək fikri yoxdur. O zamanlar mənim bir Mürsəl adlı köməkçim var idi. Çox qeyrətli oğlandı. Dedim, Mürsəl, bu alçaq Gevorkovu güdmək lazımdır. Onun Ədliyyə Nazirliyində bizimlə bir yerdə işləməyi bizə qarşı təhqirdir və həm də camaat buna görə bizi qınayır. O vaxtı qış olduğundan yer-yurd buz idi. Dedim - Mürsəl bu Gevorkova elə təpik vurmaq lazımdır ki, bir də yerindən qalxa bilməsin. Mürsəl dedi ki, Əlsaab müəllim, mən çoxdan gözləyirdim ki, bu itin bizim nazirlikdən qovulması üçün mənə fürsət verəsiniz.

...Hadisənin necə baş verdiyini hələ indiyə qədər mən də Mürsəldən soruşmamışam. Gevorkov işdən çıxıb evinə gedərkən Bünyadski küçəsindən indiki İdarəetmə Akademiyasına dönürmüş. Elə oradaca, qaranlıqda uşaqlar *(qış vaxtı olduğundan hava tez qaralırdı)* Gevorkovu əzişdirmiş, yaxşıca təpikləmişdilər. Səhər tezdən Mürsəl mənə dedi ki, artıq məsələni həll etmişik. Bir azdan Gevorkov özü də gəlib çıxdı. Onun tamamilə üz-gözü əzilmiş, yaman günə düşmüşdü. Dedim, ay kişi, bu nədir, səni kim bu günə salıb? O mənə necə əzişdirildiyini, hətta iki-üç dəfə ayağa qalxmaq istərkən yerə çırpıldığını danışdı və işdən çıxmasma dair ərizəni stolumun üstünə qoydu. Mən dərhal onu işdən azad etdim. Sonra Polyaniçko mənə Gevorkova görə zəng etdi, dedi ki, səni işdən çıxartdıracağam...

O əvvəllər də mənə belə zənglər etmişdi. Həqiqətən də Mütəllibovun vaxtında respublikanı Polyaniçko idarə edirdi. Ona dedim ki, siz yanılırsınız, mən nazir adamam, ağlını başına yığ, səndən qorxmuram, Gevorkova da heç bir təzyiq göstərməmişəm. Dedi, sən niyyətinə çatdın və telefonun dəstəyini asdı. Gevorkov da həmin günün səhəri respublikanı tərk etdi.

## SOVET DÖVRÜNDƏ MİLLİ ORDU YARATMAQ QEYRİ-MÜMKÜN İDİ

**- Əlisaab müəllim, belə söz-söhbət gəzir ki, siz o vaxt milli ordu yaranmasının əleyhinə çıxmısınız?**

- Sizə onu deyim ki, Böyük Sovetlər İmperiyası dövründə kim deyir milli ordu yaratmaq istəyirdik, bu tamamilə yanlış fikirdir. Ona görə ki, böyük imperiya imkan verməzdi müttəfiq respublikalarda milli ordu yaradılsın. Biz respublikamızda yalnız iyirmi min, otuz min milis işçilərinin sayını artıra bilərdik. Milli Ordunu, milli ordu altında deyil, bax bu qaydada yarada bilərdik. Xüsusi Təyinatlı Polis həmin ərəfədə yaradıldı. Elə Xalq Cəbhəsinin liderlərindən olan Əbülfəz Elçibəyin kitablarında da bu haqda fikirləri var: O da yazır ki, Sovet İmperiyası dövründə milli ordu yaratmaq qeyri-mümkün idi. Müttəfiq respublikalardan Ermənistan, Ukrayna, Gürcüstan və Moldova da milli ordu yaratmaq istəyirdilər. Onlara da Moskvadan icazə vermədilər. Mümkün deyildi. Axı bizim hələ müstəqilliyimiz də elan edilməmişdi. Bu sözləri danışan adamlar fikirləşməlidirlər ki, bizim müstəqilliyimiz 1991-ci ildə elan edildi.





## TƏŞKİLAT KOMİTƏSİNƏ DƏ İŞLƏMƏYƏN ADAMLAR TƏYİN OLUNMUŞDU

A.Vəzirovun rəhbərliyi dövründə olduğu kimi, Ayaz Mütəllibovun vaxtında da nə qədər çalışdımsa, Qarabağ camaatı da tələb etdisə də, məni təşkilat komitəsinə üzv təyin etmədilər. A. Mütəllibov da hadisələrin gələcəyini görə bilmirdi. O, hüquq-mühafizə orqanlarının üzvlərini toplamışdı. Dedim Xankəndinin özündə qərargah yaratmalıyıq. Nazirlər öz kabinetini Xankəndinə köçürməlidirlər.

Yeri gəlmişkən demək lazımdır ki, respublikanın daxili işlər naziri Məhəmməd Əsədov və baş prokuror İsmət Qayıbov həmişə əllərindən gələni edirdilər. Əsədov güc-bəla ilə OMON-u yaratdı. Bu beş min nəfərlik milis bölməsini də Dağlıq Qarabağa yeritməyə Moskva imkan vermədi. Çünki 1990-cı il yanvarın 16-da Qorbaçovun fərmanı ilə Dağlıq Qarabağ Muxtar Vilayətində və ona bitişik sərhəd rayonlarında fövqəladə vəziyyət elan edilmişdi. Yavaş-yavaş kəndlər əldən gedirdi. Cəmilli, Xocavənd, Ağdərənin Qaralar kəndi tamamilə yerlə-yeksan olmuş, odlara qalanmışdı.

## MOSKVA POLYANİÇKONUN HAKİMİYYƏTİNƏ HƏR CÜR ŞƏRAİT YARATMIŞDI

**- Polyaniçko Qarabağda azərbaycanlıların xeyrinə bir iş görə bildimi?**

- Siz nə danışırsınız. O qatı millətpərəst, müsəlmanın düşməni idi. Əfqanıstanda müsəlmanların qanını içib Bakıya gəlmişdi. Moskva onun da Xankəndində hakimiyyətinə hər cür şərait yaratmışdı. Hamı, o cümlədən ordu generalları da Polyaniçkonun buyruğu ilə oturub-dururdular.

V.Polyaniçko Dağlıq Qarabağ üzrə Təşkilat Komitəsinin sədrliyinə təzə başlamışdı. Bir gün o, hüquq-mühafizə orqanlarının rəhbərlərini: DİI naziri M.Əsədovu, Respublika prokuroru İ.Qayıbovu, Ali Məhkəmənin sədri N.Talıbovu, Prezident Aparatının inzibati şöbəsinin müdiri Y.Nəsirovu və məni kabinetinə dəvət edib, müşavirə keçirirdi. Polyaniçko Dağlıq Qarabağdakı vəziyyət haqqında danışarkən birdən üzünü mənə tutub istehza ilə, get Qarabağı erməni quldurdlarından azad et, - dedi.

Mənə Qarabağla bağlı bütün səlahiyyətlərini ver, gör Qarabağı necə azad edirəm, deyib onun kabinetini tərk etdim.

Bir hadisə də yadıma düşdü. **1988-ci ilin avqust ayında** Dağlıq Qarabağın Meşəli kəndində məskunlaşan, əslən laçınlı olan Miryusif Orucovu Meşəli kəndinin lap yaxınlığında olan Badara kəndinin bir erməni sakini talada güllə





ilə vurub öldürmüşdü. Bu hadisədən əvvəl düşmənə qarşı amansız, mərd, qorxmaz olan Miryusifi ermənilər dəfələrlə Stepanakert milis idarəsinə aparıb, əzab-əziyyət və işgəncə vermişdilər. Hər dəfə xəbər tutub onu azad etdirmişdim. Orada mərhumun qayınatası Məlik kişi mənə bildirdi ki, onun qırxı çıxana qədər ermənilərdən qisasımı alacağam. Həqiqətən də Miryusifin qırxı çıxana qədər onun qatili, o, erməni öldürüldü. Həmin ərəfədə ermənilərin boyeviklərlə dolu olan YAK-40 təyyarəsi də Fərraş kəndinin üzərindəki Qırxız dağının zirvəsində, dumanlı-çənli bir gündə qayaya dəyərək, qəzaya uğramışdı.

Mən Fərrac kəndinin bir dəstə adamları ilə atlara minib təyyarənin qəzaya uğradığı yerə qalxdıq. Təyyarənin yalnız quyruq hissəsi Fərraç tərəfdəki Qırxqız dağının zirvəsində qalmışdı. Təyyarənin qalan hissəsi meyidlərlə birlikdə Qırxqızın o biri tərəfinə Dağlıq Qarabağ vilayətinin Meşəli kəndi olan hissəsinə düşmüşdü.

## MÜTƏLLİBOV DEDİ Kİ, MEŞƏLİ ELƏ DƏ ƏHƏMİYYƏTLİ KƏND DEYİL

**- Siz Əsgəranın azərbaycanlılar yaşayan Meşəli kəndində çox olmusunuz, kəndin faciəsini əvvəlcədən görürdünüzmü?**

- Son zamanlar Meşəli iki dəfə çoxalmışdı, camaat özünə yeni evlər tikmişdi. Kənddə 140-a qədər ev var idi. Gö-

zəl təbiəti, meşəsi kəndə xüsusi yaraşıq verirdi. Kəndin faciəsini görürdüm və bu haqda A.Mütəllibovla söhbət edərkən dedi ki, Meşəli elə də əhəmiyyətli kənd deyil. Əgər nəzərdə tutulan dəryaça orada tikilərsə, Meşəli su altında qalacaqdır.

**Abdulla Qurbani «Meşəli od içində» kitabında yazır:**

«Qonşuluqdakı erməni kəndləri tərəfdən Meşəli tez-tez atəşə tutulur, silahlı basqınlar ara vermirdi. Son vaxtlar ermənilər yaşayan Badara kəndinə haradansa çoxlu «boyeviklər» dəstəsi də gətirilmişdi. Onlar hücuma hazırlaşırdılar. Meşəli camaatı artıq respublika hökumətindən əlini üzmüşdü. Xalqın üz tutduğu, ümid bəslədiyi, dərdini bölüşdürdüyü yeganə adam var idisə, o da respublikanın Ədliyyə naziri Əlisaab Orucov idi. Son vaxtlar Viktor Polyaniçkonun Dağlıq Qarabağ Təşkilat Komitəsinə sədr təyin olunması ilə əlaqədar olaraq Ə. Orucov qəti surətdə Dağlıq Qarabağdan uzaqlaşdırılmış Volski variantının ikinci həlledici mərhələsi başlamışdı. Volski variantında azərbaycanlıların avtobusları Əskəran, Xankəndi istiqamətində daşa basılırdısa, ikinci variantda mülki daşnakları silahlı daşnaklar əvəz edərək azərbaycanlıları atəşə tutur, öldürdüklərini öldürür, diri qalanları isə girov aparırdılar. Müharibə gedişində sayıq olmamağımızı yəqin etdikdən sonra ermənilər bütün cəbhə boyu sərrast və mütəşəkkil surətdə hücuma keçməyə hazırlaşırdılar. Köməksiz və silahsız adamlar erməni yaraqlıları və rus hərbçiləri tərəfindən güclü atəşə tutulurdular. Evlər-eşiklər ən müasir texnikanın - «BTR»lərin, «BMP»lərin, «Alazan» raketlərinin tapdağına çevrilirdi. Odur ki, Meşəli kəndinin camaatı özü-özünə gün ağlamalı idi. Artıq çoxdan idi ki, onların üz tutduqları Ə. Orucov Dağlıq Qarabağdan uzaqlaşdırılmışdı. Hər şeydən qabaq könüllü özünümüdafiə dəstələrinin yaradılması zəruri idi. **1991-ci ilin noyabr ayında belə bir dəstə yaradıldı.** 30 nəfər kəndin təpərli kişisi bir yerə toplaşıb, 1990-cı ilin dekabr ayının 13-də Belarusiya Kənd Təsərrüfatı Akademiyasının aqrokimya və torpaqşünaslıq fakültəsini bitirərək doğma kəndlərinə qayıtmış Mikayılı özlərinə komandir seçdilər. Kəndi böyük təhlükə gözlədiyini qabaqcadan hiss edən bir qrup adamın Bakıya gedəcəyi qərara alındı. İstək Misirov, Mikayıl Nurməmmədov, **Qaragav** kəndindən Əhliman Əliyev, **Kosalardan** Vaqif Ağayev, Ramiz Quliyev dekabrın ortalarında Bakıya yollandılar.

**Ali Sovet sədrinin müavini** Tamerlan Qarayev, **Milli müdafiə şurasının sədri** Rəhim Qazıyev, **Daxili İşlər nazirinin müavini** Talıbov nümayəndələri canıyananlıqla qarşılasalar da, heç bir əməli köməklik göstərmədilər. Hətta Rəhim Qazıyev bildirdi ki, Meşəli perspektivsiz kənddir. O kənddə yaşamağa belə lüzum yoxdur. Nümayəndələr Müdafiə Nazirliyinin anbarından 150 nəfərlik pal-paltar, qab-qacaq və on iki ədəd təlim avtomatı aldılar. Lakin bununla kifayətlənmək olmazdı. Müdafiə nazirinin yanına düşmək isə müşkül məsələ idi. Çox çək-çevirdən sonra Mikayılla Vaqif Ağayev general-leytenant Valeh Bərşadlının qəbuluna düşə bildilər. General onları çox hörmətlə qarşıladı. Sonra Mikayıl Cəmilli və Meşəli kəndlərinin taleyinin bir teldən asılı olduğunu izah etdi. General onları diqqətlə dinlədikdən sonra bildirdi ki, bundan başqa (general verilən pal-paltarı nəzərdə tuturdu) bizim heç nəyə gücümüz çatmır, nə imkanımız vardı, onu da eləmişik.

- Yoldaş general, siz elə fikirləşməyin ki, silah, sursat istəməkdə bizim hansısa marağımız var. Xeyr, sizdən bütün kənd əhalisi adından acizanə surətdə xahiş edirik ki, müdafiəmiz üçün güc göndərəsiniz. Sonra gec olar, - deyə Mikayıl hərbi qüvvəyə böyük ehtiyacı olduğunu söylədi.

Generalın göstərişi ilə onlara üç ədəd də «5-45» AKM-i verildi.

«Hərbi qüvvə məsələsinə gəldikdə məndən də yuxarıda oturanlar var», dedi general. Generalın bu sözlərindən sonra Mikayılgil nazirlikdən çıxdılar. Onlar həmin gün Bakıda eşitdilər ki, artıq Cəmilli kəndi ermənilər tərəfindən işğal olunub. Ramizlə Mikayıl gecəykən Meşəliyə qayıtdılar.

Milli Ordu əsgərlərindən də on nəfər kəndə göndərilmişdi. Dekabrın 22-də isə kəndin bütün başıpapaqlıları bir yerə toplaşdılar. Məqsəd qərargah yaradıb, hamını müdafiəyə səfərbər etmək idi. Hətta təkliflər oldu ki, arvad-uşaq kənddən çıxarılsın. Lakin heç kim bununla razılaşmadı. Arvad-uşağın kənddən çıxarılması Meşəlinin birdəfəlik boşaldılması demək idi. Son vaxtlar kimin ki, ailəsindən bir-iki nəfər kənddən çıxmışdı, hiss olunurdu ki, həmin evin kişisi də kənddə az-az görünür. Odur ki, belə qərara gəldilər ki, bir nəfər də olsun kəndi tərk etməyəcəkdir».

***

V. Polyaniçko respublika təşkilat komitəsinin sədri təyin olunandan sonra Əlisaab Orucov Dağlıq Qarabağa yaxın buraxılmır. O, sərhəd bölgələrinə üz tutur. Laçında, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Füzulidə, Ağdamda və Goranboy bölgəsində fəaliyyətini davam etdirirdi. Həmin





rayonların erməni işğalından qorunması üçün lazımi tədbirlər görürdü. Ə. Orucov Dağlıq Qarabağın kəndlərini də bir an belə unutmurdu.

***

V.Polyaniçko məni millətçi adlandıraraq dəfələrlə SSRİ Ədliyyə nazirinə müraciət edib, məni işdən azad etdirməyə cəhd göstərmişdir. Lakin tabe olduğum SSRİ Ədliyyə Nazirliyi buna razılıq verməmişdi. Nəhayət, başqa hiyləyə əl atdı, məndən 1990-cı ilin avqust ayında məktub aldı ki, «Fövqəladə vəziyyət» haqqında 3 aprel 1990-cı il tarixli qanuna görə, Dağlıq Qarabağ vilayətində olan Respublika Təşkilat Komitəsinin razılığı olmadan, vəzifəsindən və vəziyyətindən asılı olmayaraq heç bir şəxs vilayətə daxil ola bilməz. O cümlədən SSRİ Ali Sovetinin deputatları. Bu qanunu pozan hər bir şəxs inzibati məsüliyyət daşımaqla, Dağlıq Qarabağ vilayətindən çıxarılmalıdır. Belə hesab etdim ki, o, belə bir məzmunlu məktubu işin xeyrinə alır. Sonra bəlli oldu ki, məktubdan əleyhimə istifadə etmək üçün alıb. V.Polyaniçko həmin məktubdan növbəti dəfə Stepanakertə gələn xalq deputatı Yelena Starovoytovaya qarşı istifadə edərək, məktubumla onu tanış edir və Starovoytovanı iki saatdan artıq hərbi komendaturada saxlatdırdıqdan sonra təyyarə ilə Moskvaya geri qayıtmasına nail olur. Y.Starovoytova mənim hərəkətimdən SSRİ Ədliyyə Naziri Benyamin Yakovleva və SSRİ-nin baş prokuroru

Aleksandr Suxareva şikayət edir və həmçinin mətbuatda çıxışlar etmişdir. Həmin şəxslərlə də bu məktub məsələsindən çox əvvəl Moskvada olarkən söhbətlərim olmuşdur ki, bizim haqlı mövqeyimizi yeri gələndə yuxarılarda müdafiə etsinlər. Moskvada tanıdığım başqa vəzifəli şəxslərlə də bu məzmunda xahişlərim olmuşdu. Növbəti dəfə Moskvada iclasda olanda B.Yakovlev və A.Suxarev, xalq deputatı Y.Starovoytovanın şikayəti ilə əlaqədar mənə məsləhət gördülər ki, bir az hərəkətlərimdə ehtiyatlı olum.

Qarabağda hadisələr getdikcə kəskinləşir, Ermənistan bütün cəbhə boyu hücuma keçmişdi. Ölkədə də hakimiyyət uğrunda gedən mübarizə əl-qolumuzu bağlamış, özünümüdafiə batalyonlarında hərc-mərclik hökm sürürdü. Dağlıq Qarabağ ətrafı rayonların əhalisi yavaş-yavaş kəndləri tərk edirdi.

**ƏSƏD FƏRƏCOV XATIRLAYIR:**

**«1992-ci ilin aprel ayının 20-si idi.** Yaqub Məmmədov Ə. Orucova zəng etdi ki, təcili Dağlıq Qarabağın daxili işlər naziri Armen İsaqulovla görüşüb atəşkəsin əldə edilməsi və əsir, girovların qaytarılması üçün danışıq aparsın. O vaxt Əlisaab Orucov Y. Məmmədova çox sərt cavab verdi. Dedi ki, əvvəla Dağlıq Qarabağın daxili işlər naziri nə deməkdir? İkincisi də Ermənistan ərazisində on bir dəfə onların rəhbərləri ilə görüşümüz olub.Görüşlər heç bir nəticə verməyib. Axı Armen İsaqulov kimdir ki, onunla da görüşək. Yaqub Məmmədov kinayə ilə «yəqin qorxursan» deyəndə Ə. Orucov «eybi yoxdur, görüşərik» cavabını verdi. Amma düzgün iş deyil, dedi. O, həmin gün də A. İsaqulovla telefon əlaqəsinə girdi. Həmin telefon söhbəti bugünkü kimi yadımdadır.

**Ə. Orucov:** - Sizinlə görüşmək istəyirəm.

**A. İsaqulov:** - Harada?

**Ə. Orucov:** - Harada istəsəniz.

**A. İsaqulov:** - Bizim ərazidə.

**Ə. Orucov:** - Sizin ərazi yoxdur. Yerini deyin.

**A. İsaqulov:** - Əsgəran şəhərinə bir kilometr qalmış, Dövlət Avtomobil müfəttişliyinin postu yanında.

**Ə. Orucov: - Elə isə sabah saat $12^{00}$-da gözləyin.**

Həmin gün Ə. Orucov bəzi məsul yoldaşlarla da görüşdü. Onun getməyini məsləhət bilmədilər. Hətta bildirdilər ki, sizin öldürüləcəyiniz barədə məlumatımız var. Bu görüşü təxirə salmaq məsləhətdir. Lakin yenə də Ə. Orucov inadından dönmədi.

Ertəsi gün mən, Əlisaab müəllim, bir də sonralar döyüşlərdə qəhrəmanlıqla şəhid olacaq ağdamlı sürücü Zahid köhnə «QAZ-69»-a oturub görüş yerinə yollandıq. Silahımız bir avtomat və bir tapançadan ibarət idi. Öz postumuzdan keçdik. Görüş təyin olunan yerdə 20 nəfərdən artıq təpədən-dırnağa silahlanmış erməni yaraqlılarının əhatəsində Armen İsaqulov bizi gözləyirdi. Əlisaab müəllim sürücüyə maşından düşməmək əmrini verdi. A. İsaqulovla Ə. Orucov yolun ortasında qoyulmuş iki sal daşın üstündə oturdular. Dərhal erməni yaraqlıları Armenin ətrafında sanki hasar yaratdılar. Bir nəfər isə avtomatının lüləsini düz Ə. Orucova tuşlamışdı. Odur ki, mən də avtomatı sinəmə sıxaraq sürətlə düz Əlisaab müəllimə tərəf getdim və avtomatın lüləsini düz Armenə tuşladım. Ermənilər bir andaca avtomatlarını atəş açmaq vəziyyətinə gətirdilər. Səs-küy düşdü. Armen ermənicə nə dedi demədi, onlar sakitləşdilər.

**Ə. Orucov:** - Atəşkəs əldə olunmalıdır. Oturub yüksək səviyyədə ağalarınızla Yerevanda və yaxud Bakıda danışıqlar aparmalıyıq.

Bəsdirin, bu müharibə heç kimə xeyir eləmir.

**A. İsaqulov:** - Biz ki, atmırıq. Yaqub atır. Siz onunla atəşkəs əldə edin.

Elə bu vaxt yaxınlıqdakı taxıl zəmisinə mərmilər yağmağa başladı.

**A. İsaqulov:** - Gördünüz ki, yenə də sizinkilər atırlar?

**Ə. Orucov:** - Ola bilməz.

**A. İsaqulov:** - Necə yəni ola bilməz?

**Ə. Orucov:** - Bəlkə sizinkilər atırlar?

**A. İsaqulov:** - Səbrimizi tükəndirməyin. Böyük qüvvələrimiz var. Külünüzü göyə sovururıq.

**Ə. Orucov:** - Çox da yuxarıdan getməyin. Bir saata hamınızı yer üzündən yox edərik, tumunuzu kəsərik. Ancaq biz istəyirik sülh yaradaq. Gor qonşusuyuq. İstəmirik ki, dünya bizi kiçik bir milləti məhv etməkdə qınasın. Gəl keçək əsas mətləbə.

**A. İsaqulov:** - Oldu. Biz də sülhün tərəfdarıyıq.

**Ə. Orucov:** - Əsirlər, girovlar qaytarılmalıdır.

**A. İsaqulov:** - O bizlik deyil. Onlar Yerevandadırlar.

**Ə. Orucov:** - Xocalıda törətdiyiniz vəhşiliklərə görə bir insan kimi xəcalət çəkdinizmi?

**A. İsaqulov:** - Bu facıəni biz yox, muzdlu sərxoş rus yaraqlıları törədiblər.

**Ə. Orucov:** - Daha sizə deyiləsi sözüm yoxdur.

Nəhayət, Ə. Orucovla A. İsaqulov atəşkəs haqqında razılığa gəldilər. Biz köhnə «QAZ-69»a oturub geri döndük. Öz postumuza çatar-çatmaz yenə də erməni «Qrad»ları başımıza mərmilər yağdırmağa başladı».





***

**Əlisaab müəllim söhbətinə ara verib xəyallara dalır və yenə danışır:**

**1992-ci il aprelin 22-də** Baş qərargahın rəisi Şahin Musayevə və Müdafiə naziri Rəhim Qazıyevə teleqram göndərərək Şuşa, Ağdam, Tərtər və Füzuli şəhərlərinin olduqca təhlükəli vəziyyətə düşdüyünü bildirdim.

## TELEQRAMM

### AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MÜDAFİƏ NAZİRİ R.QAZIYEV YOLDAŞA

Vətən təhlükədədir. Şuşa, Ağdam, Tərtər, Füzuli və s. rayonlarının əhalisinin vəziyyəti olduqca qorxuludur. Düşmən Qarabağın dağlıq hissəsinə və eləcə də Ermənistanla sərhəd boyunca vertolyotla daşıyıb yaraqlıları, hərbi texnikanı yerləşdirmişdir. Olduqca operativ şəkildə göstərilən regiona müdafiə üçün xeyli canlı qüvvə, hərbi texnika - tanklar, BPM, vertolyotlar və s. döyüş texnikası, sursatlar təxirə salmadan bu gün göndərilməsi tələb olunur.

Cəbhə boyu müharibəyə komandanlıq etmək üçün regiona gəlməyiniz zəruridir.

**Ə. ORUCOV,**
*Azərbaycan Respublikası Prezidentinin*
*Fövqəladə Səlahiyyətli nümayəndəsi*

***

Yaxşı yadımdadır. **29 aprel 1992-ci ildə** televiziya ilə çıxış edib, bölgədə olan vəziyyəti xalqa çatdırıb, bildirdim ki, ermənilər bu günlərdə Şuşaya hücuma keçəcəklər.

**- Siz Zəngilanda da uğurlu döyüş əməliyyatı keçirmisiniz.**

- Aprelin 25-də Ermənistan silahlı qüvvələri Zəngilanın Şayıflı kəndi istiqamətindən hərəkət edərək sərhəd kəndlərini işğal etmişdilər. Həmin gün mən Zəngilana getdim.

## İLK QƏLƏBƏ MARŞI

**Əsəd Fərəcov o günləri belə xatırlayır:**

«1992-ci il aprel ayının 26-da Zəngilan rayon İcra Hakimiyyətinin başçısı Əli Quliyev Ə. Orucova zəng elədi ki, Ermənistan ordusu Qafan tərəfindən Zəngilanın Günqışlaq, Ağkənd, Qazançı, Dərəli, Seyidlər, Pirveys kəndlərini güclü atəşə tuturlar. Erməni yaraqlıları artıq sərhədi adlayaraq Qazançı və Dərəli kəndlərini işğal ediblər. Aprelin 27-nə keçən gecə Ə. Orucovla mən Zəngilana yola düşdük. Füzuli postunun yanında səhərə yaxın bir avtobus dayanmışdı. Daxili qoşunların döyüşə göndərilmiş əməkdaşları istirahət edirdilər. Məlum oldu ki, onlar Zəngilanın Şayıflı kəndinə getmək əmri alıblar. Əlisaab müəllim «arxamızca gəlin!» əmrini verdi. Zəngilanda Əli Quliyevi də götürüb birbaşa səhər saat 9 radələrində Şayıflı qərargahına yollandıq. Ə. Orucov vəziyyətlə ətraflı tanış olduqdan sonra dedi ki, düşməni geri oturtmaq və Qafan ərazisinə girmək lazımdır, qoy bizim də əsgərlərin çəkməsi sərhədin o tayına, düşmən torpağına dəysin. Bu hamının ürəyindən oldu. Bir azdan daxili qoşunların da döyüşçüləri gəldilər. Ə. Orucov döyüşçülər qarşısında geniş nitq söylədi. Artıq hamı hücuma hazır idi. Laçından da silah-sursat göndərmişdilər.





Polkovnik-leytenant İldırım Məmmədovun əmri ilə döyüş əməliyyatı başlandı. Əvvəl artilleriya dindi. Topların nərəsindən yer-göy titrəyirdi. Sonra piyadalar hücuma keçdilər. İşğal olunmuş kəndlər azad edildi. O kəndlərin sakinləri dərhal öz kəndlərinə qayıtdı. Döyüşçülərimiz Qafan rayonu ərazisində idi. Qafan şəhərinin tüstüsü ərşə dayanmışdı. Döyüşün qızğın yerində rabitəçi bildirdi ki, R. Qazıyev komandiri çağırır. Hiss olunurdu ki, Rəhim Qazıyev İldırım Məmmədovu bərk hədələyir. O isə Ə. Orucovun da burada olduğunu bildirdi. İ. Məmmədov tələsik telefonun dəstəyini Ə. Orucova verdi.

**R. Qazıyev:** - Sənə kim ixtiyar verib ki, bizim işimizə qarışırsan? Axı kim sizə hərbi səlahiyyət verib? Tez olun, atəşi dayandırın. Bütün Moskva, Yerevan ayağa qalxıb.

**Ə. Orucov**: - Ermənistan bütün Dağlıq Qarabağı tutub. Şuşa da mühasirədədir. Nə üçün Moskva səsini çıxarmır? Nə qəbahət iş görmüşük ki... Qoy Azərbaycan əsgərinin də ayağı sərhəddən o yana, düşmən torpağına dəysin. Dünya dağılmayıb ki...

**R. Qazıyev:** - A kişi, sən nə danışırsan? Qafanı dağıtmısınız, 20-dən çox çoxmərtəbəli binanı yerlə-yeksan eləmisiniz. Artilleriya atəşini dayandırın, qüvvələri Ermənistan ərazisindən geri çəkin.

**Ə. Orucov: -** Atəş dayanmayacaq, qüvvələr də geri çəkilməyəcək. Kimə istəyirsinizsə, şikayət edin.

Ə. Orucov əsəbi halda telefon dəstəyini rabitəçiyə verdi.

Onun sevincinin həddi yox idi. Artıq Azərbaycan əsgərinin də ayağı sərhəddən o yana dəymişdi. Yarım saat sonra rabitəçi Ə. Orucovu çağırdı ki, Yaqub Məmmədova cavab versin.

**Y. Məmmədov:** - Orucov, mən səni ağıllı bir adam bilirdim. Nə ixtiyarın var hərbçilərin işinə qarışırsan? Təxirə salınmadan atəşi dayandırın və geriyə çəkilin.

**Ə. Orucov isə yalnız bir kəlmə cavab verdi:**

- Elə isə komandirlə danışın. Mən heç kim. Məni bura işə göndərməkdə nə məqsəd güddüyünü anladım...

Polkovnik-leytenant İ. Məmmədovla Y. Məmmədovun telefon danışığından sonra atəş dayandırıldı və qüvvələrə geri çəkilmək əmri verildi. Bu dəfə də döyüşçülərin əl-ayağını beləcə soyutdular. Ə. Orucovla maşına oturub geri döndük. O, hirsindən dişlərini qıcayır və öz-özünə deyinirdi:

- Vallah, millətin yiyəsi yoxdur. Olsaydı dağı dağ üstə qoymaq olardı. Hayıf, belə oğullardan ki, səriştəsiz, bacarıqsız başçılarımızın güdazına gedəcəklər.

## ŞƏHƏR ƏSLİNDƏ KÖÇÜRÜLMÜŞDÜ

**- Əlisaab müəllim gec də olsa, 1992-ci il aprelin 7-də, Respublika Ali Sovetinin sədri, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Yaqub Məmmədovun «Azərbaycanın bəzi rayonlarında prezident idarə üsulu tətbiq etmək haqqında fərmanı» ilə sizə səlahiyyətlər verildi? Müharibədə dönüş yaradıb Şuşa və Laçının işğalının qarşısını almaq olardımı?**

- Məndən əvvəl həmin vəzifəyə Musa Məmmədov təyin olunmuşdu. M. Məmmədov 1992-ci ilin yanvarında fəaliyyətə başlasa da, heç bir iş görə bilməmişdi. Sadəcə olaraq ona hərbi səlahiyyət verilməmişdi. Qarabağ əldən gedəndən sonra fövqəladə və səlahiyyətli nümayəndə öz millətimizdən təyin olundu. Ondan sonra mən təyin olunanda isə Dağlıq Qarabağda bir azərbaycanlı kəndi belə qalmamışdı. Yalnız Şuşa şəhəri qan içində çapalayırdı. Ermənilər Bala Girsdən Şuşa yolunu atəş altında saxlayırdılar. Şəhərin mühasirəsi günü-gündən daralırdı. Şəhər əslində köçürülmüşdü. Şuşanı müdafiə edən əsgərlərə şəhəri tərk etməyi icazə verən rəsmi buraxılış sənədləri verilmişdir. Bu iş səlahiyyət sahibləri - Şuşanın hərbi komissarı, şəhərin hərbi komendantı tərəfindən «yerinə yetirilmişdir». Xüsusi buraxılışla 800-dən artıq əsgər şəhəri tərk edib getmişdi.







**ELBRUS ORUCOVLA ŞUŞADA GÖRÜŞƏ BİLMƏDİK**

**- İşğal ərəfəsində Şuşada olmusunuzmu. Həmin ərəfədə şəhərin müdafiəsi üçün hansı tədbirlər görülürdü?**

- Mən müharibə bölgələrindən daha çox Şuşa və ətraf kəndlərdə olmuşam. Şəhərin işğalından bir gün əvvəl də oraya getmişdim. Mayın 7-də **Laçın rayon Daxili İşlər İdarəsinin rəisi** Akif Səlimov bildirdi ki, bizim Böyük Kirsdəki qüvvələrimiz ermənilərin Bala Kirsdəki qüvvələrini vurub oradan çıxarıb və Şuşa yolu açıqdır. Ona qədər erməni silahlı qüvvələri həmin yolu 1992-ci ilin fevral-mart aylarından daim atəş altında saxlayırdılar. Bu məlumatdan sonra mən, **müavinim Səyavuş Vəlimməmmədov,** Azərbaycan radiosunun müxbiri Eyvaz Yusifli, Laçın rayon Daxili İşlər İdarəsinin rəisi Akif Səlimov və Laçın rayon İcra başçısının müavini Səlim Səlimov Şuşaya getdik. Çox qəribədir ki, Şuşada həyəcan duyulmur və bir sakitlik var idi. Hələ üstəlik, bəziləri uçmuş divarları hörür, evlərin damlarını təmir edirdilər. Əkin edənlər də var idi. Bizə Şuşa şəhər Sovetinin sədri Vaqif Hüseynov, prokuror Nəzir Quliyev, icra hakimiyyəti başçısının müavini bildirdilər ki, buqalalılar vuruşa və müdafiəyə hazırdırlar. Nizam-intizam da öz qaydasındadır. Briqada komandiri Elbrus Orucovu nə qədər soraqlasaq da onunla görüşə bilmədik. Dedilər ki, Kosalara gedib. Beləliklə, həmsöhbətlərim erməni silahlı qüvvələrinin hücum edə biləcəyi təqdirdə belə şəhərə gi-





rə bilməyəcəyi fikrini mənə inandırdılar. Hətta dedilər hücuma hazırdılar.

Biz Şuşadan qayıdanda yolda Şuşa rayon icra hakimiyyətinin başçısı Nizami Bəhmənovla da görüşdük. Saat təxminən 19 radələri olardı. O, Bakıdan gəldiyini və bir neçə zirehli texnika da aldığını bildirdi. İcra hakimiyyətinin başçısı da dedi ki, onlar hücuma da, müdafiəyə də hazırdırlar. Söhbət zamanı mən ona bildirdim ki, mən də , sən də R.Qaziyevə başa salaq ki, hücuma keçmək vaxtıdır.

**- Sizə Şuşada ATƏT-in və Qırmızı Xaç Komitəsinin nümayəndələrinin gələcəyi barədə bir məlumat verdilərmi?**

- O barədə heç bir məlumatım yox idi və bizə heç nə demədilər. Əgər elə bir hal olsaydı, mənə mütləq deyərdilər. Bu sırf uydurma və qurmadır.

Hətta Stepanakert istiqamətindən Şuşanın girəcəyində torpağa basdırılmış minalar briqada komandiri, podpolkovnik Elbrus Orucovun göstərişi ilə çıxarılmışdı ki, guya Şuşaya gələn Qırmızı Xaçın nümayəndələri minaya düşməsinlər. Orada, ön xətdə səngərdə olan əsgərlərə göstəriş verilmişdi ki, Qırmızı xaçın numayəndələri onları görməsin deyə səngərdə gizlənsinlər, heç bir şeyə əhəmiyyət verməyib başlarını çölə çıxarmasınlar. Yəni, qonaqlar buranın müharibə vəziyyətində olmasını bilməsinlər. Odur ki, hücuma keçən ermənilər, əmrə görə səngərdə gizlənən 49 nəfər əsgərimizin başlarını kəsmişdilər. Bu hal Şuşa ilə bağlı olan məhkəmə iclasında tam sübuta yetirildi. Belə bir

əmri verən, sonralar general rütbəsi alan E.Orucov *(hazırda bizim Gürcüstandakı səfirlikdə hərbi atteşedir)* konkret ad deməsə də, Bakıdan əmr verildiyini təsdiq etdi (**bax. cinayət işinin materiallarına**).

Bir faktın üzərində dayanmaq istəyirəm, **30 aprel 1992-ci ilədək** Şuşa və onun ətraf rayonlarında hərbi əməliyyatlara rəhbərlik edən və komandiri olan general Zaur Rzayev oradan çıxarılıb Kəlbəcər bölgəsinə göndərilmiş, onun yerinə biqada komandiri Elbrus Orucov təyin edilmişdi. Nə üçün?!

Zaur Rzayev Şuşada hərbçilər arasında böyük hörmətə malik idi. Belə bir vəziyyətdə təcili yerdəyişmənin səbəbi bu gün hamıya aydındır...

**- Siz Şuşanın işğal olunduğunu harada və nə vaxt eşitdiniz?**

- Mayın 8-də səhər saat 7 radələrində Ağlamda qaldığım binanın 3 metrliyində qrad mərmisi düşdü və mənə dedilər ki, erməni silahlı birləşmələri Şuşaya hücuma keçiblər. N. Bəhmənovla əlaqə saxlayarkən o dəfələrlə bildirdi ki, vəziyyət olduqca ağırdır və müdafiə nazirliyi kömək göstərmir. R. Qazıyevə bu barədə məlumat verəndə o cavab verdi ki, özü bu işlə bilavasitə məşğuldur. Şuşanın müdafiəsi üçün isə kifayət qədər hərbi qüvvə və texnika var. N. Bəhmənovun vəziyyətin ağırlığı ilə əlaqədar mənə dediklərini briqada komandiri E. Orucovla telefonla danışarkən bunun həqiqət olduğunu soruşduqda o, dedi:





**«Он не военный человек. Все, что угодно можно сказать. Если армяны войдут в город, сотру со земли их. Шушу врагу не отдам».**

Mayın 8-də təxminən saat 10 radələrində Daxili İşlər naziri Tahir Əliyev mənə zəng etdi. Şuşa ilə bağlı məlumatlarımı ona da çatdırdım. O dedi ki, bir az sonra müəyyən hərbi qüvvə ilə şəhərin müdafiəsi üçün Bakıdan Şuşaya yola düşür. Xahiş etdi ki, mən Azərbaycan televiziyasının bölgə müxbiri Allahverdi Əsədovun Qubadlıya getməsini təşkil edim ki, Şuşaya girəndə çəkiliş aparsın. Onun xahişini dərhal icra etdim.

Daha sonra Tehrandan qayıdan Yaqub Məmmədovla əlaqə saxladım. O dedi, Rəhim Qazıyev bildirir ki, Şuşa özümüzdədir və şəhər alına bilməz. Lazım gələrsə, ora kömək göndəriləcək. **Mayın 8-i saat 17.45 dəqiqədən sonra mənim və bizim Şuşa ilə əlaqələrimiz tamam kəsildi.**

## MÜDAFİƏ NAZİRLİYİ İLƏ DİN ARASINDA NARAZILIQ VAR İDİ

**- Sizə hansı səlahiyyətlər verilmişdi?**

- Əslində mənim heç bir hərbi səlahiyyətim yox idi. Cəbhə bölgələrində yaranmış son dərəcə ağır vəziyyətə baxmayaraq vahid komandanlıqdan söhbət gedə bilməzdi. AXC-nin öz məqsədinə qulluq edən ayrı silahlı birləşmələri, hətta bu qurumun ayrı-ayrı liderlərinin öz dəstələri, yerli rəhbərliyə və nüfuzlu şəxslərə tabe olan özünümüdafiə batalyonları, müdafiə nazirliyinin pərakəndə silahlıları,

DİN-in öz qüvvələri var idi ki, onların da hərəsi bir siyasi məqsəd güdürdü. Belə bir vəziyyətdə mən prezidentin fövqəladə səlahiyyətli nümayəndəsi təyin edildim.

Müdafiə Nazirliyi ilə DİN arasında narazılıq var idi. Müdafiə Nazirliyi tələb edirdi ki, DİN Silahlı Qüvvələri onlara tabe olsunlar. DİN isə buna razı olmurdu. Həmin fərman barəsində danışmaq istərdim. **Fərmanın birinci bəndində göstərilirdi ki,** respublikanın Xankəndi, Naftalan, Şuşa, Ağdərə, Xocavənd, Xocalı, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Xanlar, Goranboy, Tərtər, Bərdə, Ağcabədi, Daşkəsən, Tovuz, Gədəbəy, Qazax və Ağstafa rayonları ərazisində prezident idarə üsulu tətbiq edilsin. **İkinci və üçüncü bəndlərlə** həmin ərazilərə rəhbərlik etmək vəzifəsi mənim üzərimə qoyulur və fərmanın **dördüncü bəndində** qeyd olunurdu ki, Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasma təklif olunsun ki, Ə. Orucovu Dövlət Müdafiə Komitəsinin üzvü seçsin. Məsələnin mahiyyəti də məhz bundadır. Həmin fərmandan sonra aprelin 7-8, 29-30-u və mayın 5-i tarixlərdə Y.Məmmədovun sədrliyi ilə Milli Şuranın iclasları keçirilsə də, bu məsələ gündəliyə çıxarılmadı və həmin iclaslarda hərbi məsələlər müzakirə olunsa da, mənim məsələmlə bağlı imzaladığı fərmanını müzakirəyə çıxartmadı. Beləliklə, mənə hərbi səlahiyyət verməyən Yaqub Məmmədov Şuşanın işğalı ilə bağlı məhkəmədə əvvəla bildirdi ki, mənə hərbi səlahiyyət verilməsinə R.Qazıyev icazə vermədi, sonra dedi hərbi səlahiyyət sənin nəyinə lazım idi, Surət Hüseynova verildi. O, nə etdi. Axırda dedi ki, sənə





hərbi forma geyinməyə icazə vermişdim, o da sənin hərbi səlahiyyətin idi. Hərbi səlahiyyət hesab edirəm ki, mənə məqsədli surətdə verilmədi.

***

- **«Azadlıq» qəzeti 1992-ci il 8 may tarixli sayında yazırdı:** «Rayon ərazisində sakitlikdir. Şuşa-Laçın yolundakı maneə aradan götürülüb». Bu qəzet yalnız mayın 12-nə xəbər verir: «Şuşa üçüncü dəfə dağıdıldı və ilk dəfə işğal olundu».

**Rəsmi dövlət qəzeti olan «Xalq qəzeti»** isə həmin günlər ya Şuşadakı vəziyyət barədə məlumat vermir, yaxud şəhərin müdafiə olunduğunu və işğal edilmədiyi haqqında saxta məlumatlar yayırdı.

**Mayın 9-da artıq Şuşa işğal olunsa da** ən yüksək səviyyədə bu həqiqət danılırdı. «Xalq qəzeti» 9 may tarixli sayında respublika Ali Sovetinin sədri, prezidentin səlahiyyətlərini icra edən Yaqub Məmmədovun bəyanatını dərc etmişdir. **Həmin bəyanatda deyilirdi:** *«Ermənі hərbçiləri yeni vəhşi hərəkətlərə əl atmışlar. Bu gün səhərə yaxın Şuşa şəhəri şiddətli bombardmana məruz qalmışdı. Lakin şəhərin müdafiəçiləri düşmənin təzyiqinin qarşısını ala bilirlər».*

Halbuki Y.Məmmədov mayın 9-da Ağdamda Şuşa köçkünləri ilə görüşərkən onlar Şuşanın mayın 8-dən işğal olunmasına dair məlumat vermişdilər. Bundan sonra Yaqub Məmmədovun belə bəyanat verməsinin özü təəccüb doğurur.

Mayın 12-də hələ də **satqın və xəyanətkar Rəhim Qazıyev** və Şahin Musayev məlumat yayırdılar ki, Şuşa işğal edilməyibdi.

Laçındakı real vəziyyət barədə də məlumatlar verilirdi. **1992-ci il mayın 12-də alay komandiri** Arif Paşayev, DİN nümayəndəsi Kazımov telefonla bildirmişlər ki, Laçın qeyrətlə qorunur və qorunacaqdır. Laçınm işğalı ilə bağlı ilk dolğun və düzgün məlumat yalnız mayın 26-da «Xalq qəzeti»nin müxbiri Ziyəddin Sultanovun «Laçın harayı» yazısında verilmişdir.

**Mayın 15-dən 25-dək** rəsmi və qeyri-rəsmi mətbuat Ayaz Mütəllibovun qayıtması və qovulması hadisələrini, AXC-nin bəyanatlarını, İsa Qəmbərovun spiker seçilməsini, yeni təyinatları gen-bol işıqlandırmışlar. Beləliklə, hakimiyyət naminə torpaqlar hərraca qoyulmuş, Vətənin müdafiəsi üçün şəhid olan yüzlərlə qeyrətli oğullarımız yada belə salınmamış, başlar vəzifə bölgüsünə qarışmışdır.

***

**- Şuşanın müdafiəsi üçün hər hansı təşəbbüs göstərildimi?**

- Mayın 8-də mən Ağdamda idim. Məlumat aldım ki, Şuşaya kömək üçün, ermənilərin mövqelərinə zərbələr endirmək məqsədilə aeroporta hərbi vertolyotlar gəlib. Daha sonra bəlli oldu ki, onlar həm də öz mövqelərimizi bombardman ediblər. Saat 17 radələrində vertolyotlar Yevlaxdakı hərbi qərargahdan onlara verilən əmrə əsasən müharibə zonasını tərk etdilər...





**- Şuşa ermənilərə veriləndən sonra onu geri qaytarmaq mümkün idimi?**

- Bəli, mümkün idi. Şuşa ətrafında bizim kifayət qədər qüvvələrimiz cəmləşmişdi. Məndə olan məlumatlara görə, **R.Cavadovun rəhbərliyi ilə** XTPD-nin 700 nəfər, T. **Əliyevin rəhbərliyi ilə** 150 nəfərdən ibarət polis qüvvələri və **Elbrus Orucova tabe olan** 1300 nəfərlik silahlı birləşmələr Şuşanı azad edə bilərdilər. Bunun üçün lazımi qədər hərbi texnika da var idi. Şuşanın azad edilməməsi xəyanətkarlıq, hakimiyyət uğrunda mübarizə idi. Artıq bəllidir ki, şəhərin azad olunması üçün gərək Ayaz Mütəllibov hakimiyyətə gətiriləydi və bir günlük gətirildi də. Şuşanın, daha sonra isə Laçının işğal olunmasının iştirakçısı və təşkilatçısı hakimiyyətə can atanlar idi.

**Həmin günləri Laçın şəhər mədəniyyət evinin müdiri Nizami Rzayev belə xatırlayır:**

Mayın 9-u ilə 12-si arasında Arif Hacıyev, Qurban Məmmədov Laçında olaraq rayon əhalisinin köçürülmələrini təşkil etmişlər. Həmin günlər rayona və həmin bölgəyə gələn bütün nəqliyyat vasitələrinin yol vərəqələrinə AXC-nin möhürləri vurulmuşdur. *(«Vətənin səsi» qəzeti, 11-25 oktyabr 1996-cı il).* AXC-yə tabe olan bütün hərbi qüvvələr təxribatla məşğul olmuş və bir məqsədə xidmət etmişlər: nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək. Lakin Şuşa işğal olunandan sonra yox, məhz Laçm da ermənilərə təhvil veriləndən sonra. Əgər elə deyilsə, mayın 15-də Ayaz Mütəllibovu hakimiyyətdən yeni-

dən qovandan və Yaqub Məmmədovu rəhbərlikdən kənarlaşdırandan sonra mayın 18-dək AXC hakimiyyətini niyə hüquqi cəhətdən rəsmiləşdirmədi! Ona görə ki, Laçın da işğal olunsun və Dağlıq Qarabağın Ermənistanla birləşməsi başa çatsın. Bundan sonra hakimiyyətə gələndə isə təqsiri əvvəlki rəhbərliyin boynuna atıb məsuliyyətdən kənarda qalsınlar. Bu bəzi AXC liderlərinin iyrənc və satqın əməlləri hesabına başa gəlib.

## ƏSLİNDƏ YAQUB MƏMMƏDOV TEHRANDA DƏHLİZİN AÇILMASINA RAZILIQ VERMİŞDİ.

Yeri gəlmişkən, bir məsələyə də diqqəti cəlb etmək istəyirəm. Məhkəməyə təqdim olunan istintaq sənədləri arasında Yaqub Məmmədovun Tehran səfəri zamanı Dağlıq Qarabağa humanitar dəhliz açılması ilə bağlı bir çox əhəmiyyət kəsb edən sənəd də var. Mənim fikrimcə, həmin sənəd Yaqub Məmmədovun siyasi maymaqlığı, səriştəsizliyi və aldadılması nəticəsində meydana gəlmişdir ki, bu Azərbaycanla Ermənistan arasında olan Laçın koridorunun açılmasına dair memorandumun imzalanmasından dərhal sonra Ermənistanın silahlı qüvvələri hücuma başlamışlar. Bu sənəd Ermənistana müəyyən siyasi dividentlər vermişdir.

**- Siz nə vaxt vəzifənizdən uzaqlaşdırıldınız?**

- Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra iyulun 1-də fərmanım verildi. Cəmi 2 ay 22 gün işlədim. Yerimə Surət Hüseynov təyin edildi. Surət Hüseynova tam hərbi səlahiyyətlər verildi, o, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi və Baş Nazirinin müavini təyin olunmaqla, həmçinin Müdafiə Nazirinin səlahiyyətli nümayəndəsi və korpus komandiri təyin edilmişdir. Mən çıxarılmağa dəvət olumağıma baxmayaraq **01 iyul 1992-ci ildə 9 bənddən ibarət təkliflərimi** müdafiə şurasında Elçibəyə təqdim etdim. Bundan əvvəl hələ **30 may 1992-ci il** tarixdə də mən Milli Məclisə, Nazirlər Kabinetinə, Müdafiə Nazirliyinə, Daxili İşlər Nazirliyinə müraciət edərək yenə öz təkliflərimi vermişdim.





## QARABAĞDA VAHİD KOMANDANLIQ YOX İDİ

**Azərbaycan Respublikası Milli Məclisinə**
**Azərbaycan Respublikası Nazirlər Kabinetinə**
**Azərbaycan Respublikası Milli Müdafiə Nazirliyinə**
**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinə**

Qarabağın dağlıq hissəsi ilə həmsərhəd və Ermənistan Respublikası ilə qonşu rayonlardakı vəziyyətin təhlili göstərir ki, gərginlik getdikcə artır. Ermənilər həmin regionlara canlı qüvvə və texnika toplamaqda davam edir, bu məqsədlə Laçın rayonu ərazisindən açılmış koridordan maksimum istifadə edirlər. Regionun Ağdam, Tərtər, Füzuli, Qubadlı, Zəngilan, Kəlbəcər, Goranboy, Xanlar və Cəbrayıl rayonlarının işğal edilməsi üçün real təhlükə getdikcə artır və yaxınlaşır.

Həmçinin bildirirəm ki, regionda olan Azərbaycan Respublikasının milli müdafiə qüvvələri adları qeyd olunan rayonların həmsərhəd kəndlərini get-gedə daha böyük çətinliklə qoruyurlar. Milli müdafiə qüvvələrinin tərkibində xidmət edən zabit və şəxsi heyət arasında intizamın son dərəcə aşağı olması, döyüş texnikasından bacarıqla istifadə edilməməsi, əməliyyatlar zamanı qüvvələrin cəmləşdirilməməsi, qonşu rayonlarda olan qüvvələrin əlaqələndirilməməsi, regionda vahid komandanlığın olmaması son müddətlərdə özünü daha qabarıq şəkildə göstərir.

Etibarlı müdafiə hiss etməyən yerli əhali öz doğma yurdlarını tərk etməkdə davam edir. Rayon rəhbərləri xüsusilə Kəlbəcərdən vəzifəli şəxslərin rayonu tərk etmələrinin qarşısını almır, bu isə öz növbəsində əhali arasında daha ciddi təşviş və həyəcana səbəb olur.

Laçın rayonu rəhbərliyi rayonun qalan kəndlərinin müdafiə və mühafizəsini təşkil etmək əvəzinə, zənnimizcə, əsassız olaraq Ağcabədi rayonuna köçmüşdür. Təxminən eyni vəziyyət böyük strateji əhəmiyyətə malik olan Kəlbəcər rayonu üçün xarakterikdir.

Keçmiş könüllü dəstələrin tərkiblərində heç bir dəyişiklik edilmədən mexaniki surətdə Milli Müdafiə Nazirliyinin tərkibinə götürülmələri və beləliklə, aldadıcı çoxluq yaradılması, döyüş qüvvələrinin müdafiə qabiliyyətini artırmamış, əksinə,





onların rəhbərləri və sonralar təyin edilmiş kombriqlər arasında bəzi hallarda çəkişmələrə səbəb olmuşdur.

Yeri gəlmişkən, ordunun komplektləşdirilməsinin könüllülük prinsipindən hərbi mükəlləfiyyətlilik prinsipinə keçirilməsinin vacibliyini qeyd edirəm. Ordunun maddi-texniki təminatı xüsusilə ərzaq və digər təchizat-təsərrüfat məsələlərinin həlli aşağı səviyyədədir.

**Bütün bunları diqqətinizə çatdırmaqla aşağıdakı məsələlərin baxılmasını və həll edilməsini vacib hesab edirəm:**

- Region üçün vahid komandanlıq müəyyənləşdirilib, onun qərargahının müharibə rayonunda yerləşdirilməsi;

- Ordunun komplektləşdirilməsinin könüllülük prinsipindən hərbi mükəlləfiyyətlilik prinsipinə keçirilməsi;

- Hərbi intizamın gücləndirilməsini, hərbi tribunal və səhra məhkəmələrinin fəaliyyət göstərmələrini;

- Rayon İcra hakimiyyəti başçılarının və vəzifəli şəxslərin məsuliyyətlərinin artırılması;

- **Rayonların:** - Ağdam, Tərtər, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Kəlbəcər, Goranboy və Xanların müdafiəsinin gücləndirilməsi:

- Hərbi texnika, sursat və silahların bir mərkəzdən qanuna müvafiq şəkildə döyüşən orduya verilməsi çox vacibdir.

Baxmanızı xahiş edirəm.

***Ə.S.ORUCOV***

Qeyd etmək lazımdır ki, Laçın rayonu **1992-ci il may ayının 18-də işğal olunmasına baxmayaraq,** rayonun bir çox kəndlərinin əhalisi 1993-cü ilin mart ayına qədər hələ oranı tərk etməmişdilər. Laçının icra strukturları isə qaçıb Ağcabədiyə getmişdi. Hərbi qüvvələrimiz dəfələrlə erməni silahlı qüvvələri tərəfindən nəzarətdə saxlanılan Laçın koridorunu azad etmək istəmişlər, lakin buna Azərbaycan Respublikası Prezidenti Əbülfəz Əliyev icazə verməyərək bəyan edirdi ki, əgər biz Laçın koridorunu bağlasaq, bütün dünya bizi qınayır. Çünki biz koridoru bağlasaq Dağlıq Qarabağı Ermənistan Respublikasından təcrid etmiş oluruq. Bu qətiyyən yolverilməzdir. Buna görə də dəfələrlə bu məsələ ilə bağlı hazırlanmış uğurlu əməliyyatlar ləğv edilmişdir **(bax. o dövrün mətbuatına).** O vaxt Laçın ərazisində qalıb yaşayan camaatımız hesabına partizan dəstələri yaratmaq olardı, amma imkan verilmədi. Yaxşı yadımdadır, **1992-ci il iyun ayının əvvəlində** mən Ağdam rayonu üzrə hərbi briqadanın komandiri Elxan Orucovla *(Elbrus Orucovun qardaşı)* İ.Qəmbərin qəbuluna gəldik. O, həmçinin prezident səlahiyyətlərini həyata keçirirdi. Ondan xahiş etdik ki, Sırxavənd koridoru ilə hücuma keçib, Dağlıq Qarabağı ermənilərdən azad edək.Çünki, mənim 1992-ci ilin may ayının ortalarında Ağdama dəvət edib Elxan Orucova təhvil verdiyim milliyyətcə rus olan on dörd nəfərdən ibarət, olduqca təcrübəli kəşfiyyatçılar dəstəsi bizə məlumat vermişdi ki, Dağlıq Qarabağ ərazisində xidmət edən hərbçilər yox dərəcəsindədir, ordu azdır. Bu kəşfiyyatçılar





Dağlıq Qarabağ ərazisində böyük işlər görürdülər. Dağlıq Qarabağla sərhəd olan əraziləri minalardan təmizləyir, ermənilərin mühüm hərbi obyektlərini partladırdılar. Orada sərhəddə yaxın ərazidə xırda zədə yetirdikləri BMP və sair hərbi texnika buksirə qoşub bizim əraziyə gətirirdilər. Onlara nəzarət edən milliyyətcə azərbaycanlı olan Elxan adında kəşfiyyatçımız bizə məlumat verməklə, onların gördükləri iş həmçinin ermənilərin də radio-perexvatı ilə təsdiq olunurdu.

İsa Qəmbər bizə bildirirdi ki, sabah saat 12-də gəlin, R.Qaziyevi, Tahir Əliyevi də dəvət edib, müzakirə edərik. Səhəri gün yenə də İsa Qəmbərin qəbulunda olduq. İsa Qəmbər dedi ki, onlar hər ikisi qəbuluma belə məsələ ilə bağlı gəlməkdən imtina etdilər. Odur ki, onlarsız bu məsələni həll edib, *sizə icazə verə bilmərəm. Bu fürsətdən* də o vaxtkı iqtidar istifadə etməyə imkan vermədi.

***

Azərbaycan Xalq Cəbhəsinin nöqsanlarını və səriştəsizliyini, bəzi xarici qüvvələrin təsiri altında olmalarını Azərbaycan xalqına və dövlətçiliyinə qarşı yabançı mövqedə durmalarını yüksək tribunalardan vaxtaşırı xalqa çatdırmışam.

Ona görə də Azərbaycan Xalq Cəbhəsi 1992-ci ilin may ayında Şuşa və Laçını düşmənə qurban vermək hesabına respublikada hakimiyyəti ələ keçirən kimi *(Bu haqda Azər-*

*baycan Respublikası Ali Məhkəməsinin 12 may 1995-ci il tarixli hökmü var)* 1992-ci ilin 2 iyulunda Ə. Orucovu vəzifədən və Qarabağdan uzaqlaşdırmışdılar.

**- Sizcə, Ağdam ərazisində döyüş üstünlüyü yaratmaq olardımı?**

- Cəbhənin Ağdam bölgəsindən düşmənə müqaviməti artırmaq, hücuma keçmək lazım idi. Bizim «generallar» bunu axıra qədər dərk edə bilmədilər. 1992-ci il iyunun 20-25-dək dörd günün içərisində Ağdamdakı batalyonları səfərbər edib Əsgəranın yeddi erməni kəndindən (Ağbulaq, Dahraz, Naxçıvanik və s.) erməni hərbi birləşmələrini vurub çıxardıq. Özü də bu kəndlər kifayət qədər yüksəklikdə yerləşirdi.

**«Respublika» qəzeti,** *6 may 1993-cü il.*

*Qarabağ döyüşlərində uğurların əldə edilməsini* görən Xalq Cəbhəsi iqtidarı iyunun 25-də məni Elçibəyin qəbuluna çağırdılar ki, işdən azad etdirsinlər. Elçibəy dövlət başçısı kimi ilk dəfə olaraq Türkiyəyə səfərə getməyə hazırlaşırdı. Onunla müharibədəki vəziyyətlə bağlı söhbət etdik. Hiss etdim ki, hücumla bağlı gedən hazırlıqdan məlumatı var. O haqda heç nə soruşmadı. Mən də ona o haqda demədim. Səfərdən qayıdan kimi Elçibəy məni işdən çıxardı.

**Həmin günləri Əsəd Fərəcov ürək ağrısı ilə xatırlayır:**

«İyun ayının 20-25-i arası idi. Ağdam güclü atəşə tutulurdu. Gecə saat 2-3 radələrində Əlisaab müəllimlə mən Ağdam yaxınlığındakı Uzundərəyə gəldik. Hərbi qərargah burada yerləşirdi. Ağdama artilleriya zərbələri yetirilirdi. Bir azdan briqada komandiri Elxan Orucovun rəhbərliyi ilə cavab atəşlərindən sonra düşmən tamamilə susduruldu. Səhərin alatoranlığında Ağdam istiqamətindən işıqları yanan uzun maşın karvanının gəldiyini gördük. Əlisaab müəllim silahlanmaq əmrini verdi. Qərargahda cəmi beş nəfər var idi. Hamımız - Elxan Orucov, qərargah rəisi Altay Mehdiyev, jurnalist Nizami Məmmədəlioğlu, Əlisaab Orucov və mən özümüzə mövqe seçdik. Maşın karvanı gəlirdi. Əlisaab müəllimin ilk atəşindən sonra karvan dayandı. Onlara yaxınlaşanda gördük ki, yanılmışıq. Onlar ermənilər yox, yerli əhali idi, gecəykən kəndlərini tərk edir, əmlakını çıxarırdı. Ə. Orucovun tələbiylə xəstələr, qocalar və uşaqlar Bərdəyə göndərildi, qalan əhali isə kəndlərinə geri qayıtmağa məcbur edildi. Sonra biz Ağdama - prezidentin səlahiyyətli nümayəndəsinin qərargahına qayıtdıq. Bir neçə gün idi ki, Əlisaab müəllim qızdırmanın içində qovrulurdu. Qərargahın qapı-pəncərəsi «qrad» və raketlərin partlayış zərbələrindən dağıldıqdan, ona bərk soyuq olmuşdu. İki-üç gün idi ki, istiliyi düşmürdü. Nə qədər yalvarsaq da, o, qərargahı tərk etmirdi. Bir dəfə yenə qərargah istiqaməti «Qrad» və raket atəşinə tutulmuşdu. Çörək muzeyi, mədəniyyət sarayı, rabitə evi dördbiryanımız güclü dağıntıya məruz qalmışdı. Bizim qərargahda olanların hamısı sığınacaqlara çəkilsə də, Əlisaab Orucov telefon dəstəyini

əlindən yerə qoymamış, əlaqəni üzməmişdi.

Səhər saat 7-də Elxan Orucov zəng elədi ki, dövlət katibi Pənah Hüseynov, Nazirlər Sovetinin birinci müavini Vahid Əhmədov Ağdama gəlirlər. Cavab verdim ki, Əlisaab müəllim yerindədir. Həmin vaxt rayonlardakı vəziyyət haqqında Ə. Orucov məlumatları qəbul edirdi. İki saatdan sonra biz yenidən Uzundərə qərargahına qayıtdıq. Məlum oldu ki, artıq Pənah Hüseynovla Vahid Əhmədov «Mersedes»lə Ağdama gəlmiş, bizim qərargahın 300 metrliyindəki cəbhənin qərargahında olmuş və geriyə qayıtmışlar. Qayıdanda Pənah Hüseynov Elxan Orucovdan Əlisaab Orucovu xəbər almış və onun qərargahda olması cavabıyla razılaşmamışdır ki, inanmıram, o indi haradasa öz kefindədir. Hətta E. Orucov «Lazımsa, əlaqə yaradım danışın» - deyəndə Pənah Hüseynov bununla razılaşmamış və onun əleyhinə özbaşnalığı haqda izahat yazmasını tələb etmişdir. E. Orucov isə «Respublikada yeganə adamdır ki, bizə kömək edir» cavabını vermiş, Pənah Hüseynov isə «Onda bəxtindən küs» - deyə narazı halda Uzundərə hərbi qərargahını tərk etmişlər.

Ertəsi gün Bakıdan dövlət müşaviri Arif Hacıyevlə Nazirlər Kabinetinin sədr müavini Əsgər Məmmədov və iki nəfər deputat da *(səhv etmirəmsə Qalib Qurbanov və İnqilab Nadirov)* vəziyyəti öyrənmək üçün Ağdama gəldilər. Həmin ərəfədə Elxan Orucovun rəhbərliyi, Əlisaab Orucovun yaxından köməkliyi ilə Əsgəran rayonunun yeddi kəndi düşmən işğalından azad edildi. Lakin vəziyyət həddindən





artıq gərgin idi. Könüllü batalyonların komandirləri heç kimə tabe olmaq istəmirdilər. Hərə özünün ağası idi. Hələ briqada komandiri Elxan Orucovun üzərinə hücum çəkib, onu silahla hədələyirdilər. Lakin Ə. Orucov onları sakitləşdirir və briqada komandiri ətrafında sıx birləşməyə, düşmənə qarşı birgə mübarizə aparmağa səsləyirdi».

Azad edilmiş kəndlər üç ay müddətinə saxlanıldı. Lakin... Əlisaab Orucov Qarabağdan gedəndən sonra Ağdam da işğal edildi.

***

Mənim, 14 nəfərdən ibarət olan kəşfiyyatçıları Ağdama gətirib biriqada komandiri Elxan Orucovun sərəncamına verməyimin bir məqsədi var idi. Bu da odan ibarət idi ki, onların topladıqları məlumatlardan istifadə edib, hücuma keçib torpaqlarımızı azad edək. Mənə hərbi səlahiyyət verilməməsinə baxmayaraq, Elxan Orucov *(Ağdam bölgəsi üzrə briqada komandiri)* və İ.Məmmədov *(Zəngilan bölgəsinin briqada komandiri)* kimi vətənpərvər, qeyrətli Azərbaycan övladları, mənim fəaliyyətimin əyani surətdə şahidləri olduqları üçün məni eşidirdilər. R.Qazıyevin mənimlə bağlı, onlarla olan davasına əhəmiyyət vermirdilər. Əvvəl qeyd etdiyim kimi respublika rəhbərliyinin nümayəndələri **1992-ci ilin iyun ayının axırlarında** tez-tez Ağdamda ezamiyyətdə olmuşlar. Bunun bir səbəbi var idi. Onlara Ağdam Xalq Cəbhəsindən məlumat verilmişdi ki, biz hücuma hazırlaşırıq, kəndləri ermənilərdən azad edirik. Həqiqətən də Elxan Orucovla İ.Qəmbərovun yanında olub, ondan

rədd cavabı aldıqdan sonra, yerdə qalan hələ işğal olunmayan Ağdamın, Füzulinin, Kəlbəcərin, Zəngilanın, Qubadlının, Cəbrayılın və s.rayonların işğaldan müdafiə olunması üçün mütləq hücuma keçmək və işğal olunmuş əraziləri düşmən tapdağından azad etmək olduqca zəruri idi. Odur ki, 1992-ci ilin ikinci yarısında Ağdam rayon ağsaqqallarının və fəallarının keçirdikləri iclasda mən və Elxan Orucov iştirak edib oradakı camaata bildirdik ki, hakimiyyətdə olan iqtidarın məqsədi Ağdamı, Füzulini, Zəngilanı, Qubadlını, Cəbrayılı ermənilərə təhvil verməkdir. Çünki Ermənistanın Dağlıq Qarabağ ətrafındakı rayonları işğal edib, işğal olunan ərazi ətrafında kəmər yaratmaq planları var idi. Odur ki, Ağdam camaatının edəcəkləri maddi, mənəvi vətənpərvərliyinə arxalanaraq Gəncə şəhərində artıq buraxılmış hərbi hissələrdən 90 nəfər yüksək rütbəli zabitləri Ağdamda yerləşdirib, hərbi əməliyyatlara hazırlıq işlərinə başladıq. Onları Xındırıstanda İldırım Cəfərovun sədr olduğu kolxozun qonaq evində yerləşdirdik. Kəşfiyyatçıları isə Xuraman xanımın köməkliyi ilə Qərvəndin qonaq evində yerləşdirmişdik. 90 nəfəri də verdim Elxan Orucovun sərəncamına. Onlar dedilər ki, Elxan Orucov onlara əməliyyatları başa çatdırmaq üçün 200 nəfər topdan və sair texnikadan yaxşı atəş açmağı bacaran əsgər ayırsın. Bunlar hamısı olduqdan sonra onların rəhbərləri Elxan Orucovla cəbhənin ön xəttində olub düşmənin vəziyyətini öyrənib **2 iyul 1992-ci ildə Əsgəranın Xanabad kəndindən**





əməliyyata başlamalı idilər. Bundan bir gün əvvəl məni, bir neçə gün əvvəl E.Orucovu işdən azad etdilər. **2 iyul 1992-ci ildə əməliyyat başlamalı idi.** Bəs nə oldu?! Sanki gizli bir əl bu işləri pozurdu. Həmin gün Ağdama gedib Elxan Orucovun yerində Abdullayev familiyalı hərbçinin olduğunu Gəncədən gətirdiyim kəşfiyyatçıların və zabitlərin oradan çıxarılıb qovulduqlarını gördüm. Elxan Orucov bir həftədən sonra yenə öz işinə qaytarıldı.

**- Əlisaab müəllim, son olaraq, qayıdaq Qarabağa. Siz Qarabağın sülh yolu ilə azad olunacağına inanırsınızmı və yenidən Qarabağa dönərdinizmi?**

- Mən beş ilə yaxın Qarabağda fəaliyyət göstərmişəm. Səngərlərdə əlimdə avtomat silahı düşmənə qarşı vuruşmuşam. Hansı ki, mən Qarabağa on günlüyə göndərilmişdim. Hər zaman Qarabağ uğrunda bir əsgər kimi əmrə hazıram. Hesab edirəm ki, sülh yolu ilə mümkün olmayan məsələ müharibə yolu ilə həll edilib, Qarabağımızı ermənilərdən azad etməliyik.

Ermənin arxasında nəhəng silah bazası olan Rusiya və ABŞ durur. Super dövlətlər ermənilərin xeyrinə sülh siyasəti ilə məsələnin həllinə yekun vurmağa çalışırlar. Torpağı rus qoşunları işğal edibdi. İndi də işğal olunmuş torpaqlarda rus ordusu keşik çəkir.

Torpaqlarımızın sülh yolu ilə azad edilməsi məqsədi ilə 2001-ci ilin yanvarında aşağıdakı məzmunda Dağlıq Qarabağın statusunun müəyyən edilməsinə dair təkliflər vermişəm:

**AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİ BEYNƏLXALQ HÜQUQ ƏMƏKDAŞLIĞI İDARƏSİNİN RƏİS MÜAVİNİ CƏNAB F.QURBANOVA**

«Azərbaycan» qəzetinin 2001-ci il 21 fevral tarixli 42-ci sayında Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair ATƏT-in Minsk qrupunun 1997-ci il dekabrın 2-də, 1998-ci il noyabrın 7-də irəli sürülmüş «Paket həll», «mərhələli həll», «ümumi dövlət» şərti adı altında olan sazişlər və prinsiplər dərc edilmişdir.

Hər üç variant İdarənin kollektivi tərəfindən öyrənilib müzakirə edilmişdir. «Ümumi dövlət» şərti adı altında olan prinsiplər variantının ümumiyyətlə qəbul edilməsi məqsədə müvafiq hesab edilməmişdir. Münaqişənin sülh yolu ilə həll edilməsilə əlaqədar olaraq Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasının «Paket həll» və «mərhələli həll» şərti adı altında saziş formalarının bəzi maddələrinin çıxarılması, dəyişilməsi və əlavələr edilməsi şərtilə qəbul olunması üçün aşağıda qeyd olunan təkliflərin qəbul edilməsi məqsədəuyğun hesab edilmişdir:

**1.** Dağlıq Qarabağa Azərbaycan Respublikasınm tərkibində yüksək, hərtərəfli statusa malik olan «Dağlıq Qarabağ Muxtar Respublikası» statusu verilməsi;

**2.** Münaqişənin sülh yolu ilə həllində Dağlıq Qarabağın tərəf kimi iştirakına yol verilməməsi;

**3.** Dağlıq Qarabağın öz bayrağının, gerbinin və himninin olmasının yolverilməməzliyi;





**4.** Dağlıq Qarabağ ərazisində Azərbaycan Respublikasının Konstitusiyasının müddəalarına zidd olmayan Dağlıq Qarabağ Muxtar Respublikası Konstitusiyasının qüvvəyə malik olması;

**5.** Dağlıq Qarabağ ərazisində yaşayan əhaliyə Azərbaycan Respublikasında istifadə olunan pasportlardan istifadə etmək hüququ verilməsi;

**6.** Azərbaycan Respublikasmın ordu, polis və təhlükəsizlik qüvvələrinin Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan Dağlıq Qarabağ ərazisinə istənilən vaxt daxil olmaq hüququna malik olması;

**7.** Silahlı münaqişənin dayandırılması üçün Ermənistan Respublikasının sərhədləri xaricində yerləşdirdiyi hər hansı silahlı qüvvələrinin öz sərhədlərinin hüdudları daxilinə aparması;

**8.** Dağlıq Qarabağ silahlı qüvvələrinin Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) 1988-ci il 01 yanvar tarixinədək olan hüdudları daxilinə aparılması;

**9.** Silahlı qüvvələrin həmin ərazilərdən çıxarılması nəticəsində Dağlıq Qarabağın sərhədləri boyunca ayrıca zona yaradılması və orada təhlükəsizliyin təmin olunması üçün ATƏT-in çoxminli sülhü müdafiə qüvvələrinin yerləşdirilməsi;

**10.** Qüvvələrin çıxarılması başa çatdıqdan sonra, həmçinin Laçın rayonunun Ermənistanla olan bütün sərhəd boyu ərazilərində ATƏT-in çoxmilli sülhü müdafiə qüvvələrinin yerləşdirilməsi;

**11.** Dağlıq Qarabağ sakinlərinin Ermənistan Respublikasına təhlükəsiz gediş-gəlişini təmin etmək məqsədilə ən qısa məsa-

fə olduğuna görə Azərbaycan Respublikasının Hadrut rayonunun Arpagədik kəndindən Ermənistan Respublikasının Gorus rayonunun Xınzırek kəndinədək 15 kilometrlik magistral avtomobil yolu çəkilməklə «Laçın dəhlizi»nin yaradılması;

**12.** Bu tədbirlər həyata keçirildikdən sonra, Laçın, Şuşa və Şaumyan kənd rayonlarının məcburi köçkünlərinin öz daimi yaşayış yerlərinə qaytarılması.

Beləliklə, Dağlıq Qarabağın, Laçın, Kəlbəcər, Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli və Ağdam rayonlarının əhalisinin, yəni əvvəlki yaşayış yerlərinə qayıdan məcburi köçkünlərin təhlükəsizliyinin təminatı daxil olmaqla, yuxarıda göstərilən təkliflərə əməl olunmasını təmin etmək məqsədilə Azərbaycan və Ermənistan Respublikaları öz üzərlərinə qarşılıqlı öhdəliklər götürməlidirlər.

**Ə.ORUCOV**

*İdarənin rəisi, Baş Ədliyyə müşaviri S-7*

***

Mən Dağlıq Qarabağla bağlı bir fikri irəli sürmüşəm və həmin fikrimdə də qalıram. Qarabağdakı vəziyyəti bərpa etmək və müharibəyə son qoymaq üçün danışıqlar yalnız iki respublika rəhbərlikləri arasında aparılıb bir qərara gəlinməlidir. Üçüncü tərəfin bu məsələyə qarışması məsələ-





nin həlli deyil, bu yalnız ermənilərin və onların tərəfdarlarının xeyrinə məsələnin həll edilməsi deməkdir. Hətta SSRİ-nin dövründə də mümkünlüyü və real həyata keçirilməsi çox çətin olsa da, yenə də həmin fikirdə olmuşam. Burada söhbət sənin, mənim şəxsi əmlakından getmir. Söhbət vətən torpağından gedir və ona da biz hamımız qanımızla cavabdeh və borcluyuq. O ki, qaldı müstəqilliyimizi əldə etdikdən sonra Xalq Cəbhəsi İqtidarı dövründə bu məsələnin həllinə respublikadan kənara beynəlxalq aləmə çıxarıb, Birləşmiş Millətlər Təşkilatına həvalə etmək və onların bizim «xeyrimizə» qətnamələr çıxarmaları, hamıya məlumdur ki, bu qətnamələr aldadıcı sənədlər olmaqla heç vaxt icra olunmayacaq, bu da erməninin xeyrinədir. Əsas məsələ budur ki, müstəqilliyimizdən əvvəl bu məsələnin həlli üçüncü tərəfdən Moskvadan asılı idi. Müstəqilliyimizi əldə etdikdən sonra da Xalq Cəbhəsi İqtidarı üzərinə müşahidəçi funksiyası götürərək məsuliyyətdən yaxa qaçıraraq məsələnin həllini üçüncü tərəfə, beynəlxalq təşkilatlara həvalə etmişdilər. Götürək Avropa Şurası, Minsk Qrupu və s. təşkilatların heç biri məcburedici sanksiya və qərar qəbul etməyə səlahiyyətləri və ixtiyarları yoxdur. Yalnız onlar tövsiyəedici qərarlar qəbul edə bilərlər. Bu yolla məsələ heç bir vaxt həll oluna bilməz. Yenə deyirəm məsələ konkret olaraq iki respublika arasında uzadılmadan həll olunmalıdır. Sülh və yaxud hərb yolu ilə...

Bir məsələyə də diqqətin cəlb olunmasını zəruri hesab edirəm. Baş nazirin müavini və prezidentin səlahiyyətli nümayəndəsi təyin olunarkən Dağlıq Qarabağın bütün ərazisi, Şuşa şəhərindən başqa, ermənilər tərəfindən işğal olunmuşdur. Şuşa şəhəri də düşmənin silahlı qüvvələri tərəfindən mühasirəyə alınmışdı. Belə bir vəziyyətdə həmin vəzifəyə getməkdə tərəddüd etmədən razılıq verdim ki, torpaqlarımızın düşməndən azad olunması üçün iş görə biləcəyimə ümid bəslədim. Lakin respublikaya o vaxt rəhbərlik edənlərin xəyanəti, yalanı və səriştəsizliyi ilə rastlaşdım. Səlahiyyətli nümayəndə işlədiyim iki ay iyirmi iki gündə respublikada dörd dəfə rəhbərlik dəyişdi, demək olar ki, güc strukturlarının hər biri, dövlət daxidlində özləri üçün dövlət yaratmışdılar. Y.Məmmədov məni səlahiyyətli nümayəndə təyin etdi, sonra A.Mütəllibov qayıtdı, sonra İ.Qəmbərov gəldi və Əbülfəz Əliyevin dövründə vəzifəmdən azad olundum. Fikrimi onunla tamamlayıram ki, bu məsələnin ədalətli həllində sözün əsl mənasında tərəfdarımız yoxdur, iş qalır yalnız özümüzə.

**Tanrı köməyimiz olsun!**





# QARABAĞDAKI MÜHARİBƏ MEYDANI MOSKVA KREMLİNDƏ

Etnoslar və etnik davramş stereotipləri barədə xeyli orijinal konsepsiyanın yaradıcısı Lev Nikolayeviç Qumilev özünün «Drevnyaya Rus i Velikaya Step» kitabında inandırıcı şəkildə sübut edir ki, qədim ruslar (rusiçlər) və köçəri qıpçaqlar arasındakı konfliktlər təsadüfi idi; məsələn, Çerniqov və Kiyev arasındakı konfliktlər daha ciddi idi. Başqa sözlə, alim qədim Rus ilə Böyük Səhraya bir sistem - slavyan-türk sistemi kimi baxırdı.

**Lev Nikolayeviç Qumilev Azərbaycanın gənc alimlərinə öz arzularmdan birini belə bildirmişdi:** *«Öz xalqınızı tərifləməyə çalışmayın, o, onsuz da böyükdür, bir şey ki, gözəldir, onun tərifə ehtiyacı yoxdur».*

**Və davranış stereotiplərini öyrənəndə də istifadə etdiyi özünün zəngin keçmişindən bir epizod danışmışdı. Bu tarixcə belə idi:**

«Bizim düşərgədə olan Rzaqulu adlı bir azərbaycanlı ilə bağlı belə bir hadisə olmuşdu. O indi Bakıda yaşayır. Kimyaçı, sakit, təvazökar adam idi. O özü üçün yeməyə sala kəsirdi, bir nəfər isə onun başı üstə dayanıb qışqırır, zibili dəstərxanın üzərinə tökürdü. Rzaqulu dedi: «aralaş», o bütün əli ilə Rzaqulunun üzünə vurmaq istədi, Rzaqulu sonra mənə danışırdı: «O məni vursaydı mən ya vurmalı, ya da ölməli idim». Buna görə də Rzaqulu onun əlinin içi-

ni bıçaqladı. O, dərhal harasa qaçdı. Rzaqulu deyir: «oturmuşam və fikirləşirəm: mən öləcəyəm, ya yox». O, geri qayıtdı, əli sarınmışdı, əlini uzadır və deyir: «Sənə afərin»...

**Azərbaycanlını polyakdan, almandan, qərb slovyanından nə fərqləndirir?** Axı onlar mənliyi qoruyub saxlamaq xatirinə həyatları ilə risk etməzdilər. Bu isə heç fikirləşmədi də, o başqa davranış stereotipinə malikdir. Və bundan sonra mən stereotipləri öyrənməyə başladım».

Rus alimi öz müşahidəsində haqlıdır. Bu başqa məsələdir ki, Azərbaycan xalqı da, istisnasız olaraq bütün sovet xalqları kimi, mücərrədliyə çevrilmişdir, o cür də qalır.

**Biz azərbaycanlıları həmişə o qədər yalançı aqillər idarə edib və edirlər ki, hətta onların dediyi həqiqət də dönüb yalan olur.**

Belə görünür ki, bizdə və Qərbdəki erməni millətçilik hərəkatının təşəbbüskarları əmin idilər ki, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi elə bir çətinliklə qarşılaşmayacaqdır. Hər şey hesaba alınmışdı. Yalnız bir faktordan - Azərbaycan xalqının iradəsindən savayı. Onu partiya «şirvanşahları» iflic edə bilməmişdi.

Qarabağ konflikti başlananda demək olar ki, hökumətin bütün üzvləri və MK-nın bütün məsul işçilərinin çoxu bir-birinə qohum idi.

Açıq danışdığı məqamlardan birində Azərbaycan Yazıçılar İttifaqının katibi Çingiz Abdullayev deyirdi ki, bu cür əlbirlik içərisindən keçmək asan deyildi. Ən yaxşı halda bu, əlverişli evlənmək hesabına mümkün olurdu. Vaxtilə





xanlıqlara parçalanmış Azərbaycan şəraitində dəhşətli «haralısan» sualı milləti parçalayır, adamları bakılılara və naxçıvanlılara, qarabağlılara və lənkəranlılara ayırırdı.

**Çingiz Abdullayev yazırdı:** *«Yapışqanlı pis «rüşvət» sözünü biz «hörmət»lə əvəz edərək bir-birimizə hörmət etməyə başladıq, başa düşmədik ki, içindən çıxa bilməyəcəyimiz qanlı dairə yaratmışıq».*

«Hörmət» uşaq bağçaları və körpələr evinin işçilərindən başlayır, milislər, hakimlər, prokurorluq, partiya hakimiyyət orqanları ilə rastlaşdıqda isə astronomik rəqəmlərə çatırdı. Azərbaycanda pul hər şeyi həll edirdi.

Əvəzində Moskvada kütləvi informasiya vasitələri var gücü ilə aranı qızışdırır, millətlərarası ədavətin sərt rentgen şüalanmalarını Azərbaycana yaymağa çalışırdı. Haqqında verilən xəbərin iki xalq arasında yığılıb qalmış bütün xırda və kinli nə varsa hamısını arxa plana keçirdiyi Ermənistandakı zəlzələ günlərinə qayıdım.

Bakıda könüllülər donor məntəqəsi qarşısında qan vermək üçün növbəyə dayanan vaxt «Vremya» proqramının şərhçisi elan edirdi ki, Azərbaycan paytaxtında Ermənistandakı zəlzələ münasibətilə atəşfəşanlıq olmuş, indi xalq gəzintisi gedir. Və bu, Moskvanın tətbiq etdiyi hərbi vəziyyət və komendant saatı nəticəsində gecələr qaranlığa qərq olan, hər iki məhəllədən bir tank və zirehli transportyor dayanan, təsadüfən buraxılış vəsiqəsi olmadan küçədə qalmış adamları səhərəcən milisdə saxlanılan şəhər haqqında deyilirdi.

1988-ci ilin dekabrında edilən bu çıxışın Ermənistanda və Azərbaycanda hansı nəticələr verdiyini təsəvvür etmək olar... **Bir məqsəd güdülürdü və indi də güdülür:** qanun yolu ilə mübahisələri həll etmək üçün olan istənilən təklifi rədd etmək, onsuz da gərgin vəziyyəti bir az da gərginləşdirmək.

**Əslən Qarabağdan olan yazıçı Maqsud İbrahimbəyov məqalələrinin birində yazırdı:** «Bir az əvvəl qərara aldılar ki, Dağlıq Qarabağın azərbaycanca adını dəyişsinlər. - guya onun azərbaycanca adı erməni xalqının estetik hisslərini təhqir edir. Xalqın burada nə işi var? Ermənilərin düz yarı hissəsi ya azərbaycanlı, ya da türk familiyalıdır: Allahverdiyan, Ağasıyan, Aqanbekyan, Ağababyan, Babayan, Balayan, Verdiyan, Kaputikyan, Dəmirçiyan, Xanzadyan, Əlixanyan və onlarca başqası. Amma heç nə olmur, elə bil ki, xalq qəzəblənmir, heç kim nə familiyasını, nə də adını dəyişmir. Öz əziz adamlarına müraciət edərkən çoxları azərbaycan sözü «can» işlədir. Hələ ki, ləğv etməyiblər. Qafqazın nəğməkarı Azərbaycan, erməni və gürcü dillərində yazıb, yaratmış erməni Sayat-Nova özünün ölməz 105 qəzəlindən 75-ini azərbaycan dilində yazmışdır. Onu da ləğv etməyiblər. Oxuyurlar. Bəs onda Dağlıq Qarabağın adını dəyişmək nədən ötrü lazım olub? Qəzəb doğurmaq, ədavəti gücləndirmək, adam öldürmək, zorakılıq, evlərin yandırılması ara verməsin deyə. Həmişə qızışdırmaq, təhrik etmək lazımdır, yoxsa birdən tətillər dayana bilər, nə bilmək olar, bəlkə bir-birinə salam verməyə də başladılar».

Əhval-ruhiyyə 1989-cu ilin yazında Moskvada işə başlamış SSRİ xalq deputatlarının birinci qurultayında da qızışdırılırdı. Sanki Qarabağdakı müharibə meydanı Moskva Kremlinə köçürülmüşdü. Q.Starovoytova başda olmaqla Ermənistandan olan xalq deputatları bütün ölkənin və bütün dünyanın gözü qarşısında DQMV-ni Ermənistana verdirməyə çalışır, nalayiq ifadələrdən çəkinməyərək Qorbaçov və Lukyanovun imkan verməsi şəraitində azərbaycan xalqını pisləyirdilər.





Azərbaycandan olan deputat korpusu öz dayazlığı (kütlüyü) ilə təəccüb doğururdu. Bununla əlaqədar Leninqradda yaşayan azərbaycanlı qadının məktubunu sitat gətirmək istəyirəm, həm də onu deyim ki, bu məktub heç Azərbaycan mətbuatına da yol tapa bilməmişdir.


Əsgəran qalası

**Müəllif öz məktubunda yazırdı:**

«Necə oldu ki, Azərbaycandan SSRİ xalq deputatları qurultayına bu cür deputat korpusu seçildi? Məgər aydın deyildimi ki, ölkədə qəti dəyişikliklər gedir, deputat seçkilərində bu və ya başqa sosial təbəqənin faizlə normasını gözləmək və birinci katibin göstərişinə uyğun səs və əlini qaldıran adi itaətkarları deyil, savadlı, müstəqil düşünən, müxtəlif sahələrdən başı çıxan, respublika üçün yanan, öz xalqını ləyaqətlə təmsil edən, respublikanın mənafeyini həqiqətən müdafiə edə bilən adamları seçmək lazımdır? Axı, bü cür adamlar Azərbaycan əhalisinin bütün sosial təbəqələrində var.

Bəs niyə dairə komissiyaları məhz qurultayda müxtəlif sahələrdə özünü müstəqil göstərə biləcək adamları «kənarlaşdırdılar».

Bizim nümayəndə heyətinə, növbəti çıxışlara, Vəzirovun ardınca yekdilliklə qalxan əllərə baxanda adam xəcalət çəkirdi...

Bəzən adama elə gəlirdi ki, ümumiyyətlə, Azərbaycan deputatları qurultayda yoxdur.

«Və əlbəttə, Azərbaycan xalqının məhdudluğu, kütlüyü və s. barədə şayiə yayanlar bundan istifadə edirdilər. Mənə zəng vurur və deyirdilər: «Sən hələ iddia edirsən ki, sizdə qabiliyyətli və cəsarətli adamlar var. Bəs hanı onlar? Bütün sizin nümayəndə heyəti «qanuna tabe çoxluğa daxildir və sədr nə cür desə o cür də səs verir». Bunları eşitmək adama toxunur və ağrıdır, çünki bilirdim ki, həqiqətən də layiqli adamlar, bacarıqlı mütəxəssislər var. Vəzirov və onun aparatı, yenə də daha çox öz hakimiyyətləri, Baş katibin gözlərində özlərinin necə görünəcəkləri barədə düşünmüşdü».





Nə demək olar iyirmi beş il əvvəl Bakıdan getmiş Leninqradlı qadının gəldiyi nəticə düzgün idi: özünə hörmətsizlik, başqalarının sənə etinasız olmasına gətirib çıxarır.

**1989-cu ildə Azərbaycanın bütün respublika qəzetləri belə başlıqlarla dolu idi.** Tipik başlıqlardan yalnız bir neçəsi: «Problemlər birgə həll edilir», «Biz bir yerdə yaşamalıyıq», «Yol birdir - milli barışıq», «Millətlərarası sülh naminə». Ağlasığmaz çətinliklə Vəzirov aparatının ideoloji senzurasından keçərək müəlliflərin «Hüquqi dövlət qanuna hörmətdən başlayır», «Ambisiyaların yox, həqiqətin arxasınca getmək lazımdır» və tam realist «Mal-qaranı oğurlayırlar» başlıqlı çıxışları qəzet səhifələrinə çıxırdı.

**1989-cu il Azərbaycan və Ermənistan hökumətlərinin «Daimi yaşayış yerini tərk etmiş vətəndaşlara müraciəti» oldu:**

«Biz hamımız M.S.Qorbaçovun çağırışına qulaq asmalıyıq, hər şeyi etməliyik ki, kim daimi yaşayış yerlərini məcburi tərk edibsə, tezliklə öz doğma ocaqlarına qayıtsınlar».

Bu riyakar çağırışadək Ermənistan praktiki olaraq bütün iki yüz min nəfərlik azərbaycanlı əhalisini qovmuşdu. Qaçqınlar Bakıda dəstə-dəstə yığışır, MK binasının qarşısındakı meydana çıxırdılar, ağlaşan uşaqları ilə birlikdə onları Vəzirov özü dilə tuturdu, cəld tapılıb gətirilmiş avtobuslara doldurur, haradan qovulublarsa oraya yola salırdılar. Orada isə hadisələrin gedişi göstərdi ki, antiazərbaycan

isteriyası heç bir gün də ara verməmişdi. Və başa düşmək lazımdır ki, bu dövrdə meydana niyə «Səbr etdik bəsdir» şüarı gətirildi.

Azərbaycan hökuməti qaçqınların öz iqliminə görə qoyub gəldikləri vətənlərinə, yəni, Leninakana, Kirovakana, Spitaka, Qursalıya, Sarala yaxın olan coğrafi mühitə köçmək arzularını ürəyində qoydu. Bu onsuz da qeyri-mümkün idi. Onlar tələb edirdilər ki, bizi suveren Azərbaycan SSR ərazisinə - Dağlıq Qarabağa köçürün.

**Elə həmin müddətdə Abşerondan Dağlıq Qarabağa 20 min erməni köçdü: «dağlıq iqlim şəraitinə uyğunlaşmaq üçün».**



**Erməni terrorçularının havadarları** - rus hərbçiləri





İki xalqa «öz ocaqlarına sülhlə və təmiz ürəklə qayıtmaq» müraciətini Moskva diktə etmişdi ki, Bakı erməniləri üçün şərait yaratsın. Onların bəziləri öz evlərini və mənzillərini baha qiymətə satır və müavinət aldıqdan sonra Rusiyanın yaxşı şəhərlərində maksimum əlverişli şəraitin harada olduğunu öyrənirdi. Bakı şəhəri xüsusi rayonunun komendantı general-leytenant **M.Kolesnikovun məlumatına görə,** 1989-cu il martın sonuna erməni millətindən olan 190 min əhalidən 23 min nəfəri köçüb getmişdi. Onlardan yeddi mini Ermənistana, qalanları RSFSR-ə və Los-Anjelesə.

Necə oldu ki, Sumqayıt hadisələrindən əvvəl Ermənistandan bir neçə min azərbaycanlının deportasiyası gizlədildi və ölkədə bu barədə geniş məlumat yayılmadı!

Niyə respublika rəhbərliyi Moskvadan Sumqayıt hadisələrinin bütün iştirakçılarının işinə açıq məhkəmə prosesində baxılmasını təkid etmədi ki, kimin kim olduğu bilinəydi.

Əlbəttə, gələcək siyasi karyera üçün risklə **(çünki, Sov.İKP MK və Baş katibin ermənilərdən olan köməkçiləri güclü və ağılları başlarında idilər)**, lakin xalqın ləyaqətini qoruyub saxlamaq xatirinə dediyimiz iki suala verilməli cavablar deputat İgityanı məcbur edərdi ki, dursun və heç olmasa Azərbaycan və erməni xalqlarından üzr istəsin. Vəzirov və silahdaşları Kremldəki qurultayda tez-tez geno-

siddə ittiham olunmalarını dinləyir, heç olmasa 1988-ci ilin iyulunda **M.S.Qorbaçovun bu məsələ ilə bağlı səslənən cavabındansa istifadə etmirdilər:**

«Genosid - kortəbii deyil, müəyyən mütəşəkkil irqçilik siyasətidir... Genosid hər hansı xalqa və ya milli azlığa münasibətdə aparılan düşünülmüş məhvetmə siyasətidir. Niyə siz banditlərin hərəkətini bütün Azərbaycan xalqının adına çıxarırsınız? Hansı genosid haqqında danışmaq olar?»

Necə oldu ki, 1988-ci il dekabrın 5-də gecə Bakının Lenin meydanmdan silahsız adamların dəyənəklərlə döyülərək qovulması xeyli yaralının xəstəxanalara düşməsinə baxmayaraq gizlədildi və ört-basdır edildi?

Yox, bu onillərlə mənəviyyatı zora məruz qalmış və uzun müddət ətrafda baş verən şər işlərlə razılaşan xalqın vətəndaş oyanışı idi. Dünyanın hər tərəfindən Sumqayıt, həlak olmuş ermənilər, qatil azərbaycanlılar barədə qışqırdıqları halda, səbr kasası dolmuş xalq başqa nə cür diqqəti cəlb edə bilərdi?!

Azərbaycan Xalq Cəbhəsinin ilk bülleteni yalnız 1989-cu ilin mayında çıxdı. **Bülletendə haqlı olaraq qeyd edilirdi:** «Dağlıq Qarabağdakı hadisələr bürokratiyanın milli mənafeləri müdafiə etmək qabiliyyəti olmadığını və gücsüzlüyünü açıq nümayiş etdirdi. 200 min azərbaycanlı öz doğma ocaqlarından qovulmuş, Dağlıq Qarabağ isə faktiki olaraq Respublikanın tabeliyindən çıxarılmışdır. Növbə - yeni Azərbaycan torpaqlarınındır. Öz hakimiyyətlərinin vaxtını uzatmaq üçün bürokratiya konfliktin əsas səbəblərini və miqyasını xalqdan hər cür gizlədir, Ermənistan SSR







**Ermənі terrorçularınm havadarları** - rus hərbçiləri

hökumətinin təcavüzünə qarşı rəsmi etiraz etməyə cürət etmir». AXC-nin elə həmin sənədində ilk dəfə elan edilirdi ki, DQMV problemi Azərbaycanın daxili işidir. «Erməni millətçilərinin Dağlıq Qarabağ məsələsini» mərkəzi hakimiyyətin köməyi ilə öz xeyirlərinə həll etmək cəhdləri nəticə verməyəcəkdir və azərbaycan xalqmda etiraz hissi doğurur. Xalqımız öz torpaqları uğrunda mübarizədə yalnız öz gücünə arxalanır və bu güc öz vətənini qorumağa kifayət edəcək qədərdir». Azərbaycan hökumətinin Kremlin iltifatından istifadə etmək cəhdlərini AXC liderləri sanki görmürdülər.

Xalq cəbhəsi liderləri Respublika Ali Sovetinin Sessiyasına yalnız **1989-cu ilin sentyabrında buraxıldılar. Müzakirələrin sonunda çıxış edən AXC idarə heyətinin**

**sədri Əbülfəz Əliyev (Elçibəy) filosofcasına qeyd etdi:**

«Əlbəttə biz öz dərdləri barədə bütün dünyaya hay-küy salan millətlərdən deyilik. Bəlkə də bu düzgündür, bəlkə də yox, lakin bizim səsimiz eşidilmirsə elə fikirləşə bilərlər ki, biz günahkarıq. Digər tərəfdən isə haylı-küylü çağırışlarla o qədər də çox hörmət qazanmaq mümkün deyil».

Elə bu zaman Amerika senatında Robert Doulun təşəbbüsü ilə dəfələrlə «erməni məsələsi»nə dair müzakirələr təşkil olunurdu. Senata 1990-cı ilin «erməni genosidi ili» elan olunması təklif edilirdi. Məsələnin özünün qoyulmasından növbəti dəfə qəzəblənən ABŞ yəhudi icmaları yəhudi-erməni qarşıdurmasının səbəbini «İsraillə şərqin müsəlman dövlətləri arasında yeganə dayamqlı körpü» olan Türkiyə ilə ənənəvi dostluq əlaqələrini korlamaq istəmədikləri ilə izah etdilər. Ermənipərəst senatorların cavab hərəkətlərini çox gözləmək lazım gəlmədi. R.Doul Corc Buşu bir addım da geri çəkilməməyə çağırdı. Dörd erməni terrorçu Buenos-Ayresdə sovet səfirliyini tutdu və özlərinin ifadə etdiyi kimi «SSRİ-nin diqqətini erməni məsələsinin həllinə cəlb etmək üçün» bir neçə gün nəzarətləri altında saxladı. Los-Anjelesdə bir qrup gənc erməni vətənpərvərlik idealları uğrunda mübarizədə öz qətiyyətlərini nümayiş etdirmək məqsədilə yəhudi qəbiristanlığını murdarladı və yaxındakı evlərin divarlarına qırmızı və sarı rəngli boyaqların qatışığını yaxdı.

**«Nyü-York Tayms» qəzeti** ABŞ yəhudi icmasının kö-





məyilə Azərbaycan jurnalistlərinin məktubunu dərc etdi; məktubda erməni diasporunun və daşnaksütyun partiyasının millətlərarası düşmənçiliyi qızışdırmaq və Azərbaycan SSR DQMV ətrafında özlərinin uydurduqları və son məqsədi vilayəti güclə Ermənistana birləşdirmək olan məsələni şişirtmək sahəsindəki hərəkətlərinə qiymət verilirdi. Bu əlamətdar fakt «Azərbaycan» qəzetinə qəribə bir paradoksu qeyd etməyə imkan verdi: mərkəzi sovet qəzetləri DQMV probleminə dair məlumatsız adamların ölkə ictimaiyyətini çaşdıran iri məqalələrini verməyə yer tapır, Azərbaycan mütəxəssislərinin məqalələri isə nəinki mərkəzi mətbuatda, təəssüf ki, çox vaxt heç respublika mətbuatına da yol tapa bilmir.

**Paradoksun sadə açması var:** konfliktin lap əvvəlindən Azərbaycan tərəfə belə bir sərsəm ideyanı qəbul etdiriblər ki, guya həqiqəti yazan məqalələr millətlərarası düşmənçiliyi gücləndirə bilər, halbuki, bu düşmənçiliyin alovu qonşu respublikada göylərə qalxmışdı və həqiqət onu hələ söndürə bilərdi.

**Qəzetin müəlliflərindən biri R.Həsənli belə bir ritorik sual verirdi:**

«Niyə «Nyu-York Tayms» qəzeti Azərbaycan jurnalistlərinin Amerika ictimaiyyətinə erməni diasporunun Dağlıq Qarabağ «problemi»barədə zorla qəbul etdirdiyi birtərəfli təsəvvürlərdən yaxa qurtarmaqda kömək edən məqaləsini verə bilir, amma indiki aşkarlıq dövründə ittifaqın mərkəzi qəzetlərində bunu etmək praktiki olaraq mümkün deyildi?»

**1989-cu ilin payızında ən böyük yenidənqurma tərəfdarı olan «Oqonyok» jurnalının şərhçisi Georgi Rojnov** çox sərt informasiya blokadası ilə qarşılaşdı. Dəmir yolu ilə Meğri, Culfa və Naxçıvandan keçərək Bakıdan Noraşenə gəlib çıxan **«Oqonyok» jurnalisti həmsöhbətlərinin açıq-aşkar ona inanmadıqlarını hiss etdi:**

«Əgər praktiki olaraq bütün mərkəzi qəzet və jurnallar, radio və televiziyaya bizi narahat edən problemlər barədə susur, ya da utanmadan yalan deyirsə sizin bu gəlişlərinizin nə xeyri var?»

**Georgi Rojnov özü də bunun şahidi oldu:** «Heç bir gün keçmədi ki, mən əmin oldum: adamlar haqlı idilər. davam edən millətlərarası konfliktdə nə baş verirsə versin dinləyiciyə bu faciəli hadisə barədə yalnız bir versiya təqdim edilirdi: Azərbaycan az qala qan içən təcavüzkardır, onun qonşuları isə təcavüzün günahsız qurbanları».

**1989-cu ilin yayında və payızında** Zaqafqaziyadan olan məlumatların leksikasına hamı vərdiş etmişdi: avtobusa atəş açılıb, girovlar tutulub, silah müsadirə edilib, adamlar həlak olub. Bu, Daşnaksütyun partiyasının uzun illərdən bəri istifadə etdiyi irimiqyaslı terrorun başlanğıcı idi. Lakin, 1989-cu il sentyabrın sonunda yeni bir söz - müharibə dövründən sonra yaddan çıxarılmış «blokada» sözü eşidilməyə başlandı. İlk dəfə Moskvada Ermənistanın daimi nümayəndəliyində deyilmiş bu söz qəzet səhifələrində göründü, efirdə səsləndi.

SSRİ EA Kosmik Tədqiqatlar İnstitutunun Baş elmi işçisi K.Qrinqauz özünün Bakıdakı həmkarı, SSRİ xalq deputatı və Azərbaycan EA Təbii Ehtiyatlarm Kosmik Tədqiqi İnstitutunun **direktoru T.İsmayılova açıq məktubla müraciət etdi:**

«Necə ola bildi ki, Sovet İttifaqının mövcud olmasının 8-ci onilliyində Sovet Sosialist Respublikalarından biri blokada təşkil edir və bu respublikanın öz daxilində yerləşən vilayətin əhalisini aclıq həddinə çatdırır, yenicə ağır fəlakətə düçar olmuş qonşu sovet respublikasını blokadaya alır».

Məlum olduğu kimi, dəmiryolçuları tətil etməyə çağıran xalq cəbhəsi idi. Ona görə də Bakıya uçub gələn Georgi Rojnov ilk növbədə **AXC idarə heyətinin üzvü Hikmət Hacızadəni dinlədi:**

«Azərbaycan dəmir yolunda hərəkətin dayandırılması sentyabrın 4-dən 17-dək respublikada davam edən ümumi tətilin nəticəsidir, - deyə o izah etdi. Tətil özü isə bizim xalqa qarşı erməni ekstremistlərinin qanuna zidd hərəkətlərinin güclənməsinin yeni mərhələsinin nəticəsi idi. Hesablaym: İyunun 13-də DQMV-dəki azərbaycanlı kəndlərinin tam blokadası başlayıb, sərhəd kəndlərimizə, həm yük, həm də sərnişin qatarlarımıza onlarla basqın olub. Hərgah nə ittifaq, nə də respublika hökuməti respublikanm suverenliyini qoruya bilmirsə və ya qorumaq istəmirsə, onu təcavüzdən mühafizə etmirsə, biz nə etməliyik?»

**1989-cu ilin 5 oktyabrında Azərbaycan Ali Soveti respublikanm suverenliyi haqqında qanun qəbul etdi,** Nazirlər Soveti isə həmin gün Xalq Cəbhəsini qeydiyyatdan keçirdi. Üstündə təzə ay şəkli olan qırmızı-göy-yaşıl rəngli bayraq dövlət atributikasına daxil edildi, aeroportda, meydanlarda və küçələrdə məğrur-məğrur yeni Azərbaycan Bayrağı dalğalanmağa başladı.

İctimai həyatın bütün bu faktları qonşular tərəfindən də qiymətləndirildi.

Müsibət içində olan Ermənistanın blokadası barədə qəzəbli məlumatları oxuyarkən və ya dinləyərkən bir çox adamlar çətin başa düşərdilər ki, Azərbaycan dəmir yolu ilə hərəkət edən qatarlar uzunluğu cəmisi 46 km olan kiçik bir hissəni Ermənistan SSR ərazisindən keçməli olurdular. Məhz Mincivan stansiyasından Meğri stansiyasmadək olan bu hissədə terrorçuların basqınları baş verirdi. Bu barədə Georgi Rojnova baş ədliyyə müşaviri, **nəqliyyat prokuroru Əhməd Ələkbərov danışdı:**

«İlk fitnəkarlıqlar hələ 1988-ci ilin noyabrında başladı. Burada hər şey var idi: dəmir yolunun partladılması, çınqılla örtülməsi, maşinistlərə və sərnişinlərə qarşı kütləvi xuliqanlıq hərəkətləri. Onları daşa basır, döyüş silahlarından atəş açırdılar. Hər belə epizod üzrə cinayət işi qaldırıldı, lakin onların heç biri öz həllini tapmadı. Ermənistamn Meğri rayonunun hüquq-mühafizə orqanları istintaq işlərini aparmağa mane olurdular. Bir də ki, əgər rayonun bir sıra prokurorluq və milis işçilərinin özləri cinayətkar hadisələrin iştirakçısı idilərsə, onlardan hansı köməyi gözləmək olardı!»

Rojnovun Bakıya gəlməsinədək dəmir yolunda hərəkət bərpa edildi və aşkar oldu ki, blokadanın dayandırılmasını dağlarda gizlənmiş terrorçular hansı qəzəblə qarşıladılar. Jurnalist öz oçerkində **Meğri hissəsində yalnız 1989-cu il oktyabrın 7-i axşam baş vermiş hadisələrin xronikasını verdi:**

«Saat 22.50-də 347-ci kilometrdə 2731 N-li qatar Kərçivan stansiyasına yaxınlaşarkən gülləyə tutuldu. Bu dəfə lokomotivin maşinisti İbrahimovu daxili qoşunların hərbçiləri Buqayev və Qiqauri müşayiət edirdi. 23.30-da 2703 N-li qatara atəş açıldı, onu maşinist Məmmədov idarə edirdi. 00.45-də 2704 N-li qatarı daşa basdılar (İsmayılov), 1.45-də daşlar maşinist Bayramovun idarə etdiyi 2766 N-li qatarın teplovozuna dəyirdi. Və nəhayət, oktyabrın 8-də günorta daxili qoşunlar polkovniki Uqolkov Kərçivan stansiyasındakı yolları yoxlayarkən güclü partladıcı qurğu aşkar etdi və zərərsizləşdirdi».





Bəs aşkar etməsəydi, necə? Bir ay sonra həmin sahədə terrorçu Artuş Parsaqyan dəmir yolu relslərinin altına mina qoyarkən partladı; halbuki, bu vaxt yolu artıq SSRİ DİN qoşunları mühafizə edirdi.

**Ona görə də oçerkist özünün Leninakan xəstəxanasının həkimi Alvina Markosyanla yadda qalan dioloqonu verir.**

**A.Markosyan:** Qonşu respublikanın xalqına nə dərəcədə nifrət edilməlidir ki, bizim tərəfimizdən heç bir səbəb olmadan iqtisadi terrora keçəsən? Mənim üçün Azərbaycan dəmiryolçularının gözlərinin içinə baxmaq maraqlı olardı - görəsən, mən onlarda nə görərdim?

**G.Rojnov:** Qorxu və qəzəb... Qorxu - demək olar ki, hər gün atılan güllələrə, onların idarə edib sizə gətirdikləri qatarların üzərinə yağan daşlara görə. Qəzəb - həmin işləri görən qoçuların ünvanına; və inanın ki, onlar həmin qoçuları erməni xalqı ilə heç cür əlaqələndirmirlər.

Kabinetə doluşmuş həkimlər və tibb bacılarımn Rojnovun dediyinə görə, heç xəbərləri yox idi ki, artıq çoxdan - bir ilə yaxın müddətdə dəmiryolunun onların respublikalarından keçən kilometrliklərində nələr baş verir.



Rus hərb maşını erməni terrorçularının əlində

Bəlkə, ola bilsin ki, maşinistlərə və sərnişinlərə edilən hücumlardan (Rojnov və onun yoldaşı - fotoreportyor Bakı-Yerevan qatarında Noraşen stansiyasını keçəndən yarım saat sonra atılan ağır daşdan təsadüfən sağ qaldılar) SSRİ prokurorluğunun xəbəri yox idi?

**Prokuror Əhməd Ələkbərov məlumat verirdi:**

«Mən hələ 1988-ci il noyabrın 26-da SSRİ prokurorluğunun nəqliyyatda qanunlara riayət edilməsi üzrə idarəsinin rəisi baş ədliyyə müşaviri A.Şkrebsin adına «Azərbaycan Dəmiryolunun Ermənistan SSR ərazisində yerləşən stansiyalarından baş verən hadisələr barədə « ətraflı məlumat vermişəm. 1989-cu ildə Moskvaya bu cür informasiya müntəzəm daxil olurdu».

**Və «Doroqa bez kontsa» («Sonu görünməyən yol») oçerkinin müəllifi Georgi Rojnov özünə nəticə çıxarır:**





«Gələcəyi görən olmaq lazım deyil ki, başa düşəsən: Əgər mərkəzin köməyi ilə dərhal, uzatmadan heç olmasa yoldakı ilk cinayətlərdən biri üzrə istintaq başa çatdırılsaydı, müqəssirlər tapılıb cəzalandırılsaydı, hərəkətin təhlükəsizliyini təmin etmək üçün təsirli ölçülər götürülsəydi Azərbaycan dəmiryolçularının hiddətli qəzəbi də olmazdı; bu əvvəlcə onları lənətə gəlmiş 46 kilometrlik yolda qatarı idarə etməkdən tək-tək imtina etməyə, sonra hərəkəti tam dayandırmağa məcbur etdi. Bizə bunu dərhal başa düşmək lazımdır ki, - deyə müəllif «Oqonyokun» oxucularına müraciət edirdi, - yolla bağlı qızışmış konfliktin ağır nəticələri barədə danışanda, onun səbəblərini yaddan çıxarmayaq».

Bakıda və Yerevanda öz həmsöhbətlərinə vədlər verərkən jurnalist hiyləgərlik etmirdi: Moskvaya qayıdım və mütləq həqiqəti danışacağam. Bəs nə oldu?

«İki aydan çox keçib, mən isə hələ də Azərbaycana və Ermənistana səfərim barədə bir sətir də dərc edə bilməmişəm, - deyə o, respublikanın «Vışka» qəzetinə müraciət edirdi. Moskvanın nə bir qəzeti, nə də bir jurnalı mənə öz səhifələrində yer vermək istəmədi. Niyə? Səbəbi sadədir: mənim danışdığım həqiqətən aydan-aya oxucuların və dinləyicilərin beyninə yeridilən həqiqətə heç cür oxşamırdı.

Bütün bu aylar, həftələr, günlər ərzində mənə öz ürək ağrılarını etibar etmiş onlarla adamın qarşısında üzücü bir günahkarlıq hissi məndən əl çəkmir. Bu yaxınlarda isə daha acınacaqlı oldu: **SİTA-nın məlumatı iddia edirdi ki,** «Spirtli içkilərin və narkotiklərin təsiri altında olan» yüzlərlə ekstremist Sovet-İran sərhədlərində fitnəkarlıq etmişdir. Bu növbəti böhtan **SSRİ yollar naziri N.Konarevin** həmin ekstremistlərin dəmir yol xəttinə uşaqlı qadınları otur-

daraq qatarların Ermənistana keçməsinə maneçilik törətdiyini iddia etməsinə necə də oxşayırdı. Bu cür yalanları toxuyanlar bilmirdilər və ya bilmək istəmirdilər ki, onların uydurmaları böyük xalqın xarakteri, ənənələri və adətlərinə ümumiyyətlə ziddir və ona görə də daha təhqiramizdir. Həqiqətdən uzaqlaşmaq daha bir yalana gətirib çıxarır. Bu səbəbdən də mən Moskvada işıq üzü görməyən oçerkimi Azərbaycana, respublika qəzeti «Vışka»ya göndərirəm. Bu səfər zamanı mənə Bakıda, Naxçıvanda, Culfada, İliç rayonunda, Noraşendə kömək edən, mənə inanan, mənim düzgünlüyümə və vicdanlı olmağıma ümid edənlər qarşısında bəraət qazanmaq üçün yeganə imkandır». **G.Rojnov.**

Bir də ki, vaxt hər şeyi öz yerinə qoyacaq, cəzanı isə müqəssirliyin dərəcəsi müəyyən edəcək.

**1989-cu il oktyabrın 5-də** Georgi Rojnovun Bakıya gəldiyi gün səhər 10.55 dəqiqədə Stepanakert şəhəri Kərkicahan qəsəbəsinin sakinləri 11 yaşlı Nadir İbrahimov və onun qardaşı 9 yaşlı Nicat baş nahiyələrində odlu silahdan açılmış atəşdən aldıqları qırma yarası ilə Ağdam rayon xəstəxanasına gətirildilər. Atalarının dediyinə görə, uşaqlar səhər saat 8-də evin həyətində yaralanmışdılar. Stepanakert cərrahları yaralı uşaqlara tibbi yardım göstərməkdən imtina etdilər və zərərçəkənlər Bakıya göndərildi... Bu, həmin günlər Qarabağın azərbaycanlılar yaşayan kəndlərindən verilən adi məlumatlar idi.





# AZƏRBAYCANIN MƏNAFEYİ İMPERİYA ORDUSUNA ETİBAR EDİLMİŞDİ

## ...TƏCAVÜZKARI DEMOKRATİK ÖLKƏLƏR DƏ İTTİHAM ETMİRDİ

**1990-cı il avqustun 21-də** çərşənbə axşamı Ayaz Mütəllibov hətta müttəfiq respublikaların Ali Sovetlərinə müraciət də etdi ki, «gəlin ümumi səylərlə təcavüzkarı dayandıraq». O, xatırladırdı ki, mərkəzin səssiz razılığı, uzaqgörməzliyi və aşkar məsuliyyətsizliyi nəticəsində Ermənistanda milli ordu yaradılmışdır, halbuki bu iradları prezident ilk növbədə özünə ünvanlamalıydı. Bəlkə elə buna görə də onun parlamentlərə müraciətini «Vremya» proqrammda İqor Fesunenko və elə sala-sala şərh edirdi.

**Əslində isə onun məzmunu qısaca belə idi:** dünya bilməlidir ki, təkcə «çox əzab görmüş» Ermənistan mövcud deyil, həm də Azərbaycan var - özünün qədim dövlətçiliyi, zəngin mədəniyyəti, onun ərazisində yaşayan bütün insanlara qarşı qonaqpərvər, qəlbiaçıq və xoş xarakterli xalqı olan Azərbaycan. İndi bu xalq erməni silahlı qruplarının hücumlarından həlak olur və Mütəllibov ümid edirdi ki, kimsə onları tərksilah olmağa məcbur edəcək. Halbuki, bu yaxşı silahlanmış hərbi birləşmələr Ermənistana təkcə yumşaq ürəkli qonşularla deyil, həm də ölkə rəhbərliyi ilə zor dili ilə danışmaq imkanı verirdi.

Necə deyərlər, güc olan yerdə ağıl nə lazım.

Mərkəzin ağzına baxan Mütəllibov öz xalqının başına gətirilən yanvar qırğınından iki həftə sonra - **1990-cı il fevralın 8-də Sov.İKP MK plenumunda Mixail Sergeyeviç Qorbaçovun** öz məruzəsində «Azərbaycanın bütövlüyünə riayət olunmasını təsdiq etdiyinə görə ona minnətdarlıq edir, avqust ayında verdiyi müsahibədə DQMV problemini Yerevanda, Stepanakertdə, Moskvada və xaricdə hazırlanmış «intriqa», «kompleks plan» adlandırırdı. Və **ritorik sualla məlum olmurdu ki, kimə müraciət edirdi:**

«Öz varını bütün respublikalarla səxavətlə bölüşən, həmişə öz Vətəninə, ümumi işə sədaqətlə xidmət edən bir xalqa qarşı bu münasibət düzgündürmü? Bəli, onun güclü diasporu yoxdur, ölkə daxilində və paytaxtda güclü lobbiyə malik deyil. Bizim xalqa qarşı



**Azərbaycan kəndlərini viranə qoyan rus ordusu**





misli görünməmiş ədalətsizlik var. Bütün bu dövrdə ölkə rəhbərləri hara baxırlar? Nəyi gözləyirlər?»

Görəsən bəs suveren Azərbaycanın prezidenti nəyi gözləyirdi?

Xalqa qarşı ən misli görünməmiş ədalətsizlik isə prezident tərəfindən Bakıda fövqəladə vəziyyətin saxlanılması və onun yanvardakı tələfat üçün mitinqlərin təşkilatçıları olan Xalq Cəbhəsi liderlərini təqsirkar sayınası idi. Moskva qarşısında şəxsi nökərçiliyi satqın marionetlik kompleksinə və öz partokratlarının satqınlığı isə son nəticədə xalqın böyük ümidsizliyinə çevrilirdi.

Mütəllibovun razılığı ilə Azərbaycan öz mənafeyini və müdafiəsini ittifaq ordusuna etibar etdiyi zaman, hələ 1990-cı ilin iyununda Yelena Bonner erməni «Kommunist» qəzetinin səhifələrində ordunun Ermənistanda olmasını «obyektiv fitnəkarlıq» adlandırır və kim onu buraya göndəribsə, onun guya əfqan avantürası yolu ilə getdiyini bildirirdi. Bonner hərbi postlara və hətta Yerevan qarnizonunun rəhbərliyi yerləşən, binaya erməni oğlanların - «fədainlərin» çoxsaylı basqmlarına bəraət qazandırır: onlar rus, moldovan və ukraynalı oğlanlara atəş açıb əylənməklə məşğul olmurlar, sadəcə olaraq heç vaxt milli konflikt baş verməmiş şəhərdə ordunun olmasından yaranan gərginlikdən ümidsizlik vəziyyətinə düşüblər.

**«Krasnaya zvezda»nın müxbiri V.Kauşinski** «insan hüquqları müdafiəçisi» (dırnaq tərc.- dir) Y.Bonnerə ordunun Yerevanda «Niyə veyilləndiyini» (Bonnerin terminolo-

giyasıdır) və bəzən bu zaman üstlərinə qurğuşun və daş yağdığını izah edərək onu obyektivliyə çağırırdı:

«Yelena Georgiyevna, mən çox istərdim ki, DİN işçilərinin erməni boyevikləri tərəfindən bütünlüklə yandırılmış Azərbaycan kəndi Bağanis-Ayrımdan çəkdikləri, böyüklərin və kiçiklərin oddan yanıb qaralmış cəsədlərini nümayiş etdirən videofilmi Sizə göstərəm. Bu çox dəhşətli mənzərədir, elə Bakıda yanvar ayında təşkil olunmuş erməni talanları da. Məsləhət vermək fikrində deyiləm, amma sülh məramını Zaqafqaziyada özü üçün heç nə axtarmayan ordunu düşünülmədən pisləmək əsasında deyil, barışıq və dialoq, mərhəmət, yaxşılıq və humanizm əsasında nümayiş etdirmək lazımdır».

Erməni terrorçularının rus hərbçilərinə, milisə, hərbiləşdirilmiş mühafizəçilərə, basqınları total xarakter almışdır: milli ordu belə silahlanırdı. Təkcə **1990-cı il mayın 27-də** - Ermənistanın dövlət müstəqilliyi günü ərəfəsində Yerevanda silah sursat əldə etmək məqsədilə edilən 16 basqın, o cümlədən silahlı qrupun dəmiryol vağzalında daxili qoşunların qarovul dəstəsinə basqını və daxili qoşunlar polkunun (alayının) hərbi şəhərciyinə 50 nəfər «fədai»nin pulemyotlardan atəş açması qeydə alınmışdır. Onlardan bəziləri cavabsız qalmadı və bu, insan hüquqlarının müdafiəçisi Yelena Bonnerə çox təsir etdi: «Kimə atəş açırdılarsa, onlar bir adam itirdilər, kimlər atəş açırdısa onlarca, qəribədir...» **(Silah əldə etmək məqsədilə terror faktını isə Bonner zərrə qədər də pisləmirdi).**





**Azərbaycan həmin günlərdə öz prezidentinin şəxsində «Sovetskaya Rossiya» qəzetinin oxucularına izah edirdi ki,** «o biri tərəfdən olan millətçilərə oxşamaq lazım deyil, biz həmişə bu hisslərdən yüksəkdə olmuşuq, biz həmişə ümid etmişik ki, insanlar başa düşəcək, Ermənistandakı sadə adamlar ayağa qalxacaq, baş verənlərdən hiddətlənəcəklər», bu zaman azərbaycanlıların xarakterində olan və rusların yaxşı başa düşəcəkləri qeyri-adi dözümlülük, alicənablıq, təmkin, məhrumiyyətlərə hazır olmaq kimi cəhətlərə istinad edilirdi. Aləm bir-birinə qarışmayınca onlar hər şeyə dözəcəklər...

**Mən oxucuya 1990-cı ilin qızmar yayındakı fakt və hadisələrin ən kiçik bir hissəsini göstərdim ki, qoy hər bir qərəzsiz adam özü fikirləşsin:** nə üçün təkcə Qərb demokratları deyil, hətta Şərq demokratları da təcavüzkarı ittiham etmirlər? Görəsən bu laqeydlik haradandır? Nə üçün xalqların iyerarxiyasında ermənilər Furmana görə azərbaycanlılara nisbətən bir neçə dəfə yüksək yer tuturlar? Tuturlar, vəssalam!

## AZƏRBAYCAN XALQININ CƏLLADI

Sən demə, heç də hər şey qaçılmaz alın yazısı deyilmiş. **1990-cı ilin «qara yanvarından» sonra Mixail Qorbaçov** Bakıda törətdiyi qanlı cinayətlərə görə özünü təmizə çıxarmaq qərarına gəldi. Lakin, necə? Günahsız qurbanlar üçün canıyananlıq göstərmək yolu iləmi! Əlbəttə yox. Mərkəzi televiziya ilə çıxış edərkən Baş katib və SSRİ Ali

Sovetinin sədri Bakıda vəziyyəti gərginləşdirən, boyevik dəstələri təşkil edən «davakar millətçi-karyeristlərdən» alçaqcasına danışmağa başladı, halbuki, iki milyonluq şəhərdə bir nəfər də boyevik tutulmamışdı və aydın oldu ki, fitnəkarcasına damlardan atışmaları xüsusi orqanlar təşkil etmişdilər. Mən hələ onu demirəm ki, dünyanın onlarca qəzetinin məhşurlaşdırdığı, «erməni irqinin genofondu»nun əsasını qoyan paron Vardanyanın miqyasına yaxınlaşacaq bir nəfər də millətçi karyeristi Azərbaycan heç qorxulu yuxu şəklində də olsa görməyib. Ona görə də Azərbaycan xalqının cəlladı kimi tarixdə qalacaq Qorbaçov smanmış formula əl atdı: Sovet adamları ölkə rəhbərliyindən dinc Bakı sakinlərini tankların altına salmağı tələb etdilər.

Baş katibin mərkəzi televiziya ilə çıxışından dərhal sonra qəzetlərin və televiziyanın Azərbaycan üzərinə kütləvi hücumu başlandı. Hücuma, o dövrlərdə qəbul olunmuş qaydaya əsasən «Pravda» yol açdı.

Gəlin 1990-cı ilin fevralına qayıdaq. Kütləvi informasiya vasitələri hökumətin və ordunun Bakıdakı cinayətlərinə bəraət qazandırmaq üçün panislamist və pantürkist azərbaycanlılar, islam fundamentalizmi, müsəlmanlar tərəfindən xristianlığa yaranmış təhlükə haqqında isterik təbliğat aparmaqda davam edirdi. Məhz həmin gün millətlərarası ədavəti qızışdıranlara qarşı fərman qəbul edilsə də birtərəfli hücum oyunu davam edirdi.





**1990-cı il fevralın birinci yarısında** olan nisbətən böyük hücumları sayım.

**Yeni «Sovetskaya Rossiya» videokanalının ilk verilişində** *(fevralın 4-ü, Mərkəzi televiziyanın ikinci kanalı)* söhbət hələ XIII əsrdən müsəlmanların xristianlara münasibətindəki fanatizm, qəddarlıq və vandalizm barəsində gedirdi; gələcək dünya müharibəsi təhlükəsinin olduğunu sübut etmək üçün rusiyalılara bolqar filmi nümayiş etdirildi: yəni, azad Rusiyanın vətəndaşları, fikirləşin, görün Amerika imperializminin yerinə kim gəlir.

**Fevralın 2-də «Sovetskaya Rossiya» həftəliyi** N.Aleksandrovun silah gücü ilə yayılan cihad, islam fundamentalizmi və başqa tanış motivlərə həsr olunınuş «Rusiya üçün Mücahiddin» məqaləsini dərc edir.



Qarabağı ermənilərə satan, cəllad **M.Qorbaçov və Raisa Maksimovna**

**Elə həmin günlərdə RSFSR xalq deputatlığına namizəd A.N.Minkin Leninqrad televiziyası ilə teledebatında bildirir:** nə qədər ki, islam rejimli dövlətlər mövcuddur SSRİ üçün müharibə təhlükəsi olacaqdır. A.H.Minkin - Leninqrad xalq cəbhəsinin xadimi, Marina Salyenin sağ əli idi.

**1992-ci ilin mayında** Nikita Muxalkovun «Dörd yol ağzı» proqramı senzuranın alçaq toruna düşdü. Dünyada tanınmış rus rejissoru diktor Mitkovanın timsalında televiziyada bu gün covlan edən yalanın miqyasını göstərməyə cəhd göstərdi və bu yalanın ideoloqlarından birinin - dövlət katibi Gennadi Burbulisin adını çəkməyə cəsarət etdi. Axı məhz Mitkova və Minasyanın «Vesti»si iki qonşu xalqın iyerarxiyasına dair öz dezinformasiya payını yayır, özgə xalqı alçaltmaqla, özününkünü isə tərifləməklə məşğul olurdu. Nə vaxtadək biz Rusiyanın kütləvi informasiya vasitələrində ermənipərəst təzyiqlərlə qarşılaşacağıq? Bu yaxşı qurtarmayacaq. Ən əsası isə diktorlar və redaktorlar arasında istedadlar gözə dəymir, daha çox yaltaqlar və yalançılardır. Əsl istedad kinli millətçilik hissindən uzaq olur və o, heç zaman başqa xalqın heysiyyatına toxunmaz. İstedada inanmaq olar, o, namuslu və etibarlı olur.

**1990-cı il fevralın 7-də siyasi şərhçi İqor Belyayev «Literaturnaya qazeta»nın oxucularının** diqqətini şah rejimi devrildikdən sonra İranın dini rəhbəri olmuş Ayətulla Xomeyninin sözlərinə cəlb edirdi: Bir millət kimi azərbaycanlı ümumiyyətlə mövcud deyil, onlar türklərdir». Belyayevin məqaləsi «Azərbaycanlılar doğrudanmı bölünmüş xalqdır?» adlanırdı və bu sual işarəsi ilə islam üzrə «supermütəxəssis» göstərmək istəyirdi ki, 23 milyonu İranda yaşayan Azərbaycan xalqının bölünmüş olnası barədə söz-söhbətlər əsassızdır və bütün məsələlər panislamizmlə bağlıdır. Yeri gəlmişkən Xomeyni azərbaycanlılar haqqında danışarkən yalnız və yalnız «türk» sözü işlədə bilirdi və onun böyük ayətulla, milliyyətcə azərbaycanlı Şəriət-Mədari ilə düşmən münasibəti dini-siyasi mübarizədən başqa heç nə ilə izah edilmirdi.

Azərbaycanlıların 150 ildən çox aralı düşdükləri qohumları ilə görüşmək özünəməxsus Berlin divarını - sərhədi keçmək rejimini sadələşdirınəyə dair təbii arzularını İqor Belyayev «İslam oyunları» adlandırır, Xalq Cəbhəsinin bəzi liderlərini «islam Azərbaycanı» yaratmaqda ittiham edirdi.

### DÖVLƏT SƏRHƏDDİ UÇURULDU

İslamşünas Belyayevin bu cür riyakar iddialar üçün 1990-cı il yanvarın əvvəlində dövlət sərhədinin «uçurulmasından» başqa əlbəttə heç bir əsası yox idi. Bu məqalə Mixail Qorbaçovun «qara yanvarda» tökdüyü qandan təmizlənməkdən ötrü verdiyi bəyanatdan sonra yayılmış «İslam təhlükəsi» alovunu gücləndirdi. Elə həmin günlər mərkəzi mətbuat səhifələrində və mərkəzi televiziyanın



**Ermənі işğalında qalan Əsgəran qalası**

verilişlərində xristianlığın dirçəlişi hər cür təbliğ edilir və bu zaman bir dəfə də olsa «xristianlıq təhlükəsi» ifadəsi işlədilmir, yalnız «xristianlıq mərhəmətindən» damşılırdı.

Əsas kimi **«Azərbaycan» qəzetinin 1990-cı il yanvarın 11-də dərc etdiyi** «Biz nə qədərik... Bizim dərdimiz nə qədərdir?» məqaləsini götürmək olmazdı ki? Qəzetin o zamankı redaktoru dünyada cəmisi nə qədər azərbaycanlı yaşadığı barədə mülahizə söyləyir (onun hesablamasına görə 36 milyona yaxın alınırdı), yəhudi diasporunun təcrübəsinə istinad edirdi. Doğrudan da Moskva kitab yarmarkasında Amerikadakı yəhudi təşkilatlarından birinin bütün yəhudi millətinə müraciəti olan vərəqə yaymışdılar. Vərəqənin məzmunu ondan ibarət idi ki, sivilizasiyanın həyatı onun bütün əzələlərinin sağlamlığından asılıdır, biz - 14 milyonluq yəhudi xalqı olmadan sivilizasiya mövcud ola





bilməz və beləliklə də dünyanın gələcəyi bizim hər birimizdən asılıdır. Vərəqə bir növ siyahıyaalınma məqsədi güdürdü: hər bir yəhudinin harada yaşadığını aydınlaşdırmaq, öz millətinin nümayəndəsi olduğunu, ətraf aləmin taleyinin ondan asılı olduğunu ona çatdırmaq: öz yerini bildir və arxayın ol ki, sənin taleyinlə maraqlanırlar.

Beynəlxalq azərbaycanşünaslıq konfransı yaradılmahdır. - budur yeganə çıxış yolu; 1990-cı il yanvarın əvvəlində «Azərbaycan» qəzetinin redaktoru buna çağırırdı. Bütün tarixi boyu xalqın özünün buraxdığı səhvləri təkrar etməməyə çağıran Sabir Rüstəmxanlı öz həmvətənlərinə məsləhət görürüdü ki, bir-birinə qarşı iddialardan, iradlardan, ambisiyalardan, pisniyyətlikdən, yerlibazlıqdan, kreslo uğrunda mübarizədən əl çəksinlər. Yazıçı sual verirdi: «Nə vaxta qədər qardaş-qardaşa düşmən qalacaq? 36 milyonluq xalqın sonrakı taleyi bizdən məsuliyyətli olmağı, birləşməyi və iş görməyi tələb edir.

**Şuşa**



## 7-Cİ ORDUNUN ERMƏNİSTANA VERİLMƏSİ

**1992-ci il mayın 9-u** - bayram şənbəsi günü Qarabağda Azərbaycan qüvvələrinin növbəti məğlubiyyəti və hüzn günü oldu. Həmin gün ərəfəsində erməni silahlı birləşmələrinin Şuşa şəhərinə və Kosalar kəndinə irimiqyaslı hücumunda 4 minədək erməni və rus döyüşçüsü iştirak edirdi. Hücüm əməliyyatı xeyli miqdarda artilleriya və zirehli texnikanın köməyilə aparılırdı. Bu texnikanı ermənilər haradan və üstəlik «xeyli miqdarda» almışdı?

**Ermənistanda yerləşmiş 7-ci qvardiya ordusunun zabitləri** «Den» qəzeti vasitəsilə bildirdilər ki, başda satqın general Meşşeryakov olmaqla ordunun komandanlığı tərəfindən ermənilərə 40 PDM (piyadaların döyüş maşınıtırtıllı), 6 BRDM, 4 ZTR və 5 «qrad» tipli BM-21 reaktiv atəş qurğusu verildi. Onlar məhz bu texnika ilə də Şuşaya hücuma keçmişdilər.

Ermənistanda olan hərbi sursat anbarlarındakı hadisələr yəqin ki, çoxlarının xatirindədir.. O zaman ermənilər əllərində satqın general Meşşeryakovun verdiyi təptəzə avtomatlarla qarovula hücum edirdilər. Hamı artıq bilirdi ki, general qarovula xəyanət etmiş, zirehli qrupların blokadanı götürməsini qadağan etmiş və əmr vermişdi ki, erməni boyeviklərinə hərbi sursat və «qrad» qurğuları verilsin. General Meşşeryakov Zaqafqaziya HD-nin komandanı general Patrikeyevlə birlikdə Erebuni aeroportunda yerləşən vertolyot eksadrilyasını da ermənilərə təhvil verdi.





Meğri sərhəd bölməsinin rəisi təklif etdi ki, zastavada erməni bayrağı qaldırılsın. Namuslu olduqları və ona görə də iyli su içməyə məcbur olan zabitlər cavab verdilər ki, həmin bayrağa elə rəis özü salam verməli olacaqdır. Zastavanın «Çar» ləqəbli rəisi birinci gün deyildi ki, zastavanın əmlakını erməni boyeviklərinə satırdı və onlar üçün xüsusi hamam da saxlayırdı.

### TÜRKİYƏNİ HƏRBİ ƏMƏLİYYATLARA TƏHRİK ETMƏK

Ona görə də Şuşaya maym 8-də başlanan hücumla eyni zamanda Naxçıvanın sərhəd rayonu Sədərəyə də basqın edildi. Erməni birləşmələri Araz çayı üzərindən Naxçıvanı Türkiyə ilə birləşdirən körpünü partlatmağa cəhd etdilər. Sədərəyə bu cür fitnəkar hücumla bu günkü Ermənistanın daşnak liderləri ən azı arzu etdikləri şeyə nail olmaq istəyirdilər: **Türkiyəni hərbi əməliyyatlara təhrik etmək** və sonra isə Rusiya ilə birlikdə müdafiə müqaviləsinə əsasən Yeltsini Ermənistan tərəfdən müharibəyə cəlb etmək.

Bu isə üçüncü dünya müharibəsi, xristianlığın islama qarşı səlib yürüşü demək idi. Burada çoxlarınm bir-birinə qarşı narazılıqları və çətin həll oluna bilən problemləri yığılıb qalmışdı ki, onları da bir dəfəyə həll etmək olmazdı.

Şuşanın alınması da, Xocalı qırğını kimi, İran hökumətinin himayəsi altında aparılan sülh danışıqları fonunda baş verdi. Bu dəfə danışıqlar Tehranda gedirdi. Azərbaycan Prezidentinin səlahiyyətlərini yerinə yetirən fərsiz Yaqub Məmmədov Dağlıq Qarabağda azərbaycanlıların əlində olan sonuncu məntəqənin xaincəsinə tutulmasını üçtərəfli saziş imzalanandan sonra artıq Tehran aeroportunda bildi. Ermənistan prezidenti Levon Ter-Petrosyan riyakar bir sakitliklə izah etdi ki, Qarabağın özünümüdafiə dəstələri nəzarətdən çıxmışdır və dünya ictimaiyyəti hansı cür düşünürsə düşünsün təbiətin bu cənnət guşəsində özünü elan etmiş əldəqayırma respublikanı tanımalı olacaqdır. Axı, DQR-in hərbi birləşmələri Azərbaycanla, adamları qartallardan yuksəkdə, ağ buludların bərabərlərində yaşayan, buz bulaqlı, heyrətamiz parlaq günəşli, iri ulduzlu bu bəxtiyar torpaq uğrunda vuruşur. Ermənistan isə kənarda, sanki bu savaşdan yuxarıda durur və sadəcə olaraq öz həmtayfalarının - «türkləşmiş» ermənilərin halına acıyır.

Prezident olduğu gündən Levon Ter-Petrosyan belə mühakimə edir, əslində isə EÜH və «Qarabağ» komitəsi liderinin proqramında heç nə dəyişməmişdir. Qoy indi bütün dünya baş sındırsın ki, Qarabağ konfliktini necə həll etsin, çünki, sınaq meydanına çevrilmiş bu girdabda o qədər qarşılıqlı nifrət, yalan və riyakarlıq yığılıb ki, BMT-nin mavi dəbilqəliləri olmadan keçinmək mümkün olmayacaq. Böyük dövlətlərin kütləvi informasiya vasitələrində Qarabağ konfliktinin necə işıqlandırıldığını bildirən heç bir sağlam düşüncəli azərbaycanlı bu cür vasitəçiliyə razı olmayacaqdı. Nə qədər ki, prezident hakimiyyəti strukturunda əsas postlardan birini Q.Starovoytova kimiləri tutur, Rusiyanın Zaqafqaziyada sülh məramlı fəaliyyətinə heç kim inanmayacaq. Starovoytovanın Ermənistan xatirinə quraşdırdığı «millətin hüququ bütün hüquqlardan yüksəkdə durur» ideyası hələ çox əks-səda verəcəkdir.





**Əlbəttə, 1992-ci il martın əvvəlində Dmitri Furmanın «Nezavisimaya qazeta»da şərh etdiyi** mifoloji sxemi reallıq kimi qəbul etmək olar. Jurnalist Rusiyanın Zaqafqaziyada təbii müttəfiqinin onunla həmsərhəd olmayan Ermənistan olduğunu əsaslandırarkən qərb, kosmopolit demokratizminin şüurunda mövcud olan xalqların iyerarxiyasına istinad edir.

**Dmitri Furman səmimi etiraf edir ki,** bu iyerarxiyada ermənilər azərbaycanlılara nisbətən yüksək yer tutur. Ermənilər - **xristiandırlar,** azərbaycanlılar - **müsəlman,** islam isə qərbpərəst demokratların xüsusilə sevmədiyi dindir. Erməni obrazı, demək olar ki, yəhudi obrazı kimidir: soyqırımma məruz qalmış, guya qara müsəlman qüvvələri arasında məhv olmamaq uğrunda mübarizə aparan qərb təmayüllü, kiçik, mədəni bir xalq. Qərb demokratı instinktiv olaraq İsrailin tərəfini saxlayıb ərəblərə qarşı olduğu kimi, Furmanın fikrincə burada da ermənilərin tərəfini saxlayıb azərbaycanlılara qarşı olurlar.

Və qəribə bir paradoks: elə bu zaman kiçik Qarabağ torpağında siyasi ekstremizmin, talan və qaçqınlığın modeli işlənib hazırlanırdı və bu, əslində SovİKP-nin o dövrdəki ideoloqu, Yerevana gedib gəlmiş Aleksandr Yakovlev tərəfindən dəstəklənirdi.

Təsəvvür etmək olar ki, hərgah 1988-ci ilin əvvəlində Naxçıvan ilə Azərbaycan arasındakı Zəngəzur dəhlizində Ermənistan ərazisində - cənubda Əgərəkdən şimalda Əzizbəyovadək olan ərazidə kompakt yaşayan azərbaycanlılar öz müqəddəratlarını təyin etmək uğrunda mübarizəyə başlasaydılar indi bütün millətlərdən olan demokratlar necə səs-küy qaldırmışdı! Azərbaycanlıların buna haqqı daha çox idi, heç olmasa ona görə ki, Qarabağın erməni icmasından fərqli olaraq Zəngəzur azərbaycanlıları heç bir muxtariyyətə malik deyildilər.

Yox, min illərlə Ermənistanda yaşamış azərbaycanlıları qərb demokratlarının tam susması şəraitində öldürməyə, döyməyə və qovmağa başladılar, evlərini və əmlaklarını yandırdılar. Amma Sumqayıtdakı iğtişaşlara görə elə mərəkə qopardılar ki, bu günədək hamının qulağında səslənir. «Bu qırğını mütləq soyqırımı adlandırmaq» komandası bütün Yer üzündə səhvsiz yerinə yetirilirdi.

Təqibə məruz qalmış millətin müdafiəçiləri nəyə nail oldular? Millətçilik yanğını nəticəsində ermənilərin bir qismi Azərbaycanı tərk etməyə başladı.







**1949-cu il.** Əsgəran qalası

**Buyurun bir neçə rəqəmlə tanış olun.**

Erməni millətindən 29 nəfər Azərbaycan Ali Sovetinin deputatı var idi.

61 erməni Azərbaycan KP MK-da şöbə müdiri və müavin işləyirdi. Minlərlə erməni Respublika Nazirlər Sovetində, Dövlət Plan komitəsində, şəhər partiya komitəsində, Bakı Sovetində, Respublika DİN-ində, DTK-da yüksək vəzifələr tuturdu, həkim, müəllim, zavod və fabrik direktoru idi. Ticarətdə, milisdə, xidmət sahəsində, araq-çaxır sənayesindəki gəlirli yerlər də onların diqqətindən kənarda qalmamışdı. Yüksək vəzifələrdən əlavə Bakıda, Gəncədə, Şəkidə, Mingəçevirdə hər cür şəraiti olan mənzillərə və bağ evlərinə sahib idilər.

## DAĞLIQ QARABAĞDA BÜTÜN HAKİMİYYƏT ERMƏNİLƏRİN ƏLİNDƏ İDİ

Dağlıq Qarabağ Muxtar Vilayətində kənd və qəsəbə sovetliyindən tutmuş vilayət rəhbərliyinədək, böyük və kiçik vəzifələrlə birlikdə bütün hakimiyyət həmişə 99 faiz ermənilərin əlində olmuşdur. Qarabağda da azərbaycanlılar əsasən heyvandarlıq və əkinçiliklə məşğul olmuşlar. Taleyin acı təsadüfünə bax ki, məhz allahın da unutduğu yarıuçuq azərbaycan kəndləri ermənilər və onların hüquq müdafiəçiləri tərəfindən lentə alınaraq baxımsız erməni kəndləri kimi nümayiş etdirilirdi. Belə dəhşətli dezinformasiyaya aid faktlar qalır, onlar izsiz yox olmur, amma nədənsə onları yoxlamaq həvəsində olanlar azdır. Respublika rəhbərliyinin fərsizliyindən vilayətdə azərbaycan dilində nə mətbuat, nə də yazışma yox idi. Azərbaycanlıların laqeyd olmalarına ümid edərək yerlərin, şəhər və kəndlərin adları, tarixin şahidi olan toponimlər məhv edilir, dəyişdirilir, saxtalaşdırılırdı və qəribə də olsa Azərbaycan hökuməti susurdu.

**1990-cı ilin iyulunda Qarabağa xalq yardımı komitəsi** SovİKP XXVIII qurultayının nümayəndələrinin təkcə azərbaycanlılarla deyil, həm də Qarabağ erməniləri ilə görüşünü təşkil etdi. Erməni qadınları, analar, atalar, bütün





əməksevər adamlar onda nələr demirdilər? «Hər yerdə damşın, qoy bizi yenidən peyda olmuş saqqallı banditlərdən azad etsinlər. Onlar ilk növbədə bizim düşmənimizdir, ermənilərin düşmənidir. Özlərini müdafiəçilərimiz adlandırırlar, amma özbaşmalıq edir, qadınlara və qızlara sataşır, gəncləri düşmənçilik etməyə məcbur edir, bütün vasitələrlə millətlərarası ədavəti qızışdırırlar. Yuxarıda oturanlar isə öz yalan informasiyaları ilə onları həvəsləndirir, cəlb edir. Qoy Allah bu adamların cəzasını versin!»

«allah cəzasını verəcək» - dinc, təmiz qəlbli, hələ millətçilik zəhəri ilə yoluxmamış insanların yeganə ümidi idi.

**1990-cı ilin avqustunda** erməni terrorçuları doludağıdan toplardan, minomyotlardan və avtomatlardan Qazax rayonunu şiddətli atəşə tutanda, çox əzablar görmüş Bağanis Ayrımda anam iki aylıq körpəsi ilə birlikdə yandıranda, Ermənistan parlamenti Qorbaçovun qanunsuz silahlı birləşmələrin qadağan olunması barədə fərmanının Ermənistan və Dağlıq Qarabağda qüvvədə olmadığını elan edəndə, parlamentin yeni seçilmiş liderini Moskvada baş nazir Rıjkov tələsik qəbul etdi.

Ermənistan DİN-in məlumatına görə bu bəyanat verilənədək Respublika ərazisində ümumi sayı təqribən 10 min nəfər olan bir neçə hərbi birləşmə və qrup fəaliyyət göstərirdi. Yalnız EÜH-ün hərbçiləri rəsmi qeydiyyatdan keçmişdilər. **Erməni Milli Ordusu (EMO) öz sıralarında 5 minədək saqqallını birləşdirirdi.**

«David Sasunski»,
«Vretaruner» («qisasçılar»),
«Aydat» («ermənilərin məhkəməsi»),
«Neytral dəstələr»,

Respublika «Nart» partiyasının müstəqil ordusu və nəhayət, öz bayrağı altında müxtəlif qrupları birləşdirən «MUŞ» milli ittifaqı kifayət dərəcədə sərbəstliyə malik idilər. 1990-cı il mayın sonu - iyunun əvvəlində Yerevanda silahlı adamlar gizlənmədən gəzirdilər. Bu təkcə respublikanın paytaxtında deyil, bütün erməni şəhər və kəndlərində belə idi.

**«Krasnaya zvezda» qəzeti 1990-cı il 31 iyul nömrəsində** yaxın keçmişdə jurnalist, sənətşünas olan, «Erməni xalçaları» kitabının müəllifi, sonra isə EMO hərbi şurasının sədri paron (cənab)V.Vardanyanın baxışlarını və mühakimələrini müfəssəl şərh etmişdir.

V.Vardanyan erməni-azərbaycan düşmənçiliyinin təbiəti barədə lap zooloji mühakimə yürüdürdü. O, öz xalqının minillik tarixi, onun xüsusi rolu barədə uzun-uzadı fikir söyləyirdi. Bu zaman xüsusi vurğulayırdı ki, o elə erməni tanımır ki, ruslara pis münasibət bəsləsin. «Krasnaya zvezda»nın müxbirini inandırmağa çalışırdı ki, yalnız üzünü Türkiyəyə və Azərbaycana çevirdikdə erməni qəlbini qəzəb hissi bürüyür. Vardanyan iddia edirdi ki, ermənilərin və azərbaycanlıların qardaş ola biləcəkləri tarixən sübut edilməmişdir. İki il yarım müharibə dövründə biz belə bir





qənaətə gəldik ki, erməni mütləq əlində tüfəng anadan olmalıdır. Özünü ateistlərdən sayan EMO hərbi şurasının sədri açıq-aşkar millətçi-sosialist formulu söylədi: erməni xalqı o vaxt daim yaşayacaqdır ki, millət orduya çevrilmiş olsun, millətin dini isə hər hansı qondarma allah yox, millətin özü olsun. O zaman suveren Ermənistan özünün qüdrətli diasporunun köməyilə tanınmaz dərəcədə dəyişiləcək, çiçəklənən ölkəyə çevriləcək və onun əsasını inam uğrunda başdan ayağadək silahlanmış indiki fədainlər təşkil edəcəkdir. Vardanyan özünün bir çox planını 1990-cı ilin yayında ermənoid irqinin genofondu elmi institutunun yaradılması ilə bağlayırdı.

«Krasnaya zvezda»nın müxbirləri aydın etdilər ki, EMO-nun təkcə qərargahı, silah anbarı, təlim mərkəzləri deyil, hətta tribunalı da varmış. «Sizin orduda ölüm cəzası varmı?» sualına hərbi şuranın sədri çətin hiss edilən təbəssümlə cavab verdi:

«Ölüm cəzası bizdə yoxdur. Amma biz ondan da dəhşətli cəza düşünmüşük. Təqsirkar olana bir neçə qumbara verir və onu Azərbaycan ərazisinə göndəririk».

**1990-cı il avqustun sonunda** Azərbaycanın təzə seçilmiş prezidenti Ayaz Mütəllibov, prezident kimi verdiyi ilk müsahibəsində Ermənistanda milli ordunun olması, boyeviklərin kütləvi hücumları, onların Azərbaycana qarşı **«Yer-Yer» və «hava-hava» tipli raketlər tətbiq etməsi barədə suahna belə cavab verdi:**

«Bizim ərazimizdə müharibə gedir. İtgilər var. Görünür, bu taledir. «Sonadək mübarizə» ideoloqları bu gün yeni fitnəkarlıqlar hazırlayacaqlar. Onların ümidi onadır ki, Azərbaycanda da hərbiləşmiş qeyri-rəsmi qruplar yaranmağa başlayacaqdır. Adamları xəbərdar edirəm ki, öz «vətənpərvərliyini» silahlanmaq, ordu yaratmaq və s. kimi məsuliyyətsiz çağırışlarla nümayiş etdirənlərdən özlərini gözləsinlər».

**Öz hərbi qüvvələrini yaratmaq tələbinə Mütəllibov uzun monoloqa cavab verdi:**

«Biz oğurluq, hərbçilərə və milisə basqın etmək, başqa qanunsuz yollarla silahlanmaq fikrindən uzağıq... Hazırda bizim sərhədlərimizdə SSRİ DİN-in və Sovet Ordusunun xeyli kontingenti cəmlənmişdir. Bu gün xüsusi narahatlıq üçün əsas olmamalıdır. Ona görə də öz ordumuzu yaratmağa çağırışlar bu gün obyektiv zərurətdən doğmur, onu saxlamaq üçün tələb olunan külli miqdarda xərclər də nəzərə alınsa bu, ümumiyyətlə real deyil. Bir sözlə bu məsələlərdə emosiyalara yer olmamalıdır. ».

**Mütəllibov müsahibəsində ilk dəfə olaraq özünün belə bir fikrini bildirdi:** «Yaxşı planlaşdırılmış sui-qəsd nəticəsində Azərbaycanın düşdüyü uzun və dəhşətli ədalətsizlik illəri mən düşünürdüm: doğrudanmı hamı laqeyddir, doğrudanmı heç kim (mən respublikaları nəzərdə tuturdum) baş verən hadisələrlə maraqlanmır? Axı, başqaları sadəcə müşahidə etsələr, istənilən xalqın işini bitirmək olar. Azərbaycanla bağlı hadisələrdə bizim İttifaqımız özünü çox parlaq nümayiş etdirdi. Axı biz bu gün də təkik!»





# DEPORTASİYA...DEPORTASİYA...

## ERMƏNİSTANDAN AZƏRBAYCANLILARIN MƏCBURİ KÖÇÜRÜLMƏSİ

**Xalqımıza qarşı edilən haqsızlıqlara, bir neçə dəfə törədilən soyqırım aktlarına və deportasiyalara uzun müddət siyasi-hüquqi qiymət verilməmiş, hətta bu barədə danışmaq və yazmaq yasaq edilmişdir. Təəssüflər olsun ki, müstəqilliyimizi əldə etdikdən sonrakı illərdə də bu laqeydlik buzu əriməmişdir.**

**10 mart 1948-ci il. Moskva. SSRİ.**

«Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi tədbirləri haqqında» **SSRİ Nazirlər Sovetinin 754 nömrəli növbəti Qərarı.**

Güman etmək olar ki, azərbaycanlıların deportasiyası haqqında birinci Dekret «Daşnaksütyun» beynəlxalq erməni terror təşkilatının liderlərini tam razı salmamışdır. Sənədin ikinci layihəsini də A.Mikoyan hazırlamış və şəxsən İ.Stalin imzalamışdır. Azərbaycanlıların deportasiyası əməliyyatına Ermənistan tərfindən əvvəllər Azərbaycanın Xalq Daxili İşlər Komissarlığı sistemində işləmiş **general-mayor Qriqoryan başçılıq edirdi.** «Daşnaksütyun» erməni terror təşkilatının göstərişini yerinə yetirən və eyni zamanda «sədaqətli kommunist» olan general Qriqoryan hələ Bakıda iş-

ləyərkən «xalq düşmənləri»nin siyahılarını tuturdu. Həmin siyahılar əsasında on minlərlə azərbaycanlı, ilk növbədə ziyalılar edam edilmiş və sürgünə göndərilmişdir. Səciyyəvi haldır ki, azərbaycanlıları öz əzəli torpaqlarından kütləvi surətdə didərgin salınmasının təşkilini A.Mikoyan «Daşnaksütyun» terror təşkilatının qərarlarına dinməz-söyləməz tabe olan məhz bu «adama» tapşırmışdı.

Deportasiya edilənlərin yerləşdirilməsi məsələləri ilə Azərbaycan tərəfindən respublika **Nazirlər Sovetinin məsul işçiləri, A.Mikoyanın silahdaşları, etnik ermənilər N.Brutens və R.Sevumyan məşğul olurdular...**

**Deportasiya faktları sübut edir:**

1948-ci ildə 24 631 nəfər,

1949-cu ildə 54 373 nəfər,

1950-ci ildə 65 650 nəfər azərbaycanlı Ermənistandakı doğma yerlərindən zorakılıqla qovulmuşdur. O illərin sənədlərində və şahidlərin ifadələrində bu adamlara qarşı insanlığa zidd çoxsaylı ətürpədən və dəhşətli misallar var. Aşağıda onlardan bəziləri göstəririk.

**1949-cu ilin dekabrında** Ermənistan Sovet Sosialist Respublikasının Noyemberyan rayonundakı Ləmbəli Azərbaycan kəndinə erməni milis dəstələri ilə dolu 100-dək maşın gəlmişdir. Onlar divan tutacaqları ilə hədə-qorxu gələrək, bütün sakinləri doğma yerlərindən didərgin salmışlar. Milis forması geymiş erməni terrorçuların apardığı etnik təmizlə-





mə əməliyyatı zamanı 2 azərbaycanlı qadın, 2 uşaq və 1 kişi döyülərək öldürülmüşdür. Ağır yaralanmış onlarca adam xəstəxanaya qoyulmaq zərurəti bəhanəsi ilə naməlum istiqamətdə aparılmışdır.

**1950-ci ilin noyabrında** Cul, Qomur, Safoylu kəndlərindən azərbaycanlılar ölümlə hədələnərək qovulmuşlar. 16 ahıl azərbaycanlı qadın və bir neçə körpə Zar kəndinə gedib çıxmamış qar çovğununa düşərək həlak olmuşdur.

**«Azərbaycanlıların soyqırımı haqqında» Azərbaycan Respublikasının Prezidentinin Fərmanında deyilir:** «... ermənilər SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında» xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular. Erməni millətçiləri öz havadarlarının köməyilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kompaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. «Yazıq, məsum erməni xalqı»nın surətini yaradaraq əsrin əvvəllə-

rində regionda baş vermiş hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir».

**Tanınmış tədqiqatçı M.Nemətin məlumatlarına görə:** «ermənilər azərbaycanlıları öz əzəli torpaqlarından qovan kimi kəndlərin, göllərin, çayların adlarını dərhal dəyişdirirdilər. Nəticədə **Göyçə** Sevana, **Urud** Oronta, **Cəfərabad** Arqavanda, **Zəngəzur** Sisiana, **Qarabağ** Artsaxa çevrilmişdir və s. Toponimlərin dəyişdirilməsi ilə yanaşı, maddi mədəniyyət abidələri, məscidlər də dağıdılır və yer üzündən silinirdi. Zəngəzurun Urud kəndindəki XV-XVII əsrlərin qəbirüstü abidələrinin də taleyi beləcə olmuşdur. Bütün bu qəbiristanlığa kotan salınmış və yerlə-yeksan edilmişdir».



**Rus imperiya ordusunun Qarabağda acınacaqlı məğlubiyyətinin izləri**





## RUSİYA ORDUSUNUN QARABAĞDA HƏRBİ ƏMƏLİYYATLARI



Heç kəs etiraf istəmirdi. Torpaq əldən verilmişdi. Amma hamı özünü qəhrəman sayırdı,-kimisi erməni başı kəsməsindən(?), kimisi tankın tırtılları altında muma döndərdiyi düşmən zabitlərindən, kimisi də ermənilərlə rusların birgə işlədiyi məxfi planı ələ keçirdiyindən(?) danışırdı. Qəribə burası idi ki, nə Azərbaycanın itirilmiş torpaqlarının səbəblərini, nə də baş verən hərc-mərcliyi araşdıran yox idi. Amma qəhrəmanlıqdan dəm vurmağı ustun tutanlar çox idi. Bundan sonra kimisi «cihad» elan etdi, kimisi «deputat toxunulmazlığı»üçün dəridən-qabıqdan çıxdı **(törətdiyi əməllərin üstünü ört-basdır eləmək üçün),** kimisi də çiynindəki ulduz üçün yarındı. Yenə də mərkəzdə «qəhrəmanlıq» dururdu.

Həmin anlar isə ermənilər «Böyük Ermənistan» uğrunda həlak olan qəhrəmanlarının poçt markalarında əks olunmuş şəkillərini dünyanın meridianlarından keçirir, «Artsax qəhrəmanları» kimi təqdim edirdilər. Biz isə öz içimizdə qəhrəman olaraq qalırdıq, necə deyərlər, heykəl davası edirdik.

**Respublika Prezidenti Aparatında isə vəziyyət belə idi:**

**Birinci mərtəbə:** (1992-ci il fevralın 16-sı. Saat 17:20 dəqiqə). Qarabağdan qan içində, ac-susuz pənah gətirən qız-gəlinlər, qocalar... Gözləmə otağının qapısına kəfənindən qan daman, doqquz-on yaşlı bir qız uşağının meyiti gətirildi. Qoca Qarabağdan təkcə bunu götürüb gətirmişdi. Hər şeyini itirmiş bu qoca Prezident Aparatının gözləmə otağında öldürülmüş, neçə yerindən güllə yarası aldığından dünyasını dəyişən nəvəsi ilə tənha idi... Biz isə yenə də ayılmadıq. Gələn bəlanı, qapımızın ağzını kəsdirən bu faciəni görmədik.

**Beşinci mərtəbə:** ...Gözləmə otağı uğuldayırdı. Orada hamını görmək olardı... Hamı da danışırdı. Yenə də hər kəs özünün «millət üçün» qəhrəmanlıq səhifələrini vərəqləyirdi. Aşağıdakı meyitin lal haraymı isə heç kəs eşitmək istəmirdi... Kimsəsiz Qarabağda öldürülmüş bu uşağın gələcək ünvanı da məlum idi: Məscid... qəbiristanlıq (Bu uşaqla da biz hansısa bir qəbiristanlığın başlanğıcını qoyduq)...

«Mişa» ləqəbli şəxs onu Bakıya dadandıran, neft və kimya sənayesi üzrə qurulmuş Elmi Tədqiqat Mərkəzlərinə olan gediş-gəlişlərinə sərbəstlik yaradan, «viza» verən Dağlıq Qarabağın o vaxtki ideoloqu Boris Gevorkova nəzərlərini salıb, razılığını bildirdi. 1992-ci ilin yanvar ayının 14-də Mixail Poqosyan-»Mişa» Bakı ilə, onun ictimai-iqtisadi durumu ilə, Xankəndinin geosiyasi vəziyyəti ilə bağlı «təəssüratları»nı yığıb, Moskvaya-Rusiyanın MN-də qərar tutan «makinaçı» Larisə Suderenkonun yanına yollandı.





Vaxtilə Novosibirsk şəhərində *(həmçinin İrkutskidə)* «Suxoy» hərbi-sənaye kompleksində *(sexlərdə həmçinin bombardmançı təyyarələr üçün bombalar da hazırlanır)* baş konsruktor işləyən Mixail Poqosyan Rusiya MN-nin Baş Qərargahında məsləhət verirdi ki, ixtira etdiyi yeni mərmilərin radiusunu, hədəfə dəymə məqamlarını sınaqdan çıxartmaq üçün ən gözəl, coğrafi cəhətdən dəyərli yer-məkan Azərbaycanın Qərb zonasıdır. O, hələ o vaxt yerin adını çəkmirdi. *(Yerin adını isə Baş Qəragahın «Xüsusi müşavirə»sində çəkəcəkdi).* Həmin müşavirə də iki gündən sonra -yanvar ayının 16-da (saat 18:30-da) axşam saat yeddinin yarısmda başlandı. O, müşavirədə iştirak etmək üçün Xankəndində yerləşdirilmiş ruslara məxsus 366-cı Alayın komandiri -Yuri Zarviqarov da təşrif gətirmişdi. «Xüsusi müşavirə»dən sonra polkovnik başçısı olduğu Motoatıcı Alayda hərbi sirlərin qorunmasına nəzarət edən «xüsusi şöbə»nin rəisi, polkovnik Pyotr Maslennikovu kanstruktor Mixail Paqosyanla tanış edir. Yenidən Xocalıya qayıdırlar. Bu vaxt onların yanında Serj Babayan adlı «professor» ləqəbli birisi də olur. O da Vaşinqtondan Erməni Strateji Araşdırmalar Mərkəzinin başçısı Hayk Astarcanyanm nümayəndəsi kimi Xocalıya göndərilmişdi. Əslində maliyyə məsələləri onun boynunda idi.

Xocalıda terror *(qırğın aktı ilə bağlı həmin illər)* Mərkəzilə sıx təmasda olan *(Vaşinqtondakı Erməni Araşdırmalar*

*mərkəzi)* ixtisasca kimyaçı olan Mahmud -Ənvər Çayan **1992-ci ilin yanvar ayının 19-da** Bakıda -Prezident Aparatında,21-də Ali Sovetdə,22-də AXC qərargahında olur, baş verəcək terror aktları ilə bağlı məlumatlarını verir. O, 1992-ci ilin yanvar ayının 24-də isə Tehrana yola salınır.

Hayk Astarcanyanın «müşavir»i rolunu ifa edən Serj Babayana gəlincə, o da Xankəndidə 366-cı Alayın üçüncü batalyonuna rəhbərlik edən Yevgeni Nabokixə beynəlxalq terrorizm tarixində özünün qanlı izlərini qoyan «Haydad» - erməni terror təşkilatının səlahiyyətli nümayəndəsi kimi təqdim olunur. Həmin ilin yanvar ayının 23-də 366-cı Alayda Rusiyanın MN-nin (Baş Qərargahda) rəhbərliyi ilə razılaşdırılmış bir sərəncam hazırlandı.

**O,935 nömrəli sərəncama** (saxta sərəncam)əsasən 366-cı Alayda xidmət edən əsgərlərin bir qismi tərxis olunmalı idi. **Nəticədə Alayın daxili möhürü ilə hazırlanmış sərəncama əsasən** 194 nəfər ordudan -xidmətdən tərxis olundu 366-cı Alaydakı Gürcüdər, tatarlar, beloruslar, türkmənlər,qazaxlar, ləzgilər evlərinə buraxıldılar Yola salınan əsgərlərə yol haqqını, əlavə geyim pulunu(?) Serj Babayan ödəyirdi, daha doğrusu, «Haydad»a məxsus, üstündə «201» rəqəmi yazılmış sənədə hər alınan pul üçün imza qoydururdu. «İmza haqqı»nı alan əsgərlər isə ləngimədən Yerevana göndərilir və oradan da evlərinə yola salınırdı.

**1992-ci ilin yanvar ayının 29-da** isə bir-birinin ardınca Fransadan, Livandan, Nyu-Yorkdan... Moskvanın «Domodedova» -Beynəlxalq hava limanına təyyarələr Yerevana start götürür. Elə həmin gün də Yerevanı -Xankəndi əvəz edir. Xankəndində isə Qarabağa təşrif gətirən»Haydad»çıları «müşavir»Serj Babayan, polkovnik Pyotr Maslennikov qarşılayırlar.





Xatırladım ki, bütün bu məxfi missiyaları Rusiya MN-nin BQ-yə tabe olan hərbi kəşfiyyat idarələrinin Fransada,Livanda,Amerikada rezidenturaları yerinə yetirirdilər.

**Xankəndində «məskunlaşan» 366-cı motoatıcı Alaydan tərxis olunmuşların yerini xüsusi təlim keçmiş «Haydad»çılar tutdular.** Alayda ayrılmış, milliyətcə erməni olan iki komandir də «ekspert»adı ilə gələn erməni dəstəsinə hücum obyekti kimi seçilmiş Xocalı haqında operativ məlumatlar verirdi. Zabit Suren Ohanyan (o, həm Samvel idi, həm Sirdak idi, həm də Seyran), Vartan Çitçiyan (o həm Valeri idi, həm də Varqaş) isə Xocalının Şimal-Qərb hissəsindəki Badara yaşayış məntəqəsində ayrılmış təlim düşərgəsində gələn «qonaqlar»la ardı-arası kəsilməyən məşvərətlər keçirirdilər. Məşvərətlərin planları isə gah Yerevandan gəlirdi, gah da Moskvadan.

**1992-ci ilin yanvar ayının 30-da** isə «Mİ-8» hərbi vertolyotundan Xocalı -Şuşa istiqamətindəki yaşayış ərazilərinə üstündə «Böyük Ermənistan» xəritəsi cızılmış vərəqlər atıldı. Həmin vərəqlər də Alayın «Səhra mətbəəsi»ndə sap edilmişdi.

**Belə ki, 366-cı alayın zabiti Sergey Daniloviç Tuşovun ifadəsinə görə,366-cı Alay Xocalı hadisələri ərəfəsind:**

-3 **motoatıcı** batalyondan,
-1 **artilleriya** divizionundan,
-1 **polkun** minomyot batareyasından
-1 **zenit** divizionundan,
-1 **tank** rotasından,
-1 **kəşfiyyat** rotasından,
-1 **mühəndis** -sapyor rotasından,
-1 **təmir rotasından,**
-1 **kimyəvi müdafiə rotasından,**
-1 **maddi təchizat rotasından ibarət idi.**

**Alayda**

-**62 ədəd** piyadaların döyüş maşını-BMP-1 tipli,
-**30 ədəd** BMP-2
-**3 ədəd** BRV (hərbi kəşfiyyat maşını)
-**3 ədəd** BREM,
-**5 ədəd** BMP-2k,
-**10 ədəd** BRDM,
-**1 ədəd** BTR,
-**10 ədəd** T-72 tipli tank,
-**18 ədəd** 122 mm qaubitsa,
-**9 ədəd** 120 mm minomyot,
-**4 ədəd** ZUS-23,





-**3 ədəd** 82 mm minomyot,
-**18 ədəd** MTLB olmuşdur.

**366-cı alayın tərkibində:**

-**3 motoatıcı** batalyon,
-**1 artilleriya** divizionu,
-**1 tank rotası,**
-**1 HHM** batareyası «Strela-10»
-**1 kəşfiyyat rotası**
-**1 rabitə rotası,**
-**1 komendant vzvodu** (şəxsi heyəti 600 nəfərə yaxın)

**Alayda:**

-**10 ədəd** tank T-72,
-**130 ədəd** BMP,
-**12 ədəd** BADM,
-**4 ədəd** BTR,
-**16 ədəd** MTLB,
-**18 ədəd** top D-30,
-**4 ədəd** 120 mm minomyot,
-**28 ədəd** 82 mm minomyot,
-**4 ədəd** «Strela-10»,
-**3 ədəd** ZSU-23,
-100 ədəd müxtəlif modifikasiyalı qranotomyotlar,
-800 ədəddən çox avtomat və pulemyotlar,zabitlər üçün pistoletlər;

**-Radiostansiya R-142.**

**Azərbaycanın isə nömrəsiz, qeydsiz,yaradılmış, Ali Baş Komandan tərəfindən xeyir-duası verilmiş «Xocalı batalyonu»:**

- **Bir batalyon** (Şəxsi heyət cəmisi 237 nəfər)
- **96 ədəd** AKM silahı (onun da 14-nü dəyişmişdilər);
- **4 ədəd** əl pulemyotu;
- **2 ədəd** qumbaraatan;
- **3 ədəd** tapança («marka»sı bilinmirdi);
- **10 ədəd** «TOZ-8» markalı tüfəng;
- Könüllü-silahlı birləşmələr.

**...1992- ci il yanvarın 31-də** Bakıda Milli Təhlükəsizlik Şurasının iclası keçirildi. Bu iclasda, nə qədər qəribə də olsa, hərbi kəşfiyyatın, eləcə də əks-kəşfiyyatın materiallarına toxunulmamışdı. Əslində heç yox idi də. Hərbi kəşfiyyat və əks-kəşfiyyat strukturları iflic vəziyyətində idi.

**Ali orqan saydığımız Milli Təhlükəsizlik Şurasında isə həmin vaxt elan edilirdi:** «... Erməni yaraqlıları əməliyyatı Xocalı rayonunun Xramort, Fərrux və Naxçıvanik kəndlərini keçiriblər. Lakin Azərbaycanın özünümüdafiə qüvvələri həmləyə keçmiş, nəticədə erməni muzdluları(?)və terrorçu qrupları(?) həmin kəndlərdən sıxışdırılıb çıxarılmış, onların əsas istehkamları (?) məhv edilmişdir...»

Milli Təhlükəsizlik Şurası elə bir xalqla, qulağı səsdə olanlarla gizlənpaç oynayırdı.

Elə həmin günsə Sarıkeşiş yaşayış məntəqəsindəki *(Xocalının şimal hissəsi)* «Alaverdi» kilsəsində «Vartan





cəngavərləri»nin bir qrupu «Böyük Ermənistan» himnini oxuyub, and içirdilər. **1992-ci ilin yanvarın 29-da** Xocalıya təşrif gətirən bu qrup Xocalının qərb hissəsini araşdırır, operativ-məxfi məlumatlar əsasında planlar tərtib elirdilər.

Əslində həmin il yanvarın 29-da Xankəndiyə təşrif gətirən çağırılmamış qonaqlar Xocalı -Şuşa istiqamətində iş görmək üçün Şimal, Cənub, Şərq və Qərb istiqamətlərində operativ «Çevik» qruplara bölündülər.

366-cı Alay komandirinin göstərişi ilə erməni qruplaşmalarına rusların verdiyi isti geyim paylanıldı. Onlar üçün roştalarda ayrıca məşq zonaları-meydançalar ayrıldı:

**1.Xocalı -Şuşa istiqamətində hazırlanmış «Haydad» qrupu:**

Bu terror qrupuna Suren Paşayan başçılıq edirdi. Qrup «16+97» kodu ilə *(yəni, 16 nəfər «Haydad» təşkilatından, 97 nəfər isə 366-cı Alaydan)* ayrı-ayrı dəstələr şəklində **İrək, Mon, Vənli, Piçonıs, Dığ, Cecimli, Ardaşava** erməni yaşayış məntəqələrində qərar tutmuşdular. Bu dəstələr öz aralarında «Artsax», «Sunc», «Vano»-»pozivnoyu» ilə -məxfi çağırışlarla güclü rabitə əlaqələri yarada bilirdilər. Digər tərəfdən, həmin ərazilərdəki kilsələr bir nömrəli qərargah elan olunmuşdu.

Suren Paşayan 1953-cü ildə Ermənistanın Zəncirli kəndində anadan olub *(Yerevanın cənub-şərq yaşayış məntəqəsi).* O,iki yaşında ailəsi ilə Livana müharicət etdi.Beyrutda «Ermənistan Mübarizə İttifaqı»na üzv olub. Həmin təşkila-

tın hərbi qanadında Livan «Hezbullah»çıları ilə təlim məşqləri keçib. On yeddi yaşında isə Fransaya (atası ilə) gedir. İki il erməni icmasının yaratdığı «Krunk» təşkilatının Fransa bölməsində çalışır. Bir neçə ildən sonra isə «Haylar»m məktubu ilə (Haydad»çılar ona «Tanıtma məktubu» deyirlər)-»Ağayan» imzası qoyulmuş məktubla təşkilatın Baş Qərargahına keçir.

Bu həmin **«Haydad» beynəlxalq erməni terror təşkilatı** idi ki, Azərbaycanın görkəmli şəxsiyyətlərinə, tanınmış nəsillərə, ümumən türk dünyasına qarşı «Ölüm hökmü» çıxartmışdı. Və acınacaqlı olanı da bu idi ki, onlar Azərbaycanda keçiriləcək terror aktlarında yerli məmurlardan, rütbə sahiblərindən, müxalifətdə dayanmış qüvvələrdən sərbəst istifadə edə biləcək gücə və imkanlara malik olduqlarını etiraf edirdilər(?).

Suren Paşayan mükəmməl hərbi təhsil görmüş, türklərə qarşı terror aktlarında iştirak edən «Canavar» ləqəbi ilə tanınırdı. Bölünmüş dəstələrə Qurgen Amiryan, Tomris Asadyan, Şarl Balayan kimi qəddar və amansız terrorçular da daxil idilər.

**Bu dəstələrin qarşısında Rusiya MN-nin Baş Qərargahı, Səhiyyə Nazirliyi (?) də vəzifələr qoyurdular:**

**A: a)** Azərbaycan hərbi birləşmələrində türklərin - türk əsgərlərinin öyrənilməsi;

**b)** Ərazidə əfqan mücahidlərinə məxsus düşərgələrin, dəstələrin öyrənilməsi;





**c)** Xocalının hərbi-inzibati mərkəzlərinin ərazi dairəsinin öyrənilməsi.

**B: a)** Erməni ailələrindən olan uşaqların alınmasını, «təhlükəsizliyi»ni təmin etmək.

**b)** Azərbaycan hərbi könüllü birləşmələrin arasındakı ziddiyyətlərdən maksimum istifadə etmək.

**c)** «Böyük Ermənistan» hərəkat proqramının birinci fazasını təmin etmək.

ç) Xocalı-Şuşa istiqamətindəki hüquq-mühafizə orqanlarını iflic vəziyyətə salmaq.

«Haydad»çıları təmsil edən bu qrup **Daşbulaq** və **Xanabat istiqamətlərindəki iki hərbi bloklara ayrıldılar.** Daşbulaq hərbi erməni blokunu Qurgen Amiryan, **Xanabat**



**Şuşanın Malıbəyli kəndindən bir görünüş.**

**hərbi erməni blokuna** isə Şarl Balayan başçılıq edirdilər *(əlavə olaraq 366-cı Alayın rus əsgərlərindən ibarət «vzvod»ları)*. Xocalı -Şuşa istiqamətində, yaşayış məntəqələrində qanlı terror aktları da məhz belə birləşmələrin planları ilə həyata keçirilib.

**2-ci qrup isə:**

Xocalı-Şuşa istiqamətindəki Şərq qrupu. «Vartan cəngavərlər»i qrupu. Bu terror təşkilatının Vaşinqton bölməsi 1998-ci ilin iyun ayının 4-də ABŞ konqresinə məktubla müraciət etmişdi. Orada onlar konqresmənləri Azərbaycana tətbiq edilmiş 907-ci qərarın ləğv edilməməsinə çağırırdılar).

**1992-ci il fevral ayının 3-də** polkovnik Pyotr Maslennikov, konstruktor Mixail Poqosyan «Vartan cəngavərləri»nin Vyana bölməsindən gəlmiş Qabriel İşxanyanla Xankəndində hərbi qərargahda görüşürlər. Onlar müştərək planı müzakirə edirlər.

**Bu planın da mərkəzində** Gülablı, Pircamal, Naxçıvanik, Abdal, Malıbəyli yaşayış məntəqələrinin strateji nöqtələri dururdu.

**Əslində Qabriel İşxanyanın da kökü Yenikənd yaşayış məntəqəsindən idi.** Yenikənd Ağdamın Gülvablı kəndi ilə qonşu idi. O, «Usta Simon» kimi tanınan Murad Simonyanın ailəsində doğulmuşdu. Ümuiyyətlə, «Simonyan»lar tayfası 1987-ci ildə Yenikənddən mühacir adı ilə





Brüsselə, oradan da Vyanaya getmişlər. Qabriel İşyanxanm (bu familiyanı Vyanada götürdülər)əmisi Fərhad Simonyan isə Kanada vətəndaşlığını qəbul etmişdi. «Böyük Ermənistan» ideyası uğrunda meydana atılan bu adamın rəhbərlik etdiyi «Yaddaş» qrupu 1988-ci ilin aprel ayının əvvəllərində Ermənistandan qovulan azərbaycanlılara qanlı divan tutmuş və buna görə də «Mesrop»ordeninə layiq görülmüşdür *(Fransa erməni icmasının təsis etdiyi qızıl orden).*

**«Vartan cəngavərləri»nin qarşısında isə iki mühüm məqsəd dayanırdı.**

**A: a)** Xocalıda əhali arasında 1988-ci il sindromunda istifadə etmək. «Xüsusi Proqram»ların tərtibi. Xocalı ətrafında qorxu xofunu yaratmaq.

**b)** Gözlənilməz hərbi hücumlardan əvvəl çevik terror aktları.



Xocalı

**B: a)** Yollarm, keçid məntəqələrinin öyrənilməsi, Xocalıya giriş və çıxışı əhatə edən ərazilərə dayaq dəstələrinin -əlaqəçi «vzvod»ların hazırlanması.

**Qabriel İşxanyanın Şərq qrupu isə** «14+64» kodu ilə hərəkət edirdi *(yəni,14 nəfər «Vartan cəngavərləri», 64 nəfər isə rus əsgər və zabiti).*

**1992-ci il fevral ayının 9-da** Rusiya MN-dən BQ-dən general İlya Zarviqarovun adına telefonoqram gəlir. Saat 16 (yəni,4-də) radələrində alınmış bu telefonoqramda Alayda xidmət edən əsgərlərə ayrı-ayrılıqda mükafat əvəzi (?)maaş verilməklə yanaşı, zabitlərin də Rusiyamn istənilən ərazisində yeni mənzillərlə təmin ediləcəyi xəbəri verilirdi.

Generalın aldığı telefonoqramda daha sonra göstərilirdi ki, Alayda «operativ» tədbirlərin keçirilməsi üçün Səhiyyə Nazirliyinin həkim briqadası göndərilir.



**Baba dağ**





## XOCALI. BİZİM BİLMƏDİYİMİZ HƏQİQƏTLƏR

Vladimir Savelyev Xankəndindəki 366-cı Alayda yerləşən 02270 nömrəli hərbi hissəsinin əks-kəşfiyyat şöbəsinin rəisi olub. Xocalı faciəsinin ilk məlumatlarını toplayan, hadisələrin şahidi olan polkovnik **1992-ci il noyabr ayının 26-da, 1994-cü il mart ayınını 19-da, 1998-ci il avqust ayının 22-də və nəhayət, 2000-ci ilin iyul və dekabr aylarında** BMT-yə, Avropa Şurasına.... sonda Baş Kəşfiyyat İdarəsinə «Məxfi Arayış»ını təqdim edir. O, son arayışlarını «zabit Puqaçov» imzası ilə göndərib.

**Polkovnik erməni terror təşkilatları ilə Rusiya qoşun birləşmələrinin Dağlıq Qarabağda keçirdikləri hərbi əməliyyatları izləyərək, fakt və sənədlərdə, «Agentura» gücü ilə əldə etdiyi informasiyalarda bütün olub keçənlərin şərhini verib etiraf edir:** «... Mən bütün bunları yazmaya bilmərəm. Hər şey gözlərim önündə baş verib. İhsanların, uşaq və qadmların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmirəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə on doqquz səhifəlik məxfi arayış həm Kremlə, həm də MN-ə, VKİ-nin generallarına göndərdim. Oxuyun - dedim».

**El Messanyan Qriqoryan Beyrutda çıxan «Zartunk» («Oyanma») qəzetində «Bir erməni yardımı» yazısında qeyd edir:** «...Xocalı uğrunda vuruşan, döyüşə atılanları unutmaq, yaddan çıxarmaq biz ermənilərə yaraşan iş deyil. Onlara -o igidlə-

rə yardım edin. Məlumatımız var ki, dünyanın 24 ölkəsində varlı və zəngin erməni iş adamları «Artsax yardım fondu» təsis ediblər. O fond həm də bizim gələcək nəsillərin taleyi üçündür... Londonda erməni iş adamı satdığı villasının dəyərini, Vaşinqtonda erməni biznesmeni Araz Süleyman öz ticarət mərkəzindən gələn illik gəlirləri... Parisdə «Erməni ana dili» cəmiyyətinin üzvləri topladıqları ianələri... Xocalı qəhrəmanları üçün ayırdılar...»

**1992-ci il 24mart.**

Bakıda isə boş qalmış kreslolar üstündə adamlar dəstələrə bölünür, qruplarda cəmləşir, hakimiyyətə can atırdılar. Ali Baş Komandanın buraxdığı strateji səhvləri isə nə siyasi mühitdən ayrı düşmüş, başını itirmiş millət, nə də ayrı-ayrı siyasi liderlər dərk etmirdilər. Düşdükləri burulğandan çıxmaq üçün heç kəs bir-birinə əl uzatmırdı, yardım etmirdi. Xocalı isə qan içində can verirdi. Ordudakı xəyanətlə Prezident Aparatındakı xəyanətlər üst-üstə düşdüyündən hamı çaşıb qalmışdı... Bütün bu çaşqınlıqları araşdıran kəşfiyyatçı V. Savelyev Kremlə, Bakıya... üst-üstə 18 eyni məzmunlu teleqram göndərir. Amma heç kəs onun teleqramlarını oxumurdu...

**1992-ci ilin fevral ayının 4-də** isə Roma Papası II İohanın Dağlıq Qarabağ özünümüdafiə dəstələrinə (!)və rus qoşun birləşmələrinin generallarına məxfi məktubu daxil olur. Roma Papası erməni müdafiə dəstələrinə «Allahdan aldığı gücü» (?)göndərirdi. Ruslara isə bu vuruşmanın «dini bir vuruşma» olduğunu xatırladır, onlara dua edəcəyini







**Xocalı faciəsinin qurbanları**

açıqlayırdı. **Roma Papası Dağlıq Qarabağ uğrunda vuruşmanı «Dini vuruşma... Din uğrunda vuruşma» kimi qiymətləndirib, yazır:** «... İmkan olarsa, Xocalıya gəlib orada həlak olan erməni qardaşlarımın vuruş və döyüş məkanlarında baş əyəcəm...» (2003-cü ilin sentyabr 21-də Roma Papası Ermənistana gəlir. Qarabağın işğalı zamanı öldürülən ermənilərin məzarlarına yad edir).

**Hətta Roma papası Bakıya da gəldi və yüksək səviyyədə qarşılandı.** Bax biz də belə millətik. Məgər Roma papasını qarşılayanlar bu xristian şovinistini tanımırdılar?!

**Polkovnik V.Savelyev daha sonra yazır:** «... Xocalının işğalında, ölüm və kütləvi qırğın hadisələrində azərbaycanlı zabitləri də günahlandırıb ittiham edirəm... Bu necə Vətəndir? Bu necə ordudur?... Bütün bunları anlaya bilmirəm.Bu oyünlara rus zabitlərini qoşmaqla onları alçatdılar, şərəfinə lənət damğasını vurdular... Mən on addımlığımda güllə yarasında can verən səkkiz-doqqüz yaşlı qızcığaza heç cür kömək əlimi uzada bilmədim. Allahın mənə lənət edəcəyi gündən qorxuram...»

Lənətlənmiş günlər isə bir-birini əvəz edirdi. Həmin ərəfədə Fransadan gəlmiş «Operator-II» özəl studiyasının erməni əməkdaşları isə **(Jül Barelyan, Şerin Sitaryan)** Xocalı ətrafında qalaqlanmış meyitlərin yandırılmasını lentə köçürürdülər. Rusiyanın 2-ci batalyonunda vuruşan zabit İvan Karabelnikovun verdiyi məlumata görə bu yer «...Xocalının şimal-şərq hissəsində kiçik təpəcikləri olan bir yer idi...»

Xocalı faciəsini «işıqlandırmaq» **(ermənilər buna qəhrəmanlıq deyirlər)** üçün Xankəndiyə dünyanın 32 ölkəsindən 47 nəfər erməni jurnalisti gəlmişdi. Onların bir qismi polkovnik Y.Zarviqarovun ayırdığı zirehli maşınların gözlüklərindən, qərargah mərkəzlərindən hadisələri izləyir, qeydlər götürür, bəziləri də operativ çəkilişlər aparırdı. **Dağılmış, viranə qalmış yerləri dünyaya göstərir və acı bir təəssüflə qeyd edirdilər:** «... Azərbaycanlılar günahsız qırırlar...»

**Bizim təbliğat maşınımız isə Prezident Aparatından kənara çıxmırdı.** Bakıdakı adicə diplomatik korpusların nümayəndələrinə həqiqəti deməkdə çətinlik çəkirdik. Susmağımız isə erməni təbliğatı üçün qol-qanad verirdi... Ermənilər Xocalı ilə bağlı Azərbaycanı «qan tökməkdə günahlandıran» bir materialı, əllərinə keçən hər hansı bir faktı və yaxud sənədi təkrar-təkrar çap edirdilər. Tutalım «Azərbaycanlılar Xocalını yandırıb, getdilər...» foto- reportajını 49 dəfə dünya mətbuatında çap etdiriblər.





**Xocalının işğal edilməsi planının strateji tərəflərini ermənilərlə yanaşı, ruslar da... «çox düşünüblər».**

Nəticədə **birinci batalyonun qərargah rəisi, mayor Abram Çitçiyan** mayor Ə.Nabokix və kapitan İ. Lixodey hərbi əməliyyatlarda bilavasitə vuruşublar. Zabit İ.Karabelnikovun məlumatına görə A.Çitçiyan 13 nəfərlik «Babayevlər ailəsini... gülllədən keçirib...» Ona 1993-cü ildə Fransa Erməni Diasporu tərəfindən 150 min ABŞ dolları mükafat və ən böyük «Kilsə mükafatı» verilib. **A.Çitçiyan 1994-cü ilin sentyabr ayının2-də Fransaya mühacirət edib və orada yaşayır.**

**366-cı Alayın sıravi qulluqçusu, rabitəçi Afik İsbeliyevin məlumatına görə** isə, o, fevralın 24-də (1992)kapitan İ.Lixodeyin komandasında topçu dəstəsində vuruşub və Xocalının işğalında iştirak edib.

**-Siz necə vuruşurduz? -sualına belə cavab verib:**

-Biz həm də qorxurduq. Ölümdən qorxurduq. Əlimizə keçənləri məhv edirdik. Bəzən küləkdən tərpənən ağaclar. Xışıldayan yarpaq-

lar da bizi qorxuya salırdı... Mən bilmirəm, Azərbaycan xalqı məni bağışlayarmı?... Anam azərbaycanlılara qarşı ermənlərlə əlbir olub vuruşduğum üçün məndən imtina edib... Mən artıq evə gedə bilmirəm, hamı məndən üz döndərib. Amma məni məcbur etdilər. Əmr verdilər. Biz isə əmrə tabe idik. Məni artıq heç kəs bağışlamır...

**(Bir ermən i məzarı»- Müəllif: Əbdül Fateh. «Beyrut» nəşri.1994-cü il).**

A.İsbeliyev bunu deyir ki, ermənilər ruslara məxsus hərbi texnkanı satın almışdılar. Bir avtomat «Kalaşnikov»a 1500 ABŞ dolları verilirdi...

**...1992-ci il fevral ayının 25-dən 26-sına keçən gecə** Xocalı yandırıldı, işğal edildi. Qoşun isə sakitləşmək bilmirdi.

**Polkovnik V. Savelyev «Məxfi arayışında» qeyd edir:**

«Üçüncü batalyon Xocalı işğal olunan gecə müharibə zonasından çıxarıldı, amma oranı tərk etmədi. 366-cı Alay isə ərazidən çıxarılmadı.Ordu tərksilah olundu. Zabitlər satqınlıq etdilər. Silahlara gəlincə, işlənməmiş silahları ermənilər üçün ayırdılar. Qərara almdı ki, ermənilərdən bunun müqabilində pul və zinət şeyləri alınsın. «Böyük Ermənistan»adlı bədnam və rüsvayçı plan uğrunda vuruşlara gəlincə, bu, hələlik açıq qalmış bir məsələdir».

**1992-ci ilin mart ayının 19-u (müsəlman təqvimində bu gün Novruz günü, Bahar bayramıdır)** Xocalıda öldürülmüş azərbaycanlılar üçün kiçik bir qəbiristanlıq salındı. Orada əlli dörd nəfər öldürülmüş günahsız azərbaycanlı dəfn edil-







**Xocalı faciəsinin qurbanları**

di.Ermərnilərin Fransa Diasporunda telekanal müəllifi Surik Şaqenyan bu mənzərəni elə həmin günün axşamı İranın, Türkiyənin, Moskvanın, Yerevanın, Vaşinqtonun, Londonun, Parisin, Bonnun telekanallarına çıxartdı. Ermənilərin öldürülmüş azərbaycanlıların meyitlərinə etdikləri «hörmət və ehtiramdan...»(?), təşkil olunmuş dəfn mərasimindən danışdı.

Bakıda isə əslində hələ heç kəs hadisələrin, Xocalıda baş vermiş faciənin səbəblərini araşdıra bilmirdilər. Yaradılmış deputat komissiyasından tutmuş, müxalifət partiyalarınadək hamı iflic vəziyyətdə idi, hakimiyyət çat vermiş-

di. Təhlükəsizlik orqanları öz informasiya mənbələrinin əsas dayaqlarını itirmişdi. Təhlükəsizlik sisteminin böyük bir qrupu müxalifətlə, necə deyərlər, «əhd-peyman» bağlamışdılar. A.Mütəllibov hakimiyyəti cəmiyyətdə və dövlətdə siyasi gücünü artıq itirmişdi. O, öz ehtiraslarınn, komandasındakı fitnə-fəsadın qurbanı olmuşdu.

**Həmin ərəfədə rus kəşfiyyatçısı V.Savelyev Azərbaycan hakimiyyətini təsvir edib, yazırdı:** «... Xocalının işğalından sonra A.Mütəllibov hakimiyyəti öz yaşamaq hüququnu itirdi... Nazirlik isə Baş nazirin ətrafında dövlət daxilində dövlət yaratmışdılar...»

**Polkun çıxarılmasında hərbi sursatların ermənilərə verilməsində bilavasitə iştirak edənlərə baxın:**

-General-polkovnik **Qromov.**
-General-leütenant **Qrekov.**
-General-leytenant **Ohanyan.**
-İ.Andronov-deputat.
-Polkovnik **Y.Zarviqarov** (sonra general oldu)
-Polkovnik **O.Kraule...**

**Dördüncü Ordu 23-cü motoatıcı Diviziya** nümayəndələrinin Xocalı əməliyyatında iştirak etmələri üçün şərait yaratdı.

**23-cü motoatıcı Diviziyanın komandan müavini** A.Badukov və K.Yermolayev isə erməni yaraqlılarına verilmiş





hərbi texnikanın geri qaytarılmasını tələb edirdi. Onları isə kim idi eşidən?!

**RF hərbi əks kəşfiyyatının rəisi işləmiş polkovnik V.Savelyev məsələləri şərh edərək, qeyd edir:** «... 1992-ci ilin fevral ayının 23-də hərbi şəhərcik «Qrad» qurğularından atəşə tutulduqdan sonra polkovnik Y.Zarviqarov polkun daimi dislokasiya məntəqəsindən ehtiyat bölgəyə keçirilməsi haqqında qərar verib. Qərar isə erməni silahlı dəstələrinin heç bir müqaviməti olmadan həyata keçirilib. Dislokasiya yerinin dəyişdirilməsi heç də zərurətdən irəli gəlməyib. Bu zaman bir sıra bölmələrin döyüş texnikaları çıxarılmayıb. Həmin günlərdə Xankəndi şəhərinə gələn general-leytenant İ.Ohanyan (mayor Ohanyanla qarışdırmayın) təkid edib ki, artilleriya diviziyası, zenit artilleriya diviziyası, tank rotası, texnikası saxlanılsın. Nəticədə ermənilər heç bir maneə ilə rastlaşmadan 23 ədəd «PDM»,3 ədəd «ZSU-23-4», 8 ədəd»D-30»və xeyli digər döyüş texnikası ələ keçirdilər...»

Həmin gün ermənilərin özünümüdafiə dəstəsi adı ilə vuruşan, əslində «ASALA» terror təşkilatının Xankəndində yaradılmış özəyinin başçısı kimi tanınan İllarion Allahverdiyan **24 nəfər rus zabitinə və əsgərinə pul mükafatları elan etdi.** Məsələn, dəstənin önündə çıxarılmış rus zabiti Yevgeni Qolubevə üstündə «ASALA» yazılmış 25 qramlıq qızıldan tökülmüş orden və beş min ABŞ dollarını təntənəli surətdə təqdim etdi. Və yaxud həmin gün sıravi Anastas

S.İvanova 10 min ABŞ dolları təqdim etməklə İrəvanda onu gözləyən «Hunday» markalı avtomobtilin sənədlərini verdi.

**Əslində 1992-ci il fevralın 24-də** erməni silahlı dəstələrilə rus zabitləri arasında şəxsi bağlaşmalar, «Döyüş müqavilələri» imzalandı.

Azərbaycanda isə əsgərlərimiz üçün, ordumuz üçün kəndlərdən, şəhərlərdən, ayrı-ayrı iş adamlarından göndərilən maddi yardımlarm nə dəftəri var idi, nə də hesabı. Sənədlərə gəlincə, o artıq yox idi, bir qismi yandırılmışdı, bir qismi də it-bata salınmışdı. Aldığımız məlumata görə, təkcə Xocalı işğalı günlərindən ordunun xəzinəsindən (yardımlar)793 min ABŞ dolları oğurlandı. Adamlardan yardım üçün yığılan 368 milyon manatın aqibəti bilinmədi. Cənubi Azərbaycandakı qardaşlarımızın göndərdikləri 46 milyon 436 min rial isə, necə deyərlər, qeybə çəkildi... Erəmənilərlə rus zabitlərinin müqavilələri isə getdikcə şaxələnirdi...

Bütün bunlar, yəni ermənilərlə ruslar arasında olan bu hərbi bağlaşmaların bir qismi şifahi sərəncamlarla edilirdi. Bunun üçün hər sərəncamın, general sözünün öz qiyməti var idi. Məsələn, Xankəndi şəhərindəki 463-cü Əlahiddə Kimyəvi Mühafizə Batalyonu və 909-cu Əlahiddə Kəşfiyyat Batalyonunun döyüş planları ilə bağlı, ermənilər tərəfdən vuruşması barədəki əmrin qiyməti 18 min ABŞ dolları idi.





**Polkovnik V.Savelyev bütün bunlara toxunaraq yazır:** «... Birinci batalyon ehtiyat bölgəyə keçirilən zaman polkovnik İvan Moiseyev texnikanı və şəxsi heyəti dağlar arasındakı Çapar dərəsində saxlayıb, gözləmə mövqeyi tutub. Sonra onun batalyonu Çixani yaşayış məntəqəsinə daxil olub. Ermənilərin mühasirəsinə düşüb. Nəticədə batalyon könüllü surətdə öz döyüş texnikasını ermənilər üçün qoyub. İvan Moiseyevə və şəxsi heyətə pul təklif edilərək, birlikdə vuruşmağa çağırılıblar...»

Qeyd edim ki, Xocalının ətraf yaşayış məntəqələrini də dağıdan, külünü göyə sovuran elə İvan Moiseyevin batalyonu olub, Və bu batalyon da ermənilər arasında «İvanın vəhşi batalyonu» kimi tanınıb.

**Araşdırmalarımıza görə 366-cı Alaydakı hərbi texnika və silahların 85%-i ermənilərin əlinə keçib.** Üstəlik, Fransadan göndərilən142 ədəd avtomat, 7 min 600 ədəd güllə , 460 ədəd bronijilet, 11 ton konservləşdirilmiş yemək, min iki yüz cüt ayaqqabı (altı cür ölçüdə), 146 ədəd tapança... ermənilərin istifadəsinə verildi. Amerikada istehsal olunmuş 149 ədəd ratsiya də ermənilərə paylanıldı.

Fransa senatı isə Xocalı ilə bağlı heç bir məlumatın olmamasından gileyləndi və butun günahları Azərbaycanın Fransadakı diplomatik korpusunda gördü.

**2001-ci ilin fevral ayının 14-də** bu məlum oldu ki, Fransada « Xocalı faciəsini» ermənilərin faciəsi kimi təbliğ edib tanıdıblar. Bizim səfarətxanaya gəlincə, onları sadəcə geri çağırıb ittiham etməkdən başqa... ayrı heç nə qalmırdı.

Digər tərəfdən, erməni diplomatı O.Ter-Qriqoryan **1992-ci ilin aprel ayında** İrəvanın Teatr meydanındakı çıxışında deyirdi: «Erməni təbliğatı Bakının diplomatik mərkəzlərində artıq özünə istənilən mövqeyi tutub...» *(?)* Bunun isə ətrafında düşünmək lazım idi.

Diplomatik çıxışının bir yerində isə xatırladır ki, ermənilərlə rusların dostluğunun sınmayan sütunları var. **Diplomat Ter- Qriqoryan deyirdi:** «... Hələ 300 il bundan qabaq ermənilər I Pyotrdan xahiş edirlər ki, yadelli işğalçılara qarşı vuruşanda onlardan da istifadə etsinlər...»

Əgər Moskvada (təkcə şəhərin özündə)1959-cu ildə 18,4 min nəfər erməni var idisə, indi bu rəqəm 47 min nəfərdir... RF-in xaricdəki diplomatik korpuslarında çalışan ermənilərin sayı 142 nəfərdir. Onların 59 nəfəri jurnalisti fəaliyyət göstərir...

Sıravi əsgər Qriqori Voroşilovun məlumatına görə, Xocalı ilə bağlı ermənilərin ruslarla əlaqələrinə dair sənədlərin bir qismi **1992-ci il mart ayının 1-də** Zaqafqaziya Hərbi Dairəsinin aviasiya komandanı general-mayor S.Lukaşovun əmrilə yandırıldı.

**Polkovnik V.Savelyev xatırladır:**

...Ermənilər ruslara məxsus»02-19-MM» nömrəli «KAMAZ» la ərazidəki azərbaycan meyitlərini yığıb Xocalıda tonqal qurdular... İhsanın insana olan nifrəti burada həddini aşmışdı. Kim yaratmışdı bunu, dərk edə bilmirdim... Mən Sizə ermənilərə qoşularaq əsir alınmış azərbaycanlıları sıraya düzərək tək-tək məhv edən və bun-





dan həzz alan rütbə sahiblərini tanıtmaq istəyirəm:

1.**Polkovnik B.Baymukov**-arxa cəbhə üzrə polk komandirinin müavini.

2.**Polkovnik İ.V.Moiseyev**-birinci batalyonun komandiri.

3.**Mayor S.İ.Ohanyan**-ikinci batalyonun komandiri.

4.**Mayor E.A.Nabokix**-üçüncü batalyonun komandiri.

5.**Mayor V.İ.Çitçiyan**-birinci batalyonun qərargah rəisi

6.**Mayor V.Q.Hayriyan**-polkun kəşfiyyat rəisi.

7.**Baş leytenant O.V.Mirzaxayzarov**-rota komandiri.

8.**Baş leytenant S.V.Xrinxua**-kəşfiyyat bölməsinin rəisi.

9.**Baş leytenant V.N.Qarmaş**-tank rotası komandiri.

10.**Baş leytenant N.T.Hakopyan**-rota komandiri.

11.**Baş leytenant V.İ.Valilovski**-rota komanliri.

12.**Baş leytenant A.B.Lısenko**-bölmə komandiri.

13.**Baş leytenant V.A.Azarov**-batereya komandiri.

14.**Baş leytenant İ.S.Abraimov**- tank əleyhinə batereya komandiri.

15.**Leytenant O.V.Balezni**-üçüncü tank rotasının komandiri.

16.**Leytenant A.V.Smakin**-tank bölməsinin komandiri.

17.**Leytenant S.İ.Raçkovski**-mühəndis-istehkam rotası komandiri.

18.**Leytenant V.İ.Bondaryev**-kəşfiyyat rəisinin müavini.

19 **LeytenantA.İ.Kulov**-radio kimyəvi bölmənin rəisi

(eləcə də 41 nəfər milliyətcə erməni olan kiçik rütbəli şəxslər)...»

**1992-ci il fevral ayının 24-də saat 21^15 dəqiqədə** general rütbəsi almış Y.Zarviqarov zabitlər önündə belə bir çıxış edir ki, regiondakı müharibə torpaq müharibəsi yox, islamın xristianlığa qarşı müharibəsidir. **O, çıxışında göstərirdi:** «... Dünyanın islam ölkələrinin nümayəndələri, hərbi müşavirlər Bakıya(?)yığışıblar ki, bizim xaçı necə sındırıb, əzsinlər... Xristianlığa qarşı bir yürüş var. Bu yürüşdə ya dinimizi, şərəfimizi qorumalıyıq, ya da şərəfsizliyi qəbul edib tabe olmalıyıq».

Bütün bunlar V.Savelyevin- vicdanlı rus kəşfiyyatçısının «Məxfi arayışı» səriştəli, haqsızlıqlarla barışmayan bir zabitin ən böyük etirafıdır.



**1992-ci il.** Bakıda hərbi parad.





## AYAZ MÜTƏLLİBOVU UÇURUMA APARAN FACİƏ

...Fevralın 26-da qatarla Ağdama çatdıq. Gümanımız gələn on-on iki qapıya baş çəkdik. Əl boyda qıfıl asılmış qapıların yiyələri baş götürüb qaçmışdılar. Şəhərdə dəhşətli sakitlik hökm sürürdü. Ağdam bazarında da heç kim gözə dəymirdi. Qardaşım Şuşadan zəng vurmuşdu ki, Xocalını ermənilər güclü atəşə tutublar. İmkan eləyib gəlib qağamgili Bərdəyə apar. Axı bizim kəndimiz də təpədən-dırnağadək silahlanmış Çıldıran, Kıçan, Qazançı kimi erməni kəndlərinin mühasirəsində qalmışdı.

***

**1991-ci il noyabrın 26-da** Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv edildi. Ermənilərin və rusların qəzəbi bir az da artmışdı. Mülkü erməni əhalisi silahlanırdı. Qarşıdan «Sumqayıt hadisələri»nin ildönümü gəlirdi. Dağlıq Qarabağda təkrarı olmayan ciddi hadisələr gözlənilirdi. Yəqin bu hadisə «20 noyabr» vertalyot qəzasını da kölgədə qoyacaqdı. Fevralın (1992) əvvəllərində cəbhədə ermənilərin xeyrinə ciddi dönüş yarandı. A. Mütəllibov Tahir Əliyevi Ağdamdan geri çağırıb, onu Müdafiə naziri tə'yin etdi. Fevral 25-də (1992-ci il) prezident aparatında Tahir Əliyevin təqdimetmə mərasimi keçirildi. Baş qərargah rəisi

Şahin Musayev prezidentin bu uğursuz təyinatına ciddi e'tiraz bildirdi. **AXC Azərbaycanın BMT-yə qəbul olunacağı günə** - martın 2-nə qədər kütləvi tədbirlərə əl atmadan müəssisə və idarələrdə geniş izahat işi aparmağı tapşırırdı. **İzahat işi nədən ibarət idi?** Prezident A. Mütəllibovun iste'fasını tələb etmək və fevralın 29-da Azadlıq meydanında son söz demək. **Hətta AXC Ali Məclisi qərar da çıxarmışdı:** «AXC» Ali Məclisinin prezident başda olmaqla ali icra hakimiyyətinin iste'fası ilə bağlı məlum qərarının son möhləti fevralın 29-da Azadlıq meydanında ümumrespublika mitinqində başa çatacağı müşavirədə (AXC-nin müşavirəsində - Ş.S.) elan olundu».

*(«Azadlıq» qəzeti 21 fevral 1992-ci il № 15 (115).*

Göründüyü kimi hər kəs öz başının hayındaydı. Respublikada müxalifət kimi tanınan AXC mitinqə, prezident Mütəllibov isə cəbhəçilərin başını qatmağa vasitə axtarırdı. Xocalının, Sırxavəndin, Baş Güneyin və onlarca Dağlıq Qarabağdakı azərbaycanlılar yaşayan kəndlərin taleyi Allah ümidinə buraxılmışdı.

Dağlıq Qarabağın ətrafında yerləşən rayonlarda yaradılmış özünümüdafiə dəstələri gözləmə mövqeyində qərar tutmuşdu. Ermənilər tez-tez Dağlıq Qarabağdakı Azərbaycan kəndlərinə hücum edir, evləri yandırırdılar. Ətrafdan isə kömək gəlmirdi.

**...Fevralın 26-da** Xocalıların harayına əli silahsız gedənlərdən biri də mən olmuşam. Həmin gecə xocalıların harayına yetən, silahla qabaqlarına çıxan tapılmadı. Sadəcə olaraq indi çox adamlar aşkar mətləbləri danır, danışmaq belə istəmirlər. Soruşan yoxdur ki, «Qrad» qurğuları həmin gecə niyə Ağdamdan Ağcabədi istiqamətinə aparılmışdı?! Bir də axı xocalıların qətlə yetirildiyi ərazilərin əksərinə bizimkilər nəzarət edirdi. Bəs həmin gecə bizimkilər niyə öz səngərlərindən qaçmışdılar?! Bütün bu sualların zamanı var. Onda yəqin sağ qalanlar bu suallara aydınlıq gətirəcəklər. Bəlkə də o günlər heç də uzaqda deyil. Təəssüf ki, Xocalıda qətlə yetirilən körpələrin fəryadı əsrlərlə bizləri göynədəcəkdir.





Mən görürəm, nə qədər yamanlasaq da, indi çox qeyrətli bir nəsil yetişir. Yəqin ki, bu nəsillər bizlərin onların çiyinlərinə yük qoyub getdiyimiz Xocalı, Qaradağlı, Daşaltı qisaslarını mütləq alacaqlar.

**Dəhşətli Xocalı qırğınından sonra AXC informasiya mərkəzinin mə'lumatı yayıldı:** «Rəhim Qazıyev fevralın 27-də zəng edərək bildirib ki, atışmanın dayandırılmasında 3 günlük moratori qoyulması milli xəyanətdir. Bu ermənilərin yeni güc toplamasına imkan yaratmaqdır. O, Xocalıda vəziyyətin ağır olduğunu 2 mindən çox sakinin taleyindən heç bir xəbər olmadığını deyib».

*(«Azadlıq» qəzeti N 17 (117) 28 fevral 1992-ci il).*

Xocalıları xilas etmək üçün Ağdam istiqamətindən heç bir tədbir görülmədi. Hətta «Qrad» maşınları da Fəhmin Hacıyevin göstərişi ilə Ağcabədiyə aparılmışdı. Xocalıları isə Ağdamın 6 km-də, Şelli kəndinin üstündə qırmışdılar.

Hadisələrin sonrakı təhlili göstərir ki, «Xocalı soyqırımı»ndan dərhal Rəhim Qazıyev xəbər tutmuş, atəş açmamaq haqqında Baş qərargahdan göstəriş aldığı üçün heç nə etməyibdi. Şuşada ratsiya ilə ermənilərin «uşaqları və qadınları meydana yığın» əmri aydınca eşidilirmiş.

Ağdamdakı özünümüdafiə dəstələrinə də Şuşadan Xocalının od tutub yandığı dəfələrlə deyilibdi. Fevralın 25-də ermənilərlə 3 günlük atəşkəs haqqında şifahi moratori razılaşdırıldığına görə silahlar susubdu. Həm Şuşadan, həm də Ağdamdan Xankəndi istiqamətində xocalıları xilas etmək üçün yalnız milli qeyrət çatışmadı. Hələ bu günə qədər Xocalıda məskunlaşan Mesxeti türkləri haqqında danışan yoxdur. Fevralın 25-dən 26-na keçən gecə 12 Mesxeti türk ailəsi erməni qatilləri tərəfindən yenicə məskunlaşdıqları evlərindəcə diri-diri yandırıldı. 1992-ci il martın 4-də Qazançı kəndindən əsir alınmış erməni hərbçisi danışırdı ki, **«Xocalıda Mesxeti türk ailələri evdən çölə çıxmağa macal tapmadılar. Onları uşaqlı-böyüklü diri-diri yandırdılar».**

Mesxeti türklərinin əksəriyyəti Xocalını tərk edə bilmədi. Onlar yolu tanımır, həm də qəsəbənin yeni yaşayış massivində yerləşirdilər. Yeni massivdə həm də Xankəndindən və Ermənistandan qovulanlar yaşayırdı. 80-ci illərdə Xankəndi Qarabağın sənaye şəhəri kimi formalaşırdı. Şəhərə ətraf rayonlardan axın artırdı. Sözsüz gəlmələr Xocalıdan çıxmağın yolunu da tapa bilməzdilər.





**Qanlı faciədən dərhal sonra öz «işini görənlər»** - Tahir Əliyev, Fəhmin Hacıyev, «karyer» Qasım, Tofiq Kərimov kimiləri öz «yuva»larına çəkildilər. Onda «karyer» Qasım Ağdamda meydan sulayırdı. O, özünü bölgənin baş komandanı elan etmiş, icra başçısını, polis rəisini bölgədən uzaqlaşdırmışdı. Bu həmin «karyer» Qasım idi ki, ömrü uzunu Ağdamın var-dövlətini ermənilərə yedirtmiş, otuz il dağ boyda Şahbulaq daş karxanasını söküb talamışdı.

**1992-ci il martın 6-da özünümüdafiə dəstələri və Milli** Ordunun əlavə qüvvələri Əsgərana girə bildilər. Ordumuzun əsgərləri cüzi itki verərək, erməniləri Əsgərandan geri oturtdular. Bakıya məlumat çatdırıldı. Əlavə qüvvə göndərilməsi üçün xahişlər, yalvarışlar, göz yaşları axıdıldı. Başbilənlər ayılmadı ki, ayılmadı. Onda Bakıda deputatlarının təkidi ilə fövqəladə sessiya gedirdi.

Əsgəranda ermənilər böyük itki verdilər. Milli Ordunun qüvvələri Əsgəran qalasına doğru erməniləri sıxışdırdılar. Saat 4-dən sonra erməni və rus hərbi birləşmələri **(Xankəndindəki 366-cı rus alayı ermənilərin köməyinə gəldi)** üç tərəfdən - Naxçıvanikdən, Xanabad, Xocalı istiqamətindən Milli Ordumuza qarşı güclü hücuma keçdilər.

Əlavə qüvvə gəlmədiyinə görə martın 6-da axşamüstü Milli Ordunun qüvvələri Əsgərandan geri çəkilməyə məc-

bur oldular. Həmin günlərdə cəbhədə ciddi dönüş yaranmışdı. Qarabağın dağlıq bölgəsindəki Azərbaycan kəndlərinin yolunu kəsən Qazançı 1992-ci il martın 4-dən 5-nə keçən gecə yerli özünümüdafiə qüvvələrinin təzyiqi ilə ermənilərdən təmizləndi. Ermənilər gecə ikən Qazançıdan qaçdılar.

Şirin Mirzəyevin batalyonu isə martın 6-da tez özünü Qazançıya yetirərək kəndi azad etdiklərini bildirdilər. Ermənilər elə martın 5-də ətrafdakı Kolam döyüşçülərinin təzyiqi ilə gecə ikən özləri Qazançıdan meşə yolu ilə qaçmışdılar. Qazançını tərk etməyən Bərxudar müəllim bizimkilərə təklif etdi ki, məni öldürməyin **(Bərxudar müəllimin həyat yoldaşı azərbaycanlı idi),** sizə ermənilərlə bağlı kifayət qədər məlumat verə bilərəm. Qızışmış kütlə isə Bərxudar müəllimi Şahbulaqda qətlə yetirdi. Bu, o Bərxudar müəllim idi ki, Dağlıq Qarabağda (orta məktəbdə oxuyanda) mənə rus dilindən dərs demişdi.

...Kəndimizə (Kolanı-Orta Güney) kifayət qədər silah-sursat paylasalar da, erməninin qabağına çıxan canlı qüvvə çatışmırdı. Əlinə avtomat alıb səngərlərə gedən cavanlar da yaxşı bilirdilər ki, erməni nə zaman hücum etsə, buraları bir anlığa yerlə-yeksan edəcəkdir. Ağdamın «Uzundərə» deyilən yerində rusların hərbi bazası açılmış, oradan kənd əhalisinə istənilən qədər silah-sursat paylanmışdı. Sadəcə olaraq Dağlıq Qarabağın Azərbaycan kəndlərinin özünümüdafiə batalyonları ermənilərin nizami ordusunun







**1992-ci il. Ağdam.** Öz yurd-yuvalarından baş götürüb gedənlər

qabağında tab gətirə bilməzdi. **Bizim kəndlərin ətrafında döyüş gedən vaxtı səkkiz-on kilometrlikdə yerləşən** Qalayçılar, Əlimədətli, Əliağalı, Mollalar, Kürdlər, Xaçındərbənd, Cinli və Boyəhmədli kəndləri ev-eşiklərini Bakıya köçürürdülər. Uzaq rayonlar da Dağlıq Qarabağın Azərbaycan kəndlərinə beş-on qutu makaron göndərməklə öz işlərini bitmiş hesab edirdilər. Heç onlar fikirləşmirdilər ki, bəs bu qanlarına qəltan edilən bizim bacı-qardaşlarımızdır.

Bəzən də belə olurdu ki, Azərbaycanın ayrı-ayrı rayonlarının dəliqanlı cavanlarını könüllülər adı ilə bölgəyə gətirilirdi. Onlar da fürsət düşən kimi hücum çəkib erməninin danasım oğurlayıb gəldikləri yolla da geri dönürdülər.

Mən özüm də bu «qəhrəmanlığın» iki dəfə şahidi olmuşam. Birində Sabirabaddan gələn dəstə ermənilərin yaşadığı Qazançıdan 26 baş mal-qara ələ keçirə bildi. Sonrakı «əməliyyatı» isə hacıqabullular uğurla başa çatdırdılar. Mən bilmirəm biz indi hansı namus-qeyrətdən danışırıq. Axı bizim - türk kişisinin qadınını erməni əsir aparıb başına yüz oyun açırsa, niyə başımızı dik tutub gəzirik?!

Şirin Mirzəyev Azərbaycanın Milli qəhrəmanıdır. **Gəlin görək Ağdərənin** Sırxavənd, Baş Güney, Orta Güney, Xatınbəyli, Bəşirlər, Qaralar, Telli Binə, Tala, Manikli kəndləri 1992-ci il martın 11-dən 14-dək mühasirədə qalanda Şirin Mirzəyev nə etdi?! Əslində heç nə...

Neçə-neçə igid oğullar Baş Güney uğrunda gedən döyüşlərdə şəhid oldu. Canlı qüvvə çatmadı ki, yaralıları Baş Güneyin igidləri mühasirədən çıxarsınlar. Baş Güneydən Əvəz, İsa, Əsəddin kimi oğullar son damla qanlarına qədər səngərdən çıxmadılar. Onlar hələ də itkin düşmüşlərin siyahısındadır. Məgər o zamanlar Şirin Mirzəyev öz silahlı qüvvəsi ilə Ağdərənin Azərbaycan kəndlərinə kömək göndərə bilməzdimi?!

Sonralar İsacan əmimlə Ağdamda olanda Şirin Mirzəyevlə görüşdük. Biz ona irad tutduq. Dedik, Şirin bəy tarix bu səhvi sizə heç vaxt bağışlamayacaq. Onun bizə bircə sözü oldu. Sizin bilmədiyiniz hələ çox şeylər var.







**İşğal edilmiş Ağdərə şəhərindən bir görünüş**

**1992-ci ilin iyununda** isə Şirin Mirzəyev getdiyi xidməti maşınla Sırxavənd uğrunda gedən döyüşlərdə müəmmalı şəkildə minaya düşərək həlak oldu. Məncə Xocalı hadisələri ilə bağlı Şirin Mirzəyev çox mətləbləri bilirdi.

**1992-ci il martın 11-dən 12-nə keçən gecə** ermənilər əlavə qüvvə toplayaraq Sırxavənd, Baş Güney, Manikli istiqamətində hücuma keçdilər. Martın 13-də Ağdərənin azərbaycanlılar yaşayan **Sırxavənd, Manikli, Bəşirlər, Qaraşlar, Xatınbəyli, Telli Binə** tamam işğal edildi. Baş Güney və Orta Güney kəndləri mühasirədə qaldı. Təkcə Baş Güney kəndində 267 erməni döyüşçüsü məhv edildi. Onlardan İsrail avtomatları və sursat qənimət kimi götü-

rüldü. Döyüşdə Ələddin, Əvəz, İsa, Qəzənfər, Xosrov, Əsəddin, Nizami, Ziya, Qurban kimi igidlər şəhid oldular. Erməni ordusunun birləşmələri Baş Güney və Orta Güney kəndlərindən yerli özünümüdafiə qüvvələrinin şücaəti nəticəsində geri çəkildi.

**Orta Güney kəndindən** Ziyədxan, Dilqəm, Təbriz, Səlim, Fərman, Yaqub, Mahir, İsmayıl, İlqar, Siyasət, Mətləb, Umudvar, Qənimət, Habil, Muğani, Sabir, Həsrət, Zahid, Elsevər, Bəxtiyar kimi oğullar mühasirədə düşmənə qarşı igidliklə vuruşdular. Ətrafdan isə kömək gəlmədi.

**Martın 14-də** (1992) Baş Güney və Orta Güneyin qəhrəman oğulları mühasirəni yararaq, qocaları, uşaqları və qadmları kəndlərdən çıxara bildilər. Əfsus ki, düşmənin aramsız hücumu yaralıları, xəstə qocaları çıxarmağa imkan vermədi. Baş Güneydə və Orta Güneydə erməni ordusuna sinə gərən oğulların hünəri Bakıdan görünmədi. **Yalnız martın 17-də «Azadlıq» qəzeti qısa informasiya verməklə kifayətləndi.** «Qarabağın dağlıq bölgəsində 7 azərbaycanlı kəndi - Sırxavənd, Bəşirlər, Qaraşlar, Manik, Orta Güney, Baş Güney, Xatınbəyli, işğal edildi. Kəndlərdə 50 nəfər həlak oldu».

*«Azadlıq» qəzeti N 22 (122) 17 mart 1992-ci il.*

Sırxavəndin, Baş Güneyin və Sığnaq yüksəkliklərinin itirilməsi Qarabağın işğalı üçün zəmin yaratdı. Nə qədər ki, Sırxavənd və Baş Güney ermənilərin işğalı altındadır. Qarabağda qələbədən danışmaq da mənasızdır.

**Şöhrət SƏLİMBƏYLİ**





## XX ƏSR ERMƏNİ TERRORUNUN YENİ DALĞASI

1988-ci ildə Qarabağda erməni separatizmi başlayanda hadisələrin gedişatını müəyyən edə bilmədik. 200 minə yaxın soydaşımız ata-baba torpaqlarından - Zəngəzurdan, Dərələyəzdən, Vedibasardan, Göyçədən, Dağ Borçalıdan - Lori-Pəmbəkdən didərgin düşdülər, daha sonra **1990-cı ilin 20 Yanvar faciəsi,** 1992-ci ilin Xocalı faciəsi, Şuşa, Laçın, Zəngilan, Qubadlı, Ağdərə, Cəbrayıl, Füzuli, Ağdam itkisi ilə qarşılaşdıq. Torpaqlarımız işğal olundu, azəri türkləri Vətənində məcburi köçkünə çevrildilər. İlan mələyən çöllərdə çadır şəhərcikləri tikildi.

**19 yanvar 1990-cı il. Naxçıvan.**

Yanvarın 19-dan 20-nə keçən gecə erməni silahlı dəstələri Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Kərki kəndini işğal etmişlər. Erməni quldur birləşmələri Sədərək qəsəbəsinə də hücum etmişlər. Dinc əhali arasında ölənlər var. Naxçıvanın azərbaycanlılar yaşayan digər kəndləri də ağır toplardan və «Qrad» tipli kütləvi tələfat silahlarmdan müntəzəm surətdə atəşə tutulurdu. Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində vaxtilə Ümumittifaq şəbəkəsinə daxil olan, Azərbaycanı Naxçıvanla

bağlayan dəmir yol xətləri və avtomobil yolları kəsilmiş, Naxçıvana Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq taleyi qismət olmuşdur.

**30 yanvar 1990-cı il. Gədəbəy.**

Gədəbəy rayonunun beş azərbaycanlı sakini erməni terrorçularının qəfil hücumu nəticəsində itkin düşmüşdür. Bir neçə gündən sonra beşinin də cəsədi eybəcər hala salınmış vəziyyətdə Ermənistan ərazisində tapılmışdır.

**18 fevral 1990-cı il.**

Yevlax-Laçın yolunun 105-ci kilometrində Şuşadan Bakıya gedən marşrut avtobusunda partlayış törədilmişdir. 13 nəfər yaralanmışdır. Fransa mətbuatının məlumatına görə, «Daşnaksütyun» erməni terror təşkilatı 1990-cı il yanvarın axırlarında silah almaq üçün lazım olan pul vəsaiti yığılmasına dair səylərini artırmışdır. Azərbaycan Respublikasının ərazisi olan Qarabağm dağlıq hissəsinə silahla bir yerdə «könüllülər» adlandırılan cinayətkarlar da göndərilmişdir. Həmin dövrün məlumatlarına görə, təkcə Fransadakı erməni icmasından müvafiq hazırlıq keçdikdən sonra Azərbaycan ərazisinə 400-dən artıq terrorçu yollanmışdır.

**23 fevral 1990-cı il. Yerevan.**

Ermənistan SSR Mərkəzi Komitəsinin qərarı ilə Azərbaycan Respublikasınm ərazisi olan Qarabağın dağlıq hissə-





sində Ermənistan SSR Ali Sovetinə deputatlar seçilməsi üzrə 12 seçki dairəsi yaradılmışdır. Bu qərar dünya praktikasında misli görünməmiş haldır: bir dövlət qərar qəbul edib digər dövlətin ərazisində öz parlamentinə seçkilər keçirir. Tədqiqatçılar bu faktı «Daşnaksütyun»un göstərişini yerinə yetirən erməni terror və quldur birləşmələrinin işğalçılıq fəaliyyətində Ermənistan hökumətinin birbaşa iştirak etməsinin növbəti sübutu kimi qiymətləndirmişlər.

**24 mart 1990-cı il. Qazax.**

Yaxşı silahlanmış erməni quldur birləşmələri əvvəlcə «Qrad» tipli kütləvi tələfat sistemindən atəş açaraq, Azərbaycanın Qazax rayonunun kəndlərinə hücum etmişlər. Mülki əhali arasında çoxlu ölənlər var.

**11 iyul 1990-cı il. Ağdərə.**

Azərbaycan respublikasının Ağdərə rayonunun Ketavan və Çərəktar kəndləri arasında Kəlbəcər şəhərinə gedən avtomobil dəstəsini müşayiət edən qoşun hissəsinə terror hücumu olmuşdur. Nəticədə 3 adam həlak olmuş və 23 nəfər yaralanmışdır. İstintaq nəticəsində məlum olmuşdur ki, terror aktı Xankəndinin sakinləri - «Daşnaksütyun» beynəlxalq erməni terror təşkilatının yerli qruplaşmalarmdan birinin üzvləri - Napaleon ləqəbli **Arkadi Ayriyan və Samvel Babayan** tərəfindən törədilmişdir.

**1990-cı ilin yayı. Qazax.**

SSRİ Prezidenti Mixail Qorbaçovun qeyri-qanuni hərbi birləşmələrin tərksilah edilməsi haqqında Fərmanına baxmayaraq, erməni terror qrupları Azərbaycan ərazisində dinc əhaliyə qarşı qanlı cinayətləri davam etdirirlər.

Əfqanıstan müharibəsinin dəhşətlərini görmüş **rus zabiti, baş leytenant O.Çetenovun xatirələrindən:** «Dizin-dizin sürünüb qardaşının cəsədinin qalıqlarını vedrəyə yığan qocanı, boğazı kəsilmiş qadınları, qundaqda başı xıncım-xıncım əzilmiş körpəni görmək dəhşətdir. Beyində bir-birinin ardınca buna uyğun obrazlar canlanır: Xatın, Oradur, Liditse. Lakin azərbaycanlıların kiçik Bağanis-Ayrım kəndini onların sırasına aid edə bilmədim».

**8 sentyabr 1990-cı il. Xocavənd.**

QAZ-53 maşınında Laçından gələn üç azərbaycanlı - Süleymanov qardaşları Xocavənd rayonunda pusquda durmuş erməni terrorçularının hücumuna məruz qalmışlar. İki qardaş həlak olmuş, biri isə ağır yaralanmışdır.

**15 sentyabr 1990-cı il. Xankəndi.**

Bir qrup erməni terrorçusu Xankəndi şəhərində radioteleviziya mərkəzini partlatmışdır.

**Noyabr 1990-cı il.**

Azərbaycanın hüquq-mühafizə orqanları erməni terrorçularını qrupunu ifşa və tərksilah etmişlər. Qrupa Ermənistanın Eçmiədzin rayonunun sakinləri T.Xaçaturyan, Z.Ohanyan, A.Qriqoryan daxil idilər. Qrup Ermənistanda «Daşnaksütyun»un ideoloji xəttinə riayət edən «Yekqapa» terror təşkilatı tərəfindən yaradılmışdır. Onlar Azərbaycana terror aktları törətmək və sabotaj etmək üçün göndərilmişlər.





**15 dekabr 1990-cı il. Əsgəran.**

S.Babayanın və A.Ayrumyanın başçılıq etdiyi erməni terrorçuları qrupu Əsgəran rayonunun Cəmilli və Kosalar kəndləri arasında 3 azərbaycanlını qətlə yetirmişdir. S.Babayan həbs olunmuş, 1992-ci ildə onu əsir azərbaycanlı ilə dəyişmişlər. Samvel Babayan 1993-1999-cu illərdə qondarma «Dağlıq Qarabağ Respublikası»nın müdafiə naziri olmuşdur.

**9 yanvar 1991-ci il.**

Şuşa-Laçın yolunun 5-ci kilometrliyində erməni terrorçuları «Molodyoj Azerbaydjana» qəzetinin jurnalisti Salatın Əsgərovanı və hərbi qulluqçular - podpolkovnik S.M.Larionovu, mayor İ.Y.İvanovu və serjant İ.İ.Qoyeki qətlə yetirmişlər.

**Terrorçular** - A.M.Mkrtçyan, Q.A.Petrosyan, A.A.Manqasaryan, Q.M.Arutyunyan və Q.Q.Arustamyan Azərbaycan Respublikası Ali Məhkəməsinin 1993-cü il 23 mart tarixli hökmü ilə ən ağır cəzaya - güllələnməyə məhkum olunmuş, terror təşkilatının digər üzvləri isə müxtəlif müddətlərə azadlıqdan məhrum edilmişlər.

**19 yanvar 1991-ci il. Xankəndi.**

A.Baqmanyan, S.Baqmanyan və A.Antonyan növbəti terakt törətmiş - DQMV Dİİ-nin rəisi, rus generalı V.Kovalyova silahlı hücum etmiş, onu ağır yaralamışlar.

**Yanvar 1991-ci il. Ağdərə.**

V.Qalayanın başçılıq etdiyi erməni turrorçuları qrupu Azərbaycan respublikasının Qarabağ vilayətinin dağlıq hissəsinin Ağdərə rayonundakı Drombon kəndi yaxınlığında Kəlbəcər şəhərinə gedən avtomobil dəstəsinə silahlı hücum etmişdir. Maşının sürücüsü öldürülmüşdür.

**Yanvar 1991-ci il. Xocalı.**

Erməni terrorçuları A.Baqmanyan, S.Babayan, A.Abramyan və «Qarabağ» təşkilatının digər üzvləri Xocalı şəhər hava limanının rəisini qətlə yetirmişlər.

**20 fevral 1991-ci il. Xanlar.**

Erməni terrorçuları Xanlar rayonunda mülki maşını güllləyə tutmuşlar. İki azərbaycanlı həlak olmuşdur.

**25 fevral 1991-ci il.**

Erməni terrorçularının hərbi birləşmələri Ağdam rayonunun Gülablı kəndinə hücum etmişlər. İki azərbaycanlı qətlə yetirilmişdi.





**18 aprel 1991-ci il.**

Q.Sarkisyanın başçılıq etdiyi erməni terrorçuları Azərbaycan Respublikasının Dağlıq Qarabağ vilayətinin Xocavənd rayonundakı Amaras kilsəsi yanında dayanmış avtomobili atəşə tutmuşlar. 3 azərbaycanlı milis əməkdaşı həlak olmuşdur.

**23 aprel 1991-ci il. Şuşa.**

«Qarabağ» terror təşkilatının nəzarət etdiyi erməni quldur birləşmələri azərbaycanlıların Şuşa şəhərini ağır toplardan atəşə tutmuşlar. Yaşayış binalarına zərər dəymişdir: vətəndaşlar arasında ölənlər var.

**25 aprel 1991-ci il. Tərtər.**

Erməni quldurları azərbaycanlıların yaşadığı Umudlu kəndini, eləcə də Tərtər rayonunun Qapanlı və Qaradağlı kəndlərini atəşə tutmuşlar. Dinc əhali arasında ölənlər var.

**28 aprel 1991-ci il. Naxçıvan Muxtar Respublikası.**

Erməni quldur birləşmələri azərbaycanlıların Sədərək qəsəbəsini Ermənistan tərəfdən ağır toplardan atəşə tutmuşlar. Dinc əhali arasında ölənlər var.

**29-30 aprel 1991-ci il.**

«Daşnaksütyun» terror təşkilatının göstərişini yerinə yetirən erməni quldur birləşmələri Qazax və Laçın rayonlarının kəndlərini ağır toplardan atəşə tutmuşlar. Dinc əhali arasında ölənlər var.

**30 may 1991-ci il. Xasavyurt. Rusiya.**

Ermənі terrorçuları Xasavyurt stansiyası yaxınlığında Moskva-Bakı sərnişin qatarını partlatmışlar. 11 adam həlak olmuş, 22 nəfər yaralanmışdır.

**May 1991-ci il.**

Hüquq mühafizə orqanlarının nümayəndələri Şəmkir stansiyasında Bakı-Tbilisi qatarında Ermənistanın Noyemberyan rayonunun sakini, erməni terrorçusu S.Aznaryanı həbs etmişlər. Onda iki mina, avtomat və Azərbaycanın dəmir yollarmın və avtomobil yollarının xəritələri aşkar olunmuşdur.

**9 iyun 1991-ci il. Tərtər.**

Erməni terrorçuları Tərtər rayonunun azərbaycanlılar yaşayan Kaşanlı kəndinin 2 sakinini qətlə yetirmişlər, daha 2 nəfər yaralanmışdır.

**27-28 iyun 1991-ci il. Xocavənd.**

«Qarabağ» terror təşkilatından olan erməni quldurları qrupu gecə Azərbaycan Respublikasının Xocavənd rayonunun Qaradağlı kəndinə hücum etmişlər. Kəndin 6 dinc sakini qətlə yetirilmişdir.

**3 iyul 1991-ci il. Füzuli.**

Erməni quldur dəstəsi Füzuli rayonunun Qacar kəndinin sakinlərinə hücum etmişdir. Kəndlilər arasmda ölənlər var.





«Daşnaksütyun» beynəlxalq terror təşkilatının «Etnik cəhətdən təmiz zonalar» yaradılmasına dair ideoloji göstərişi növbəti dəfə yerinə yetirildi.

**4 iyul 1991-ci il. Ağdərə.**

Erməni terrorçuları azərbaycanlıların Umudlu kəndinin sakinini qətlə yetirmişlər.

**8 iyul 1991-ci il. Əsgəran.**

Ot biçini zamanı Əsgəran rayonunun Cəmilli kəndinin sakinləri erməni quldurları tərəfindən atəşə tutulmuşlar. Kəndlilər arasında ölənlər var.

**22 iyul 1991-ci il. Laçın.**

«Qarabağ» terror təşkilatmdan olan erməni saqqallılar zirehli texnikanın köməyi ilə Azərbaycanın Laçın rayonundakı yay otlağına hücum etmişlər. Doqquz çoban vəhşicəsinə qətlə yetirilmişdir.

**31 iyul 1991-ci il. Temirtau. Rusiya.**

Temirtau stansiyası (Dağıstan) yaxınlığında Moskva-Bakı sərnişan qatarı partladılmışdır. 16 adam həlak olmuş, 23 nəfər yaralanmışdır.

**5 avqust 1991-ci il. Laçın.**

Erməni quldurları Laçınm Fərəcan kəndini atəşə tutmuşlar. Bir nəfər yaralanmışdır.

**8 avqust 1991-ci il.**

Ermənistandakı sonuncu Azərbaycan yaşayış məntəqəsi olan Nüvədi kəndi erməni quldur birləşmələrinin hücumuna məruz qalmışdır. Terrorçular yaxşı silahlanmışlar, hərbi texnikaya malikdirlər. Kəndin vəhşicəsinə talan edilməsi nəticəsində orada bir nəfər də olsun azərbaycanlı qalmamışdır.

**18 avqust 1991-ci il. Goranboy.**

Erməni saqqallıları Goranboy rayonunun Tanqaraqoyunlu kəndinə hücum etmişlər: 2 kəndli öldürülmüş və 3 nəfər yaralanmışdır. «İzvestiya» qəzeti 1991-ci il 16 avqust tarixli nömrəsində həmin faktla əlaqədar **SSRİ DİN-in ictimai əlaqələr mərkəzinin rəisi A.Çernenkonun sözlərini sitat gətirir:**

«Hərbçilər silah işlədə bilmədilər, çünki ermənilər pusqunun yanında qadınları və uşaqları «ön xəttə» çıxarmışdılar. Belə şəraitdə heç də hər kəs adama güllə ata bilməz».

**23 avqust 1991-ci il. Şuşa.**

Erməni terrorçuları Şuşa-Cəmilli yolunda avtobusu gülləyə tutmuşlar. 4 nəfər həlak olmuş, 13 nəfər yaralanmışdır.

**May 1991-ci il. Xankəndi.**

Erməni terror qrupu rus zabiti, SSRİ DİN-in daxili qoşunlarının mayoru Xomiçi qətlə yetirmişdir.





**1991-ci ilin yayı. Xankəndi. Kərkicahan.**

Rusiyanın «Mayak» radiostansiyasının jurnalisti Leonid Lazareviç erməni terrorçusu tərəfindən qətlə yetirilmişdir.

**7 sentyabr 1991-ci il. Xocavənd.**

Erməni terrorçuları Xocavənd rayonunun Tuğ kəndində 2 azərbaycanlmı öldürmüşlər. Terror aktı dinc əhalini qorxutmaq məqsədi ilə törədilmişdir.

**7 sentyabr 1991-ci il. Xankəndi.**

Erməni terrorçuları Xankəndindən gələn avtobusu atəşə tutmuşlar. 3 sərnişin ölmüş, 20-si yaralanmışdır.

**14-18 sentyabr 1991-ci il. Goranboy.**

Erməni quldur birləşmələri artilleyriyanın və ZTR-lərin köməyi ilə Goranboy rayonundla azərbaycanlılar yaşayan bir neçə kəndə hücum etmişlər. Dinc əhali arasında ölənlər var.

**21 sentyabr 1991-ci il. Goranboy.**

Goranboy rayonunun Todan kəndinin sakini erməni terrorçusu tərəfindən yaralanmışdır.

**25 sentyabr 1991-ci il. Xankəndi.**

Kərkicahanın (Xankəndinin yaxınhğında) erməni terrorçuları tərəfindən atəşə tutulması nəticəsində 1 adam həlak olmuş və 6 nəfər yaralanmışdır.

**29 sentyabr 1991-ci il. Goranboy.**

Erməni quldurları azərbaycanlıların Zeyvə və Şəfəq kəndlərini atəşə tutmuşlar: 1 nəfər həlak olmuş, 9 nəfər yaralanmışdır.

**Sentyabr 1991-ci il. Goranboy.**

Erməni quldur birləşmələri «Daşnaksütyun» terror təşkilatının göstərişini yerinə yetirərək, artilleriya hücumundan və «Qrad» sistemindən atəşə tutduqdan sonra Azərbaycanın Goranboy rayonunun qərb hissəsinə hücuma keçmiş, bir sıra yaşayış məntəqələrini işğal etmişlər.

**Oktyabr-noyabr 1991-ci il. Xocavənd.**

«Qarabağ» terror təşkilatından olan erməni quldur birləşmələri Dağlıq Qarabağın Xocavənd rayonu ərazisindən azərbaycanlı əhalini qovmaq üçün «Qrad» sistemindən atəş açdıqdan sonra bir sıra amansız hücumlar etmişlər. 30-dan artıq yaşayış məntəqəsi işğal olunmuşdur.

**15 noyabr 1991-ci il. Xocavənd.**

Zamzur kəndinin 5 sakini erməni quldurları tərəfindən qətlə yetirilmişdir. Ertəsi gün bu kənd işğal olunmuş və tamamilə yandırılmışdır.

**20 NOYABR 1991-Cİ İL. XOCAVƏND.**

Azərbaycan Respublikasının Xocavənd rayonunun Qarakənd yaxınlığında erməni terrorçuları «Mi-8» vertolyotunu vurmuşlar.





Vertolyotda Azərbaycan Respublikasının

**Dövlət Katibi, xalq deputatı** T.K.İsmayılov,

**Azərbaycan Respublikası Baş nazirinin müavini,** xalq deputatı Z.S.Hacıyev,

**Azərbaycan Respublikası Prezidentinin Dövlət Müşaviri, xalq deputatı, general-mayor** M.N.Əsədov,

**Azərbaycan Respublikasının Baş Prokuroru, xalq deputatı, Dövlət Ədliyyə müşaviri** İ.İ.Qayıbov,

xalq deputatları V.D.Cəfərov və V.T.Məmmədov,

**Azərbaycan Respublikası Prezidenti Aparatı Mətbuat Mərkəzinin müdiri** O.M.Mirzəyev,

**Azərbaycan Respublikası meliorasiya və su təsərrüfatı nazirinin birinci müavini** Q.Q.Namazəliyev,

**DQMV-nin prokuroru** İ.A.Plavski,

**MTN-nin DQMV üzrə şöbəsinin rəisi** S.S.İvanov,

**DQMV Dİİ-nin rəisi general-mayor** V.V.Kovalyov,

**DQMV fövqəladə vəziyyət rayonunun komendantı** N.V.Jinkin,

**Azərbaycan Respublikası Dövlət Katibinin köməkçisi** R.M.Məmmədov,

**Azteleradionun jürnalistləri** A.M.Mustafayev, A.İ.Hüseynzadə və F.İ.Şahbazov,

**Rusiya Federasiyasından müşahidəçilər general-mayor** M.D.Lukaşov və podpolkovnik V.M.Koçarov,

**Qazaxıstan daxili işlər nazirinin birinci müavini general-mayor** S.D.Serikov olmuşlar.

Bütün sərnişinlər və uçuş heyəti həlak olmuşdur.

**8 dekabr 1991-ci il. Xankəndi.**

Erməni quldurları Kərkicahan qəsəbəsini PDM və ZTR-lərdən atəşə tutmuşlar. 8 nəfər ağır yaralanmışdır.

**22 dekabr 1991-ci il. Laçın.**

Dekabrın 22-dən 23-nə keçən gecə «Yevangiley» erməni terror qrupu tərəfindən Laçın rayonunun azərbaycanlılar yaşayan Qaraqışlaq kəndində ilk ekoloji terror aktı törədilmişdir. Adı çəkilən terror qrupuna öz «karyerasına» «İntiqam» erməni terror təşkilatında başlamış Yevangiley Vaskanyan başçılıq edir. İxtisasca uşaq həkimi olan Y.Vaskanyan indi azərbaycanlı uşaqları öldürməkdə ixtisaslaşır. «Yevangiley» terror qrupu kifayət dərəcədə çevikdir (14 yaraqlıdan ibarətdir), yaxşı silahlanmış və təchiz olunmuşdur. Bu qrup «Daşnaksütyun» beynəlxalq erməni terror təşkilatının yeni xəttinin ekoloji terroru həyata keçirməkdə istifadə edilən erməni təşkilatları sırasına daxildir.

**23 dekabr 1991-ci il. Əsgəran.**

«Qarabağ» terror təşkilatından olan erməni quldurları Əsgəran rayonunun Meşəli kəndinə hücum etmişlər. 6 adam öldürülmüş və 15 nəfər yaralanmışdır.

**11 yanvar 1992-ci il.**

Erməni quldur birləşmələri Füzuli rayonunun Cuvarlı, Hoğa və Xocavənd rayonunun Axullu kəndlərinə hücum etmişlər. Kənd sakinləri arasında ölənlər var.





**18 yanvar 1992-ci il. Şuşa.**

Erməni terrorçuları Şuşa rayonunun Nəbilər kəndini işğal edib yandırmışlar. Yerli əhali arasında ölənlər var.

**22 yanvar 1992-ci il.**

Erməni quldur birləşmələri Şuşa rayonunun Qaybalı, Ağdam rayonunun Xıdırlı kəndlərinə hücum etmişlər. Dinc əhali arasında ölənlər və yaralananlar var.

**28 yanvar 1992-ci il. Şuşa.**

Şuşa şəhəri yaxınlığında erməni terrorçuları Ağdam-Şuşa marşrutu ilə uçan mülki vertolyotu vurub salmışlar. Uçuş heyətinin 3 üzvü və 41 sərnişin, əsasən, qadınlar və uşaqlar həlak olmuşlar.

**10 fevral 1992-ci il. Şuşa.**

«Qarabağ» terror təşkilatının rəhbərlik etdiyi erməni quldurları azərbaycanlılar yaşayan Malıbəyli və Quşçular kəndlərini işğal etmişlər. Dinc əhali arasında çoxlu ölənlər var.

**13 fevral 1992-ci il. Ağdam.**

Səhər saat 6-da müasir silahlarla silahlanmış erməni quldur birləşməsi azərbaycanlılar yaşayan Qaradağlı kəndinə soxulmuş və mülki əhalini qırıb-çatmışdır. Qanlı divanın

gedişində 90-dan artıq azərbaycanlı girov götürülmüşdür. Onların 41-i qadındır. Təxminən 200 kəndli öldürülmşdür. Sonra quldurlar əvvəlki mövqelərinə qayıtmışlar.

**17 fevral 1992-ci il.**

Erməni quldur birləşmələri Xocavənd rayonunun azərbaycanlılar yaşayan bir neçə kəndini işğal etmişlər. Xarici Kütləvi İnformasiya Vasitələrinin məlumatlarına görə, dinc əhaliyə qarşı cinayətlərdə erməni quldur və terror birləşmələri sırasında öz vətənlərində məhkum olunmuş və həbsxanadan qaçmış ərəb muzdluları da iştirak edirlər.

**18 fevral 1992-ci il. Ağdam.**

«Qarabağ» terror təşkilatından olan erməni saqqallılar azərbaycanlılar yaşayan Şelli kəndindən iki məktəblini - Natiq və Niyaməddin İbadovları girov götürmüşlər. Sonra isə ultimatum vermişlər: Şelli kəndinin sakinləri qısa müddətdə doğma yerlərini tərk etməlidirlər, əks təqdirdə uşaqlara divan tutulacaqdır.

**19 fevral 1992-ci il. Qubadlı.**

Erməni quldur birləşmələri Ermənistan ərazisindən Qubadlı rayonunun kəndlərini atəşə tutmuşlar. Dinc əhali arasmda ölənlər var.





**Fevral 1992-ci il.**

«Qarabağ» terror təşkilatının nəzarəti altında olan erməni quldur birləşmələri Xankəndinin həndəvərində azərbaycanlıların yaşadıqları məhəllələri, eləcə də Şuşa-Xocalı yolu boyunca və Şuşa şəhərinin ətrafında yerləşmiş bir sıra kəndləri işğal etmişlər.

**26 fevral 1992-ci il. Xocalı.**

Azərbaycanın Dağlıq Qarabağ regionunda Xocalı şəhərinin dinc sakinlərinin kütləvi qırğını 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermişdir. Yüzlərlə günahsız insan bir gecədə vəhşicəsinə öldürülmüşdür. Xocalı cinayətinin faciəli nəticəsi belədir: 613 adam, o cümlədən 106 qadm və 23 uşaq qətlə yetirilmiş, 487 nəfər əlil olmuş, 1257 nəfər erməni əsirliyinin müsibətlərindən keçmiş, 150 nəfər itkin düşmüşdür.

ASALA erməni terror təşkilatının fəal yaraqlılarından biri, bütün dünyada törədilən bir sıra qanlı terror aktlarının fəal iştirakçısı Vazgen Sislyan Xocalıda azərbaycanlı uşaqların qətlə yetirilmələrində əli olduğunu mətbuatdan gizlətmirdi.

**28 fevral 1992-ci il. Ağdam.**

Erməni quldur birləşmələri şəhəri raketlərlə atəşə tutmuşlar. Sakinlər arasında ölənlər var.

**5 mart 1992-ci il. Ağdam.**

Erməni quldur birləşmələri Ağdam rayonunun Sırxavənd kəndini atəşə tutmuşlar. 10 nəfər həlak olmuşdur.

**12 mart 1992-ci il. Ağdam.**

Erməni quldur birləşmələri Ağdam şəhərini növbəti dəfə raket atəşinə tutmuşlar. 30 adam həlak olmuş, 100 nəfər yaralanmışdır.

**17 mart 1992-ci il.**

Erməni terror qrupları «Daşnaksütyun» təşkilatının göstərişini yerinə yetirərək, yenidən Qaradağlı kəndinə soxulmuş və dinc əhaliyə divan tutmuşlar. Kənd tamamilə yandırılmışdır. 77 nəfər qətlə yetirilmişdir. Kənddə əsasən, yaşlı adamlar qalmışdır. İtkinlərin və erməni əsirliyinə düşənlərin dəqiq sayı məlum deyildir.

**18 mart 1992-ci il.**

Erməni quldur birləşmələri Tərtər şəhərini, Qazax və Zəngilan rayonlarının kəndlərini raket atəşinə tutmuşlar. Dinc əhali arasında ölənlər var.

**21 mart 1992-ci il. Qazax.**

Erməni quldur birləşmələri tərəfindən Aşağı Əskipara kəndinin artilleriya atəşinə tutulması nəticəsində 5 nəfər həlak olmuşdur, yaralananlar var.

**24 mart 1992-ci il. Füzuli.**

Erməni quldur birləşmələri Füzuli rayonunun Divanalılar kəndini raket atəşinə tutmuşlar. Dinc əhali arasında ölənlər var.





**25 mart 1992-ci il.**

Erməni quldur birləşmələri Tərtər, Goranboy, Zəngilan və Qubadlı rayonlarının kəndlərini atəşə tutmuşlar. Dinc əhali arasında çoxlu ölənlər var.

**31 mart 1992-ci il. Füzuli.**

Erməni quldur birləşmələri Füzuli rayonunun kəndlərini və Füzuli şəhərini artilleriya və raket atəşinə tutmuşlar. Dinc əhali arasında ölənlər var.

**2 aprel 1992-ci il. Kəlbəcər.**

Yalnız bir gecə ərzində Kəlbəcər rayonunun Başlıbel kəndində 28 kişi və qadın tikə-tikə doğranmış, 18 nəfər əsir düşmüşdür. Kəndin elə bir silahı olmayan özünümüdafiə dəstəsi müasir texnika ilə təchiz olunmuş erməni quldur birləşmələrinə qızğın müqavimət göstərmişdir. Kəndlilərin var-yoxları talan edilmiş, evlərə od vurulmuşdur.

**6 aprel 1992-ci il. Tovuz.**

Erməni quldur birləşmələri Tovuz rayonunun Əlibəyli kəndini artilleriya atəşinə tutmuşlar. Dinc əhali arasmda ölənlər və yaralananlar var.

**7-8 aprel 1992-ci il. Kəlbəcər.**

Azərbaycan Respublikasının Kəlbəcər rayonunun Ağdaban kəndi erməni terror birləşmələri tərəfindən yandırılmış-

dır. Kəndin 80-100 yaşlı 8 atsaqqalı, 2 azyaşlı uşaq, 7 qadın öldürülmüş, 2 nəfər itkin düşmüş, 5 nəfər girov götürülmüş, 12 nəfər ağır yaralanmışdır.

**Aprel 1992-ci il.**

Erməni milli hərəkatmın Liberal qanadımn nümayəndəsi Artur Mkrtçyan azərbaycanlılara qarşı müharibəni «insanlığa təhqir» və «qabağıalınmaz məhvetmə instinkti» adlandırdığı üçün «Daşnaksütyun» təşkilatından olan erməni terrorçusu tərəfindən qətlə yetirilmişdir. Mkrtçyan öz evində, özü də mühafizə olunan mənzildə arvad-uşağının gözü qarşısında avtomatla güllələnmimşdir. Erməni terrorizminin «... öz məqsədlərinə xəyanət edlən ermənilərə heç vaxt aman verməmək, onlardan intiqam almaq» tezisi növbəti dəfə «işə salınmışdır». Bir neçə ildən sonra Erməni Ümummilli Hərəkatmm İdarə Heyəti sədrinin müavini Andranik Ovakimyan «Daşnaksütyun»un beynəlxalq terrorizmlə əlaqədə olduğunu təsdiq edəcəkdir.





# QARABAĞA ERMƏNİ KÖÇÜ

Erməni terrorçularının və rus imperiyasımn işğal etdikləri Dağlıq Qarabağ istiqamətində köçürmə siyasəti bu günün planı deyil. **Bu siyasət 1994-cü ilin fevral ayında başlayıb.**

2000-ci il mayın 5-də isə Ermənistan Təhlükəsizlik Şurasında «Erməni xalqının milli təhlükəsizlik probleminə dair» sənədin müzakirəsi zamanı Qarabağa ermənilərin köçürülməsi başlıca mövzu idi. Müzakirə zamanı bu da qeyd olundu ki, MDB çərçivəsində «sıxılan və əzilən,tənha qalan»erməni millətinə yardım üçün xaricdəki icma başçılarına, kilsə rəhbərlərinə müraciət edilsin.

Romadan ilk erməni ailəsi, iş adamı, «keşiş Albertinonun atası» Yeramuş Sarkisyan oğlu ilə birgə Xankəndinə gəlir. 2001-ciilədək günədək Y.Sarkisyan Xankəndidə yaşayır. Onun ardınca isə 2001-ci ilin aprelində İtalyadan 26 erməni ailəsi Dağlıq Qarabağa yaşamaq üçün yola düşür.

Hələ **2000-ci il mayın 5-də** keçirilmiş iclasdan sonra prezident Robert Köçəryamn imzası ilə Fransada, Amerikada *(əsasən Kaliforniyada)*, İranda, Rusiya Federasiyasında, Argentinada, Livanda, Liviyada, Suriyada... yaşayan erməni icmasının başçılarına yardım diləyən məktublar göndərilir. Həmin məktublardan biri 2000-ci il iyunun 9-da Parisdə nəşr olunan «La Vie»-(«Həyat»)jurnalında çap olunur (nömrə28. səh.2). Ümumiyyətlə, 1994-2001-ci illlər ərzində işğal olunmuş Azərbaycan torpaqlarına xaricdən köçürulmüş

və yaxud yaşamaq üçün gəlmiş ermənilərin siyahısı aşağıdakı kimidir:

**1.FRANSA:**

**-Paris:** 3 ailə 1995-ci ildə, 21 ailə 1992-ci ildə, 19 ailə 1999-cu ildə, 33 ailə 2000-ci ildə;

**-Marsel:**15 ailə 2000-ci ildə;

**-Lion:**8 ailə 2000-ci ildə;

**2. LİVAN:**

**-Beyrut:** 42 ailə Ermənistana gəlib. Ondan 13 ailə Xankəndinə köçüb 1999-cu ildə.

**3. ARGENTİNA:**

**-Buenos-Ayres:** 5 ailə 2000-ci ildə;

**4.AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI:**

**-Nyu-Cersi:** 7 ailə 1998-ci ildə;

**-Vaşinqton:** 4 ailə 1999-cu ildə;

**-Kaliforniya:** 11 ailə 1999-cu ildə, 4 ailə 2000-ci ildə;

**6. SURİYA ƏRƏB RSPUBLİKASI:**

**-Dəməşq**: 9 ailə 1996-cı ildə, 2 ailə 1997-ci ildə Yerevana qayıdıb.

**7. LİVİYA:**

**-Tripoli:** 16 ailə 1995-ci ildə;

**8. SUDAN:**

**-Xartum:** 3 ailə 1999-cu ildə...

Bu adamların bir qismi Yerevan rəsmiləri tərəfindən ikili vətəndaşlıq sənədləri də alıb.





Ermənilər tərəfindən işğal olunmuş Dağlıq Qarabağ ərazisinə köçürülən bu ailələrin bir qisminin adları MKİ-nin (ABŞ), «BND»nin (Almaniya), FTX-nin (RF) sənədlərində çəkilir. Onlar terroçu qrupların tərkibində 1988-1994-cü illərdə Qarabağda baş verən terror aktlarında iştirak etmiş şəxslərdir.

**Dağlıq Qarabağa 2006-cı ildə də yeni köçürmə proqramları icra edildi.** İranda başlanan siyasi hərəkatdan (may-iyul) istifadə edən İran ermənilərinin bir qismi Xudafərindən Dağlıq Qarabağ ərazilərinə köçürüldü. Bu könüllü aksiya idi.

**2006-cı ilin iyul-avqust aylarında** baş verən Livan-İsrail müharibəsində bu məsələ yeni mərhələyə keçirildi.

Livandan 17 gün ərzində 83 ailə Dağlıq Qarabağa yaşamaq üçün gəldi.

Ermənilər Qarabağa köçür, artır... Biz isə xristian beynəlxalq təşkilatlarından imdad gözləyirik.

# İCRA OLUNMAYAN BMT QƏTNAMƏLƏRİ

## BMT TƏHLÜKƏSİZLİK ŞURASININ 822 SAYLI QƏTNAMƏSİ

Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsi barədə Təhlükəsizlik Şurası sədrinin 1993-cü il yanvarın 29-da (S25539) verdiyi bəyanatlara istinad edərək, Baş Katibin 1993-cü il aprelin 14-dəki məruzəsini (S26600) nəzərə alaraq,

Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə əlaqədar ciddi narahatlıq izhar edərək, silahlı hərbi əməliyyatların güclənməsi, qismən də Azərbaycan Respublikasının Kəlbəcər rayonuna yerli erməni qüvvələrinin son təcavüzünü narahatlıqla qeyd edərək,

Eləcədə vəziyyətin bölgədəki əmin-amanlığı və təhlükəsizliyi qorxu altına alındığından narahat olaraq,

Çoxlu sayda mülki şəxsin yerləşdirilməsi və bölgədə, o cümlədən Kəlbəcər rayonunda yaranmış fövqəladə durumla bağlı ciddi naratlıq ifadə edərək,

Bölgədəki bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörməti bir daha təsdiq edərək, eləcə də beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə etmək üçün qüvvə tədbiq etməyin yolverilməzliyini bir daha təsdiqləyərək, ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini dəsdəklədiyini bildirərək, silahlı hərbi əməliyyatların güclənməsinin bu proses üçün dağıdıcı nəticələr verə biləcəyindən dərin narahatlıq keçirərək,





**1.** Atəşin biryolluq dayandırılması məqsədilə hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını, eləcə də bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın son vaxtlar işğal edilmiş başqa rayonlarmdan dərhal çıxarılmasını tələb edir;

**2.** Bu işdə maraqlı olan tərəfləri münaqişənin ATƏM-in Minsk Qrupunun sülh prosesi çərçivəsində həll etmək məqsədilə dərhal danışıqları bərpa etməyə və problemin dinc yolla həllini çətinləşdirə biləcək hər cür fəaliyyətdən imtina etməyə israrla dəvət edir;

**3.** Bölgədə, o cümlədən münaqişənin əhatə etdiyi bütün rayonlarda mülki əhalinin iztirablarını yüngünləşdirmək üçün humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etməyə çağırır və bir daha təsdiq edir ki, bütün tərəflər beynəlxalq humanitar hüquqların prinsiplərinə və normalarına əməl etməyə borcludurlar;

**4.** Baş Katibdən xahiş edir ki, ATƏM-in indiki sədri ilə, habelə ATƏM-in Minsk Qrupunun sədri ilə məsləhətləşmə keçirib bölgədəki, o cümlədən Azərbaycanın Kəlbəcər rayonundakı vəziyyətə qiymət versin və Şuraya yeni məruzə təqdim etsin

**5.** Qərara alır ki, Bu məsələ ilə fəal məşğul olunmasını davam etdirsin.

**30 aprel 1993-cü il**

# BMT TƏHLÜKƏSİZLİK ŞURASININ 853 SAYLI QƏTNAMƏSİ

Təhlükəsizlik Şurası 1993-cü il 30 aprel tarixli öz 833 (1993) saylı qətnaməsini təsdiq edərək, Avropada Təhlükəsizlik və əməkdaşlıq məsələlərinə dair Müşavirənin (ATƏM) Minsk Qrupunun Sədri tərəfindən 1993-cü il iyulun 27-də (S26184) baxılmış məruzəni nəzərdən keçirərək,

Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi və onların arasında gərginliklə əlaqədar olaraq ciddi narahathq keçirdiyini ifadə edərək,

Əlaqədar tərəflərin onun 822 (1993) saylı qətnaməsinin həyata keçirilməsi sahəsində təxirəsalınmaz tədbirlər cədvəlini qəbul etməsini alqışlayaraq,

Hərbi əməliyyatların güclənməsini, o cümlədən, Azərbaycan Respublikasında Ağdam rayonunun işğal olunmasını təşvişlə qeyd edərək,

Bu vəziyyətin bölgədə sülh və təhlükəsizlik üçün qorxu törətməsindən narahat olaraq,

Azərbaycan Respublikasında çox böyük miqdarda mülki şəxslərin didərgin düşməsi və bölgədəki fövqəladə humanitar vəziyyətlə alaqədar yenə də ciddi narahatlıq keçirdiyini ifadə edərək,

1. Azərbaycan Respublikasınm Ağdam rayonunun və bu yaxınlarda zəbt olunmuş bütün digər rayonların işğalını pisləyir ;
2. Bölgədə gələcəkdə bütün düşmənçilik hərəkətlərini, o cümlədən mülki şəxslərə hücumları və yaşayış rayonlarının





bombalanmasını və top atəşlərinə tutulmasını pisləyir;

3. Bütün hərbi əməliyyatların təxirə salınmadan dayandırılmasını və münaqişədə iştirak edən işğal quvvələrinin Azərbaycan Respublikasının Ağdam rayonundan və bu yaxınlarda işğal olunmuş bütün digər rayonlardan dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir;

4. Əlaqədar tərəfləri atəşin dayandırılması haqqında razılığa gəlməyə və bu razılaşmalara əməl etməyə çağırır;

5. Bölgədə iqtisadi, nəqliyyat energetika əlaqələrini bərpa etməyə dair özünün əvvəlki çağırışlarını yuxarıdakı 3 və 4-cü bəndlər baxımından bir daha təsdiq edir;

6. Münaqişənin dincliklə aradan qaldırılmasına nail olmaq sahəsində ATƏM-in Minsk Qrupunun davam etdirdiyi səyləri, o cümlədən, 822 (1993) saylı qətnamənin həyata keçirilməsi sahəsində səyləri bəyənir və hərbi əməliyyatların gücləndirilməsinin bu səylər üçün fəlakətli nəticələr verə biləcəyi ilə əlaqədar ciddi narahatlıq keçirdiyini ifadə edir;

7. ATƏM-in müşahidə üzrə nümayəndə heyətini, həmçinin, onun yerləşdirilməsi cədvəlinin hazırlanması sahəsində tədbirləri, habelə bölgədə ATƏM çərçivəsində baxılmasını alqışlayır;
8. Əlaqədar tərəfləri münaqişənin dincliklə aradan qaldırılmasına maneçilik törədən hər hansı hərəkətlərdən çəkinməyə və vəziyyətin qəti şəkildə nizama salınmasına nail olmaq məqsədilə damşıqları ATƏM-in Minsk Qrupu çərçivəsin-

də, habelə əlaqədar tərəflər arasında birbaşa görüşlər vasitəsilə davam etdirməyə təkidlə çağırır;

**9.** Ermənistan Respublikası hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi ermənilərinin 822 (1993) saylı qətnamənin müddəalarına əməl etməsi və ATƏM-in Minsk Qrupunun təkliflərini həmin tərəfin qəbul etməsi məqsədilə öz təsirini göstərməyi davam etdirməyə təkidlə çağırır;

**10.** Dövlətləri münaqişənin güclənməsinə və ya ərazinin işğalını davam etdirməsinə gətirib çıxara biləcək hər hansı silah və ləvazimat göndərməkdən çəkinməyə təkidlə çağırır;

**11.** Mülki əhalinin artmış iztirablarını yüngülləşdirmək üçün bölgədə, xüsusən münaqişənin əhatə etdiyi bütün rayonlarda humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etməyə yenidən çağırır və bir daha təsdiq edir ki, bütün tərəflər beynəlxalq humanitar hüququn prinsiplərinə və normalarına əməl etməyə borcludurlar;

**12.** Baş Katibdən və müvafiq beynəlxalq təşkilatlardan xahiş edir ki, zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərsin və didərgin düşmüş şəxslərə öz evlərinə qayıtmağa kömək etsinlər;

**13.** Baş Katibdən xahiş edir ki, ATƏM-in indiki sədri ilə məsləhətləşərək, yaranmış vəziyyət haqqında Şuraya məruzələr təqdim olunmasını davam etdirsin;

**14.** Bu məsələ ilə bağlı fəal məşğul olmağı davam etdirməyi qərara alır.

**29 iyul 1993-cü il**





## BMT TƏHLÜKƏSİZLİK ŞURASININ 874 SAYLI QƏTNAMƏSİ

Təhlükəsizlik Şurası özünün 1993-cü il 30 aprel tarixli 822 saylı və 1993-cü il 29 iyul tarixli 853 saylı qətnamələrini təsdiq edərək və Şuranın sədrinin Şura adından 1993-cü il avqustun 18-də oxunmuş bəyanata (S26326) istinad edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələlərinə dair Müşavirənin (ATƏM) Dağlıq Qarabağa dair Minsk Konfransı sədrinin Təhlükəsizlik Şurası adına göndərilmiş məktubunu (S26522) nəzərdən keçirərək,

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə dair və onun ətrafında münaqişənin davam etməsinin Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərdəki gərginliyin bölgədə sülh təhlükəsizlik üçün qorxu yarada biləcəyindən ciddi narahat olduğunu bildirərək,

1993-cü il oktyabrın 8-də Moskvada yüksək səviyyədə keçirilmiş görüşləri qeyd edərək və bu görüşlərin vəziyyətin yaxşılaşmasına və münaqişənin sülh yolu ilə aradan qaldırılmasına kömək edəcəyinə ümid bəsləyərək,

Azərbaycan Respublikasının və regiondakı bütün başqa dövlətlərin suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

Habelə, beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə etmək üçün qüvvə tətbiq olunmasının yolverilməzliyini bir daha təsdiq edərək,

Münaqişənin adamlara gətirdiyi münasibətlərdən ciddi olduğunu bir daha bildirərək və o cümlədən Azərbaycan Respublikasında böyük sayda mülki şəxslərin köçkün vəziyyətə düşməsi ilə əlaqədar özünün ciddi narahatlığını ifadə edərək;

**1.** Əlaqədar tərəfləri ATƏM-in Minsk Qrupuna dəsdək olaraq Rusiya Federasiyası hökumətinin köməyi ilə birbaşa əlaqələr nəticəsində müəyyən olunmuş atəşkəsi səmərəli və daimi etməyə çağırır;

**2.** ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini, habelə ATƏM-in Minsk Qrupunun daimi səylərini tamamilə dəsdəklədiyini bir daha bəyan edir;

**3.** 1993-cü il sentyabrın 28-də ATƏM-in Minsk Qrupunun müşavirəsində hazırlanmış və qrupun sədri tərəfindən əlaqədar tərəflərə təqdim olunmuş və həmin qrupun digər doqquz üzvünün hərtərəfli dəstəkləndiyi «Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsinə dair təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli»ni alqışlayır və tərəflərin buna diqqət yetirməsini tövsiyə edir və o tərəfləri həmin cədvəli qəbul etməyə çağırır;

**4.** Əmin olduğunu bildirir ki, münaqişədən doğan və «yeniləşdirilmiş cədvəl» də bilavasitə nəzərdən keçirilməyən bütün başqa həlledilməmiş məsələləri ATƏM-in Minsk prosesi baxımından tezliklə sülh danışıqları çərçivəsində həll etmək lazımdır;





**5.** Qüvvələrin bu yaxınlarda işğal edilmiş ərazilərdən çıxarılması, kommunikasiya və nəqliyyat üçün olan bütün maneələrin aradan qaldırılması və daxil olmaqla, ATƏM-in Minsk Qrupunun «yeniləşdirilmiş cədvəl» də nəzərdə tutulmuş qarşılıqlı və təxirəsalınmaz tədbirləri dərhal həyata keçirməyə çağırır;

**6.** Habelə, cədvəldə nəzərdə tutulduğu kimi, münaqişənin damşıqlar yolu ilə aradan qaldırılmasına nail olmaq məqsədilə, ATƏM Nazirlər Şurasının 1992-ci il 24 mart tarixli mandatına uyğun olaraq, ATƏM-in Minsk Konfransını tezliklə keçirməyə çağırır;

**7.** Baş Katibdən ATƏM-in Minsk Konfransında iştirak etmək üçün nümayəndə göndərmək təklifinə müsbət yanaşmağı və konfransın açılışından sonra danışıqların mətləbdən kənara çıxmaması üçün mümkün olan hər cür kömək göstərməyi xahiş edir;

**8.** ATƏM-in müşahidə üçün yaratdığı missiyanı dəstəkləyir;

**9.** Bütün tərəfləri beynəlxalq humanitar hüququ hər hansı şəkildə pozmaqdan çəkinməyə çağırır və münaqişənin toxunduğu bütün rayonlarda humanitar yardım göstərməsinə dair beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etmək barədə 822 (1993) və 853 (1993) saylı qətnamələrdəki çağırışını bir daha təkrar edir;

**10.** Regiondakı bütün dövlətləri münaqişənin genişlənməsinə, bölgədə sülh və təhlükəsizliyin pozulmasına səbəb ola biləcək hər hansı düşmənçilik hərəkətlərindən, işə hər hansı şəkildə qarışmaqdan və ya hərbi müdaxilədən çəkinməyə təkidlə çağırır;

**11.** Baş Katibdən və müvafiq beynəlxalq idarələrdən xahiş edir ki, zərər çəkmiş mülki əhaliyə fövqəladə humanitar yardım göstərsinlər, qaçqınlara və köçkün şəxslərə öz evlərinə ləyaqətlə və təhlükəsizlik şəraitində qayıtmağa kömək etsinlər;

**12.** Habelə, Baş Katibdən, ATƏM-in indiki sədrindən və ATƏM-in Minsk Konfransının sədrindən xahiş edir ki, Minsk prosesinin gedişi haqqında və yerlərdə vəziyyətin bütün cəhətlərinə dair, habelə bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcəkdəki əməkdaşlıq haqqında Şuraya məruzələr təqdim olunmasını davam etdirsinlər;

**13.** Bu məsələ ilə fəal məşğul olmağı davam etdirməyi qərara alır.

**14 oktyabr 1993-cü il**





# BMT TƏHLÜKƏSİZLİK ŞURASININ 884 SAYLI QƏTNAMƏSİ

Təhlükəsizlik Şurası özünün 30 aprel 1993-cü il tarixli 822 saylı (1993), 29 iyul 1993-cü il tarixli 853 saylı (1993) və 14 oktyabr 1993-cü il 874 saylı (1993) qətnamələrini təsdiq edərək,

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etməsinin və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin gərgin olaraq qalmasının regionda sülhü və təhlükəsizliyi təhdid edəcəyinə görə ciddi narahatlıq ifadə edərək,

Atəşkəsin pozulması nəticəsində hərbi əməliyyatların eskalasiyasının və bu pozuntulara cavab olaraq həddindən artıq güc tətbiq edilməsini, o cümlədən Azərbaycan Respublikasının Zəngilan rayonunun və Horadiz şəhərinin işğalını təşvişlə qeyd edərək;

**Azərbaycan Respublikası və regiondakı bütün digər dövlətlərin suverenliyini və ərazi bütövlüyünü təsdiq edərək,**

Həmçinin, beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək üçün güc tətbiq edilməsinin yolverilməzliyini bir daha təsdiq edərək, böyük sayda mülki şəxsin ən sonuncu yerdəyişmə hadisəsinə və Zəngilan rayonunda, Horadiz şəhərində və Azərbaycanın cənub sərhəddində fövqəladə humanitar şəraitin yaranmasına görə ciddi narahatlıq ifadə edərək;

**1.** Tərəflərin qəbul etdiyi atəşkəsin bu yaxında hərbi əməliyyatların yenidən başlanmasına səbəb olmuş pozulmasını, o

cümlədən, Zəngilan rayonunun və Horadiz şəhərinin işğalını, dinc sakinlərə hücumları və Azərbaycan Respublikası ərazilərinin atəşə tutulmasını məhkum edərək,

**2.** Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda ermənilər tərəfindən 822 (1993), 853 (1993) qətnamələrə riayət edilməsinə nail olmaq və hərbi kompaniyaya cəlb olunmuş qüvvələrin onu davam etdirmək üçün vəsaitlə təchiz olunmasını təmin etməmək məqsədilə Ermənistan dövlətini öz tərəfindən istifadə etməyə çağırır;

**3.** ATƏM-in Minsk Qrupunun 9 üzvünün 4 noyabr 1993-cü il tarixli (S26718) bəyanatını məmnunluqla qeyd edir, orada əks olunmuş atəşin dayandırılması barədə birtərəfli bəyannamələrə aid təklifləri yüksək qiymətləndirir;

**4.** ATƏM-in Minsk Qrupunun 2-8 noyabr 1993-cü il tarixli Vyana müşavirəsində edilmiş müraciətlər də nəzərə alınmaqla «Təhlükəsizlik Şurasının ;»(1993), 853 (1993) (S26522,əlavə) saylı qətnamələrinin yerinə yetirilməsi üzrə «Təxirəsalınmaz tədbirlər cədvəl»inə əsasən hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal və ləngidilmədən dayandırılmasını, işğalçı qüvvələrin Zəngilan rayonundan və Horadiz şəhərindən birtərəfli surətdə çıxarılmasını və Azərbaycan Respublikasının və bu yaxınlarda işğal olunmuş rayonlarından qəsbkar quvvələrinin çıxarılmasını maraqlı tərəflərdən tələbdir ;

**5.** Ən təkidli surətdə maraqlı tərəfləri ATƏM-in Minsk Qrupuna dəstək olaraq Rusiya Federasiyası hökumətinin yardımçılığı ilə qurulmuş birbaşa əlaqələrin nəticəsində əldə





olunmuş atəşkəsin təcili bərpa olunmasına, onun səmərəli və daimi olunmasına; münaqişənin danışıqlar yolu ilə ATƏM-in Minsk Qrupunun 1993-cü il 2-8 noyabrında Vyanada keçirilmiş müşavirəsində Yeniləşdirilmiş cədvəlinə edilən düzəlişlər kontekstində nizamlanmasının imkanlarını axtarmağı davam etdirməyə çağırır;

**6.** Yenidən təkidlə regionun bütün dövlətlərini münaqişənin böyüməsinə, regionda sülhü və təhlükəsizliyi poza biləcək har hansı bir müdaxilədən çəkinməyə çağırır;

**7.** Baş Katibdən və müvafiq beynəlxalq təsisatlardan zərər çəkmiş mülki əhaliyə, o cümlədən, Zəngilan rayonundan və Horadiz şəhərinin və Azərbaycanın cənub sərhədlərinin əhalisinə təcili humanitar yardım göstərilməsini; qaçqınlara və məcburi köçkünlərə öz evlərinə ləyaqətlə və təhlükəyə məruz qalmadan qayıtmasına kömək etməyi xahiş edir;

**8.** Yenidən Baş Katibə, ATƏM-in fəaliyətdə olan sədrinə ATƏM-in Minsk Konfransının sədrinə müraciət edərək gələcəkdə Minsk prosesinin gedişatı barədə və yerdə vəziyyətin bütün aspekləri, xüsusilə Şuranın müvafiq qətnamələrinin həyata keçirilməsi, ATƏM və VMT arasında bu münasibətlərdə indiki və gələcək əməkdaşlıq barədə məlumat verməlerini xahiş edir;

**9.** Bu məqsədlə fəal məşğul olmağı davam etdirməyi qərara alır.

# KİTABIN MÜƏLLİFLƏRİ



**Şöhrət Əlvənd oğlu SƏLİMBƏYLİ**
Azərbaycan Dövlət Pedaqoji Universitetini və Moskvada SSRİ Pedaqoji Elmlər Akademiyasının aspiranturasını bitirib. 7 kitabın müəllifidir.



**Nizami Zaman oğlu ZAMANOV**
Azərbaycan Dövlət Texniki Universitetini bitirib. 1992-ci ildən mətbuatda publisistik yazılarla çıxış edir.



**Rauf Yunis oğlu ƏLİYEV**
Azərbaycan Dövlət Tibb Universitetini bitirib. 1989-cu ildən mətbuatda elmi-publisistik məqalələri dərc olunur.

## MÜƏLLİFLƏRDƏN

Əziz oxucu! «Erməni terroru» kitabı **5** cilddən ibarətdir. Bu kitab on ildən çoxdur ki, çapa hazırlanır. Hər üç müəllifin doğulub boya-başa çatdığı torpaqlar indi erməni işğalı altındadır. Kitabın müəllifləri həm də Qarabağda və sərhədlərimizdə müharibə gedən zamanlar orada olmuş, ermənilərin törətdiyi dəhşətli qırğınları öz gözləri ilə görmüşlər.



# ƏDƏBİYYAT

1. **«Əkinçi» qəzeti** №4, 17 fevral 1877.
2. **İ.L.Veliçko.** «Qafqaz». Bakı. 1995
3. **Н.И.Шавров.** «Новая угроза русскому делу в Закавказье». 1911.
4. **Кариби.** Красная книга. 1920.
5. **И.Л.Величко.** Русское дело и междуплеменные вопросы. 1904.
6. **М.А.Гаспатян, С.Ф.Орешкова, Ю.А.Петросян.** Очерки истории Турции. 1983.
7. **Эмиграция:** новая волна. «Неделя» qəzeti №22, 1989.
8. **А.Френкель.** Справка... История Азербайджана по документам и публикациям. Z.Bünyadovun redaktəsi ilə. Bakı. 1990.
9. **M.S.Ordubadi.** «Qanlı illər». 1905-1906-cı illərdə baş verən erməni-müsəlman davasının tarixi. Bakı. 1991.
10. **Ю.Помпеев.** «Кровавый омут Карабаха». 1992.
11. **С.Ю.Витте.** Избранные воспоминания. 1991.
12. **A.Mansurov.** «Tarixin ağ ləkələri və yenidənqurma». Bakı. 1990.
13. **С.Глинка.** Описание переселения армян Азербайджанских в пределы России. 1831.
14. SSRİ Mərkəzi Dövlət Arxivi, f.102, op.253, ed.xr.285.
15. **Лурье.** Россия в массовом сознании армян. 1994.
16. **Э.Файгл.** Правда о терроре. Армянский терроризм - истоки и причины. 2000.
17. **И.Ревякин.** Журн. «Восточный експресс» №1(2), 1994.
18. **А.Лалаян.** Контреволюционная роль партии «Дашнаксутюн». Исторические записки.
19. **Kirzioğlu Fahrettin.** «Kars ili və çevresində ermeni mezalimi». Ankara. 1970.
20. **M.Urud.** «Urud». Bakı. 2000.
21. Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti. 1918-1920. Bakı. 1990.
22. **Fətəli Xan Xoyski.** Həyat və yaradıcılığı. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Arxiv İdarəsi. 1998.
23. **V.Quliyev.** «Azərbaycanda erməni zülmü». 1999.
24. **М.Шатирян.** Сказание о пальме. 1974.
25. **İ.Vəliyev.** Deportasiya. «Dirçəliş-XXI əsr» jurnalı №2, 1998.

26. 1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı. Sənədlər və materiallar. Tərtibçi V.Şirinoğlu. Bakı. 2001.
27. **И.Алиев.** Шуша. Журн. «Возрождение-XXI век» №31, 2000.
28. **Л.Мамедова.** Армянская бесчинства: «Бакинский рабочий» qəzeti 30 mart 2002.
29. Доклад члена Чрезвычайной Следственной Комиссии А.Ф.Новацкого. ВСА. 930 01.4-61-2 ADA. 970-1-41.
30. Azərbaycan Demokratik Respublikası. Xarici siyasət. Bakı. 1998.
31. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar dövlət komissiyasının materialları. «Dirçəliş-XXI əsr» jurnalı №37, Bakı. 2001.
32. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar dövlət komissiyasının materialları. «Dirçəliş-XXI əsr» jurnalı №50, Bakı. 2002.
33. **Т.Чаладзе.** Сострадание. 1995.
34. Статистические данные об оккупации Кяльбаджарского района: 2001.
35. **С.Манукян.** Республика Армения: органы власти, хроника событий, политические организации, биографии. Информационно-исследовательский центр «Панорама». 2000.
36. **Ermeni Vahşeti.** Ankara. 2001.
37. **Z.Bünyadov.** Seçilmiş əsərləri. II cild. Bakı. 1999.
38. İrəvan əyalətinin icmal dəftəri. Bakı. 1996.
39. **Mir Möhsün Nəvvab.** 1905-1906-cı illərdə Erməni-müsəlman davası. Bakı. 1994.
40. **Ziyəddin Sultanov.** «Burdan bir atlı keçdi». Bakı. 1994.
41. **Ziyəddin Sultanov.** «Ağdərədən gələn var». Bakı. 1993.
42. **Qarabağnamə.** I cild. «Yazıçı». Bakı. 1989.
43. **Qarabağnamə.** II cild. «Yazıçı». Bakı. 1991.
44. **Şöhrət Səlimbəyli.** «Qan çilənən torpaq». Bakı. 1996.
45. **M.Urud.** «Zəngəzur». Bakı. 2005.
46. **Səmyuel A.Uimz.** «Ermənistan terrorçu xristian ölkənin gizlinləri». Bakı. 2004.
47. История-это причина армянского терроризма: Список Л.Микучадзе. «Эхо» qəzeti 23 oktyabr 2002.
48. **Y.Qazıyev.** «Ermənilərin törətdikləri soyqırımların bəzi məqamları». «Xalq qəzeti» 31 mart 2002.
49. **A.S.Qriboedov.** Əsərləri. II cild. Bakı. 1971.
50. **Erməni Cinayətləri.** Bakı. 2003.



# KİTABIN SƏHİFƏLƏRİNDƏ

Avropa dövlətlərinin yaratdığı erməni məsələsi ....3
İşğal olunmuş Azərbaycan ərazilərində erməni qoşun kontingenti ....11
Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilmiş erməni silahlı qüvvələri ....12
Erməni terrorunun qurbanları ....13
Qarabağda ilk dini-etnik müharibələr ....15
XX əsrin əvvələrində Azərbaycana qarşı olan erməni terrorları ....25
Qarabağ hadisələrinin başlaması ....45
Qarabağ ermənilərinin Qorbaçovla ilk görüşü ....94
Rus imperiyasının Azərbaycana qarşı məhvetmə instinkti ....106
Raketlə vurulan «İL-76» təyyarəsi ....120
Ermənilərin terrorçu təmayüllü siyasi partiyaları ....137
Xankəndi faciəsi ....143
XX əsrin əvvəllərində azəri türklərinə qarşı olan erməni terrorları ....148
Milli faciənin proloqu ....165
«Daşnaksütyun»un etnik təmizləmə planları ....185
Ermənilərin Qarabağda ilk məğlubiyyətləri ....188
Əlisaab Orucov: Qarabağ məsələsinin ədalətli həllində tərəfdarımız yoxdur ....211
Azərbaycanın mənayefi imperiya ordusuna etibar edilmişdi ....297
7-ci ordunun Ermənistana verilməsi ....308
Dağlıq Qarabağda hakimiyyət ermənilərin əlində idi ....314

Deportasiya... Deportasiya ........................................................319
Rusiya ordusunun Qarabağda hərbi əməliyyatları ..........................323
Xocalı. Bizim bilmədiyimiz həqiqətlər ........................................337
Ayaz Mütəllibovu uçuruma aparan faciə .......................................351
XX əsr erməni terrorunun yeni dalğası .........................................361
Qarabağa erməni köçü ................................................................381
İcra olunmayan BMT qətnamələri ................................................384
BMT-nin 822 saylı qətnaməsi ......................................................384
BMT-nin 853 saylı qətnaməsi ......................................................386
BMT-nin 874 saylı qətnaməsi ......................................................389
BMT-nin 884 saylı qətnaməsi ......................................................393

---

Texniki redaktor: **Sevinc MİRCƏLALQIZI**
Rəssam: **Kirman ABDİN**
Bədii tərtibat: **Sənan GÜLALIYEV**

**ŞÖHRƏT ƏLVƏND OĞLU SƏLİMBƏYLİ, NİZAMİ ZAMAN OĞLU ZAMANOV, RAUF YUNİS OĞLU ƏLİYEV.**

**«ERMƏNİ TERRORU»**

*(Azərbaycan dilində)*

**«Avropa» nəşriyyatı. Bakı-2008**

**Formatı:** 60x90 1/16, **Tirajı:** 850 ədəd, **Həcmi:** 25 çap vərəqi.

«Zərdabi LTD» MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi
☎ İş (012) 514 73 73

«EUROPA» publishing house
**Tel:** 434-30-09

**Hazır diopozitivlərdə ofset üsulu ilə çap olunmuşdur.**

# ERMƏNİSTAN ƏRAZİSİNDƏ HƏRBİ SEPERATÇI VƏ TERRORÇU QRUPLAŞMALAR

